NƏZƏR HEYDƏROV

# ZƏNGƏZUR DAĞLARINDA

- 18526 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

## SÖZ ÖNÜ

"Mən sovet hakimiyyətindən başqa, heç bir hakimiyyətdə bir sətirlə belə mövcud ola bilmərəm. Birdən tarix geriyə çevrilsə, məndən bir sətir belə qalmaz və məni tamamilə yandırarlar". Vladimir Mayakovskinin peyğəmbər kimi dediyi bu sətirlər bu və ya digər dərəcədə müxtəlif peşələrin ən geniş dairəsinin, həm də yaradıcı insanların taleyi ilə səsləşir. Zamanın, eləcə də tarixin özü amansızdır: quruluşların növbələşməsi, sosial-ictimai kataklizmlər heyrətamiz dərəcədə asanlıqla məhkumluğa düçar edir. Bunun nəticəsində yaxın müddətə qədər mühüm stolüstü nəşrlər tədricən kitab rəflərindən yox olmağa başlayır.

Belə yaradıcılıq irsinin taleyi ictimai şüurun kəskin dəyişməsinə baxmayaraq, sonrakı nəsillər üçün ədəbi əsərlərdə keçən dövrlərin və onların qəhrəmanlarının xüsusiyyətlərini qoruyub saxlamaq kimi asan olmayan bir işi öhdəsinə götürmələrdən asılıdır.

Burada qanunauyğun bir sual meydana çıxır: belə kitabların yenidən nəşri və onların öz oxucusunu tapacağına zəmanət vermək labüddürmü? Bu suala birmənalı cavab vermək qeyri-mümkündür. Bu, zövq şəxsi intellektual birincilik, bədii meyillər məsələsidir. Eyni zamanda oxusunun "günlərin" maraqlı məsələlərinə həsr olunan bu və ya digər cildi açarkən edəcəyi nəşrlərdən asılıdır.

Hal-hazırda inqilabi yüksəlişdə hansısa bir gənc sovet dövründə yaşayıb-yaratmış görkəmli sənətkarı kommunist olduğu və sovet imperiyasının rifahı naminə işlədiyinə görə tarixin səhifəsindən silmək istəyir. Bu ağılsızlıqdır! Öz fəaliyyəti və əməli ilə belə şəxsiyyətlər gələcək müstəqil Azərbaycanın bünövrəsini qoymuşlar. Onlar xalqa ayağa qalxması və onun millət kimi qorunub saxlanması üçün mənəvi və əxlaqi dayaq olmuşlar. Tanınmış Azərbaycan jurnalisti Elmira xanım Axundovanın görkəmli yazıçı Mirzə İbrahimovun ünvanına söylədiyi bu rəy bir çox parlaq, istedadlı və təmiz fikirli insanlara şamil oluna bilər. Bu insanlardan biri də Azərbaycanın görkəmli



ictimai-siyasi xadimi və ilk dəfə 1968-ci ildə Azərbaycan dövlət nəşriyyatı tərəfindən nəşr olunan "Zəngəzur dağlarında" povestinin müəllifi Nəzər Heydər oğlu Heydərovdur. Burada bəzi detallara nəzər diqqətimizi yetirməliyik. Nəzər Heydərov (29 mart 1896 – 30 dekabr 1968) peşəkar yazıçı deyildir. Bu nadir şəxsiyyətin meydana çıxması zəmanəsinin sadə olmayan tarixi ilə qırılmaz surətdə bağlıdır. Bu dövrdə köhnə dayaqlar ehtiyat etmədən qırılır, onların parçaları üzərində yeni, adətlərdə olmayan, mübahisəli bir həyat yaradılırdı.

Nəzər Heydər oğlu Heydərov kəndli ailəsindən idi. O, Yelizavetpol quberniyasının Gürcülü kəndində doğulmuşdu. Sonralar özünün "Zəngəzur dağlarında" kitabında əsl Azərbaycan kəndinin gürcü adı haqqında belə bir açıqlama verirdi: "Gürcülü Azərabaycan sözü "gürcü"dən yaransa da, bu kənddə heç bir gürcü yaşamır... kənd sakinlərinə hər nəslin soy-kökü yaxşı məlumdur... Ola bilsin ki, qədim zamanlarda burada hansısa mülkədarın torpaqlarında gürcülər yaşayıb, işləmişlər. Onlar sonralar buranı tərk etmiş və kəndə öz adlarını vermişlər" (s. 7).

1868-ci ildə Yelizavetpol quberniyasının yaradılması ilə yeni Zəngəzur qəzası oraya aid edildi. Qəzanın inzibati mərkəzi Gorus şəhəri idi. O, dəniz səviyyəsindən 1300 metr yüksəklikdə geniş dağ hövzəsində yerləşirdi (s. 9). "Zəngəzur dağlarında" kitabından misal gətirilən fraqmentin davamında müəllif coğrafi vəziyyət, hava şəraitinin xüsusiyyətləri, həmin dövrdə Gorusda yaşayan əhalinin say tərkibi və fəaliyyəti haqqında məlumat verir. Bütün nəqletmə boyu mətnə informasiyaların əlavə olunması müəllifin materialın elmi metodla ifadə etmək yoluna müraciət etməsini sübut edir.

"Uşaqlığımın beş ili Gorusda 1908-ci ildən 1912-ci ilə qədər rus real məktəbində keçmişdir. Bütövlükdə qəzada 199 şagirddən ibarət dörd məktəb var idi" deyə müəllif nəql edir. Məktəbi bitiridikdən sonra, dövrün tələblərini obyektiv şəkildə dərk edən Nəzər öz keçmiş sinif yoldaşları kimi qohumları və yaxınlarına rus dilini öyrətməyə başlayır. Ölkədə peşəkar kadrlara böyük tələbat olduğunu anlayaraq sonra İosif

Stalin adına Sənaye Akademiyası və Moskva Neft İnstitutuna daxil olaraq, burada təhsilini tamamlayır.

Nəzər Heydərov əmək fəaliyyətinə 17 yaşında ikən Nobel qardaşları şirkətinə məxsus olan Balaxanı neft mədənlərində başlayır. Vətənpərvər və peşəkar olan bu insanın böyük şərəfli yolunun başlanğıcında sovet və partiya hakimiyyəti orqanları sistemində irəliyə doğru karyera pillələri ilə qeyd olunur. Məlum olduğu kimi, o, 20-ci illərdə Qubadlı və Ağdaş rayonlarının partiya təşkilatlarına rəhbərlik etmiş, Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin icra komitəsinin sədrinin müavini postunda çalışmışdır.

Onun geniş miqyaslı biliyi, vətənə və işinə hədsiz sədaqəti yüksək dövlət qurumlarının rəhbərliyi tərəfinən bu hərtərəfli şəxsiyyətə qarşı dərin inam yaratmışdı. N.Heydərov 30 yaşından bir qədər sonra Azərbaycanın neft sahəsində rəhbər vəzifələrə təyin edilmişdir. V.M.Molotov adına neft mədəninin direktoru, "Əzizbəyov Neft Tresti" İdarəsinin "Aztexneft təchizatı"nın sədri, "Azneft" birliyinin rəisi, "Kirovabadneft" idarəetmə trestinin sədri – bu istedadlı rəhbər işçinin peşəkar karyera yüksəlişinin belə pillələri mövcud idi.

Nəzər Heydərovun tərcümeyi-halında xüsusi səhifə 1945-1946-cı illərdə Cənubi Azərbaycandakı fəaliyyətidir. Artıq bu dövrdə polkovnik olan N.Heydərov İrandakı sovet döyüşçülərinin ştabının xüsusi təyinatlı dəstəsinə rəhbərlik edərək, Təbriz, Bəndərşah və Zəncan rayonlarının perspektivli neft strukturlarında geoloji və kəşfiyyatqazma işləri aparırdı. N.Heydərov mühüm məxfi məsələləri apardığı iş barədə şəxsən KP MK-nın katibi M.Bağırova məlumat verərək, ondan konkret göstəriş alırdı. Nəzər Heydərovun Azərbaycan Demokrat Partiyasının rəhbəri Seyid Cəfər Pişəvəri ilə sıx əməkdaşlığı sənədlərdə öz əksini tapmışdır.

Həmin dövrdə, yəni 1945-ci ilin dekabrında Pişəvərinin kamilliyi ilə Təbrizdə Milli hökumət və qısa müddətə Cənubi Azərbaycanın Milli-demokratik dövləti yaradılmışdır. Bu gün N.Heydərovun fəaliyyətinin bu dövrü haqqında informasiya olmasa da, onun bu hadisələrdəki rolu



haqqında müəyyən fərziyyələr irəli sürmək mümkündür.

Bir sıra sənədli materiallara, N.Heydərovun ailə üzvlərinin, müasirlərinin, dostlarının xatirələrinə görə o, qeyri-adi şəxsiyyət olub, ölkəsinin tarixində dərin iz buraxmışdır. Bu ayrı-ayrı xatirələrdən parçalar əsasında əsl vətənpərvər, hörmət bəslənilən bir şəzsiyyətin obrazını yaratmaq olar. Onun həmkarları, tanışları və qohumlarının hamısı Nəzər Heydər oğlu haqqında eyni fikirdədirlər: o, sadə, ünsiyyətcil, çətin həyat yolu keçmiş, ciddi, daim həyatda aza qane olan bir insan idi. Həyat təcrübəsi və yeni dövrün bəzi təzahürlərinə öz münasibəti ona, misal üçün nomenklatura üstünlüklərindən istifadə etməyə imkan vermirdi.

O, fəaliyyəti ölkənin şan-şöhrətli tarixinə yazılan iki ciddi övlad tərbiyə etmişdir. Böyük oğlu Qaçay Gürcülü kəndində doğulmuşdu. Onun doğulduğu ilk günlərdə daşnakların kəndə hücumu haqqında xəbərdarlıq edildiyi üçün ailə kənddən qaçmalı olmuşdur. Soyuq, şaxtalı qış günündə buz bağlamış çayı keçməyə məcbur olan uşağın anası bir neçə gündən sonra vəfat etmişdir. Sonralar Qaçay Heydərov gələcəkdə Azərbaycanın xalq təsərrüfatı və iqtisadiyyatı tarixi sahəsində alim-tarixçi kimi tanınmışdır. O, Azərbaycan dilində iqtisadi tarix üzrə ilk dərslik və dərs vəsaitlərinin, kurs proqramları və metodik tövsiyələrin müəllifidir.

Nəzər Heydərov Ağdaşda işləyərkən gələcək həyat yoldaşı, o zamanlar "sinfi düşmən" sayılan polis pristavının qızı, tanınmış Əhmədbəy Məlikin (sonralar Məlikov) ailəsindən olan Rəxşəndə xanımla tanış olur. Məlikovlar ailəsi sovet dövründə qəddar repressiyalara məruz qalmışdır, Onların əmlakı müsadirə olunaraq, ailənin sağ qalan üzvləri Ləki kəndinə sürgün edilmişdi. "Sinfi düşmənin qızı" ilə evlənməyin gözlənilməz fəsadları Nəzər Heydərovu qorxutmadı. O, öz seçiminin düzgün olduğuna inandığı hallarda öz qərarlarından dönmürdü.

Nəzər və Rəxşəndə Heydərovlar çox mürəkkəb, lakin xoşbəxt bir ömür sürmüşdülər. Onlar övladları Arifi (ailənin ikinci uşağı isə qırx

günlüyündə vəfat etmişdi) ciddi qaydada tərbiyə edərək, ona əməyə məhəbbət, aldığı biliklər sayəsində cəmiyyətə faydalı olmaq, insanları sevmək hissini aşılamışdılar. Nəzər Heydərovun düzgünlüyü və prinsipiallığı ətrafında bir çox əfsanələr dolaşırdı. Belə bir fakt məlum idi ki, onun oğlu Arif on dörd yaşında ikən atasının rəhbərlik etdiyi "Əzizbəyovneft"də adi fəhlə kimi çalışmışdı.

Yol uzaq olduğu üçün ilk iş günlərində Arif atasından onu da dövlət maşınında aparmağı xahiş etdikdə atası onun bu xahişinə "Sən hələ buna nail olmamısan, yaxşı olar ki, elektrik qatarından istifadə edəsən", – deyə reaksiya verir.

Heydərovlar ailəsində o dövr üçün nadir olan üç min cildə yaxın kitabdan ibarət böyük kitabxana var idi. N.Heydərov fenomenal yaddaşa malik olan bir insan idi: o, fantastik dəqiqliklə Böyük sovet ensiklopediyasında istənilən informasiyanın cildi və səhifəsini dəqiq deyə bilirdi. O, özü ehtiraslı bir oxucu olub, oğlu Arifə də bunu aşılamışdı.

Arif Nəzər oğul Heydərovun 70 illiyinə həsr olunan təntənəli tədbirdə zəmanəmizin görkəmli siyasətçisi, Ümummilli lider Heydər Əliyev belə bir qeyd edir: "Azərbaycan xalqı zəngin tarixə malikdir, buraya onun üçün böyük əhəmiyyəti olan şəxsiyyətlərin adları yazılmışdır. Onların sırasında görkəmli dövlət xadimi, Azərabycan xalqının generalı, unudulmaz Arif Heydərov da vardır. Onun xatirəsi bizim və sonrakı nəsillərin yaddaşında daim yaşayacaqdır". Bu sözlər peyğəmbər uzaqgörənliyi ilə deyilmişdi. Xəzər sularında ikən "Arif Heydərov" tankeri öz mühüm funksiyasını yerinə yetirir, öz işləri ilə şöhrətlənən bu insanın adını daşıyan DİN-nin ali kursları da buna sübutdur.

Arif Nəzər oğlunun hələ sağlığında bilavasitə onun nəzarəti altında DİN-in hospitalı tikilmiş, Ümummilli lider Heydər Əliyevin göstərişi ilə buraya general Arif Nəzər oğlu Heydərovun adı verilmişdir.



* * *

Vəfatından üç il əvvəl, 1965-ci ildə Nəzər Heydər oğlu Heydərov tərcümeyi-halı ilə bağlı olan "Zəngəzur dağlarında" kitabı üzərində işini tamamlayır. Oxucuya təqdim olunan bu nəşrin hər səhifəsi, hər sətri müəllifin taleyüklü tarixi hadisələr axınında keçirdiyi həyatdan xəbər verir. Məhz buna görə bu əsərdə ideologiyaya yönələr pafos, hay-küylü şüarlar, trafaret çağırışlar yoxdur. Burada zəmanənin düzgün, səmimi dərk olunması və onunla bağlı sadə olmayan dəyişikliklər verilir.

"Zəngəzur dağlarında" kitabı hadisələrin canlı şahidinin təəssüratlarıdır. Burada oktyabr inqilabı dövründə baş verən hadisələr, xalqın o dövr üçün aktual olan azadlıq və hüquqları uğrunda mübarizəsi haqqında tam və dəqiq təəssüratlar əks olunur. Müəllifin buradakı açıqlamaları ətrafında oxucu və tədqiqatçılar bu gün nöqteyi-nəzərindən əlavə məlumatlar ala bilirlər. Bu ideyalar Nəzər Heydərovun öz niyyətləri, məqsədləri ilə həmahəng idi. Tarix elminə bilavasitə aiddiyatı olmasa da, bütün əsər boyu elm elitasının görkəmli nümayəndələrinin fikirlərinə dəfələrlə istinad edilərək müəllifin–hekayətçinin obyektiv fikirləri təsdiqlənib, həm də onun geniş erudisiyası və maraq dairəsinin genişliyindən bəhs olunur.

N.Heydərov sübutedici faktlara istinad edərək, zəmanənin hadisələrini Azərbaycanın tamahkar qonşularının ən "aludə olduğu" bölgələrindən birinin nümunəsində göstərir. Müəllif böyük ağrı hissi ilə daşnak azğınlığını və vəhşiliyini təsvir edir. Kitabın səhifələrində yaradılan düzgün tarixi panoram müəllifin dövrün siyasi situasiyalarını düzgün dərk etməsini və baş verənlərə şəxsi münasibətini əks etdirir.

Təsadüfi deyildir ki, o dövrdə Dövlət erməni millətinin çoxsaylı nümayəndələri bu kitabın nəşrinə mane olmağa çalışırdılar. Çünki, bu kitabda yazılanlar Azərbaycanda gəlmə olan bu etnosun "rəsm" təsəvvürləri ilə üst-üstə düşürdü. Kitabda Zəngəzurun tarixən Azərbaycana aidiyyatını təsdiqləyən fikirlər, Azərbaycan əhalisinə qarşı daşnakların vəhşiliyinin təsviri Dövlət Nəşriyyat Komitəsinin işçilərinə xoş gəlmişdi.

Kitabda təhlil olunan dövr Zəngəzurda daşnaklar tərəfindən Azərbaycanın əksinə aparılan siyasətin fəallaşmasının təsviri baxımından tarixi faktlarda öz təsdiqini almışdır. Nəzər Heydərov bir müdrik rəhbər kimi belə hallara qarşı mübarizənin başında dururdu. Bununla belə, onun hərəkətlərində millətçilik və şovinizm yox idi. Yarım əsr əvvəl nəşr edilən "Zəngəzur dağlarında" kitabı ideya naminə birləşən müxtəlif xalqların nümayəndələrinin taleyi haqqında həqiqi tarix olub, bir daha inam və milliyətindən asılı olmayaraq, azərbaycan xalqının daim köməyə ehtiyacı olanlara dəstək olması və tolerantlığına növbəti sübutdur.

N.Heydərovun kitabının səhifələrindən onun öz xarakteri, özünə əziz olan insanların – həmyerlilərinin, eləcə də sonralar doğma xalqının taleyi üçün məsuliyyət daşıması duyulur. "Mən öz yoldaşlarıma kənddəki işlər barəsində məlumat verərək, onlardan bu haqda öz fikirlərini söyləməyi xahiş edirdim (s. 46)". Əslində, bu, birinci şəxs tərəfindən deyilən bir cümlə olsa da, ondakı inamı və rəhbər "notu" duymaq çətin deyil. Belə ki 1919-cu ilin iyun ayında Nəzər Heydərov "kəndlilərin qarşısında insanlıqdan kənar olan qamçı ilə işgəncəyə məruz qalır", beş il sonra AKP(b) MK-nın məsul instruktoru vəzifəsində olarkən, tam fərqli bir şəraitdə "cəlladının" istintaqı zamanı öz üzərində nəzarət itirmədən, aldığı ənənəvi tərbiyəyə sadiq qalaraq, ona bu sözlərlə müraciət edir: "Əyləşin… bizim fikrimizcə, yaşlı insan oturan adamların qarşısında ayaq üstə durmamalıdır".

Müəllif düzgün və açıq fikirli bir insan kimi dini əhval-ruhiyyəli adamlara loyal münasibət bəsləyirdi.

Bu baxımdan növbəti epizod diqqətəlayiqdir: "Məzlum insanlar hamısı bir nəfər kimi qan içində yerdə uzanmış Molla Abbasa (N.Heydərovun doğma əmisi – müəllif ) yaxınlaşaraq, acınacaqlı tərzdə qışqırırdılar. "Lənətə gələsən!". Molla bu qışqırıqlardan özünə gələrək, yalvarışlarla qocalara əl uzadırdı:

– Allah xətrinə, gedin! Heç bir müsəlman məndən ötrü əzab çəkməməlidir. Mən bunu istəmirəm…



Ətrafda dayanan qocalar gözyaşı tökürdülər".

Kitabda din adamlarının iştirak etdiyi bu fraqmentlər nə ilə fərqlənir? İnqilab illərində Nəzər Heydərov Zəngəzur qəzasında birləşmiş inqilabi komitələr və icra orqanlarında müxtəlif vəzifələrdə çalışmasına baxmayaraq, din adamları və onların tərəfdarlarına hörmətlə yanaşırdı.

Doğma diyarın təbiətinin bu gözəl torpaqda məskunlaşan insanların təsvirində müəllifin öz ölkəsinə məhəbbəti, məftunluğu və minnətdarlığı duyulur. "Burada torpaq hər tərəfindən sıx, hündür, parlaq yaşıl otlarla örtülmüşdür. Günəşin qızdırdığı otların, çiçəklərin ətri üstündə yetişmiş meyvələri olan ərik və albalı ağacları – bütün yolçuları gümrah edir" (s. 66). Hadisələrin baş verdiyi şəraitə, real səslənməyə yaxınlaşmaqdan ötrü müəllif öz qəhrəmanlarının nitqində mütəmadi olaraq xalq üslubiyyatı üçün tipik olan nitq dönmələrindən – zərb-məsəllərdən, xalq inamları ilə bağlı hekayətlərdən istifadə edir.

Və ətrafda baş verən hadisələri dəyərləndirmək, təhlili etmək bacarığı – bu qiymətli keyfiyyətlər Nəzər Heydərovun həyat mövqeyinin formalaşmasına böyük təsir göstərmişdir. Onun prinsipiallığı, xarakterinin möhkəmliyi, seçdiyi işə bağlılıq məsələlərinə baoışmaxlığı və güzəştə getməməsi onun həmfikirləri arasında möhkəm nüfuz qazanması və fəal vəzifə yüksəlişinə səbəb olmuşdur.

Geniş miqyaslı fəaliyyətinin qanunauyğun olaraq qiymətləndirilməsi baxımından Nəzər Heydər oğlu Heydərov SSRİ Ali Sovetinin Üçüncü çağırışına deputat seçilmişdi. 1949-1954-cü illərdə bu görkəmli ictimai-siyasi xadim Azərbaycan SSR Ali Soveti Prezidiumunun sədri, eyni zamanda SSRİ Ali Sovetinin Prezidiumunun Sədrinin müavini kimi şərəfli missiyanı yerinə yetirmişdir. Vətən qarşısında xüsusi xidmətlərinə görə Nəzər Heydər oğlu Heydərov Lenin və "Qırmızı Əmək Bayrağı" ordenləri irlə təltif olunmuşdur.

"…Uzun illər boyu məni sovet yazıçısı kimi təqdim edirdilər. Lakin mən öncə Azərbaycan torpağının oğluyam. Məni həmişə xalqımın dili,

tarixi, həyatı, onun mübarizəsi və onun taleyi həyəcanlandırmışdı..."

Görkəmli Azərbaycan yazıçısı Mirzə İbrahimova məxsus olan bu dərin fikir Vətənə inam və həqiqətlə onun tarixi inkişafının müxtəlif mərhələlərində xidmət edən bir çox istedadlı insanların müdafiəsi üçün söylənilə bilər. Həyatını xalqına, onun işıqlı, müstəqil gələcəyinə fəda edən Nəzər Heydər oğlu Heydərov belə insanlara aiddir.

R.Abbasova



*BİRİNCİ FƏSİL*

# İNQİLABDAN ƏVVƏLKİ ZƏNGƏZUR HAQQINDA BİR NEÇƏ SÖZ

Qarabağdan keçən Zəngəzura gedən adam Lısaqor gədiyindən sola burulub Saxsağanlı dağına qalxanda gözünün qabağında Zəngəzurun[1] insanı heyran edən gözəl mənzərəsi açılır.

Adam bu gözəlliyə baxıb düşünür ki, görəsən hansı ecazkar qüvvə bu alçaq və hündür dağları bir yerə toplayıb belə səliqə ilə sıralayıb...

Aşağıda, Zəngəzur dağının ətəyində bir-birindən aralı Artiz, Salıq və Merkiz dağları, onlardan uzaqda Xustup, Kəpəz, Keçəldağ silsiləsi uzanır. Bu dağların zirvələri yaylaq yerlərindən də ucadır. Onlardan o tərəfdə Pirdavdan, Qacaran və Kiqin dağları görünür. Zəngəzur dağı uzaq üfüqdə göy dumana bürünür. Onun zirvəsi bəzi yerlərdə dəniz səthindən 3906 metr yüksəkdir və həmişə qarla örtülü olur.

Keçmiş Zəngəzur mahalının ərazisi 7892 kvadrat kilometr idi. Onu qərbdən Zəngəzur, şərqdən Qarabağ dağları araya almışdı. Şimala tərəf uzanan Qarabağ dağları bu iki dağı birləşdirən körpüyə bənzəyir. O biri tərəfdə isə keçmiş Şərur-Daralagöz mahalının ərazisi başlayır. Hər iki dağ silsiləsini cənubdan Araz çayı kəsir. Çay burada qayaları ovub sıldırım yarğanlı, ensiz, dərin Mığri və Xudafirin dərələrini yaratmış, Zəngəzur dağlarını qonşu İranın ərazisində şərqdən qərbə uzanan Qaradağ dağ silsiləsindən ayırmışdır.

Zəngəzuru araya almış bu dağlar çox möhkəm təbii bir istehkamdır. Bəli, Zəngəzur dağları, bu yerlərin başı bəlalı, lakin cəsur camaatı üçün etibarlı sığınacaq idi. Zəngəzurlular dəfələrlə qəsbkar ərəb qoşunlarının hücumlarını dəf etmişlər. Onlar da bütün Zaqafqaziya xalqları ilə çiyin-çiyinə səlcuqlara, monqollara, farslara və türk qəsbkarlarına ağır zərbə vurmuşlar. David bəy XVIII əsrin iyirminci

[1] İnqilabda əvvəlki Zəngəzur mahalına Ermənistan SSR-in Sisyan, Gorus, Qafan və Mığri rayonları, Azərbaycan SSR-in isə Zəngilan, Qubadlı və Laçın rayonları daxil idi.

illərində Oxçin dərəsindəki Kiçik Alizur qalası yaxınlığında osmanlı türklərini geri oturtmuşdu. Azərbaycan xalqının qəhrəman oğlu, haqqında dastan və mahnılar qoşulmuş qaçaq Nəbi Zəngəzurun dağlarında və meşələrində məskən salmışdı.

Zəngəzurun ucsuz-bucaqsız yaylaqları çox qədimdən nəinki bu yerlərin aşağı hissəsinin köçəri-maldarlarını, hətta Qaryagin, Şuşa, Salyan və Cavad mahalının maldarlarını da özünə cəzb edirdi. Köçərilər öz sürüləri ilə indiki Sisyan, Laçın, Qafan və Gorus rayonlarının otu bol olan, sərin dağlarında yaylaqdan yaylağa köçər, üç ay bu yerlərdən qoyun-quzu mələrtisi, çobanların hay-harayı kəsilməzdi.

Zəngəzurun qalın meşələrində çox müxtəlif ağaclar bitərdi. Bu ağaclar qırılaraq odun və tikinti üçün Gorusa, Qafana daşınardı. XIX əsrin sonunda Zəngəzur mahalında 155 min desyatin[1] meşə var idi. Burada qışın mülayim keçməsi Bərgüşad, Həkəri dərələrindəki qışlaqlarda, Araz boyu dərələrdə mal-qara və qoyun saxlamağa imkan verirdi.

İnqilaba qədər Araz, Bərgüşad, Həkəri çayları və onların kiçik qolları çəltik zəmilərini, bağları və bostanları suvarırdı.

Zəngəzur mahalının əhalisi əsasən ermənilərdən və azərbaycanlılardan ibarət idi. Burada kürdlər və ruslar da yaşayırdı, lakin onlar çox az idi.

*Ermənilərin və azərbaycanlıların xeyli hissəsi oturaq həyat* sürürdülər. Qubadlı və Zəngilan rayonlarının aran yerlərində yaşayan bütün kürdlər və azərbaycanlılar yarı köçəri idilər.

İnqilaba qədər məhsuldar torpağı, yaxşı qışlağı olmayan Laçın rayonunun əhalisinin xeyli hissəsi adətən payızda öz heyvanları ilə Qarabağın aran yerlərinə köçərdilər. Qışlağa köçən kürdlər Şuşaya Zəngəzur (İravan) darvazasından girər, şəhərin içərisindən keçərək Gəncə darvazasından çıxardılar. O zaman şəhərin kənarından yol yox

[1] 1917-ci ildə yalnız 84.625 desyatın meşə və kolluq qalmışdı.



idi, yalnız cığırlar var idi. Köçərilər Şuşadan bir-birinin arxasınca ailə-ailə köçərdilər. Elə gün olardı ki, səhərdən axşamadək köçün arası kəsilməzdi. Bəzən köçəri o qədər çox olardı ki, onlarca ailə şəhərin kənarı ilə keçib gedərdi.

Görürdün ki, 5-6 nəfərdən ibarət kürd ailəsi şəhərin içərisi ilə gedir. Onlar 4-5 baş qaramalı və 5-6 qoyun-quzunu qabaqlarına qatıb aparırlar. Evin bütün avadanlığı ulağa, öküzə və inəyə yüklənərdi. Ana körpə uşağını dalına şəllərdi, ondan böyük uşaqları isə yüklü öküzün, ulağın, yaxud da inəyin üstünə mindirərdilər.

*Cavan, orta yaşlı yoxsul kürdlər Qarabağda xanların, bəylərin* və qolçomaqların qapısında işlərdilər. Əvəzində ağalar onları və ailələrini yedirərdilər. Kürdlər öz heyvanlarını örüş otu ilə saxlardılar.

Kürdlər geriyə, Laçına may ayından qabaq qayıtmazdılar. Qış yaxşı keçəndə heyvanları yanı balalı qayıdardı, hətta taxıl da gətirərdilər. Onlar, Laçında olan azacıq torpaqlarına əkdikləri taxılı biçənə qədər, bu taxılla yaşamalı idilər.

Qubadlı rayonunun Şotlanlı, Zilanlı kəndlərində yaşayan kürdlər də köçəri idi. Ancaq bu kəndlər qışda Qarabağa köçməzdilər.

Laçın və Qubadlı rayonlarında kürdlər torpaqları olmadığına, zootexnika çox aşağı olduğuna görə, babat yaşamaq üçün, kifayət qədər mal-qara saxlaya bilmirdilər. Kənd təsərrüfatının bu vəziyyətə düşməsinə uzun əsrlərdən bəri davam edən köçərilik səbəb olmuşdu: – bütün ailə ilə, bütün təsərrüfatla, mal-qara üçün yaxşı yem olan yerə köçmək! Bütün bu səbəblərə görə kürdlərin çoxu oturaq həyata keçmir və əkinçiliklə məşğul olmurdu.

Lakin XIX əsrdə Qubadlı və Laçın rayonlarında yaşayan kürdlərin xeyli hissəsi xışla yer şumlayır, meyvə bağları salır, barama qurdu saxlayır, müxtəlif peşələrlə məşğul olurdular. Əkinçilər öz torpaqlarında buğda, arpa, darı, düyü və pambıq[1] əkirdilər. Daha

[1] Pambıq əkməklə Mığri rayonunun dörd kəndi – Mığri, Aldərə, Nüvədi və Jehvaz məşğul olurdu. Ancaq bu bitki çox yavaş yayılırdı. 1884-cü ildə cəmi 200 desyatin sahədə pambıq əkilirdi.

aran yerlərdə ərik, şaftalı, armud, gilas, gilənar və digər meyvə bağları salınırdı.

Ağac əşyalar, qab-qacaq qayırmaq, şal və xalça toxumaq, kömür yandırmaq peşəsi çox yayılmışdı; mövsümi iş isə duz daşımaq idi.

Zəngəzurun əhalisinin beynini xristian və islam dini zəhərləmişdi. İslam dini başqa dindən olan adamlarla ünsiyyəti qadağan edirdi. Qeyri millətdən olan adamla bir qabda xörək yemək günah sayılırdı. Mömin müsəlmanlar başqa dindən olan adamlardan, vəbalı adamlardan qaçan kimi qaçırdılar.

Bisavad müsəlman kəndlilərinin mövhumatdan yaxa qurtarması çox çətin idi. Savadlanmaq, çətin ərəb əlifbasını öyrənmək isə uzun illər tələb edirdi, başlıcası isə pul lazım idi. Din, xüsusilə Şərqdə, xalqların mədəni cəhətdən geri qalmasına, feodal-patriarxal həyat keçirməsinə səbəb olmuşdu. Məsələn, din müsəlmana öz uşağını başqa millətin məktəbində oxutmağı qadağan edirdi. Buna görə də imkanı olan azərbaycanlılar öz uşaqlarını çox vaxt rus məktəbinə göndərmirdilər. İslam dini Azərbaycan qadınını kölə halına salmışdı; o, dörd divar arasından kənara çıxmırdı.

Mənəvi gerilik, hər şeydən əvvəl, iqtisadi gerilikdə özünü göstərirdi, feodal-patriarxal həyat tərzi və çarizmin xalqları əsarətdə saxlamaq siyasəti istehsal vasitələrinin inkişafını ləngidirdi. Kənd təsərrüfatının köhnə üsulla idarə olunması onu təbii qüvvələrdən asılı etmişdi. Hava yaxşı olsa, taxıl olurdu. Tez-tez, demək olar ki, hər iki-üç ildən bir dağ ətəyi yerlərdə taxıl quraqlıqdan batırdı. Dolu, quraqlıq kəndlini çörəksiz, toxumsuz qoyan böyük fəlakət idi. Kəndlilərin quraqlığa və doluya qarşı mübarizədə acizliyi xalq arasında xurafatın yayılmasına səbəb olur və onları "müqəddəslərə", ələlxüsus mollalara yalvarmağa məcbur edirdi.

"Mülkədarlar tərəfindən talan edilən, çinovniklərin özbaşınalığı nəticəsində əzilən, polis qadağanı, cəza zorakılığın toruna salınmış olan, strajniklərin, keşişlərin, zemstvo rəislərinin ən yeni mühafizə dəstələrilə əl-qolu bağlanmış olan kəndlilər təbii fəlakətlərə... qarşı



Afrika vəhşiləri qədər müdafiəsiz idilər"[1].

Bizim Gürcülü[2] kəndindən bir kilometr yarım aralıda pir var idi. Bu pir kəndlilərin çoxdan köçdükləri xarabalıqda idi[3]. Burada yerdən metr yarım hündürlükdə, yağışın və küləyin yuyub cilaladığı iki cərgə daş var idi. Onların arasında, lap ortada qollu-budaqlı bir ağac bitmişdi. Mövhumatçı adamlar insan əli dəyməmiş, təbiətin möcüzəsi olan daşların arasında bitmiş bu ağaca gizli bir qüvvə kimi baxırdılar. Bura gələn hər bir dindar elə hesab edirdi ki, əgər o öz paltarından bir az cırıb bu ağacın budağına bağlasa, arzu-kamına çatacaq. Ona görə ağacın budaqlarına yüzlərlə müxtəlif parça bağlanmışdı.

Elə il olurdu ki, aprel-may ayları çox quraqlıq keçirdi. O zaman kəndin bütün əhalisi başda molla olmaqla arvadlı-kişili, uşaqlı-böyüklü tez-tez bu pirə gəlirdilər. Onlar burada qoyun qurban kəsir, kasıb və yetimlərə paylayır, ətin çoxunu da özləri yeyirdilər. Bu vaxt molla ürəkdən Allaha dua edirdi. Kişilər də onunla birlikdə dua oxuyurdular (qadınlar kişilərin yanında dua oxumazdılar).

Bu qurbandan sonra bəzən nadir halda yağış yağırdı. Bu vaxt molla kəndlilərin gözündə təbiətin gizli qüvvələri ilə əlaqəsi olan, Allahın eşitdiyi bir adam olurdu. Əgər bu mərasimdən sonra yağış yağmasa, molla, kəndin əhalisini təqsirləndirirdi. Guya onlar, o qədər günah

---

[1] V.İ.Lenin Əsərləri, 17-ci cild, səh. 535.

[2] Gürcülü kəndinin adı gürcü sözündəndir. Lakin bu kənddə bir nəfər də olsun gürcü yaşamırdı. Kənd əhalisinə hər nəslin kökü yaxşı məlum idi. Bu kənddə 4-5 nəsil var idi və heç birinin gürcülərlə əlaqəsi olmamışdı. Akademik Ə.Ə.Əlizadə Rəşid-Əddinə istinad edərək, deyir ki, çox qədim zamanlarda (XIII əsrdə) mülkədarlar əsir gürcüləri öz malikanələrində işlədərdilər. Rəşid-Əddin özü də əsir gürcülərin əməyindən istifadə etmişdir. Bəlkə, qədim zamanlarda burada mülkədarın torpağında gürcülər işləyib və yaşamışlar. Sonra isə onlar çıxıb gediblər, adları isə həmin kənddə qalıbdır.

[3] Bu kəndin bir tərəfində köhnə qəbiristanlıqda uca gümbəz var. Onun şiş təpəsi böyük, hamar ağ daş pilətədəndir. Gümbəzin döşəməsi də daş pilitədir. Nə vaxtsa döşəmənin iki pilitəsi çıxarılıbdır. O zaman belə bir əfsanə yaranıb ki, burada basdırılmış adamın vəsiyyəti ilə kim isə o pilitələri çıxararaq, orada olan qızılları aparıbdır.

işləyiblər ki, indi Allah cəzalarını verir.

Kəndliləri pirdən də qüdrətli olan, bütün ətraf kəndlərdən camaatın axıb gəldiyi imam Əlinin nəslindən olan imamzadənin qəbri üstünə aparardılar. Orada qurban kəsərdilər (çox vaxt da qoyun kəsərdilər).

Bu qəbir bizim kəndin yeddi-səkkiz kilometrliyində, meşənin içində idi. Nəsildən-nəslə keçən rəvayətə görə, burada imam övladı dəfn olunmuşdu. Ancaq doğrudan da həmin imamın burada basdırılıb-basdırılmadığını heç kəs qəti bilmirdi.

Yüz əlli il bundan əvvəl Göyərcikli qoca Ənnağı bu meşədən keçərkən yoldan azacıq aralıda bir işığın yanıb-keçdiyini görür.

O, işığa yaxınlaşmağa qorxur, ancaq o yeri nişanlayıb kəndə qayıdır. Sabah gəlib həmin ağacın altında yanaşı üç qəbir görür. Burada basdırılmışları müqəddəs adlandırmaq üçün bu kifayət idi. Guya işığın yanıb-sönməsi ilə müqəddəslər adamlara öz yerlərini nişan verirmişlər!

Qəbirlərin üzərində müqəddəslərə layiq bina tikdilər. Həmin vaxtdan ətraf kəndlərin camaatı bu fani dünyadan köçən adamlarını behiştə getmək üçün burada dəfn eləyirdilər.

"Möcüzə"nin səbəbi isə aydındı. Məlumdur ki, heyvanların, eləcə də insanların sümüyündə fosfor var. Sümük bir müddətdən sonra yerin altında çürüyüb, qaza çevrilir və havada olan oksigenin təsiri ilə işıldayır. "Müqəddəs qəbirlər" əhvalatı da belə olmuşdu. Fosforlu qaz yerin altından havaya çıxmışdı.

1868-ci ildə Yelizavetpol quberniyası təşkil olunarkən yeni yaranmış Zəngəzur qəzası da ona daxil edilmişdi. Qəzanın inzibatı mərkəzi Gorus şəhəri idi. Gorus şəhəri dəniz səviyyəsindən 1300 metr hündürlükdə, dağların arasında salınmışdır.

Keçəldağ (dəniz səviyyəsindən 3000 metr hündür) şimaldan sanki Gorusun keşiyini çəkir. Gorus çayı cənubdan Kərovuc dərəsi ilə Vorotan çayına tərəf sürətlə, şırıltı ilə axır. Varlı tacir Mirumyan 1898-ci ildə burada su-elektrik stansiyası tikdirmişdi. Gorus Zəngəzurun ən



gözəl yerlərindən biridir.

Mən uşaqlığımın beş ilini – 1908-ci ildən 1912-ci ilə kimi Gorusda iki sinifli rus məktəbinin divarları arasında keçirmişəm. Bütün qəzada cəmi 199 şagirdi olan dörd məktəb var idi. Mənim məktəbə daxil olmağımdan bir neçə il əvvəl azərbaycanlı kəndlilərin uşaqlarını da bu məktəbə qəbul etməyə başlamışdılar. Bəylər bu işə pis baxırdılar. 1908-ci ildə Cabbar bəy Sultanov bir kəndli uşağını göstərib demişdi:

– Bizim başımıza bəla olmaq üçün oxuyur!

Məktəb bizdə çox şeyə maraq oyatmışdı. Məsələn, müxtəlif siyasi quruluşlu dövlətlərin olduğu haqqında biz ilk dəfə burada eşitdik.

1912-ci ilin may ayını xatırlayıram. Məktəbin son sinfində oxuyurdum. Sinfimizdə 16 yaşında, hətta yaşı bir az çox olan iyirmiyə qədər uşaq vardı. Rus dili müəllimimiz, cavan, Sarkis Qriqoryeviç Musaelyan bizə xəbər verdi ki, yaxın günlərdə Yelizavetpoldan xalq məktəbləri inspektoru gələcəkdir, hazırlaşmaq lazımdır.

– Siz yalnız dərsdə keçdiyimiz fənlərdən verilən suallara deyil, gərək siyasi suallara da cavab verəsiniz.

Bu həm yeni, həm də çox maraqlı idi. İndiyənədək məktəbdə heç kəs bizə siyasət barədə bir söz deməmişdi…

– Bu gündən sonra bilin, dünyada üç dövlət quruluşu forması var: mütləq monarxiya, konstitusiyalı monarxiya və respublika. Kim təkrar edər?

Biz yekə, yeniyetmə uşaqlar idik, müəllimin dediyini təkrar etmək o qədər də çətin deyildi.

Musaelyan sözünə davam etdi:

– Əgər inspektor soruşsa ki, "bu quruluşlardan hansı yaxşıdır?" Siz, əlbəttə, cavab verin ki, "ən yaxşı quruluş mütləq monarxiyadır".

Uşaqlardan biri soruşdu:

Bəs, əslində hansı yaxşıdır?

Sinfə dərin sükut çökdü. Musaelyan balkonun açıq qapısına yaxınlaşdı, onu örtdü, stolunun yanına qayıdıb bir qədər dayandı, sonra, partaların arası ilə gəzə-gəzə hər birimizin üzünə diqqətlə

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

baxdı. Təzədən stolunun yanına qayıdıb dedi:

– Uşaqlar, gərək bu söz aramızda qalsın. Bax sizə tapşırıram, gərək heç kəs bunu bir yerdə danışmasın. Dünyada ən yaxşı dövlət quruluşu respublikadır. Ancaq siz inspektora deməlisiniz ki, ən yaxşı quruluş mütləq monarxiyadır. Bunu unutmayın.

Şagird Maqiç Maşurov ayağa qalxıb dedi:

– Siz deyirsiniz ki, respublika ən yaxşı dövlət quruluşudur! Ancaq biz bilmirik ki, mütləq və konstitusiyalı monarxiya necə olur. Heç respublikanın da nəyə görə yaxşı olduğunu bilmirik.

Görünür, Musaelyan belə bir sualı gözləyirdi, o saat cavab verdi:

– Uşaqlar, mütləq monarxiya elə bir dövlət quruluşudur ki, orada monarx çox böyük ixtiyar sahibidir. Çar bütün dövlət məsələlərini yaxın adamları, nazirləri ilə həll edir. Çarın iradəsi təbəələri üçün qanundur. Konstitusiyalı monarxiyada isə monarxın ixtiyarını qanun, parlament məhdudlaşdırır. Parlament – mülkədar və burjuaziyanın nümayəndələrinin yığıncağıdır. Monarxiya parlamentə, daha çox isə polisiyaya, orduya arxalanır. Monarxiya burjuaziyanın fəhlələri istismar etməsinə kömək edir. İstismar etmək – işləyən adamın əməyinin məhsulunun çoxunu onun əlindən almaq deməkdir. Aydındırmı? Bizim qəzada kapitalistlərin nümayəndəsi yerli mədənçilərdir. Həmən mədən sahibləri Qafanda fəhlələrin əli ilə mis çıxarıb əridirlər. Əgər fəhlə 5 manatlıq filiz çıxarırsa, kapitalist ona bunun 50 qəpiyini verir, 4 manat 50 qəpiyini isə özü mənimsəyir. Yalnız fəhlələr deyil, kəndlilər də istismar edilir. Çar hökumətinin qanununa görə, kəndli on pud taxılının bir pudunu töycü kimi mülkədara verməlidir. Sonra o, müəyyən müddət mülkədara havayı işləməlidir. Buna biyar deyirlər. Bundan əlavə, o, yüzbaşıya, mollaya öz taxılından vergi verir.

Şagird Hüseynqulu Qurbanəliyev soruşdu:

– Deməli, bəylə kapitalist hər iki monarxiyada olur?

– Bəli. Elədir. Ancaq kapitalistlər sonra meydana çıxır. İndi də bəylər barəsində... konstitusiyalı monarxiyada bəylə kəndli arasında olan münasibətdə heç bir dəyişiklik olmur.



Qurbanəliyev soruşdu:

– Bəs respublikada?

Musaelyan bilirdi ki, şagirdlərin çoxunun kəndləri kimi, Qurbanəliyevgilin Eyvazlı kəndi də bəy kəndidir. Müəllim onu da bilirdi ki, şagirdlərin içərisində bəy uşaqları var.

Musaelyan suala yaxşı cavab vermək üçün fikrə getdi. Dığ kəndindən olan Qriqori Barxudaryan müəllimi fikirdən ayırdı.

– Xahiş edirik. Respublika haqqında bizə müfəssəl danışasınız.

Erməni kəndi olan Dığ Şuşa mülkədarları Rüstəmbəyovların idi. Müəllim bunu bilirdi. O, ayağa qalxıb yenə də gəzməyə başladı. Sinfə ölüm sükutu çökmüşdü. Hamı intizar içərisində veriləcək cavabı gözləyirdi.

Elə bu vaxt zəng vuruldu. Hamı təəssüflə köks ötürüb, ayağa durdu. Cədvəl üzrə Musaelyanın bizə dərsi birisi gün olacaqdı. Bizim hər birimiz ürəyimizdə düşündük: "Nə çox gözləyəcəyik!"

Bir gün sonra biz sinifdə oturub, səbirsizliklə Sərkis Qriqoryeviçi gözləyirdik. Nəhayət, o, sinfə daxil olub, dərsə başladı. Biz bir-birimizin üzünə baxdıq, hamı narazı idi. Müəllim özünü elə tutmuşdu ki, guya heç nə görmürdü.

– Cənab müəllim, keçən dərs bizim sualımız cavabsız qaldı. Xahiş edirik, əvvəlcə o suala cavab verin, yoxsa zəngədək qurtarmazsınız. – deyə şagird Maşurov dilləndi.

– Mən mövcud bütün dövlət quruluşları haqqında sizə danışdım. Daha nə istəyirsiniz?

Biz heyrətlə gözümüzü Musaelyana dikmişdik.

– Yaxşı. İkinci dərsin axırında bütün suallarınıza cavab verərəm. Danışdıqmı?

Musaelyan dərsin ortasında başladı:

– Burjua respublikalarında torpaq məsələsi kəndlilərin xeyrinə həll edilmir. Burjua respublikalarının bəzilərində torpaq mülkədarların əlində qalır. Bəzilərində kəndlilər torpaq payı alaraq, pulunu faizlə hissə-hissə hökumətə ödəyirlər, mülkədarlar isə kəndlilərə verilmiş

torpağın pulunu hökumətdən bütünlüklə alırlar.

Sonra... Dövlət hakimiyyət orqanlarında nümayəndəlik haqqında... Respublika dövlət quruluşunda fəhlə və kəndlilərin nümayəndələri, az da olsa, parlamentə seçilir. Elə respublikalar var ki, ictimai təşkilatlar qadağan edilmir, bəzi siyasi partiyalar nisbətən azad olurlar. Bu partiyaların bəziləri mətbuatda və yığıncaqlarda zəhmətkeşlərin mənafeyi uğrunda açıqca mübarizə aparırlar.

Hüseynqulu Qurbanəliyev ucadan soruşdu:

– Görəsən, elə bir vaxt gələcəkmi, bəylər heç olmasın?

Bu vaxt qapı açıldı və məktəbin direktoru Safrazbekyan içəri girdi.

– Sərkis Qriqoryeviç, sinifdə nə səs-küydür?

– Elə bir şey olmayıb, Sadat Sergeyeviç, dərs keçirəm.

– Bəs indi "vaxt gələcəkmi bəylər olmasın?" – deyən kim idi?

Biz bilmirdik ki, müəllim vəziyyətdən necə çıxacaq. Ona görə Qurbanəliyevi ucadan sual verdiyi üçün ürəyimizdə söyürdük.

Lakin Sərkis Qriqoryeviç özünü itirmədi. O gülümsəyərək, arxayınca cavab verdi:

– Mən, Sadat Sergeyeviç, şagirdləri xalq məktəbləri inspektorunun gəlməsinə hazırlaşdırıram. Elə hesab edirəm ki, o, dövlət idarə formaları haqqında sual verə bilər. Ona görə də uşaqlara üç dövlət quruluşu forması barədə danışıram: üstəlik də deyirəm ki, ən yaxşı forma – mütləq monarxiyadır. Mən elə düşünürəm ki, Sadat Sergeyeviç, siz də mənimlə razısınız.

– Mən sizinlə razıyam, Sərkis Qriqoryeviç. Mütləq monarxiya ən yaxşı dövlət quruluşudur. Ancaq sizdən xahiş edirəm, dərsdə bir də siyasi məsələlərə toxunmayın. O məsələlər bizim proqramımıza daxil deyil.

Direktor sinifdən çıxarkən, səsini yaxşı tanıdığı Qurbanəliyevə tərəf dönərək acıqlı-acıqlı dedi:

– Yaxşı olar ki, sən bəylər barəsində yox, öz Fatman barədə düşünəsən!



Eyham təsadüfi deyildi. Qurbanəliyevin valideynləri nə məqsədləsə təhsilin dördüncü ili onu evləndirmişdilər. Hələ sümüyü bərkiməmiş cavan uşaq ailəli adam olmuşdu. Direktor bunu bildiyi üçün hər dəfə Qurbanəliyev dərsini bilməyəndə onu ələ salır, arvadını xatırladırdı. Qurbanəliyevin arvadının adı Fatma deyildi. Safrazbekyan onun adını bilmədiyi üçün, bütün azərbaycanlı qadınlara dediyi kimi, ona da Fatma deyirdi.

Bir neçə kəlmə müəllim Sərkis Qriqoryeviç haqqında. O, "Yujnı Kavkaz" qəzeti ilə əməkdaşlıq edirdi. Qəzet 1912-1914-cü illərdə Yelizavetpolda (indiki Kirovabadda) nəşr olunurdu. Musaelyan bu qəzetin səhifələrində dərc etdirdiyi məqalələrində kəndliləri amansız istismar etdikləri üçün Zəngəzur bəylərini tənqid edirdi. Mən aşağıda bu məqalələrdən parçalar verəcəyəm.

Musaelyan 1881-ci ildə Çaykənd kəndində anadan olmuşdu. İndi həmin kənd Azərbaycan SSR-nin Xanlar rayonuna daxildir. Musaelyan Qori Müəllimlər seminariyasını bitirmişdi. 1911-ci ildə Şəki məktəbindən Gorusa dəyişdirilmişdi.

Birinci Dünya müharibəsi zamanı Musaelyan ordu sırasında qərb cəbhəsində idi. 1918-ci ildə Zirehli qatar rəisi kimi Bakını müdafiə etmiş, kommunanın fəal iştirakçısı olmuşdur. Bakıda Sovet hakimiyyəti müvəqqəti yıxıldıqda şəhərdə qalmış, gizli iş aparmışdır.

S.Q.Musaelyan 1919-cu ilin əvvəllərində Zirehli qatar komandiri kimi Ermənistana gəlmişdir. O, sonralar may üsyanının təşkilatçılarından biri olmuş, Aleksandropolda hərbi inqilab komitəsinin silahlı qüvvələrinin başında durmuşdur. May üsyanı yatırıldıqdan sonra daşnaqlar Musaelyanı həbs etmiş və 14 avqust 1920-ci ildə güllələmişdilər.

Musaelyan 1920-ci il iyul ayının 6-da daşnaqların həbsxanasından RK(b)P ölkə komitəsinə yazırdı:

"Biz indi həbsdəyik. Aleksandropolda 250-dən artıq yoldaşımız həbs olunmuşdur. Ermənistanın həbsxanaları bizim adamlarla doludur. Həbsxana şəraiti dözülməzdir. Bizi acından öldürürlər.

Dustaqların pulu yoxdur. Xəstələnənlər getdikcə çoxalır. Əgər belə getsə, ölən çox olacaq.

... İndicə məhkəmədən qayıtmışam. Mən və başqa dörd yoldaşımız güllələnməyə məhkum edilmişik. Biri bəraət aldı, birinə isə bir il həbs kəsdilər... Yalnız kənardan təsir etməklə ölüm hökmünü dəyişmək olar. Yalnız bir hədə ilə dəyişmək olar ki, bizim güllələnməmizə bütün daşnaksütun məsuliyyət daşıyacaq. Bu onları qorxudar. Mən qoşunla əlaqə saxlayıram. Onlar bizim tərəfimizdədirlər. Yalnız qaçqınlardan və mauzeristlərdən ibarət qabaq dəstəni dağıtmaq lazımdır. Sonra heç bir müqavimətə rast gəlmədən arxayınca irəliləmək olar, çünki qoşun bizim tərəfimizə keçəcək.

Bu məktubla birlikdə dustaqların adından etiraz məktubunu da göndərirəm, xahiş edirəm, teleqrafla və mətbuat vasitəsi ilə elan edin[1]."

Bizim sevimli müəllimimiz, xalq səadəti uğrunda mübarizə aparan, mətin bolşevik Sərkis Qriqoryeviç Musaelyan belə adam idi!

Məktəbin direktoru Safrazbekyan tez-tez şikayətlənirdi ki, məktəbində müsəlman uşaqları oxuduğu üçün varlı ermənilər onu danlayırlar. O, varlıların qarasına deyirdi: "Bilmirəm, bu it uşaqları məndən nə istəyirlər?"

Yazıq kəndli uşaqları! Onların oxumasına kimlər maneçilik etməmişdi! Nə üçün bəylər və mülkədarlar istəmirdilər ki, kəndli balaları oxusunlar?! O zaman bu bizə aydın deyildi.

Kəndli balaları məktəblərdə hansı vəsaitlə oxuyurdular?

Şəhərdə ən çox ətraf Eyvazlı, Novlu, Gürcülü, Daşaltı və başqa kəndlərin uşaqları oxuyurdu. Hər bazar ertəsi uşaqlar qabaqlarında odun yüklü eşşək, yaxud at Eyvazlıdan Gorusa qayıdırdılar. Onlar tələsirdilər ki, aparıb odunu bazarda satsınlar və o pulla şənbə gününə

---

[1] "Böyük Oktyabr sosialist inqilabı və Ermənistanda Sovet hakimiyyətinin qələbəsi". Sov. İKP MK yanında MLİ-nin Ermənistan filialının, Ermənistan SSR Elmlər Akademiyası Tarix İnstitutunun nəşri, 1957-ci il, səh. 364-365.



qədər birtəhər dolansınlar.

Yadımdadır, bir dəfə küçədə on beş qəpiklik bir gümüş pul tapanda nə qədər sevindim! Bu on beş qəpiyi qazanmaq o vaxt çox çətin idi. Vəziyyətimi ağırlaşdırmamaq xatirinə yoldaşım, Göyüş Hümmətalıyevi tez-tez dilə tuturdum ki, bizimlə bir otaqda yaşayan üçüncü yoldaşımızla dalaşmasın, çünki ev kirəsinin bir hissəsini o verirdi. Biz şəhərdə çörək almırdıq, həftədə bir dəfə evdən gətirirdik. Ona görə cümə və şənbə günləri boyat, quru çörək yeyirdik.

Bizim ailə üçün ildə on manat təhsil haqqı vermək çox çətin idi. Bu çətinliyə baxmayaraq, biz məktəbi qurtardıq, rus dilində ibtidai təhsil aldıq. Azərbaycanın bir çox kəndlərində rusca təhsil almış ilk adamların çoxu Gorus məktəbinin yetişdirmələridir.

Məktəbi bitirənlərin bəziləri sülh hakimlərinin və sülh miyançılarının yanında kargüzarlıq eləyirdilər. Kəndlilərin savadsızlığından mülkədarların necə vicdansızcasına istifadə etdiklərini, çar hökuməti qanunlarının kəndlilərə verdiyi azacıq hüquqlardan necə məhrum etdiklərini onlar burada öz gözləri ilə görürdülər. Həmin savadlı adamlar bunları kəndlilərə başa salırdılar. Lakin qanunları diqqətlə öyrənəndə əmin olurdular ki, çar hökumətinin qanunları ancaq mülkədarları müdafiə edir. Bəzi mütərəqqi fikirli adamların öz qabaqcıl baxışlarını adamlara acıq deməsi həmin fikri onların şüurunda daha da möhkəmləndirirdi.

İkisinifli Gorus rus məktəbini qurtaran kəndli balaları orada öyrəndiklərini valideyn və qohum-əqrəbalarına və tanış kəndlilərə də danışırdılar.

Heç təsadüfi deyil ki, bir bəy haqqını tələb eləyən kəndlisinə istehza ilə demişdi:

– Sizin oğlanlarınız Gorusda oxuyurlar, bizimkilər isə Peterburqda. Ona görə də sizdən çox bilirik. Sizin uşaqlar yarımçıq oxumuşlardır. Onlar çar qanunlarını səhv izah edirlər.

Gorus məktəbini bitirənlərin dünyagörüşünə Bakıya gedib bir müddət mədəndə, zavodda, yaxud fabrikdə işləmələri böyük təsir

göstərirdi. Bu zaman onlar kapitalist istismarının bütün ağırlığını hiss edir, Bakı fəhlə sinfinin istismarçılara qarşı necə azadlıq mübarizəsi apardıqlarının şahidi olurdular. Buna görə də Gorus maktəbini bitirənlərin əksəriyyəti 1919-1920-ci illərdə artıq bolşevik dünyagörüşlü adamlar idilər. Onlar kapitalistlərlə, mülkədarlarla və qolçomaqlarla fəal mübarizə aparırdılar.

Bu illər vətəndaş müharibəsi cəbhəsində, sonralar isə zavodlarda, fabriklərdə, partiya və sovet işlərində rəhbər vəzifələrdə Gorus məktəbini bitirmişlərdən çox görmək olardı. Əli Əmiraslanov, Göyüş Hümmətalıyev, Vaqarşak Arustamov, Aleksandr Dadayan, Göyüş Məmmədov, Kərim İskəndərov, Salam Adıgözəlov, Qulu Əbdüləzimov, Ələkbər Abdullayev və digər yoldaşlar Sovet hakimiyyətinin qurulması və möhkəmləndirilməsi uğrunda yorulmadan mübarizə aparırdılar.

Böyük Oktyabrın nailiyyətlərini qorumaq uğrunda mübarizədə bizim şanlı məsləkdaşlarımız olan Xristafor Mkrtıçyan, Maqiç Maşurov, Oruc Babayev, Qara İlyasov, Aslan Əsədov, Əziz Quliyev və başqaları həmin unudulmaz qəhrəmanlıq illərində Sovet hökumətinin düşmənlərinin əli ilə həlak oldular.

Keçmiş Zəngəzur qəzasında üç Sultanovlar nəsli yaşayırdı.

İndiki Laçın rayonuna daxil olan Kürdhacı kəndindən olan Sultanovlar nəslən, ata-babadan mülkədar deyildilər. Qarabağın general-qubernatoru Xosrov bəyin babası çarvadar olmuşdu. O zaman xalq arasında deyərdilər: "Hər oxuyan Molla Pənah, hər qatırçı Murad olmaz". Bax həmin bu qatırçı Murad, Sultanovların babası idi. Murad varlanıb, Əsəd Sultanlı bəyinin qohumunu almışdı. Öz doğma oğlu Paşanı isə Əsəd Sutanlı bəyinin oğlu kimi qələmə vermişdi, guya uşaq yetimdi, dul anası yanınca gətirmişdi.

Sultanovlar çox böyük maldar idilər. Yüzlərlə inəkləri var idi. Bunlar Zəngəzurda və Qarabağda Hacısamlı cinsi adı ilə məşhur damazlıq inəklər idi.



Sultanovlar qiymətli Hacısamlı meşələrini muzdurlara qırdırıb xaricə – Fransaya göndərirdilər. Bu cür onlar varlanıb, bütün qəzaya meydan oxuyur, kəndliləri meşə işində amansızcasına istismar edirdilər.

Qubadlı və Hacalı kəndlərində yaşayan bərgüşadlı Sultanovlar isə kürd idilər və ata-babadan mülkədar idilər.

Məmər, Hal, Davudlu, Mahmudlu və Zeyvə kəndləri bərgüşadlı Sultanovların idi. Mac, Ağbulaq, Qurtqalağı kəndlərində yaşayan müflisləşmiş bəylər də bu Sultanovlar nəslindən idilər.

Danzaver (Ermənistan SSR) və Pirçivanda yaşayan üçüncü Sultanovlar nəsli zadəgan idilər, özləri də türkmən idilər.

Erməni kəndləri – Kovdar, Aşağı Xotanan, Yuxarı Xotanan; Azərbaycan kəndləri – Gürcülü, Əyin, Mistan, Qiyaslı, Göyərcik, Xallava, Aşağı Cibikli, Yuxarı Cibikli, Malatkeşin, Genlik, Məmmədli kəndləri danzaverli və pirçivanlı Sultanovların idi.

İskəndərbəyli, Ovqanlı, Göyarabas, Seytas, Bəxtiyarlı və Qarıqışlaq kəndlərində yaşayan müflisləşmiş bəylər də danzaverli Sultanovların nəslindən idilər. Qafanda çıxan misin onda biri pirçivanlı və danzaverli Sultanovlara çatırdı. Filiz Sultanovların Kovdar kəndindən çıxarılırdı. Çar hökumətinin qanununa görə isə faydalı qazıntılar torpaq sahibinin idi.

Pirçivan bəylərindən Kərim bəy Sultanov fevral inqilabından bir neçə il qabaq torpağındakı mis ehtiyatını səksən min manata satmışdı. Kefcil və əyyaş adam olan Kərim bəy bu pulların hamısını içib, qumara qoyub, axırda əli boş, lüt qalmışdı. Bu faktın özü göstərir ki, Sultanovların böyük gəlir mənbəyi Qafan misi idi.

Zəngəzurda başqa varlı mülkədarlar da vardı. Qıraq Muşlan, İçəri Muşlan, Zəngilan, Məmmədbəyli, Sobu, Tatar, Keçikli kəndləri Cavanşirovların idi. Erməni kəndi Kərəvic o zaman Gorusda yaşayan Lohraz bəy və Hüseyn bəy Behbudbəyovların idi. Mığri rayonundakı (Ermənistan) Birinci Vartanadzor və İkinci Vartanadzor kəndlərinin

sahibi Sərməstbəyovlar idi. Fərəcan, Diləlimuskənli, Saray, Kertizan, Göyyal kəndləri isə Hacıbəyovların idi.

Erməni mülkədarları Orbelyanlar – Xudabaxış Sultan və Samson bəy Lor, Lizin, Suvaryants, Kürdlər, Əlillər və yaşadıqları Tatıv kəndinin bir hissəsinin sahibi idilər. Bol çəltik zəmisi və meyvə bağları olan Dəmirçilər və Dondarlı kəndləri Xocamsaxlı kəndində yaşayan Kələntərovların və Aqark kəndində yaşayan Yeprem bəy Ağaxanovun idi.

Qarabağın varlı mülkədarlarının Zəngəzurda çoxlu kəndləri var idi. Dığ kəndi (800 ev) Rüstəmbəyovun idi. Ağdü (256 ev), Vağdü (245 ev) və Dərəkənd kəndləri Əli bəy və Mirzəli bəy Behbudovların idi. Xanlıq, Mahrızlı, Xəndək kəndlərinin sahibi Keyqubad ağa Cavanşirov idi. Həbib bəy Şəkinski isə Həkəri, Muradxanlı, Novruzlu kəndinin sahibi idi. Əliquluuşağı kəndinin camaatı isə Mehdibəyovun rəiyyəti idi. Mehdiquluxan Qarabağskinin (İbrahim xanın oğlu) qızı knyaginya Köhər ağa Usmiyeva – Məlik Pəyəsi, Comartlı, Cicimli, Qara dərəsi kəndlərinin sahibi idi, üstəlik də onun bu yerlərdə 27 min desyatin meşəsi vardı.

Bəylərin, yoxsul kəndlilərin boğazından kəsərək, özbaşına, quldurcasına dövlət torpağını zəbt etməsi barədə bir neçə misal çəkəcəyəm.

Ağalar bəy Cavanşir hər il Altıncı deyilən torpaq sahəsini Qara Göl kəndinin camaatına icarəyə verirdi. Son dəfə kəndlilərlə yazılı müqavilə azərbaycanca bağlanmışdı. Savadsız kəndlilərin əvəzinə müqaviləni imzalayan mollanın razılığı ilə Ağalar bəy Qara Göl kəndinin bütün torpağını və Şayıblı kəndinin bir hissəsini müqaviləyə salmışdı. Müqaviləni kənd yüzbaşısı təsdiq etmişdi. Bir müddət sonra Ağalar bəy Qara Göl kəndlilərindən müqaviləyə əsasən, icarə haqqı tələb etdi. Məhkəmə işi Ağalar bəy Cavanşirin xeyrinə kəsdi və bəy bu kəndin də sahibi oldu.

Başqa bir misal. İndiki Mığri rayonunun ərazisindəki Birinci Vartanadzor kəndinin 60 desyatin əkin yeri, 10 desyatin biçənəyi və



100 desyatin meşəsi olan "Mluş Bozdərə" adlı torpağı vardı. 1860-cı ildə kənd yüzbaşısı əlidərəli Sərməst bəyə bu torpaqdan müvəqqəti olaraq arpa əkmək üçün bir az yer vermişdilər. 18 il sonra Sərməst bəyin oğlu Bala bəy məhkəmə vasitəsi ilə "Mluş Bozdərə"yə görə kəndlilərdən 300 pud buğda, 150 pud arpa və 300 bağ ot almışdı. Sonralar isə Sərməstbəyovlar Birinci Vartanadzor və İkinci Vartanadzor kəndlərinin bütün torpaqlarını ələ keçirdilər.

1885-ci ildə Zəngəzurda dövlət torpağını öyrənən S.P.Zelinski yazır:

"...Zəngəzurda çoxları torpaq ələ keçirmək üçün heç bir şeydən çəkinmir. Şübhə yoxdur ki, qarşıdakı mərz çəkmə zamanı dövlət torpağının çox hissəsinin iddiaçısı olacaq, yəqin ki, dövlət çox torpaq itirəcəkdir, çünki onun tərəfində heç kim və heç nə yoxdur, əks tərəfdə isə yüzlərlə yalançı şahidlər və saxta sənədlər var".

Doğrudan da, istər böyük, istərsə də kiçik mülkədarlar, yalan, saxta yollarla Zəngəzurda çoxlu dövlət torpağı ələ keçirmişdilər. Kəndlilər hər yerdə mülkədarlara təzyiq göstərirdilər, amma sülh məhkəmələri demək olar ki, həmişə işi mülkədarların xeyrinə kəsirdi. 1885-ci ildə Zəngəzurda 68.443 desyatin dövlət əkin yeri vardı. 1917-ci ildə isə dövlətin yalnız 4.018 desyatin torpağı qalmışdı. Beləliklə, 64 min desyatin çox dövlət torpağı fırıldaqçıların, varlıların əlinə keçmişdi.

S.Q.Musaelyan 1912-ci ilin fevral ayında "Yujnı Kavkaz" qəzetində "Uzaq Zəngəzurdan" adlı məqaləsində "Buraja" ləqəbi ilə yazırdı:

"Əkin üçün yararlı olan dövlət torpağı çatmadığı üçün kəndlilər mülkədar torpaqlarını icarəyə götürürlər. Burada, başqa işlərdə olduğu kimi, kəndli əməyi amansızcasına istismar edilir"[1].

1917-ci ildə Zəngəzur qəzasında 2 222 desyatin malikanə, 1 939 desyatin bağ, 115 224 desyatin əkin yeri, 3 250 desyatin biçənək, 84 625 desyatin meşə və kolluq, 130 258 desyatin otlaq, 141 277 desyatin yaylaq otlağı və 17 749 desyatin başqa torpaqlar var idi[2].

---

[1] "Yujnı Kavkaz" qəzeti Yelizavetpolda nəşr olunurdu.

[2] Azərbaycan mərkəzi statistika idarəsinin xəbərləri, № 3 (5), 1922-ci il, səh. 7.

Doğrudur, Zəngəzurda Talışxanovlar və Zülqədərovlar kimi on min, yüz min desyatin torpağı olan iri mülkədarlar yox idi. Ancaq:

| | | | | | |
|---|---|---|---|---|---|
| "114 519 | desyatin | əkin yerinin | 97 706 | desyatini | |
| 130 258 | » | otlağın | » | 99 994 | » |
| 1 939 | » | bağın | » | 1.721 | » |
| 2.222 | » | malikanənin | » | 2.218 | » |

desyatini "nadel torpağı idi"[1].

Bütün bu nadel torpaqların sahibləri Sultanovlar, Cavanşirovlar, Behbudovlar, Rüstəmbəyovlar, Orbelyanlar, Behbudbəyovlar və Usmiyevlər idi.

Demək lazımdır ki, əkin yerlərinin yalnız 4,5 faizi suvarılan torpaqlar idi, qalanı isə quraqlıqdan çox ziyan çəkirdi.

Ağır güzəran Zəngəzur kəndlilərinin 80 faizini sələmçilərdən asılı eləmişdi. Orta hesabla hər kəndlinin 88 manat borcu vardı. Kəndli sələmçidən aldığı 100 manata ildə 20-24 manat faiz verirdi. Çox vaxt kəndli borcunu vaxtında qaytara bilmirdi, onda sələmçi borcun vaxtını bir il də artırır və nəinki borc pulun faizini, hətta keçmiş bütün illərin faizini alırdı.

Bütün bunlar kəndlilərin kölə vəziyyətində, yarıac yaşamasına və onların Zəngəzurdan çıxıb getməsinə səbəb olurdu. 1884-cü ildə qəza idarəsi 2 934 adama getmək üçün pasport vermişdi. Minlərlə zəngəzurlu çörək pulu qazanmaq üçün evindən-eşiyindən didərgin düşürdü.

İnqilaba qədər Zəngəzur Bakı neft mədənlərini fəhlə qüvvəsi ilə təmin eləyən yerlərdən biri idi. Özü də tək neft sənayesini yox. Zəngəzur kəndlisinə ölkənin çox şəhərlərində rast gəlmək olardı. Cavanşir, Cəbrayıl, Şuşa, Qazax qəzalarının, həmçinin Volqa boyu quberniyaların, Cənubi Azərbaycanın, Dağıstanın kəndliləri kimi, onlar da iş axtarmaq üçün Bakıya axışırdılar. Neft mədənlərində çalışan dartayçıların, yağlayıcıların, çilingərlərin, qazmaçıların çoxu

[1] Qalan 16.813 desyatinin 40.018 desyatini dövlətin, 12.795 desyatini sahibkarların idi.



zəngəzurlu idi.

Zəngəzurlu zəhmətkeşlər sinfi mübarizə meydanı olan proletar Bakısında fəhlələrin kapitalistlərin zülmündən, kəndlilərin isə mülkədarların əsarətindən azad olmaq ideyasından ilham alırdılar. Beləliklə, zəngəzurluların – azərbaycanlıların və ermənilərin – beynində "bolşevik" sözü möhkəm kök salmağa başlayırdı. Buna görə çoxlu zəngəzurlu Sovet hakimiyyətinin qələbəsi uğrunda fəal mübariz oldu.

Varlı bəylər kəndliləri amansızcasına istismar edirdilər. Bunu aydın təsəvvür etmək üçün bir-iki Zəngəzur mülkədarının kəndində kəndlilərin iqtisadi vəziyyətinə nəzər salaq.

Sultanovların ulu babası Nəcəf bəy hələ lap farsların hakimiyyəti dövründə Baxtiyarlı kəndində yaşayırdı. O, Nəsir Sultanın nəslindən idi. Nəcəf bəy Gürcülü kəndinin ilk feodal ağası olub. Kənddə olan hər şey onun ixtiyarında idi. Nəcəf bəyin dörd oğlu vardı: Əskər bəy, Niftalı bəy, Qasım bəy və Abdulla bəy. Gürcülü kəndinin camaatı da mal-qara kimi, bu dörd bəyin arasında bölünmüşdü. Bu kənddə cəmi 18 ev var idi, hər bəyə 4,5 ev düşürdü. Ona görə bəylər öz aralarında belə razılığa gəlmişdilər: iki bəy hərəsi 5 ev götürsün, iki bəy isə hərəsi 4 ev. Bölgü zamanı payına beş ev düşmüş bəylər hərəsi dörd ev götürmüş bəylərə başqa kəndlərindən bir ev versinlər.

Lakin vaxt keçdikcə dörd bəy ailəsi törəyib artdı, on iki ailə oldu. Bu vaxt kəndli evlərin sayı 28-ə çatmışdı. Ona görə hər bəyə 2,33[1] ev düşürdü.

Əgər Nəcəf bəyin zamanında 18 kəndli ailəsi bir bəy ailəsini təmin edirdisə, indi 28 ailə 12 bəyə muzdurluq edirdi. Buradan da kəndlinin

[1] Burada böyük oğulun varis olmaq hüququ yox idi. Kəndli həyətləri bəy oğlanları arasında bərabər bölünürdü. Gürcülü kəndində dediyimiz 28 evdən əlavə, əslən oralı olmayan, Qaradağdan gəlmiş 6 ev də var idi. Bu kəndlilər İran təbəələri idilər, ona görə hökumət sənədlərində adları yox idi. Ancaq onlar bəylərin xüsusi kəndliləri idi və bəylərin yerli kəndlilərin əlindən zorla aldıqları torpağı becərirdilər. Hərdən konsulluğun nümayəndəsi, naib onların yanına gələr, şahın təbəələrini qeydə alardı.

vəziyyətinin necə ağırlaşdığını görmək çətin deyil.

Onu da demək lazımdır ki, Gürcülü kəndinin su tutan torpağı yox idi. Burada heç bir aqrotexniki tədbir həyata keçirilmirdi, qoşqu heyvanı çatmırdı, torpaq susuz becərilirdi. Əkin sahələri, bir qayda olaraq, artmırdı. Belə bir acınacaqlı vəziyyətdə 28 kiçik kəndli təsərrüfatı hər il öz gəlirinin onda birini on iki bəyə töycü verirdi. Mülkədar kəndliyə heç bir alət, yaxud iş heyvanı vermirdi. Kəndli qanunla yalnız torpaq payı alırdı.

Bəylər özləri təsərrüfat saxlamırdılar, hətta bağları, bostanları belə olmurdu.[1] Hər bəy ailəsi səhərlər süd içmək üçün iki-üç sağmal inək saxlardı. Yağ və əti kəndlilər gətirərdilər, töycüdən əlavə bəyə "bəxşiş" də verərdilər.

Bəylər öz təsərrüfatı olmadığı üçün biyar günlərindən tamam istifadə edə bilmirdilər. Lakin bu onları narahat etmirdi. Onlar kəndlilərdən borclu qaldığı günlərin əvəzinə əlavə taxıl alırdılar. Buna görə də havayı bir-iki kisə taxıl verməkdənsə, kəndli üçün biyar gününü işləmək xeyirli idi. Sonra bəylər kəndliləri məcbur edirdilər ki, biyar əvəzinə Danzaverdə işləsinlər, yola gedən vaxtı da hesaba almazdılar (iki gün ora, iki gün də geri). Kəndlilər Danzaverdə ot çalır, qurudur, toplayıb taya qurur, qışa odun tədarük edir, taxıl döyürdülər. Əgər bütün bu işləri biyar müddəti qurtarmasalar, onları Danzaverdə artıq saxlayırdılar. Bu artıq qaldıqları günləri isə gələcək biyar günlərindən çıxmırdılar.

Kəndlilər öz gəlirlərindən hər il dövlətə müxtəlif vergi verməli idilər: torpaq vergisi, "tüstü" vergisi, əskər vergisi və s. Yüzbaşılar, pristavlar və digər polis işçiləri müxtəlif bəhanələrlə kəndlilərin olan-qalanını tutub əllərindən alırdılar.

Əlbəttə, mollalar, seyidlər də kəndliləri rahat buraxmırdılar.

---

[1] Bərgüşad çayının üstündə, Gürcülü kəndində Abdulla bəyin gözəl bağı var idi. Sonra bu bağ onun oğlanları: Şirəli bəyə və Məşədi Həmid bəyə qalmışdı. Biyardan əlavə, kəndin camaatı hər il bu bağı suvarmaq üçün su anbarı tikər, meyvəni yığıb, atlara yükləyərək Danzaver kəndinə göndərərdilər.



Zəngəzurun çox kəndliləri amansız istismardan, qeyri-insani rəftardan yaxa qurtarmaq üçün ailələri ilə birlikdə doğma yerlərini tərk edir, heç olmasa, mövsümi iş tapmaq üçün şəhərə gedirdilər. Bizim dağ ətəyi və dağ kəndlərimizdə (Azərbaycan və erməni) elə yaşlı bir adam olmazdı ki, bir neçə il Bakı mədən və zavodlarında işləməsin. Kəndlilərin çoxu evə qayıtmaz, proletar ordusunu artırardı.

Bəylərin çoxu savadsız idi. Onlar hökumət idarələrində işləmirdilər, birisinin tabeliyində olmağı şəxsiyyətlərinə sığışdırmırdılar, bir qayda olaraq, kitab oxumurdular. Bəylərin özlərinin təsərrüfatı yox idi, şəhərlərə də getmirdilər. Məhərrəmlikdə isə şəbih çıxarılan vaxt, onlar da kəndlilər kimi əlləri ilə üzlərini örtüb, yalandan hönkürtü ilə ağlardılar.

Bəylər nə işlə məşğul idilər, vaxtlarını necə keçirirdilər? Axı onlar gözəl dağ havasında yaşayan çox sağlam adamlar idi! Onlar yaxşı yeyir, içir, yatırdılar, bir sözlə, həyatın bütün nemətlərindən zövq alırdılar. Xalq içində bəylər haqqında deyərdilər: "Ver yeyim, ört yatım, gözlə, canım çıxmasın". Bunlar əsl müftəxorlar, tüfeylilər idi, xalqın canına daraşıb, qanını sorurdular.

Bəylər nəinki həmişə bekar olurdular, hətta fikirləşməklə də özlərinə əziyyət vermirdilər. Onlar taxılın məhsuldarlığını artırmaq, əkin sahəsini genişləndirmək, kəndlilərin gəlirini çoxaldıb, bununla da öz gəlirlərini artırmaq qayğısına belə qalmırdılar.

Onlar kəndliləri ilə heyvandan da pis rəftat edirdilər. Bəy düşünürdü ki, böyük Rusiya imperiyasının ucqar yeri olan uzaq Zəngəzurda kəndli haqqını necə müdafiə edə bilər? Bütün bunlara baxmayaraq, kəndlilər tez-tez bəylərə qarşı açıq çıxış edir və ağalarını qəzəbləndirib, özlərindən çıxarırdılar.

"Kəndlilər birləşə bilmirdilər, o zaman kəndlilər tamamilə cəhalət içində boğulurdular... bununla belə, kəndlilər öz bildikləri və bacardıqları kimi mübarizə edirdilər"[1].

Bir neçə xarakterik əhvalat.

---

[1] V.İ.Lenin. Əsərləri, 6-cı cild, səh. 421.

Cavan kəndli Mikayıl Cəfərqulu oğlu bir neçə il Bakı mədənlərində işləmişdi. O bir az pul toplayıb, toy eləyirdi. Mikayıl uzaq qoğumu Haqverdinin qızı Zinyətlə evlənirdi. Qız oğlanı çox sevirdi.

Toya Mikayılın Bakıda dostluq elədiyi, qonşu erməni kəndi Gorudan olan çobanlar da dəvət edilmişdi. Onlar toyda adamlara danışırdılar ki, Bakıda mədən sahibləri ilə fəhlələr arasında qızğın mübarizə gedir. Qonşu Goru kəndindən gəlmiş qonaqlar öz hərəkətləri və danışıqları ilə başqalarından, hələ Bakıda olmamış kəndlilərdən seçilirdilər.

Onlar özlərini çox sərbəst aparır, heç nədən çəkinmir və bəyin toya gələcəyindən qorxmurdular.

Goru kəndindən gəlmiş qonaqların söhbəti toydakılara böyük təsir eləmişdi.

Çox adam gorulu gənclərdən soruşurdu:

– Doğrudanmı, elə bir gün gələcək ki, bəylər tamam olmayacaq?

– Bəli, dostlar, o gün gələcək! – deyə onlar cavab verirdilər.

Qonaqlar təzə bəydən soruşdular:

– Mikayıl, əgər indi bəy bura gəlsə, sən ayağa durmayacaqsan?

– Qətiyyən durmaram! – deyə Mikayıl cavab verdi.

Həmin gün gorulu qonaqların açıq söhbətindən bir neçə saat sonra Şirəli bəy Sultanov toy olan kəndə gəldi. Mikayıl dostları ilə qapıdakı böyük tut ağacının kölgəsində oturub arxayın söhbət edirdi. Adətə görə, bir kəndli kimi, Mikayıl bəyi görəndə gərək ayağa dura idi. Lakin bu gün elə etmədi.

– Köpək oğlu, niyə məni görəndə ayağa qalxmırsan! – deyə bəy Mikayılın üstünə düşdü. Çünki o, gördü ki, ağacın altında oturanların hamısı, Mikayıldan başqa, qonşu kənddən gəlmiş ermənilərdir.

– Söymə rəiyyət atamı, söyməyim bəy atanı!

Sultanov atdan sıçrayıb, Mikayıla yaxınlaşdı, yenə onu söydü, təhqir elədi. Mikayıl da onun cavabını verdi. Bəy əlini uzadıb Mikayılın yaxasından yapışmaq, onu döymək istədi. Mikayıl cəld geri çəkilib, xəbərdarlıq etdi:

– Yaxın gəlmə, bəy, vuraram!



– Ah, yaramaz! Məni hədələyirsən! Yaxşı, baxarıq...

Bəy qəzəblə Mikayılın üstünə atıldı. Həmin dəqiqə bəyin sağ qolu güclü bir zərbədən yanına düşdü. Mikayıl onun boğazından yapışdı, bəy büdrədi və az qaldı yıxılsın. Mikayıl bundan istifadə edib, onu yerə sərdi və boğmağa başladı.

– Şirəli bəy, bunu istəyirdin? Hə?.. Bunu istəyirdin?..

Kəndlilər bəyi güclə Mikayılın əlindən aldılar. Onlar Şirəli bəyə dedilər:

– Bu günlük bəsindir! Ümidvarıq ki, bəy, bir də bu cür səhvlər eləməzsən!

Pərt, biabır olmuş bəy gözaltı ermənilərə baxa-baxa, birtəhər atını minib, heç bir söz demədən çapıb getdi.

Mikayılın dostu Baqdasar Parseqyan dedi:

– Sən daha burada qala bilməzsən! Təzə pasport alana qədər, bizə gedək.

Sabahısı gün Mikayıl cavan arvadını qoca anasının yanına qoyub, kənddən yox oldu. Kəndlilər danışırdılar ki, o yenə Bakıya gedib və orada axtarıb tapa bilməsinlər deyə, atasının adını da dəyişib; Cəfərqulu oğlu – olub Heydər oğlu.

Bir neçə il keçdi. Mikayıl elə güman edirdi ki, Şirəli bəy əhvalatı çoxdan unudub, ona görə doğma kəndlərinə gəldi. Bəylər dərhal bundan xəbər tutdular, lakin səslərini çıxarmadılar. Bu qudurğana qulaq burması vermək üçün fürsət gözləməyə başladılar. Onlar bunu özlərinə müqəddəs borc bilirdilər: qoy başqa kəndlilərə də görk olsun! Bəylər belə fikirləşirdilər: "Əgər onlar dünən Şirəli bəyə əl qaldırmağa cürət ediblərsə, sabah Cabbar bəyə, bizim hamımıza əl qaldırarlar!"

Mikayılın kəndə qayıtmasını Şirəli bəy qohumlarından eşitdi. O silahlandı. Ancaq başqa bəylər onu başa saldılar ki, Mikayılın ölümü sakitcə, səssiz-səmirsiz, əlaltından hazırlanmalıdır.

Qohumları Şirəli bəydən soruşurdular:

– Necə oldu ki, sən o vaxt onu öldürmədin, axı sənin tapançan var idi?

– Onun erməni qonqları var idi, hamısı da tapançalı. Mən bunu o saat gördüm, – deyə bəy yalan danışıb, özünü doğrultmağa çalışırdı.

Bir dəfə bütün kəndə həyəcanlı xəbər yayıldı! Kəndlilər xəbər gətirdilər ki, daşnaqlar Ağcagöl bulağından kəndlilərin bütün mal-qarasını sürüb apardı! Hamı bulağa tərəf qaçdı. Bu zaman kənddə olan İsrafil bəy Sultanov da atını kəndlilərin dalınca çapdı.

Kəndlilər kiçik dərəyə endilər, sağa dönüb, dərənin qurtaracağındakı çaya tərəf yüyürdülər. Mikayıl onlardan yüz metr aralı, arxada gəlirdi. Birdən tüfəng atıldı. Mikayıldan bir az sağda toz qalxdı. Mikayıl elə bildi ki, güllə qabaqdan, daşnaqlar tərəfdən atılır, ona görə dayandı. "Daşnaqlar atdı? Bəs nə üçün səs arxadan gəldi? Mənə güllə atan kimdir?"

Arxadan güllə atan bəy idi. Amma gülləsi yayınmışdı. Bunu bəyin arxasınca gələn atlı, tüfəngli kəndli görmüşdü.

Mikayıl geri çevriləndə bəy dərədə iri kolun dalında gizlənmişdi, görünmürdü.

Tüfəngli kəndli bəyə çatıb qışqırdı:

– Siz Mikayılı vurmaq istəyirdiniz? Mən hamısını gördüm. Siz əminiz oğlu Şirəli bəyin təhqir edildiyini hələ unutmamışsınız? İndi ki belədir, biz də heç nəyi yaddan çıxarmayacağıq! Bu saat bütün kəndliləri çağıracağam. Qoy onlar bilsinlər ki, siz mal-qaranı qaytarmağa deyil, Mikayılı öldürməyə gəlibsiniz. Bəli, bəli, mən hər şeyi gördüm, eşitdim...

Bəy özünü itirdi. O, əli əsə-əsə güc-bəla ilə tüfəngi çiyninə salıb, kəndliyə dedi:

– Məgər sən görmədin, güllə o tərəfdən gəldi? Görünür, daşnaqlar atdılar. Güllə səsi eşidiləndə mən tüfəngi üzümə götürdüm.

– Bəy, yalan danışma! Mikayılı nişan aldığınızı mən özüm gördüm. Güllənin səsindən az qaldı qulağım batsın.

Bəy heç bir söz deməyib atını Göyqala tərəfə çapdı. O bir də kəndə qayıtmadı.



Erməni kəndi Zoraşində (keçmiş Goru) bir dəstə adam evin kölgəsində oturub söhbət edirdi. Qoca Api. Çarıqlıq gönü iti bıçaqla yavaş-yavaş qaşıya-qaşıya deyirdi:

–Evdə bir tikə çörək yoxdur. Uşaqlar səhərdən axşama kimi ağlaşır. Acından elə taqətdən düşmüşəm ki, bıçağı tuta bilmirəm. Amma Nikita ağa gəlib çıxmır...

Davud Parseqyan dedi:

– Nikita ağa toxdur, niyə tələssin?

Qalust Allahverdiyan əlavə etdi:

– Müsəlmanlar demişkən: "Toxun acdan xəbəri olmaz".

Söhbətə Minas Qalustyan qarışdı:

– Bəli, dostlar, nə qədər ki Nikita ağa var, biz ac olacağıq!

Cavan Baqdasar Parseqyan atlı onlara yaxınlaşdı. O, Bakıda bənna işləyirdi, bir neçə gün idi ki, kəndə qayıtmışdı.

– Nə barədə söhbət eləyirsiniz?

– Nə barədə söhbət eləyə bilərik, Baqdasar? Biz şumlamışıq, biçmişik, dərz bağlamışıq, ancaq nə qədər ki, Şuşadan ağamız Nikita gəlib icazə verməyib, döyməyə ixtiyarımız yoxdur! Acından qırılırıq, o isə gəlib çıxmır! – deyə qoca Api, Parseqyana cavab verdi.

Baqdasar atdan düşmədən dedi:

– Api əmi! Niyə gözləyirsiniz, icazəsiz döyün!

Minas əlavə etdi:

– Mən də elə sən deyəni deyirəm. Nə üçün Davud bəy tək-tək düşmənlərinə qalib gəlirdi, biz isə tək Nikita ağa ilə bacarmarıq? Məgər igid adamlarımız azdır! Sən doğru deyirsən, Baqdasar! Gözləməyə dəyməz, taxılı döymək lazımdır!

Səhəri cavan Baqdasar taxılı döyməyə başladı. Onun evində təzə buğda lavaşı bişdi. O, kəndi gəzir və kəndlilərə lavaş paylayırdı. Bunu görüb başqa kəndlilər də taxılı döyməyə başladılar.

Bu əhvalatdan bir neçə gün keçmiş Nikita ağa kəndə gəldi. O, kənddə bir dəstə adamı yanına çağırdı.

– Taxılı döyməyə kim sizə icazə verib?

Kəndlilər dinmədilər. Nikita ağa adam göndərib Minas babanı çağırtdırdı.

– Sən qoca adamsan, günah eləmə, düzünü de görüm, taxılı əvvəlcə kim döyüb?

– Heç kim.

– Necə, heç kim? Axı hamı taxılı döyüb?!

– Düzdür, hamımız bir yerdə döymüşük.

– Sizi kim başdan çıxartdı?

– Aclıq! – deyə arxa cərgədən Baqdasar Parseqyan qışqırdı.

– Ah-a!.. Cavan oğlan, bir yaxına gəl!

Baqdasar cəld camaatı yara-yara mülkədarın qabağına yeridi. Nikita ağa onu təpədən dırnağa qədər süzdü. Baqdasarın əynində Bakıdan alınma paltar, başında kepka, ayağında təzə çəkmə var idi. Pencəyinin altından saat zənciri görünürdü. Nikita ağa başa düşdü ki, kəndlilərin taxılı icazəsiz döyməsinə səbəb Bakıdan gələn bu cavan oğlan olmuşdur. Görünür, o, Bakıda dəfələrlə inqilabçılardan eşitmişdi ki, kəndliləri mülkədar zülmündən azad etmək lazımdır.

– Sən Bakıdan nə vaxt gəlibsən?

– Bu il.

– Bəs nə üçün taxılı döyübsən?

– Çünki ailəmiz acdır.

– Cəhənnəmə ac olsun, sənin ailən! Taxılı döyməyə sənə kim icazə verib? – Nikita xırıltılı səslə bağırdı və dönüb yola tərəf baxdı.

Baqdasar kəndlilərin hamısının gözünü ona zillədiyini görüb düşündü: "Mən gərək qorxaqlıq eləməyəm!" O, tərs-tərs Nikita ağaya baxdı. Nikitaya elə gəldi ki, Baqdasar bu saat onun üstünə atılacaq. O, təşviş içərisində yenə də Gorus yoluna baxdı. Kəndlilər işin nə yerdə olduğunu başa düşdülər: ağa bura gəlməmişdən qabaq polis çağırmışdı.

Baqdasar dedi:

– Necə məgər, cənab Nikita, öz çörəyimi yemək üçün səndən icazə almalıyam?



Bu sual Nikita ağanı dəli elədi. O, yolda polisləri görmədiyi üçün mülayim-mülayim dedi:

– Cavan oğlan, burada səndən yaşca böyük adamlar var. Qoy mənimlə onlar danışsınlar. Sən söhbətimizə qarışma.

– Axı məni siz özünüz çağırdınız.

Atlar yolda toz qaldırmışdı.

Kəndlilərdən kim isə qışqırdı:

– Gəlirlər!

Birdən Nikita ağa vəhşicəsinə bağırdı:

– Sən Bakıdan bura kəndliləri qızışdırmağa gəlmisən!

Baqdasar anladı ki, tələyə düşüb, ancaq geri çəkilmək gec idi.

O düşündü: "Mikayıl Cəfərqulu oğlunu biz Sultanovların əlindən qurtardıq. Görəsən, indi mənim başıma nə gələcək?"

Baqdasar qəzəblə dedi:

– Kəndlilər sizin əlinizdən cana gəliblər! Siz onlara zülm edirsiniz! Çörəklərini əllərindən alırsınız!..

Nikita ağa ona yaxınlaşan qalabəyiyə dedi:

– Bu üsyankarın nə dediyini eşitdiniz?

– Bəli, Nikita ağa, eşitdik! Hər şey aydındır.

Ağa bağırdı:

– Bəs niyə dayanmısınız!? Üsyankarı tutun!

Strajniklər Baqdasarın qolunu burdular, soyundurub döyməyə başladılar. Kəndlilər kənarda durub tamaşa edirdilər. Baqdasarın ağzından qan gəldi. Bərk döyüldüyü üçün o həmin gün öldü...

Zoraşin kəndində qocaların oturub söhbət elədiyi və Baqdasarın onlara yaxınlaşıb, taxılı döymək barədə söhbət elədiyi həmin yerdə ona ağ daşdan heykəl qoyulub. Bu daşın mədənini Zoraşinin yaxınlığındakı dağda Baqdasar tapmışdı.

Qoca Matevos Artünyan sonralar deyirdi:

– Baqdasar öləndən sonra təzə tikməyə başladığı evi xeyli müddət yarımçıq qaldı. O öz evinin divarlarını bu ağ daşdan hörürdü.

İndiki Zəngilan rayonunun Keçikli kəndində Balakişi İsmayıl oğlu

adında bir gənc yaşayırdı. O, hələ uşaq vaxtı kəndlilər yerli mülkədar Azad ağa Cavanşirovun qabağında baş əyəndə, onun buyruqlarını qul kimi sözsüz yerinə yetirəndə özündən çıxar, hiddətlənərdi. Balakişi həmişə özünü azad və sərbəst aparar, heç vaxt bəylərin qabağında əyilməzdi.

Balakişi böyüdükcə Azad ağa daha çox narahat olur, ona göz qoyurdu.

Bir dəfə Balakişi başını dik tutub, məğrur-məğrur bəyin evinin yanından keçərkən, Azad ağa nifrətlə ondan soruşdu:

– Oğlan, niyə özünü çəkirsən? Elə bil sən də mənim nəslimdənsən, adlı-sanlı bir nəsildənsən? Unutma ki, mənim rəiyyətim İsmayılın oğlusan. Başa düşdün? "Cinsin itirən bic olar!"

Balakişi dedi:

– Azad ağa, məgər mənim atam İsmayıl sənin və yaxud ağaların, bəylərin törətdiyi insan nəslindən deyil?

– Həyasızın biri, həyasız! Yoxsa deyəcəksən atan İsmayıl da Cavanşirovlar səltənətinə mənsubdur?! Deyəcəksən ki, baban İbrahim xanın[1] nəticəsidir?

– Mən, ata-babam kəndli olduğu üçün fəxr edirəm, ağa! Mənim nəslimdə başqasının qanını soran adam yoxdur.

Azad ağa özünü itirdi. O, karıxmış halda ətrafına baxdı ki, görsün bu cavan oğlanın sərt cavablarını eşidib eləyən yoxdur ki? Qəzəbindən bəyin əlləri əsir, üst dodağı dartınırdı.

Bəy dinmir, nə isə düşünürdü. Onun həyəcanlı nəzərləri narahat halda ətrafı süzürdü. Gözü qarşısında hündür sıldırım dağlar ucalırdı. Bu dağların Qafana sarı olan dik, sıldırım döşündə bal arısı pətəyi var idi. Orada bu təbii pətəklərdə arılar bal toplamışdı. Arı pətəkləri ilə dolu bu sıldırım dağları Azad ağa özünün "qoruğu" elan etmişdi.

Azad ağanın inandığı adamlardan başqa, heç kəs bu pətəklərə yaxın gedə bilməzdi.

Bəyin nəzərləri yavaş-yavaş kəndə tərəf gələn, dallarında bal

[1] Pənah Əli xanın oğlu İbrahim xan nəzərdə tutulur.



gətirən kəndlilərə sataşdı. Lakin indi onun ürəyini heç nə açmazdı. Bu saat bal onun nəzərində heç nə idi. Azad ağa uzaqda görünən Rəzdərə və Sobu meşələrinə baxa-baxa fikirləşirdi: "Bu həyasız Balakişi ilə orada haqq-hesab çəkmək olar. Bu qalın meşəlikdə onun heç meyidi də tapılmaz!"

Bəy bədxah düşüncəyə qapıldığı üçün bir dəfə də olsun Balakişinin üzünə baxmadı. Balakişi isə, əksinə, gözünü bəyin tez-tez dəyişən üzünə zilləmişdi.

Azad ağanın arvadı eyvana çıxdı. O, ərini görüb ürəkləndi və Balakişini ələ salmaq istədi:

– Ay gədə! Gəl bu döşəkləri apar bağda çırp!

– Xanım, özünə ayrı gədə tap! Məndən sənə gədə olmaz!

Xanım üzünü ərinə tutdu.

– Eşidirsən, nə deyir?

– Eşidirəm. Ancaq bilirsənmi, o mənim xoşuma gəlir. Vicdan haqqı! Belə qorxmaz gənclər həmişə mənə lazımdır. O mənim sağ əlim olacaq! – Bəy, Balakişiyə tərəf dönüb, yumşaq, mehriban-mehriban dedi: – Balakişi, sən hələ çox cavansan! Sən yaşda olanda adam elə bilir ki, həyat dümdüz yol kimidir. Ancaq, cavan oğlan, özünü ələ al, yadında saxla: həyatda çox eniş-yoxuş var. Onları keçməyi bacarmaq lazımdır. Sən məni başa düşdün?

Balakişi gözlənilmədən belə dəyişən bəyə inanmırdı. Üstəlik də Azad ağanın kəndli Məmmədqulu Bağır oğluna tutduğu divan hələ Balakişinin yadından çıxmamışdı.

Bütün kənd camaatı Məmmədqulunun bacarıqlı, zəhmətsevən, ürəyi düz, bəylərə heç vaxt yaltaqlanmayan adam kimi tanıyırdı. Azad ağa onunla çox hesablaşırdı, ova gedəndə çox vaxt özü ilə aparırdı. Məmmədqulu, bəyin xasiyyətini bildiyi üçün, yalnız onun gülləsi boşa çıxanda atardı. Bir dəfə bəyin iki gülləsi boşa çıxandan sonra, Məmmədqulu iki gülləyə iki keçi vurdu. Dilxor olmuş bəy qəzəbləndi:

– İt oğlu! Bəlkə, deyəcəksən onları sən vurdun?

Məmmədqulu dözməyib, cavab verdi:

– Əlbəttə, deyəcəyəm, keçiləri mən vurmuşam!

Azad ağa bunu oğlana bağışlaya bilmirdi. Bundan bir müddət sonra o, qohumu əlli yaşlı Teymur bəy Cavanşirovgilə getdi və onun varlı Bəylər bəy Mirzəyevin on dörd yaşlı qızını almasına kömək etdi. Teymur bəy isə əvəzində ona söz verdi ki, kəndli Məmmədquluya divan tutacaq.

Bir bazar günü Azad ağa Məmmədqulu ilə Zəngilana, Teymur bəyə məktub göndərdi. Burada Məmmədqulunu guya "dikbaşlıq" etdiyi üçün strajniklər tutdular. Strajniklər onun sağ əlini və sağ ayağını bir ağaca, sol əlini və sol ayağını başqa ağaca bağlayıb, şallaqla döyməyə başladılar. Məmmədqulu al-qana boyanmış, huşunu itirmiş, ölü kimi ipdən asılı qaldı.

Onu döyülmüş, əzilmiş, yarımcan halda xərəyə qoyub, Pirçivana tibb məntəqəsinə gətirdilər. Lakin çar məmuru olan həkim bildirdi: "Əgər Teymur bəydən, ya da Azad ağadan kağız olmasa, müalicə eləmərəm".

Məmmədqulu altı ay yorğan-döşəyə düşdü...

Balakişini ələ almaq üçün Azad ağa hər fəndə əl atır, kəndlilərin yanında onu tərifləyirdi, hətta bir dəfə ona bir tüfəng də bağışladı.

– Götür, mənimlə gedəcəksən...

Balakişi tüfəngi götürdü, fikirləşirdi ki: "tüfəngim olandan sonra heç kimdən qorxum olmaz".

Bir neçə ay Azad ağa başqa kəndə gedəndə həmişə Balakişini də özü ilə aparardı. Bir neçə dəfə ova getdilər. Hər dəfə Azad ağa özünü elə apardı ki, guya gəncin xatirini istəyir. Dəfələrlə fürsət olmasına baxmayaraq, onu vurmadı. Bütün bunlar Balakişini bu qənaətə gətirdi ki, bəy ona yaxşı münasibət bəsləyir. Balakişi düşünürdü: "Bəy daha kəndliləri də döymür. Görünür, dəyişmişdir".

Bir dəfə onlar bəyin təklifi ilə Sobu kəndinə gedirdilər. Keçikli kəndi ilə Əsgərlər kəndinin arasında yol təzə salınmış qalın pöhrəlikdən keçirdi. Burada yol azacıq haçalanır, sonra yenə birləşirdi. Bu yerdə



Balakişi bir az bəydən geri qalmışdı, ona görə də o biri yola düşdü və beləliklə, qalın kolların arasında gizlənmiş Azad ağadan qabağa keçdi. Bəy belə fürsəti çoxdan gözləyirdi. O dəqiqə nişan alıb, Balakişini vurdu. Lakin güllə gəncin ürəyinə dəymədi. O, tüfəngi çiynindən çıxartdı. Lakin ikinci güllə onu atdan yerə saldı.

Azad ağa Keçikliyə qayıdıb, kəndlilərə dedi ki, pöhrəlikdə onların üstünə qaçaqlar düşdü. O, güclə qaçıb canını qurtardı, Balakişi isə öldü. Lakin Balakişinin yaraları bəyin qanlı cinayətini aydın göstərirdi.

1909-cu ilin baharında Şirəli bəy Sultanov kəndlilərini bəylərin meyvə bağlarına arx çəkməyə toplayırdı. Şirəli bəyin nökəri kəndə gəlib molla Abbasdan[1] at istədi. Mollanın arvadı, mənim bacım atı vermədi. Buna görə nökər bacımı söydü. Mən buna dözməyib nökəri daşa basdım, söydüm. Səsə qadınlar çıxdılar və nökəri atı aparmağa qoymadılar.

Mən həyəcanlanmış halda bəyə şikayət etməyə qaçdım. Düz bəyin üzünə dedim:

– Niyə sizin nökər atımızı aparır, hələ üstəlik bacımı da söyür!

Bəy sözümə axıra kimi qulaq asmayıb, yaxamdan yapışdı, məni döyməyə başladı. Yanımızda bir dəstə kəndli dayanmışdı, dayım da, əmim oğlanları da onların arasında idi. Onların hər biri istəsə, bəyin qol-qabırğasını sındırardı, ancaq heç biri cürət eləyib məni bəyin əlindən almadı. Mən döyülmüş, suyu süzülə-süzülə evə qayıtdım. Molla Abbas bu zaman Gorusda idi. O bu əhvalatı eşidib, Sultanovların ağsaqqalları Cabbar bəyə və Rüstəm bəyə məktub yazdı. O, məktubda

[1] Molla Abbas dini təhsili Təbrizdə almışdı. O, məhəllə mollası deyildi, lakin Quranı və digər dini kitabları məscid mollalarından yaxşı bilirdi. O, Gorusda xırda alverlə məşğul olar, yas yerlərində müftə namaz qılar, kəbin kəsərdi. Buna görə adamlar mollalarından çox onun yanına gələrdilər. Molla Abbas kəndlilərin hüsn-rəğbətini bir də ona görə qazanmışdı ki, o mülkədarların hərəkətlərini aşkarca pisləyirdi, çünki hamı kimi o da bəylərə töycü verir və onların elədikləri haqsızlıqları görürdü. Molla Abbas danışmasın deyə bəylər razı idilər ki, ondan töycü almasınlar, lakin bunu bacarmırdılar.

onlara xəbərdarlıq edirdi: "Dəlinizə öyüd-nəsihət verin, bizim də dəlimiz var".

Yayda, biçindən sonra, biz bir aylığa Danzaverin üç kilometrliyindəki Mac kəndinin yaxınlığındakı yaylağa köçdük. O vaxt bizim bəylər orada yaşayırdılar.

Dumanlı, qaranlıq bir gecə it səsinə alaçıqdan eşiyə çıxdıq və alaçığın qabağında bir neçə atlı gördük. Qonaq bilib atların başını tutduq. Ancaq gözlənilmədən mənə bir neçə tatarı dəydi. Mən atın cilovunu buraxıb, alaçığın yaxınlığındakı kolluğa qaçdım. Əmim oğlu Ələkbər də tez qaçıb mənim yanıma gəldi.

Biz Calal bəy, İsmayıl bəy, Həmid bəy Sultanovları və onların nökərlərini tanıdıq. Calal bəy çar zabiti idi. O, qəzaya gələndə polislər də qorxularından o gedənə qədər gözünə görünməzdilər. Calal bəy cəzasız-filansız istədiyi adamı öldürər, heç kəs ondan şikayət etməyə cürət etməzdi.

Bizim və bacımgilin alaçığında baş verən əhvalata kolun dalından tamaşa edirdik.

Calal bəy qahala girib, nökərlərə əmr etdi ki, dörd sağmal inəyi çıxarıb kəssinlər. Heyvanların ayağını iplə bağlayıb böyrü üstə yıxdılar. Nökərlər əllərində iti bıçaq Calal bəyin üzünə baxırdılar. Yəqin onlar bu dəqiqə düşünürdülər: "Axı bu inəklər boğazdır, ətini yemək olmaz. Həm də sağmal inəyi kəsmək günahdır!".

Calal bəy bağırdı:

– Niyə durmusunuz? Sizə deyirlər kəsin!

Nökərlər inəkləri kəsdilər. Ancaq ucaboy, qüvvətli bir adam olan Abbas Məmmədhəsən oğlu, – bəy ona da kəsməyi əmr etmişdi, – bıçağı yerə atıb dedi:

– Mən elə bilirdim ki, sizin, az da olsa, insafınız var. Bəy əmr eləsə də, qonşumun inəyini kəsmərəm.

Bəy onun kəsmək istəmədiyi inəyi nökərə kəsdirdi.

Kim isə alaçığın keçəsini qaldırdı. Qoca atam bəyi görüb, yavaş-yavaş qıçları əsə-əsə qabağına yeridi.



– Hanı yeznən? – deyə bəy onun üstünə qışqırdı və qolaylanıb qocaya bir sillə çəkdi.

Atam yerə sərildi. Mən bəyin üstünə atılmaq istədim, lakin əmim oğlu Ələkbər qoymadı.

Qorxu-hürkü bilməyən böyük bacım qışqıra-qışqıra alaçığa girib, atamın başını qucaqladı və qocaya dedi:

– Qalx ayağa! Düşmənlərimiz gülər, bir gün Allah onların cəzasını verəcək!

Calal bəy tez ona tərəf dönüb soruşdu:

– Bu arvad kimdir?

Cavab verdilər ki, molla Abbasın külfətidir.

– Belə de! Axır ki, əlimə keçdi. Eybi yoxdur, biz Allahın iradəsini bu saat sənə göstərərik.

Calal bəy bunu deyib bacımın qolundan yapışdı və onu alaçıqdan bayıra atdı.

Bacım yerdən qalxıb, tez öz alaçıqlarına qaçdı. Calal bəylə İsmayıl bəy də onun arxasınca alaçığa girdilər. Alaçığın girəcəyində köhnə samovar, stəkan və dəm çayniki var idi. Bəy bir təpiklə samovarı aşırdı. Samovar beş yaşlı bacı oğlum Həsənin üstünə düşdü. Xoşbəxtlikdən samovarın suyu soyuq imiş, ancaq uşağın üzünü qanatmışdı. O qışqırdı.

Bacım özünü uşağa tərəf atdı. Lakin onun qabağını kəsdilər. Calal bəy qışqırdı:

– Ərin hanı? Hanı sizin "dəliləriniz"?

– Özünüz yaxşı bilirsiniz, ərim Gorusdadır. Məndən nə istəyirsiniz? Əgər sizə ərim lazımdırsa, gedin tapın...

– Biz sənin dilini kəsəcəyik, ifritənin biri!

– Arvadla arvad dalaşar. Axı siz, deyəsən, kişisiniz!

Calal bəy bacımın saçından yapışıb, sifətinə bir yumruq ilişdirdi. Bacım alaçıqdan çıxıb qaçdı.

Calal bəy bizim alaçığa qayıdıb atamın yanında oturdu. Atam bu müddət bir balaca özünə gəlib yerdən qalxmışdı. Calal bəy cibindən

bir parça kağız və karandaş çıxartdı. Tapançanı qocanın gicgahına dirəyib dedi:

– Nə desəm, bu kağıza yazarsan, yoxsa öldürəcəyəm.

Atam bilirdi ki, bu yaxınlarda Calal bəy pirçivanlı Seyid Məcidi öldürüb, heç kim də ona bir söz deyə bilməyib. Qoca kişi barmaqları əsə-əsə bəyin dediklərini ərəb əlifbası ilə yazdı: "Möhtərəm molla Abbas. Böyük oğlun Həsən bu gün öldü. Tez bir qədər çay, qənd, ağ və stirkafir al, gəl. Sənsiz dəfn etməyəcəyik".

Calal bəy dartıb kağızı qocanın əlindən aldı. Əmim oğlu Məhərrəmi yanına çağırıb, kağızı vermişdən əvvəl ona bərk bir sillə çəkdi, sonra dedi:

– Əgər mollanı bura gətirməsən, səni öldürəcəyəm. Bu dəqiqə çap yanına...

Bəy alaçıqdan çıxanda ona tərəf gələn qoca, arıq sümükləri çıxmış ucaboy bir arvadla toqquşdu:

– Bu qoca kaftar kimdir?

– Molla Abbasın anası Nərgiz qarıdır! – dedilər.

Calal bəy soruşdu:

– Hanı oğlun?

Qocalıb taqətdən düşmüş, üzü qırış-qırış olmuş qarı başını qaldırıb, solğun, sönük gözlərini qudurmuş zabitin üzünə zillədi. Qarının üzündəki dərin qırışlar, çuxura düşmüş göy gözləri göstərirdi ki, onun azı 80 yaşı var. Bu, qocalıqdan cadar-cadar olmuş üzdə dərin nifrət vardı.

Calal bəy qoca qarının sərt baxışlarına dözməyib bağırdı:

– Nə üzümə baxırsan?! Rədd ol buradan!..

Qarı dinməzcə dönüb, qaranlıqda gözdən itdi. Bəylər gedəndən sonra biz qarını görməyəndə belə güman etdik ki, Mac kəndinə gedib. Lakin molla Abbasın anası şir ürəkli arvad idi. O, başa düşürdü ki, bəylər yollarda pusqu qoyub oğlunu tuta bilər, ona görə heç kəsə etibar etməyib, onu xəbərdar etmək üçün özü yola çıxmışdı...

Molla Abbasın canişinə, qubernatora və hətta çara vurduğu



teleqramlara görə məmurlar gəldilər. Onlar gecə basqınını təsdiq etdilər. Lakin dedilər ki, gecə çox qaranlıq olduğu üçün basqınçılardan heç birini tanımaq mümkün olmamışdır.

S.Q.Musaelyan 1912-ci ilin fevralında "Yujnı Kavkaz" qəzetinin 92-ci nömrəsində dərc olunmuş "Uzaq Zəngəzurdan" adlı məqaləsində yazırdı:

"Məhkəməyə fakt, sübut, şahid lazımdır, onları haradan tapasan? Kim cəsarət edib bu bir ovuc istismarçının məhkəmədə üzünə durar? Bu cəsarətli adamları ən ağır cəza, hətta ölüm gözləyir!"

Bununla iş qurtardı. Lakin o vaxtdan molla Abbas bütün qəzada bəylər arasında "şuluqçu" kimi şöhrət tapdı. Sonralar görəcəyiniz kimi, bəylər bunu 1919-cu ildə xatırlayacaqlar.

Sədətqulu bəy mülkədar Sultanovun yanına gəlib Eyvazlıdakı payını satmaq istədiyini dedi. Sultanov bundan çox şad oldu. Sədətqulu bəy belə bəhanə gətirdi ki, guya Eyvazlı bəyləri kənddə üsyançıların qabağını ala bilmirlər, qorxurlar ki, bu işin axırı pis olsun. Sədətqulu bəyin də hissəsini alıb, Sultanov, demək olar ki, bütün malikanənin ağası oldu.

Bir dəfə Eyvazlıya gələrkən Sultanov xəbər tutdu ki, kəndli Ələsgər Gülməmməd oğlu yerli bəylərə tabe olmur. Sultanov əmr etdi ki, Ələsgəri kəndlilərin gözünün qabağında bərk döysünlər. Ələsgər alqan içində zarıyırdı.

Kəndli Qarabəy qaşqabaqlı, bığlarını didişdirə-didişdirə, dinməzcə bədbəxtə verilən işgəncəyə tamaşa edirdi. Getdikcə Qarabəyin gözləri qanla dolurdu, əlləri əsirdi. Birdən o, yerindən sıçrayıb Eyvazlı bəylərinin arasında dayanmış Sultanovun üstünə cumdu.

O, səsi titrəyə-titrəyə hiddətlə dedi:

– Bəy! Ələsgərin ailəsi ac-yalavacdır! O, Gorusa bir eşşək yükü odun aparıb satır, iki günlük çörək alır. Eyvazbəyovun sizə məktub aparmaq əmrini necə yerinə yetirə bilərdi? Axı o iki gün işləyib, ailəsinə iki günlük çörək qazanır, yoxsa ailəsi ac qalar... Bəy, insafınız olsun!

Eyvazbəyov onun sözünü kəsdi:

– Sən kimsən? Niyə özünü ortaya soxursan? Onun vəkilisən?

Lakin Qarabəy daha susa bilmədi:

– Bəy, axı o da insandır! Onun ailəsi, uşaqları var! Siz bircə dəqiqəliyə özünüzü onun yerində təsəvvür edin, görün, necə olarsınız!

Eyvazbəyovun ortancıl qardaşı Nüsrət bəy Qarabəyin sözünü kəsib, ədəbsizcəsinə onu söydü. Qarabəyin qəzəbdən boynunun və gicgahının damarları şişdi. Lakin o özünü saxlayıb, yenidən Sultan bəyə müraciət etdi.

– Bəy, mən sizə müraciət eləyirəm! – O, başı ilə Eyvazbəyovları göstərdi: – Mən onların sözünə fikir vermirəm. Bəy, siz deyin, bu qədər təhqirlərə, alçaldılmalara dözərdinizmi?

Sultanov susurdu. Onun ətrafındakı bəylər də ağızlarını açmırdılar. Qarabəy özündən çıxdı:

– Əgər, bəy, sizi də belə döysələr, təhqir etsələr, palçığa bulasalar, nəcib bəy ürəyiniz buna necə dözərdi? Belə təhqirlər uzun müddət, ölənə kimi insanın yadından çıxmır.

Hamı Sultan bəyin üzünə baxırdı. Nəhayət, o, cavabını götür-qoy eləyirmiş kimi asta-asta dedi:

– Sənin deməyindən belə çıxır ki, bu yaramızı bağışlayaq, döyməyək? Yox-x! Bu mümkün deyil! Bu danışıqdan sonra elə səni də yaxşıca tənbeh etmək lazımdır. – Birdən Sultanov Eyvazlı bəylərinin və nökərlərin üstünə qışqırdı. – Arvad kimi niyə dayanmısınız? – Onlar Qarabəyin üstünə tökülüşüb döyməyə başladılar. Amma Qarabəyin oğlu Yadigar əllərini yumruq boyda daşla doldurub, qonşu daxmanın üstünə çıxdı və oradan bəylərin başına atmağa başladı. Bəylər çaşdılar və Qarabəydən əl çəkdilər. Qarabəy bundan istifadə edib, tüfəngini götürmək üçün evə qaçdı.

Qarabəy bir anlığa qapıda ayaq saxladı, kəndlilərə müraciətlə qışqırdı:

– Qoy nə olacaq, olsun! Mən onsuz da biabır olmuşam!

Ancaq kəndlilərin hamısı bir adam kimi, onun arxasınca evə



cumdular: onlar bilirdilər ki, bu iş bütün kəndi fəlakətə sala bilər. Qarabəy içəri girəndə kəndlilər eşikdən qapını bağladılar.

Kəndin ən yaşlı ağsaqqalları olan məşədi Bədəllə məşədi Şirin bəylərdən təvəqqe etdilər:

– Allah xatirinə, bir xəta baş verməmiş, çıxın gedin!

Bəylər ağsaqqalların məsləhətinə dərhal qulaq asdılar. Qarabəy bu hadisədən sonra ta inqilaba qədər tüfəngini əlindən yerə qoymadı.

Bəylərin etdikləri özbaşınalıqların heç biri kəndlilərin yadından çıxmırdı. Hadisənin nə vaxt baş verməsinə baxmayaraq, lap üstündən on illər keçmiş olsa da, bekar vaxtlarında bir yerə toplaşanda onlar unutmaq mümkün olmayan həmin hadisələri xatırlayır, həyəcanlı-həyəcanlı bir-birinə danışardılar. Beləliklə, kəndlilərin bəylərə olan sonsuz nifrəti nəsildən-nəslə, qəbilədən qəbiləyə keçirdi.

Ona görə xalqın çoxdan bəri coşan qəzəbinin, nifrətinin, nəhayət, bir gün partlayacağını əsrlərdən bəri davam edən feodalizmin təməlini, ildırım çürük ağacı külə döndərən kimi, dağıdacağını gözləmək təbii idi. Bu hadisə bütün Zaqafqaziyada olduğu kimi, 1917-1922-ci illərdə Zəngəzur qəzasında da baş verdi. Biz bu hekayətimizi həmin hadisələrə həsr etmişik. Doğrudur, bu əsər Zəngəzurun 1920-ci ildən sonra Qubadlı qəzası adlanan, azərbaycanlılar yaşayan hissəsində baş vermiş hadisələrin hamısını əhatə etmir, lakin yeri gəldikcə bütün Zəngəzurda baş vermiş mühüm hadisələrə də toxunulur.

*İKİNCİ FƏSİL*

## KÖMƏK ŞİMALDAN GƏLƏCƏK

Petroqradda fəhlə və əsgərlər 1917-ci ilin fevralında mütləqiyyət əleyhinə üsyan qaldırdılar. Fevralın 27-də inqilab qalib gəldi və çar hökuməti devrildi.

Ölkədə ikihakimiyyətlilik meydana gəldi. Bir tərəfdən burjuaziya diktaturasını təmsil edən müvəqqəti hökumət, digər tərəfdən isə kəndli və proletar inqilabi-demokratik diktaturası olan fəhlə və soldat deputatları Sovetləri fəaliyyət göstərirdi.

V.İ.Leninin Aprel tezisləri və VII Ümumrusiya partiya konfransı xalqa burjua-demokratik inqilabından sosialist inqilabına keçməyin konkret planını verdi. Partiya xalq kütləsini bütün hakimiyyətin xalqa sülh, azadlıq və çörək verəcək Sovetlərə verilməsi uğrunda mübarizəyə çağırdı.

Bolşevik partiyası, proletariatı öz bayrağı altına toplayıb, xalq kütlələrini öz işinin doğruluğuna inandırdı və onları Müvəqqəti hökumətə qarşı qəti mübarizəyə qaldırdı.

Bolşeviklərin rəhbərliyi altında Rusiya fəhlə sinfi və zəhmətkeş kəndlilər 1917-ci ilin oktyabrında burjua müvəqqəti hökumətini devirdi və Sovet Sosialist Respublikasını elan etdi.

Fevral inqilabından sonra Bakıda ictimai təşkilatların İcraiyyə Komitəsi, Müvəqqəti hökumətin hakimiyyət orqanı və Fəhlə Deputatları Soveti yaradıldı. Əksinqilabi partiyalar – menşeviklər, eserlər, müsavatçılar, daşnaklar mütləqiyyətin yıxıldığı gündən satqın siyasət yeridərək, burjua quruluşunu saxlamağa çalışırdılar. İstər Oktyabr sosialist inqilabı ərəfəsində, istirsə də vətəndaş müharibəsi illərində Azərbaycanda Sovet hakimiyyəti əleyhinə mübarizə aparan əsas əksinqilabçı qüvvə – millətçi partiyalar: “Müsavat” partiyası və “Daşnaksütyun” partiyaları idi. Bolşeviklər addımbaşı əksinqilabçıların siyasətini ifşa edir, siyasi işi genişləndirir, tədricən xalq kütlələrini öz tərəflərinə çəkirdilər.

V.İ.Leninin göstərişini yerinə yetirərək, Bakı bolşevikləri başda S.Şaumyan, M.Əzizbəyov, N.Nərimanov, P.Caparidze, İ.Fioletov, A.Mikoyan olmaqla xalq kütlələrinin Sovetlər uğrunda mübarizəsinə rəhbərlik edirdilər. Bakı Soveti 1917-ci il noyabrın 2-də S.Şaumyanın məruzəsi əsasında hakimiyyətin Sovetlərə verilməsinə dair əməli iş proqramı qəbul etdi. Bakı Soveti Bakıda Sovet hakimiyyətinin möhkəmləndirilməsi və bütün Qafqazda qələbə çalması uğrunda qəti mübarizəyə girişdi.

1918-ci ildə martın 30-dan aprelin 1-dək Bakıda müsavatçılar Sovet hakimiyyəti əleyhinə silahlı qiyam qaldırdılar. İnqilabi qüvvələrlə müsavatçı əksinqilabçıların arasındakı ölüm-dirim mübarizəsi Bakı proletariatının qəti qələbəsi ilə qurtardı. Hakimiyyət Bakı Sovetinin əlinə keçdi. 1918-ci il aprelin 25-də başda S.Şaumyan olmaqla Bakı Xalq Komissarları Soveti yarandı.

Bolşeviklərin rəhbərliyi altında Azərbaycan zəhmətkeşləri Bakı, Şamaxı, Quba, Salyan, Göyçay və Lənkəran qəzalarında Sovet hakimiyyəti qurdu.

1918-ci ilin iyununda müsavatçılar Yelizavetpolda (indiki Kirovabad) burjua-mülkədar, bəy-xan hökuməti yaradıb, Sovet hakimiyyətinə qarşı qanlı mübarizəyə başladılar.

Müsavatçılar və daşnaklar Sovetlər əleyhinə mübarizə aparmaq üçün xarici müdaxiləçiləri köməyə çağırdılar: əvvəl türklər, sonra ingilislər gəldi.

Türk və ingilis müdaxiləçilərinin, eləcə də daxili əksinqilabi qüvvələrin təzyiqi nəticəsində 1918-ci il iyulun 31-də Bakıda Sovet hakimiyyəti müvəqqəti yıxıldı.

Türkiyə işğalçıları Bakıda müstəmləkəçi-polis rejimi yaratdılar, qanlı sui-qəsdə başladı və hərbi-səhra məhkəmələri qurdaraq, adamları asmağa, döyməyə başladılar.

Polis rejiminin “dadını” Zəngəzurun azərbaycanlılar yaşayan

hissəsi də gördü. Əvvəlcə türk, sonra isə ingilis müdaxiləçilərinə arxalanaraq, müsavatçılar burada quldur dəstələri təşkil edir, günün günortaçağı kəndləri talayır, azərbaycanlılarla erməniləri bir-birinin üstünə salmağa çalışırdılar.

Xasməmmədovlar, xanxoyskilər hökuməti Azərbaycanın quberniyalarını, qəzalarını və mahallarını mülkədarlara tapşırdılar. Qəza rəisləri, pristavlar, uryadniklər və strajniklər nəinki çar hökuməti zamanı tutduqları vəzifələrində qaldılar, hətta paqonlarını və rütbələrini də dəyişmədilər. Müsavat respublikası monarxiya qanunları ilə idarə olunurdu. Kəndlərdə mülkədarların hədsiz özbaşınalığı davam edirdi.

Bəy kəndi olaraq qalmış bizim Gürcülü kəndində baş vermiş aşağıda təsvir etdiyim əhvalat keçmiş Zəngəzurun Azərbaycan hissəsinin o zamankı bütün mülkədar kəndləri üçün səciyyəvidir.

1918-ci ilin payızında vəba xəstəliyi və "ispanka" kiçik kəndimizin yarısını qəbrə apardı.

Əvvəllər neft mədənlərində işləyən kəndlilərin hamısı Bakıda qarışıqlıq olduğundan doğma evlərinə qayıtmışdılar, burada aclıqdan, dilənçilikdən və bəylərin təhqir və özbaşınalığından əzab çəkirdilər.

Yuxarıda adını çəkdiyim mülkədarlardan biri İsmayıl bəy Sultanov 1917-ci ildə Danzaverdən bizim kəndə köçmüşdü. Qəzanın Ermənistan hissəsində olan bütün malikanələrini itirib, öz qohum-əqrəbası ilə yalnız bizim bədbəxt kəndlilərin hesabına yaşayırdı. Kəndlilər öz məhsullarının onda birini ona verməkdən əlavə, on günlərlə onun özünə və qohumlarına işləməli idilər. Mülkədara odun gətirmək, taxıl üyütmək, düyü, ət, süd gətirmək lazım idi; bütün bu işləri yoxsullaşmış, ehtiyac içərisində boğulan kənd əhalisi müftəcə yerinə yetirirdi.

Üstəlik də bəylər tez-tez kəndliləri təhqir edirdilər. Onların özbaşınalığının, doğrudan da, həddi-hüdudu yox idi. Müsavat respublikası dövründə açıq-aşkar, heç bir qanunla məhdudlaşmayan orta əsr despotizmi hökm sürürdü.



Bəylər çox yaxşı silahlanmışdılar, kəndlilərin isə heç bir silahı yox idi. Buna görə onlar bir balaca baş qaldıran kimi bəylər heç nədən çəkinmədən kəndliləri ölümlə hədələyirdilər.

Yeri gəlmişkən demək lazımdır ki, Zəngəzur qəzasının çox kəndləri bu vəziyyətdə idi. İsmayıl bəy, İskəndər bəy, Sədətqulu bəy kəndliləri kəndlərdə törəmiş quldurlarla qorxudurdular. Bəylər quldurların köməyi ilə silahsız kəndliləri soyur, mallarının çox hissəsini aparırdılar. Oğurlanmış mal-qara Tatev kəndindən olan mülkədar Xudabaxış bəy Orbelyan vasitəsilə Zəngəzurun Ermənistan hissəsinə aparılırdı. Erməni və azərbaycanlı bəylər bir-biri ilə möhkəm əlaqə saxlayırdılar. Sinfi yaxınlıq millət ayrılığından güclü idi.

Kəndlilərin mülkədarlardan şikayət edə biləcəkləri bir adam yox idi. Qəza rəisi Mığri rayonunun Əlidərə kəndindən olan çox varlı mülkədar Məhəmməd bəy Həsənqulu bəy oğlu Sərməstbəyov idi, qəza mahal pristavı Sultanovlardan idi, icmanın başçısı Əmir bəy Sultanov idi. Çar hökuməti zamanı yüzbaşını, bir qayda olaraq, varlı kəndlilərdən, qolçomaqlardan seçərdilər. Müsavatçılar bu qaydanı dəyişməyi qərara aldılar. Onlar çox fikirləşdikdən sonra bu qərara gəldilər ki, qolçomaq istismarçı olsa da, kəndlidir. Ona görə yüzbaşılığa daha etibarlı adam kimi yalnız bəyləri təyin edirdilər.

Sultan bəy Sultanov və Zəngəzurun başqa mülkədarları, yoxsullaşmış bəylərdən seçdikləri yüzbaşılara arxalanaraq kəndliləri vicdansızcasına və acgözlüklə çapıb talayır, istismar edirdilər. Laçın rayonunda şöhrəti Zəngəzurdan uzaqlara yayılmış, çoxlu mal-qarası və böyük meşə təsərrüfatı olan Sultan bəy müsavat hakimiyyəti dövründə o qədər varlanmışdı ki, təpədən dırnağadək silahlanmış qoçular saxlamaqla kifayətlənmir, quldur dəstələri saxlayırdı. Zəngəzur qəzasının Azərbaycan hissəsində hamıya yaxşı məlum idi ki, Sultan bəyin sərəncamında həmişə bir neçə yüz atlı quldur var və bu yerlərdə hakimi-mütləq olan bəy onların köməyi ilə kəndliləri həmişə qorxu altında saxlayır. Hətta inqilaba qədər Sultan bəyin və onun azğınlaşmış qohumlarının haqsız tələblərini sözsüz yerinə

yetirməyə məcbur idi.

Həmişə əlinin altında yüzbaşı-bəylər və çoxlu quldur dəstəsi olan Sultan bəy bu soyğunçuluqda tək deyildi. Zəngilanda Cavad ağa və Teymur bəy digər bəylərlə əlbir olaraq, yüzbaşı-bəylərin köməyi ilə həmişə bir dəstə nökər-naib saxlayır və onların gücünə kəndliləri istismar edirdi. Bu qəzada Əli bəy Xuramanlinski adlı birisi öz qohumunu yüzbaşı təyin edərək, bu müflisləşmiş bəyin köməyi ilə bədbəxt kəndliləri həyasızcasına soyur və bütün taladığı şeyləri İrana ötürürdü. Belə daha təhlükəsiz idi: oğurluğun izi itirdi.

1918-ci ilin yayında qəzaya türk zabitləri gəldi, onların yanında xeyli əsgər var idi. Türklərin gəlməsi mülkədarlar hakimiyyətini daha da möhkəmlətdi. İndi bəylər türk zabitləri ilə kəndlərə çıxır və onları osmanlı imperiyasının qanunları ilə hədələyirdilər.

Xarici müdaxilənin və müsavat hakimiyyətinin ilk aylarında Azərbaycan kommunist təşkilatı çox zəifləmişdi. Lakin tezliklə vəziyyət tamam dəyişdi. 1918-ci ilin noyabrında Bakıda kommunistlərin gizli yığıncağı oldu, bu yığıncaqda ingilis müdaxiləçilərinə və müsavat hökumətinə qarşı qəti mübarizə yolları müəyyən edildi. Patiya təşkilatlarını bərpa və gizli işə rəhbərlik etmək üçün yığıncaq İ. Anaşkin, L.Mirzəyan və başqalarından ibarət müvəqqəti büro seçdi. 1919-cu ilin əvvəllərində M.B.Qasımov, M.Məmmədyarov, İ.Pleşşakov da büronun tərkibinə daxil edildi. Büronun fəaliyyəti sayəsində 1919-cu ilin əvvəllərində Bakını bütün sənaye rayonlarında partiya özəkləri bərpa edildi.

Bakı partiya təşkilatlarının bu tədbirləri Zəngəzur kommunistlərini də ruhlandırdı, onları fəal mübarizəyə çağırdı.

Mən Bakıda Nobelin neft mədənlərində fəhlə işləyirdim. Bakıdan qayıdandan bir neçə ay sonra, 1918-ci ilin qış gecələrinin birində biz, Gürcülü kəndinin fəalları, keçmiş Bakı fəhləsi kəndli Əli Xudaverdi oğlunun evinə toplaşmışdıq. On altı nəfər idik[1], hamımız da keçmiş Bakı fəhləsi. İclas gizli idi.

Mən kəndin vəziyyəti barədə yoldaşlara qısa məlumat verdim və xahiş etdim ki, bu məsələ barədə öz fikirlərini söyləsinlər.

Mən dedim:

– Çar hökuməti yıxılandan sonra vəziyyət gərək yaxşılaşa idi, ancaq əksinə oldu. Hakimiyyət başına mülkədarlar gəldi. Onlar indi kəndliləri çardan və onun məmurlarından betər istismar edirlər. Fevral inqilabından fəhlə və kəndlilər deyil, mülkədarlar və varlılar fayda gördülər. V.İ.Leninin rəhbərliyi altında Rusiyada Böyük Oktyabr sosialist inqilabı oldu. Zəhmətkeş xalq hakimiyyəti öz əlinə aldı, bütün zəhmətkeşlərin azadlığa çıxmasına az qalıb. Müsavat zülmündən azad olmaq üçün gərək bütün fəhlələr və kəndlilər mübarizə etsinlər. Qoy hər kəs durub bu mübarizədə necə iştirak etmək fikrində olduğunu desin.

Əli Xudaverdi oğlu dedi:

– Biz əvvəllər töycü və biyardan başqa mülkədara heç nə verməzdik, indi isə həmişə onlar üçün işləyirik. Əgər bu cür davam eləsə, ailələrimiz acından qırılacaq. Mən belə hesab edirəm ki, biz burada oturanlar, hər şeydən əvvəl, silahlanmalıyıq.

İmran Məmmədov onun sözünə qüvvət verdi:

– Əlimizə silah keçirsək, bəylərlə mübarizə eləmək asan olar.

Bu ruhda qərar qəbul olundu.

İclas gələcək kənd partiya özəyinin təməli oldu.

Az müddət içərisində biz ona qədər tüfəng ələ keçirdik.

Bəy kürəkəni, Şuşa çodarı Abdullayev ətraf kəndlərdən aldığı satılıq mal-qaranı – yüzlərlə öküz, inək, dananı bizim otlaqlarda otarıb kökəldirdi. Bu böyük naxır örüşdə bir çöp də qoymurdu, ona görə də Gürcülü camaatının arıq malları acından qırıla bilərdi.

[1] Gürcülü kəndində çağırılmış ilk gizli yığıncaqda məndən başqa Əli Xudaverdi oğlu Səfərov, İmran Məmmədov, Səməd Təhməz oğlu, Rəhman Təhməz oğlu, Cəlil Abbas oğlu, İslam Heydəroğlu, Mikayıl Əbil oğlu, Mikayıl Cəfərqulu oğlu, Xankişi Ağakişi oğlu, Heydər Şirin oğlu, Əbdül Əzim Ələkbər oğlu, Əbutalıb Məhəmməd oğlu, Həsən Murad oğlu, Qaraş Məhərrəm oğlu, Hacı Abbas oğlu iştirak edirdi.

Dekabrın 15-də elə həmin evdə, özəyin gizli iclasında qərara alındı ki, Abdullayevin mal-qarası kəndin otlağından çıxarılsın. Biz təşkilatımızın üzvü Xankişi Ağakişi oğluna tapşırdıq ki, Abdullayevin naxırçısına təklif etsin ki, mal-qaranı bizim otlaqdan çıxarsın. Hamı bilirdi ki, naxırçı gürcülülərin qərarını o saat ağasına çatdıracaq.

Lakin beş gün keçməsinə baxmayaraq, bəyin mal-qarası hələ də bizim örüşdə otlayırdı. Bir axşam evə qayıdarkən kəndin ortası ilə bəyin naxırının keçdiyini gördüm. Bəy çiynində bahalı yapınçı, gözəl kəhər atın üstündə heyvanların arxasınca gedirdi. Daha gözləməyin mənası yox idi. Mən bəyi saxlayıb dedim:

– Özünüzü elə göstərirsiniz ki, guya bizim kəndin örüşünü kor qoyduğunuzu bilmirsiniz. Heç fikirləşirsinizmi ki, qışda kəndin mal-qarası acından qırılacaq? Sizdən xahiş edirəm ki, üç gün ərzində bütün mal-qaranızı bizim örüşdən çıxarın!

Abdullayev məni dinlərkən hirsindən dodaqlarını gəmirirdi.

O mənə belə cavab verdi:

– Mən əmindim ki, İsmayıl bəy sizə deyib ki, mənim heyvanlarım burada otlayacaq. Ona görə mal-qaranı aparmamışam.

– Deyib, deməyib – bunda iş yoxdur. Siz gərək öz mal-qaranızı bizim yerlərdən aparasınız. Axı buna yol vermək olmaz ki, sizin mal-qaranızın ucbatından bizim kənd bütün ili aclıq çəksin!

Abdullayev əsəbi halda dedi:

– İş ki belə oldu, mən mal-qaranı apararam.

İsmayıl bəy bizim gizli iclasımızdan və tüfəng ələ keçirməyimizdən xəbər tutmuşdu. Buna görə o tələbimizi eşidəndə ciddi toqquşmadan qorxaraq, kürəkəninə tapşırdı ki, mal-qarasını aparsın.

Beləliklə, bizim kənd ağaları ilə olan ilk münaqişəmiz sülhlə qurtardı. Ancaq kəndlilər birliyin, əlbir hərəkət etməyin gücünü o saat hiss etdilər.

Bizim bu ilk çıxışımız bəy zülmündən azad olmaq həsrətimizi əks etdirirdi. O zaman heç bir partiya təşkilatı ilə əlaqəmiz yox idi, bunu ancaq arzu edə bilərdik.



Bizim iclasın iştirakçısı Xankişi Ağakişi oğlu Xınzirəyə dostu Xaçatur Silanyangilə getmişdi. Xaçaturun oğlu Hayk bizim bəylərə qarşı birgə çıxış etdiyimizi eşidib, Xankişiyə demişdi ki, onu bizimlə görüşdürsün.

Bir neçə gündən sonra, 1918-ci il dekabr ayının 20-də gecədən xeyli keçmiş Xankişi, Rəhman Təhməz oğlu, Əli Səfərov və mən Xınzirəyin yaxınlığında, Aynaxlı dərəsində bir bağa yaxınlaşdıq. Hayk, Qaragin Sailyan və başqa iki nəfər yoldaşları bizi burada gözləyirdi. Hamımızın kefi kök idi, sevinirdik ki, birgə işləyəcəyik.

– Gorusda Armenak Qaragözovla[1] görüşdüyün yadındadır?

Mən təəccübdən mat qalmışdım. "O bunu haradan bilir?" – deyə düşündüm və Qaragözovla görüşümüz bütün təfərrüatı ilə xatirimdə canlandı.

Hayk məndən cavab gözləyirdi.

– Bəli, yadımdadır.

– Elə bilirsən, Qaragözov bunu unudub?

– Bilmirəm heç sizin sualınıza necə cavab verim...

– Bura gələndə Armenak həmin görüş barədə bizə danışdı. Sizin, bəylərə qarşı necə mübarizə etdiyinizdən Xankişi danışanda, mən bunu xatırladım. Biz bu qərara gəldik ki, necə olursa-olsun, sizinlə görüşək və gələcəkdə birlikdə işləmək barədə danışaq. Armenakın bakılı yoldaşlarla əlaqəsi yaxşıdır. O, çox təkid edirdi ki, biz azərbaycanlı kommunistlərlə əlaqə yaradaq. O deyirdi ki, mümkün olan yerdə indidən partiya komitələri yaratmaq lazımdır. Bakı partiya təşkilatı indi yalnız yaxın qəzaların kəndliləri arasında deyil, hətta bizim kimi uzaq qəzalarda da işi gücləndirir. Şəhərlə kənd gərək birgə çıxış etsin.

Tala-tala buludların arasından boylanan ay ətrafı gündüz kimi işıqlı etmişdi. Hündür qayaların kölgəsi bizi yetik gözdən gizlədirdi. Bağın üstündə tez-tez gecə quşları uçuşurdu. Üzbəüz qayadan bir daş qopub gurultu ilə dərəyə düşdü. Onun dalınca bir-birinə sarılmış ilanlar töküldü. Bunlar gürzə idi. Onların biri cığırla düz üstümüzə gəlirdi.

[1] Bu görüş barədə sonra danışılacaq.

Qaragin dedi:

– Qorxmayın, yanımızdan ötəcək, yolunu bilir. – O, ilanların xasiyyətini yaxşı bilirdi.

Biz susduq. Sonra Əli Səfərov dedi:

– Çox sağ olsun bakılı yoldaşlar ki, bizə belə mühüm məsələdə kömək edirlər. Biz indi daha cəsarətlə işləyəcəyik.

Qaragin dedi:

– Bizi vaxtından əvvəl təqibə məruz qoya biləcək açıq hərəkətdən çəkinmək lazımdır. Ümumiyyətcə, qüvvələrimizi qoruyub saxlamalıyıq. Qəti döyüş məqamı çatanda başqa məsələ. Nəzərə alın ki, daşnaqlar və müsavatçılar "bolşevik" sözünün özünü belə eşitmək istəmirlər. Siz yəqin bilirsiniz, daşnaqlar Gorusda Qaragözovu[1] həbs edib, vəhşicəsinə işgəncə veriblər. Biz çox böyük çətinliklə onu qurtara bildik.

Biz xudahafizləşmək istəyirdik ki, Hayk dedi:

– Biz, əsasən, tək-tək işləyirik. Sizə də bunu məsləhət görürük. Tez-tez böyük yığıncaqlar etməyin, çalışın tapşırıqları bir-birinizə təklikdə, şifahi çatdırın. Əlbəttə, bizim bu görüşümüz barədə heç kəsə bir söz deməyin. Bir yenilik olan kimi biz sizə xəbər verəcəyik.

Biz xudahafizləşib kəndimizə qayıtdıq.

1918-ci il dekabr ayının iyirmisində Abbas Sultanov Qubadlıdan bizim kəndə gəldi. O, 1893-cü ildə xırda bəy ailəsində anadan olmuşdu. Əvvəlcə öz kəndlərində oxumuş, sonra Qori müəllimlər seminariyasını qurtarıb, Kiyev universitetinin tibb fakültəsinə daxil olmuşdu, fevral inqilabından sonra üçüncü kursdan çıxıb getmişdi.

[1] Armenak Mkrtıçeviç Qaragözov 1889-cu ildə Xınzirək kəndində anadan olmuşdur. Petroqradda Texnoloji institutu qurtarmışdır. Tələbələrin inqilabi hərəkatında iştirak etdiyinə görə vətəninə sürgün edilmiş, Şuşada erməni ruhani seminariyasında kimya dərsi deyirdi. 1919-cu ildən partiyanın üzvü idi, elə həmin vaxtdan da Zəngəzur gizli partiya təşkilatına rəhbərlik edirdi. Kəndlilər arasında inqilabi iş apardığı üçün daşnaqlar tərəfindən tutulub Gorus həbsxanasına salınmışdı. 1918-ci ilin mayında daşnaqlar onu camaatın arasında bərk döydükdən sonra xeyli vaxt yaralı, xəstə halda Gorusun küçələrində gəzdirmişdilər.



1917-ci ildə o, Armenak Qaragözov, Yerem Bakunts, Hüseyn Abdullayev və Qara İlyasovla birlikdə Gorusda çox yaxşı işləmiş, kəndlilər arasında bolşevik təbliğatı aparmışdı.

Abbas Sultanovla çöldə, bir xırmanın qırağında oturduq. Tezliklə Əli Səfərov və İmran Məmmədov da gəldi. Söhbət başlandı. Abbas bizim qəzadan əlavə, başqa yerlərdə də baş verən hadisələrdən xəbərdar idi.

O dedi:

– Bakı kommunası yıxılandan və hakimiyyət başına müsavatçılar gələndən sonra kəndlilərin vəziyyəti çar hökuməti zamanındakından çox pis olub. Mülkədar kəndlərində bəylərin özbaşınalığı kəndlilərin canını boğazına yığıb. Bizdə olduğu kimi, ayrı-ayrı kəndlərdə də toqquşmalar baş verir, ancaq hələlik bunlar kütləvi xarakter daşımır. Yaxın günlərdə Bakıda və bir çox qəzalarda işlər yenidən canlanacaq. Biz də gərək kəndlilər arasında işi gücləndirək. Xınzirəkli yoldaşlar sizinlə əlaqə yaratmaqda çox yaxşı iş görüblər. Onların təcrübəsi və bakılı rəhbər yoldaşlarla əlaqəsi var.

Dağların döşünü işıqlandıran ay qərbə, Sarı yarağan dağının arxasına tələsirdi.

Abbas dedi:

– Mülkədarlar sinfi də bu ay kimi batmaq üzrədir.

İmran söz aldı:

– Abbas, bax orada, cənubda bir xaraba kənd var. Ondan o tərəfdə isə, dərənin o üzündə, Daştəpənin yaxınlığında başqa bir xaraba kənd var. Qorxuram, bəylərin ayı batanadək bizim kəndlər də o cür xaraba qalsın.

Əli dedi:

– İmran doğru deyir. Bizim kəndlər uçurum qırağındadır. Ac uşaqlarımızın üzünə baxa bilmirik. Torpaq bizim üçün həyat deməkdir. Torpaq uğrunda əlimizdən gələni edəcəyik.

Göydə qar yağacağını xəbər verən seyrək qara buludlar toplaşırdı. Soyuq şimal küləyi əsirdi.

Abbas dedi:

– Bax bizə kömək oradan, şimaldan gələcək! İndi isə gəlin dağılışaq!

Bizim üçüncü iclasımız dekabrın 25-də Xankişinin evində oldu.

Birinci Cəlil Abbas oğlu danışdı:

– İndi bizim müqavimət göstərməyə imkanımız var. Silahlı adamımız bəylərin adamından çoxdur. Mən təklif edirəm ki, sabahdan mülkədarlara işləməyi kəsək.

Qaraş Məhərrəm oğlu dedi:

– Mal-qaranı örüşümüzdən çıxarmaq tələbimiz qəbul olundu. Bəy tələbimizi rədd eləyə bilmədi. Mənə elə gəlir ki, Cəlil düz deyir. Onun təklifini qəbul etmək lazımdır.

Hamı bu təklifi bəyəndi.

Mən yoldaşları xəbərdar etdim ki, bəzilərimiz çox ziyan çəkə bilərik, hətta tutula da bilərik.

– Buna siz hazırsınızmı?

Hamı bir ağızdan hazır olduğunu bildirdi.

Bir müddət də keçdi. 1919-cu ilin əvvəlləri idi. Bəyin qohumu Camal bəy bizim yoldaşımız Mikayıl Əbil oğlunun həyətinə girib, ona dedi ki, gəlib onların dənini dəyirmana aparsın. Mikayıl rədd etdi. Əmrinin sözsüz yerinə yetirlməsinə vərdiş eləmiş cavan bəy, Mikayılın üstünə qışqırdı, onu söydü. Mikayıl da onu söydü və həyətindən qovdu. Səs-küyə kəndlilər toplaşdılar, bəy aradan çıxmağa məcbur oldu.

Mikayıl Əbil oğlunun bu hərəkəti elə dikbaşlıq idi ki, nəticəsiz qala bilməzdi. Lakin bəy ümumi vəziyyəti görüb, əvvəlcə bizimlə danışmaq qərarına gəldi. Bunu ona yaxın günlərdə Bakıdan gəlmiş tələbə Bəxtiyar bəy demişdi.

Səhəri atamla məni bəyin yanına çağırdılar. Bəy eyvanda oturub, çay içirdi. Adəti "mehribançılıqdan" sonra o, atama müraciətlə dedi:

– Sənin oğlun Bakıdan gəlməmişdən qabaq kəndlilər bizim



buyruqlarımızı sözsüz yerinə yetirirdilər. Oğlun bütün kəndi bizim üstümüzə qaldırır...

Mən onun sözünü kəsdim:

– Madam ki, mən özüm buradayam və öz yerimə cavab verə bilərəm, onda mənimlə danışın, bəy! Mənim 23 yaşım var, necə deyərlər, həddi-büluğa çatmışam. Siz dediniz ki, mən bütün kəndi sizin üstünüzə qaldırıram... Bəli, mən bütün kəndi üstünüzə qaldırıram ki, qohumlarınız kəndliləri təhqir etməsinlər, döyməsinlər. Çarı ona görə yıxmamışıq ki, bəylər özbaşınalıq eləsin...

Eyvana baxan pəncərə açıldı, tələbə Bəxtiyar bəy[1] nəzakətlə məni içəri, yanına çağırdı.

Görüşəndən sonra o məni məzəmmət elədi, dedi ki, çox xatalı iş görürsən, özünü işə salırsan.

– Mən də insititutda oxuduğum vaxt inqilabi hərəkatda iştirak etmişəm. Lakin Bakıda baş verən qanlı hadisələr məni ruhdan salıb. Mən qan tökə bilmərəm. Sən bilirsən ki, çar hökuməti zamanı kəndlilərlə pis rəftar etdiyi üçün mənim atamdan küsmüşdüm. Ancaq indi malikanələri əlindən çıxıb, qaçqın gününə düşüb, əsəbiləşir...

Bəxtiyar bəy sözünə bir az ara verib dedi:

– Mənim sənə demək istədiyim əsas məsələ bu deyil. Əsas məsələ odur ki, sən başını itirmisən. Sən torpaq məsələsi qaldırırsan, bu isə bütün qəzaya yayılıb. Kəndlilər bəylərə qarşı üsyan edir, hər cür qanunsuzluğa yol verir, hətta zorla mülkədar torpaqlarını tuturlar. Axı bizim respublikanın hökuməti bu məsələni hələ qoymayıb. Belə çıxır ki, sən qanunsuzluq, zorakılıq salırsan! Buna görə səni məsuliyyətə çəkər, bərk ayaqda isə məhv edərlər. Bizim sənə yazığımız gəlir, ona görə qəza hökumət adamlarının və bəylərin söhbətlərindən səni xəbərdar edirik. Odur ki özünü gözlə, bolşevik xülyalarını başından at...

Bəxtiyar bəy axırda dedi:

---

[1] 1920-ci ilin aprelində Bakıda olan Bəxtiyar bəy Sovet hökumətinin tərəfinə keçmişdi.

– Özün bilirsən, Zəngəzurda, bu ucqar yerdə quldur tayfalarının arasında başına bəla açacaqsan. Yadında qalsın, heç kəs səni müdafiə etməyəcək, bəd ayaqda tək qalacaqsan.

Mən cavab verdim:

– Mən hər şeyi başa düşürəm. Amma sizin heç bir hədə-qorxunuz məni yolumdan döndərə bilməz. Əgər Bakıda varlıların törətdiyi qanlı hadisələr sizi ruhdan salıbsa, mənə tamam başqa cür təsir edib. Mənim Bakıda gördüklərimin hamısı – mədən sahibləri ilə fəhlələrin mübarizəsi, türk əsgərlərinin özbaşınalığı, fəhlə iclaslarının qadağan edilməsi, millət qırğını, nəhayət, "milli" müsavat "hökuməti" dövründə də kəndlilərin kölə vəziyyəti – bütün bunlar məni əmin edir ki, fəhlə və kəndlilərin yalnız bircə qurtuluş yolu var. Bu yol – bolşeviklərin proqramında göstərilən yoldur. Bu, hazırda Rusiyada həyata keçirilən yoldur.

– Tez, ya gec, – deyə mən davam etdim, – Azərbaycan fəhlə və kəndliləri burjua-feodal zülmündən azad olacaqlar! Əgər başıma bir iş gəlsə, heç biriniz heyfsilənməyin. Heç kim mənə kömək etməsin. Mən sizdən kömək istəməyəcəyəm.

Bəxtiyar bəy dedi:

– Sən məndən nahaq inciyirsən. Mən bolşeviklərin əleyhinə deyiləm. Lakin Azərbaycanda Sovet hakimiyyəti qurmaq üçün hələ şərait yoxdur. Sən elə düşünmə ki, mən bunları qohum-əqrəbamın yenə burada qalması üçün deyirəm. Onlar bu il Şuşaya gedəcəklər. Hər halda, sənə xəbərdarlıq eləyirəm: ehtiyatlı ol!

Mən getdim. Lakin çox yaxşı başa düşürdüm ki, bəylər bizim kənddən getsələr də, onlarla mübarizə məsələsi gündəlikdən çıxarılmayacaq.

Bizim icmamızda ən böyük kənd olan Əliquluuşağı da Kərbəlayi Əmrahın quldur dəstəsi ilə mübarizəyə 1918-ci ildə Əmrah Məmiş oğlu girişdi. O zaman Əmrahın 35 yaşı var idi. Göygöz, göyçək, enlikürək, ucaboy bu adam çox möhkəm iradəyə malik, inqilabi



əhvali-ruhiyyəli gənc idi. Savadsız olmasına baxmayaraq, o hər şəraitdən yaxşı baş çıxarır və həmişə qətiyyətlə hərəkət edirdi.

Əmrah bilirdi ki, Qayalı və Müsgənli kəndlərində yuva salmış quldur dəstələri bütün qəzanın kəndlilərini amansızcasına talan edir. Ancaq o bu dəstələrin başında kimin durduğunu bilmirdi. İsti yay axşamlarının birində Göyüş Məmmədov Daşaltı kəndindən Əmrah Məmiş oğlunun yanına gəldi.

O dedi:

– Əmir bəy bu gün Müsgənlidə idi. O, quldurlarla çox söhbət elədi. İndi mənə aydın oldu ki, o, dəstənin başçılarından biridir. Onlar apardıqları mal-qaranı Sədətqulu bəyə verir, Sədətqulu bəy də heyvanları Tatev kəndində Xudabaxış bəy Orbelyana ötürür. Bu gün Əmir bəy quldurları öyrədirdi ki, Gürcülü kəndinin mal-qarasını qovub aparmaq lazımdır. Sonra guya Əmir bəyin xahişi ilə qaytarıb vermək lazımdır ki, gürcülülər bundan sonra özlərini Əmir bəyə borclu bilsinlər, itaətindən çıxmasınlar...

Göyüş Məmmədov davam elədi ki, quldurlar müsgənlilərlə gürcülülərin arasının yaxşı olduğunu bilib, bu işdən qəti boyun qaçırdılar. Qayalıdakı dəstəyə isə İskəndər bəy başçılıq eləyir. İskəndər bəy daima İsmayıl bəy və Sədətqulu bəy ilə soyğunçuluq edir. Kərbəlayı Əmrah Qayalı quldurlarla məhz Sədətqulu bəyin vasitəsilə əlaqə saxlayır.

Aparılmış mal-qara Tatev kəndində satılmayanda, Əli bəy Xuramalinskinin əli ilə xaricə, İran xanlarına göndərilirdi. Orada arıq malları da alırlar. Quldurlar sevinirlər. Hacısamlıda[1] Sultan bəy Sultanov böyük Picənis tayfalarını kiçik Gəvənli – Babadinli tayfası ilə vuruşdururdu.

– Əmrah! – Göyüş sözünə davam elədi. – Sən indi başa düşürsənmi, bəylər var gücləri ilə çalışırlar ki, kəndliləri aldatsınlar, onları mübarizədən çəkindirsinlər. Bəylər bundan sonra da bizi çapıb talayacaq, bir kəndi o birinin üstünə salacaqlar. Onlar istəyirlər ki,

[1] Hacısamlı – İndiki Laçın rayonunun bir hissəsi idi.

nəhayət kəndlilər axırda tamam gücdən düşsün və zülmdən azad olmaq barədə heç düşünməsinlər.

Göyüş bir qədər susdu, sonra davam elədi:

– Qubadlı kəndində Abbas Sultanov və Qara İlyasov Qayalı və digər quldurlara qarşı mübarizə aparacaqlar. Onlar indi abdalanlı Cəbrayıl Şirin oğlu ilə əlaqə saxlayırlar, istəyirlər onun vasitəsi ilə quldurlara təsir etsinlər, onları dilə tutub soyğunçuluqdan daşındırsınlar. Abbas ilə Qara xahiş etdilər ki, Əmrah, sən də mübarizəyə qoşulasan.

Bu söhbətdən bir neçə gün sonra Kərbəlayı Əmrahın və Atakişinin dəstəsi Davudlu kəndinin bütün mal-qarasını qovub apardı. Silahsız davudlular müqavimət göstərə bilmədilər. Onlar quldurların dalınca Əliquluuşağı kəndinə gəlib çıxdılar. Kəndin ortasında çığırışaraq Əmrah Məmiş oğlunu və başqa namuslu kəndliləri köməyə çağırdılar.

Əmrah əhvalatdan xəbər tutanda dərhal kəndin bütün silahlı adamlarını topladı və quldurların gizləndiyi yeri mühasirəyə aldı. Qızğın vuruşma zamanı dəstənin başçısı Kərbəlayı Əmrah öldürüldü və aparılmış mal-qara sahiblərinə qaytarıldı.

Həmin il Atakişinin dəstəsi Göyərcik kəndinin mal-qarasını apardı. Novlu kəndinin camaatı bunu görüb kəsə yolla dağdan enib, bizim Gürcülü kəndinin ərazisində qayanın dalında gizləndi. Quldurlar oğurladıqları mal-qara ilə kiçik açıqlığa çıxdıqda novluların atəşi altına düşdülər. Onlar başçılarını itirdilər, oğurladıqları mal-qaranı atıb vahimə içində qaçdılar. Bəziləri isə ağır yaralı halda birtəhər Gürcülüdə gizləndi.

Novlular həmin gecə yatmadılar. İntiqam almaq üçün əliquluuşağılıların basqın edəcəyindən qorxurdular. Əmrah Məmiş oğlu bunu bilib, öz dəstəsi ilə hücum edərək, qaçan quldurların bir neçəsini yolda tutdu və Novlu kəndinə gəldi. O, kəndlilərə bu yaxşı hərəkətləri üçün dil-ağız elədi və novluları inandırdı ki, əliquluuşağılılardan çəkinməsinlər.

Bizim rayondakı ən qorxulu quldur dəstələrinin biri bu cür məhv



edildi. Bu işdə Əmrahın rolu böyük oldu. Bundan sonra Qayalı, Müsgənli və digər kəndlərdə də quldurlar sakitləşdilər.

1919-cu ilin əvvəllərində qəza hökuməti mane olmağa çalışsa da yaxamızı Əmir bəy Sultanovdan qurtardıq. Əmrah Məmiş oğlunu yüzbaşı seçdik.

Mən Teymurmüsgənli kənd icmasında kənd mirzəsi idim. Bu bizə Xınzirək kəndinin kommunistləri ilə əlbir hərəkət etməyə və onların vasitəsilə Gorus komitəsi ilə əlaqə saxlamağa imkan verirdi.

Əliquluuşağı kəndinin fəal qüvvələrinə arxalanaraq, biz başqa kəndlərin əhalisi arasında da inqilabi işi genişləndirirdik.

1918-ci ildə əliquluuşağılılar mülkədara töycü vermədilər. Onlar başa düşürdülər ki, müsavat hökuməti güclənsə, onlar təzədən bəylərin əsarəti altına düşəcəklər, ona görə müsavat hökumətinə müqavimət göstərməyi və bəylərin özbaşınalığına qarşı mübarizə aparan kəndlərə kömək etməyi qərara aldılar.

Bizim hərəkətlərimiz barədə pristava və qəza rəisinə çoxlu məlumat yazılmışdı. Bu məlumatı bəylər və polis idarəsinin bir çox kəndlərdə olan casusları yazırdı.

Bəylərin hüququnu təmin etmək və dikbaş kəndliləri cəzalandırmaq üçün kənd icmasına on strajniki olan hökumət yüzbaşısı göndərdilər. Onların xərcini kənd icması çəkməli idi. Əslində, bu, cəza dəstəsi idi. İcmaya hökumət yüzbaşısı Aslan bəy Sultanov təyin olundu.

1919-cu il aprel ayının axırları idi. Yoldaşlarımızdan biri – Əli Xudaverdi oğlu Səfərov Qubadlıya, gizlin işləyən kommunist Abbas Sultanovun yanına yola düşdü.

Əli, Abbas yaşayan evə yaxınlaşdı, içəri girdi, görüşdü və qapının ağzındakı kətilin üstündə əyləşib, otağa göz gəzdirdi. Otaq otaq deyildi, qaradamdı, babat görkəm vermək üçün divarı iki yerdən deşib, pəncərə açmışdılar, şüşə olmadığından çərçivələrə qəzet yapışdırmışdılar.

Dördkünc baca basdırılmışdı. Evdə ocaq əvəzinə dəmir peç yanırdı.

Peç Abbasın anası Güllü xanımın xoşuna gəlmirdi. Arvad soyuqdan içəri girib, əllərini açıq oda tutmağa adət eləmişdi. Dəmir peçin üstündə aş bişirmək də çətin idi, buna görə arvad həmişə Abbasın qarasına deyinirdi.

Qapı ilə üzbəüz, divarın dibinə taxta qoyulmuş, onun üstünə rəngi solmuş, köhnə xalça salınmışdı. O biri divarın qabağına yük yığılmışdı, görünür, bütün ailənin yorğan-döşəyi bu idi. Evin bir küncünə qazan, qazança və başqa mis qab-qacaqlar yığılmışdı. Onların yanında şor motalı vardı. Tək bircə yağ küpəsi vardı. O da yarımçıq. Abbasın anası samovarı, çayniki, stəkan-nəlbəkini divardakı taxçaya yığmışdı. Otağın döşəməsi torpaqdı. Divarlara mala çəkilmişdi. Tavana taxta vurulmamışdı. Tez-tez evin üstündən içəri saman tökülürdü. Qaranquşlar burada özlərinə yuva salmışdılar. Bəzən torpaq da tökülürdü. Bu, ilanlar tirlərin üstü ilə sürünəndə, ya da siçanlar qaçışanda olurdu.

Birdən köndələn tirin üstündə bir ilan göründü. O, qaranquşun yuvasına tərəf sürünürdü. Bala quşlar qorxudan yerə töküldülər. Abbas tüfəngi, Əli də ağacı götürdü. Güllə ilanın başından azca aşağı dəydi. O, yerə düşdü, başını qaldırıb Abbasın üstünə atılmaq istədi. Lakin Əli ağacla onu vurub öldürdü.

Güllü xanım qapının ağzında göründü. O bir az dayanıb acıqlı-acıqlı dedi:

– Özgələrinin balaları oxuyub ağıllanırlar, amma mənimki gör nə oyun çıxarır! Sənə min dəfə demişəm ki, ev ilanını öldürməzlər. Niyə öldürdün? İndi sağ qalanlar onun intiqamını alacaqlar!

– Ana, yenə məni danlayırsan?

– Sənə baxıb, fikirləşirəm: görəsən, axırın necə olacaq? Sənin yaşıdların İsgəndər dayı ilə səhərə yaxın neçə baş mal-qara qovub gətiriblər. Bəs sən nə iş görmüsən?

– Ana bir fikirləş, gör nə danışırsan! Axı onlar oğrudurlar... Gec-tez onları bu işə görə cəzalandıracaqlar!..

– Cəzalandıracaqlar, cəzalandıracaqlar!.. Amma sən bir tikə



çörəksiz qalacaqsan! – Güllü xanım oğlunun sözünü kəsib, eşiyə çıxdı.

Abbas məyus-məyus gülümsədi. Qarının deyinməsi hər halda ona toxunmuşdu, odur ki günahkar adamlar kimi Əlinin üzünə baxdı. Əli sakitcə dedi:

– Qulaq as, Abbas, vəziyyətimiz ağırdır. Mahmud Paşayev xəbər göndərib ki, polis bizi tutmağa hazırlaşır...

Abbas həyətdə yad adam görüb, Əlinin sözünü kəsdi.

– Bilirəm. Sən indi çıx get. Yaxın günlərdə görüşərik...

Bir neçə gündən sonra mən Balahəsənli kəndində gizli işləyən yoldaşımız Əli Əmiraslanovun evində Abbas Sultanovla görüşdüm.

Üçlükdə qıjov Bərgüşadın sahilində oturmuşduq. İsti may günü idi, çay çox bulanıq idi, dağlarda qar təzə əriməyə başlamışdı. Çay arabir iri daşlar, ya da kötük gətirirdi, yəqin bu kötükləri gur sel Eritsiatum və Yaycı meşələrindən gətirirdi.

Çayın şırıltısı qurbağaların qurultusunu və sərçələrin ciggiltisini batırmışdı. İçərimizdə ən cavan Əli, ən yaşlı isə Abbas idi.

Abbas dedi:

– Bakıda mübarizənin mərkəzini fəhlə konfranslarına və tətil komitələrinə keçiriblər. Onlara Mikoyan, Qarayev, Anaşkin və Bakı təşkilatının digər görkəmli xadimləri rəhbərlik edir. Müsavatçılar ingilislərin məsləhəti ilə Bakı proletarlarını parçalamağa çalışırlar. Onlar milli həmkarlar ittifaqları yaratmaq istəyirlər, lakin bunu bacarmayacaqlar. Müsavat hökumətinin bolşeviklərə qarşı pozuculuq işləri kəsilmək bilmir. Yaxın günlərdə xeyli yoldaşımızı həbs ediblər. Deyirlər ki, onların çoxunu Azərbaycandan sürgün etmək istəyirlər. Yaramazlar bizim fəalları tinlərdən atırlar. Bakı komitəsi yoldaşların vasitəsi ilə xəbər göndərib ki, kəndlilər arasında işi gücləndirmək lazımdır.

Əli Əmiraslanovun kiçik əmisi oğlu Möhbalı Əmiraslanov[1] qaça-qaça gəlib yanımızda oturdu. O, Abbasdan əl çəkmirdi, nədən

[1] Mehbalı Əmiraslanov 1920-ci ilin yayında könüllü olaraq Semyonovun qızıl əsgər polkuna getdi və daşnaklara qarşı döyüşdə iştirak etdi.

danışdığımızı bilmək istəyirdi.
Əli ona dedi:
– Yaxşısı budur, get gör yemək hazırdırmı?
– Əgər nə barədə danışdığınızı deməsəniz, getməyəcəyəm.
Mən ona dedim:
– Sən get, biz də indi gəlirik, hamısını sənə danışacağam.
O, razı olub getdi.
Abbas sözünə davam elədi:
– Üstümüzü qara buludlar alır. Mənə elə gəlir ki, qəza polis idarəsində nə isə bir hazırlıq gedir. Başımızın üstünü qəfil almaq istəyirlər. Əgər polis hücuma keçsə, sizin bəziniz Məzməzəyə, Hüseyn Abdullayevin yanına getsə, yaxşı olar. Polislər ora soxula bilməzlər.
– Əliquluuşağı da etibarlı yerdir, orada camaatın sözü birdir, – deyə mən cavab verdim.
– Özünüz bilən yaxşıdır. Mən Dondarlıda[1] nə iş gördüklərini dəqiq öyrənməyə çalışacağam. Bəlkə, qabaqcadan sizə bəzi xəbərlər çatdırdım.
Kiçik bir qoyun sürüsü çaya yaxınlaşdı. Yəqin indicə sağmışdılar, quzuları yanlarında idi. İki çoban bizə yaxınlaşıb, çomaqlarına söykənərək sakitcə, diqqətlə üzümüzə baxmağa başladı.
– Bunları qova bilməyəcəyik – deyib, Əli ayağa qalxdı. Əmiraslanovla xudahafizləşib, evimizə dağılışdıq.

Aslan bəy təpədən dırnağadək silahlanmış strajniklərlə Əliquluuşağı kəndinə gəldi. Bu gün bütün kəndlilər, – səksən nəfər, bəlkə də, çox, – əllərində silah kənddə gəzir, Əmrah Məmiş oğlunun əmrini gözləyirdi.
Aslan bəy başa düşdü ki, strajniklərin kiçik bir ehtiyatsızlığı üzündən bütün dəstə həbs olunar, yaxud da hamısını qırarlar. O, kəndlilərə deyirdi ki, bura gəlmək istəmirmiş, qəza rəisini inandırmağa çalışırmış ki, əliquluuşağılılar siyasi cəhətdən etibarlı adamlardır, lakin onu məcbur eləmişlər. Aslan bəy bir qədər də söhbət edəndən

[1] Qəza rəisinin idarəsi Dondarlıda idi.



sonra adamlarına "Atlanın!" – əmri verdi və geri qayıtdılar. Beləliklə, hökumət yüzbaşısı inqilabçı kənddən açıqca qovuldu.

Bizim kənddə hökumət yüzbaşısı vəzifəsini ləğv etdirmək üçün – buna ümidimiz az olsa da, – bütün kənd icması adından "hökm" çıxartdıq. Onu mən yazmışdım. Özü də xahiş deyil, tələbnamə kimi yazmışdım. "Hökmdə" deyilirdi ki, kənd icması heç nədə təqsirkar deyil, heç bir oğurluq, soyğunçuluq, adam öldürmək hadisəsi və zorakılıq yoxdur. Çar hökuməti zamanı yüzbaşını icma özü seçirdi. Nə üçün müsavat hökuməti kəndlilərin bu hüququnu əlindən alır? Daha bu nə respublika oldu?
"Hökmü" ağsaqqallar qəza rəisi Sərməstbəyova apardılar. Ağsaqqalların içərisində molla Abbas da var idi.
Hökumət yüzbaşısının kənddən qovulması, "hökmün" ötkəm mətni, nəhayət, ağsaqqalların arasında "şuluqçu" molla Abbasın olması, müsavat hökumət adamlarının narazılığına səbəb olmuş və onları qəzəbləndirmişdi.
Lakin on beş kəndi birləşdirən, iki yüz silahlısı olan kənd icmamız müqavimət göstərməyə hazır idi. Bu, Aslan bəyin yazılı məlumatından sonra qəza hökumətini xəyanətə və hiyləyə əl atmağa məcbur etdi.
Pristav Sultanova tapşırılır ki, Əmrah Məmiş oğluna və mənə məktub yazıb, hökumət yüzbaşısının ləğv olunduğunu bildirsin və gələcəkdə icmanı necə idarə eləmək barədə danışmaq üçün bizi öz yanına dəvət eləsin.
Biz Dəmirçilər kəndinə gəldik. Pristavın idarəsi burada idi. Kabinetə girdik. Söhbət başlandı.
Bir qədər keçdikdən sonra Dondarlı kəndindən gəlmiş qəza rəisi Sərməstbəyov kabinetə girdi. O, dərhal strajniklərə əmr verdi ki, bizi həbs etsinlər. Bizi tutub qazamata saldılar.
Bir neçə saatdan sonra strajniklər Əmrahı qəza rəisinin yanına apardılar. Bir neçə saat da keçəndən sonra Əmrah gəlib dedi ki, onu buraxdılar, çünki bütün işlərdə təkcə məni müqəssir bilirlər. Bütün

bunlardan başqa, məni bir də onda təqsirləndirirdilər ki, guya mən Əmrahın savadsızlığından istifadə edib, onu bolşeviklərin tərəfinə çəkmişəm. Əmrah karıxmış, dilxor halda soruşurdu ki, məni buraxdırmaq üçün nə eləsin?..

Mən polisin siyasətini dərhal başa düşdüm. Qəza hökuməti başa düşürdü ki, Əmrahı həbs eləsələr, kəndlilər ayağa qalxacaqlar və hökumət onların qabağını ala bilməyəcək. Tək məni tutmaq isə asandı, çünki məni müdafiəyə yalnız kiçik bir kənd qalxacaqdı. Sonra Əmrahı və onun vasitəsi ilə bütün icmanı tabe etmək olardı. Polis belə düşünürdü.

Mən dilxor olmuş Əmraha təskinlik verərək dedim:

– Nahaq xahiş etmisən ki, səni də həbsxanada saxlasınlar. Dilxor olma. Əgər polis zor işlətmək istəsə, müqavimət göstərməyə hazır olmaq lazımdır. Mənim barəmdə nigaran qalmayın, özüm sizə xəbər verməyincə, məni qurtarmaq üçün heç bir tədbir görməyin...

Həbsxana torpaq döşəməli bir otaq idi. Burada otuz dustaq var idi. Xanlar bəy Aslanəlibəyov və Hacı Bədəl Hacı Səfi oğlu da burada idilər.

Xanlar bəy hökuməti təhqir etdiyi üçün bir aylıq həbs cəzasına məhkum edilmişdi. Qəzada ona vəzifə vermədiklərinə görə hökumətin qarasına pis danışmışdı.

Dəmirçilər kəndindən olan Hacı Bədəl yetmiş beş yaşlı varlı, savadlı bir kəndli idi. Xanlar bəylə çoxdan dostluq edirdi. Bir dəfə o nə iş üçünsə Xanlar bəyin yanına yaylağa gəlir. Bu vaxt Xanlar bəyin qonaqları var imiş, oturub xörək yeyirmişlər. Xanlar bəy "mədəniyyətsiz" adamı süfrə başında əyləşdirməyi layiq bilməyib, tapşırır ki, ona mətbəxdə yemək versinlər.

Təhqir olunmuş Hacı Bədəl yeməkdən imtina edir və çıxıb gedir. O evinə gəlib, darvazasına belə bir elan vurur: "Bu gündən mənim evimin qapısı bəylərin üzünə bağlıdır".

Hökmdə göstərilirdi ki, "cəmiyyəti siniflərə bölən bu elan" üçün Hacı Bədəl Hacı Səfi oğlu bir aylıq həbs cəzasına məhkum edilir.



İyunun əvvəlləri idi. Havalar quraq, isti keçirdi. Həbsxanada nəfəs almaq olmurdu. Adamları gündə iki dəfə bir neçə dəqiqəlik həyətə çıxarırdılar.

Mən Hacının öhdəsində idim, çünki kim mənə yemək gətirmək istəyirdisə, onu hədələyirdilər.

Həbsxanada ciblərimi gəzib, içərisində partiyanın proqramı olan qeyd dəftərçəmi aldılar. Mən proqramı Əliquluuşağı kəndindən olan Mahmud Paşayevin vasitəsilə Xınzirək kommunistlərindən almışdım.

Mən proqramı belə almışdım.

Xınzirəkli yoldaşlar xahiş etdilər ki, Zəngəzurun Ermənistan hissəsində yaşayan yoxsul kəndlilərə göndərmək üçün taxıl alıb, yola salmaqda onlara kömək edim. Taxıl Zəngəzurun Azərbaycan hissəsində Ermənistan hissəsindən iki dəfə ucuz idi.

Müsavat polislərindən xəlvət taxıl arabalarını gecə ikən Xınzirəyə göndərmək olardı. Daşnaqlar da buna barmaqarası baxırdılar.

Mahmud Paşayev bir gecə karvanla Xınzirəyə gəldi. O, tez dostu Qaragin Sailyanın yanına getdi. Qaragin çox sevindi: axır ki, Bakı komitəsindən alınmış bolşevik ədəbiyyatını göndərmək üçün etibarlı adam gəlib çıxdı!

Qaragin ona dedi:

– Əgər daşnaqlar səni tutsalar, deyərsən ki, bunları papiros bükmək üçün bir ermənidən almışam, orada nə yazıldığını anlamıram, çünki rusca savadım yoxdur. Başa düşdün?

Mahmud gülümsünərək dedi:

– Sən məni öyrətmə. Mən özüm bilirəm, harada necə danışmaq lazımdır. Əgər iş o yerə çatsa, deyəcəyəm ki, bu qəzetləri mənə Sailyan verib. Səndən ötrü özümü işə salmaq istəmirəm. – Mahmud orada olan Firdovsiyə göz vurdu. O, qəzetin birini götürüb oxumağa başladı: – Ortababı bitərəfləşdirmək və onlarla möhkəm ittifaq yaratmaq?

Qaragin suala sualla cavab verdi:

– Aha, demək, gördün təzə nə var? Sizdə rusca savadlı adam o

qədər də çox deyil. Bu bizim partiyanın qurultayda qəbul olunmuş yeni proqramıdır. Xahiş edirəm, yoldaşlara çatdır və indi özün oxuduğuna onların da diqqətini cəlb et. Qoy kəndli məsələsinə dair Leninin şüarını əməlli-başlı düşünsünlər. Lenin deyir ki, bolşeviklərin vəzifəsi aşağıdakılardan ibarətdir: yoxsul kəndlilərə arxalanaraq qolçomaqlara qarşı mübarizəni hər an davam etdirməklə ortabab kəndlilərlə sazişə girməyi bacarmaq.

Mahmudun gətirdiyi proqramın bir nüsxəsi məndə, qeyd dəftərçəsinin içində idi.

Nə qədər ki polis dəftərçənin içərisində nə olduğunu başa düşməmişdi mən onu geri almalı idim: məni məsuliyyətə almaq üçün təkcə bu kifayət idi. Mən bəhanə gətirdim ki, borclarımı və alacağımı dəftərçəyə yazmışam. Həbsxana rəisindən xahiş etdim ki, borcluların familiyasını və pulun qədərini yazıb atama göndərmək üçün dəftərçəni özümə qaytarsın. Mən dəftərçəni alıb, proqramı arasında görəndə çox sevindim. Proqramı götürüb bir neçə dəqiqədən sonra dəftərçəni polisə qaytardım.

Bir neçə gündən sonra məni qollarım arxamda bağlı, beş strajnikin qabağında Dondarlıya, qəza rəisinin yanına apardılar. Fərid bəyin ikimərtəbəli evinin qabağına və yaxın küçələrə toplanmış izdihamı lap uzaqdan gördüm. Bizi gözləyən strajniklər camaatı yara-yara bizə yol açdılar. Biz adamların arası ilə, dar yolla irəliləyirdik.

Qəza rəisi Sərməstbəyov, qəza qazısı Bəhlul əfəndi Behcət və qəza rəisinin köməkçisi Qara bəy Hacıbəyov balkonda oturmuşdular.

Mən adamların arasında bir tanış görmək istədim, amma tapa bilmədim. Birdən kim isə arxada, sağ tərəfdə mənim adımı çəkdi. Geri çevrilib yaxşı tanıdığım Müsgənli Cəfərqulu kişini gördüm. Lakin Cəfərqulu yerini dəyişdi, camaatın arasına girdi. Öz-özümə fikirləşdim: “Yəqin, mənə kömək eləmək istəyir. Ancaq necə edə bilər?”

Strajniklər mənim qollarımı açdılar. Balkona baxdım. Sərməstbəyov



ayağa qalxdı, üzünü camaata tutub dedi:

– Sizin qarşınızda dayanan bolşevikdir! Allahsızdır! O nə Allahı, nə də onun peyğəmbərini tanıyır, burada qardaş qırğını salmaq istəyir. Bütün bunlardan ötrü biz bu saat onu tənbeh edəcəyik.

Sonra o mənə dedi:

– Siz, Nəzər Heydərov, camaatı bolşeviklər tərəfinə çəkməkdə, qəzada torpaq məsələsi qaldırmaqda, hökumət starşinasını kənddən qovmaqda və nəhayət, hökumət əleyhinə “hökm” yazmaqda ittiham edilirsiniz. Cavab verin, məsləkinizi niyə satırsınız?

– Heç kəs məslək almır ki, mən də satım. Kəndlilər bəy zülmündən azad olmağa çalışırlar. Əgər siz bunu bolşeviklər tərəfə keçmək hesab edirsinizsə, öz işinizdir...

Bəhlul əfəndi qəza rəisinə yaxınlaşıb, xısın-xısın dedi:

– Bu mübahisəni kəs! Axı camaat eşidir!

Sərməstbəyov strajniklərin üstünə qışqırdı:

– Başlayın! Yerə uzadın!..

Məni qamarlayıb, yerə uzatdılar. Əl-ayağımı tutub, səkkiz strajnik şallaqla döyməyə başladı. Şallaqlar elə bil başıma dəyirdi... Zərbənin sayı-hesabı yox idi. Məni yandırıb tökürdü... Neçə dəqiqə keçdi... Strajniklər yoruldular. Şallaqlar daha yavaş qalxıb enirdi. Sərməstbəyov bunu görüb, tələsik eyvandan düşdü, strajniklərin birinin şallağını qapıb, məni bərk döyməyə başladı. Vurduqca da deyirdi:

– Mən səni döyüb öldürəcəyəm, it oğlu, əlimdən qurtara bilməyəcəksən!

Mən var gücümü toplayıb qışqırdım:

– Sizi isə xalq cəzalandıracaq!

Strajniklər də rəislərinə baxıb, bərk vururdular. Axırda Sərməstbəyov da yoruldu, eyvana qalxıb əmr etdi ki, məni üzü üstə yıxsınlar. İndi şallaqlar boynumun ardından tutmuş dabanıma qədər hər yerimə dəyirdi. Nəhayət, strajniklər yorulub, məndən əl çəkdilər. Mən yavaş-yavaş çevrilib oturdum. Sonra sol əlimə dayanaraq

qalxdım. Lakin ayaq üstə dayana bilmədim: dizlərim bərk ağrıyırdı.

Sərməstbəyovun qışqırtısı yenidən eşidildi:

– Onun çarığını və corablarını çıxarıb, yalın ayaqlarına vurun!

Tüfəngin başını strajnikin birinin, ucunu da o birinin çiyninə qoydular, ayaqlarımı tüfəngin qayışına keçirtdilər. Asıla qalmışdım. Qan başıma yığılırdı. Buna çox dözmək olardımı?

Strajniklər indi çılpaq ayaqlarımın altına vururdular. Ancaq daha keyimişdim. Ağrını bilmirdim, yalnız hiss eləyirdim ki, ayaqlarıma nə isə dəyir.

Nəhayət, bu tənbeh də qurtardı. Parça-parça olmuş ayaqlarımı guppultu ilə yerə saldılar.

Mən çarığımı geymək istədim.

Yenə də Sərməstbəyovun əmri eşidildi:

– Onu həbsxanaya ayaqyalın aparın!

Mən ayağa qalxdım. Gözlərim qaraldı. Fərid bəyin evi və ətrafdakı hər şey başıma fırlandı. Sonra gözlərim heç nəyi görmədi. Elə bil uçurumun qırağı ilə yeriyirdim. Birdən kim isə qulağıma pıçıldadı.

– Eyibdir, yıxılma!

Bu səs məni ayıltdı. Özümü düzəltdim, gözüm açıldı, Cəfərqulunun yavaş-yavaş camaatın arasına girdiyini, uzaqlaşdığını gördüm. Məni yıxılmağa qoymayan o idi.

Sonralar Cəfərqulu mənə deyirdi:

– Mən bütün vaxtı sənin yaxınlığında durmuşdum. Qorxdum ki, birdən huşunu itirib yıxılarsan, onlar sevinərlər. Ona görə sənə yaxınlaşıb, bir-iki kəlmə pıçıldadım. Ancaq elə tələsik pıçıldadım ki, heç kəs duymadı.

Mən döyülmüş, yorğun halda ayaqlarımı güclə sürüyə-sürüyə strajniklərin qabağında cığırla gedirdim. Ayağımı nəinki tikanın, hətta qumun da üstünə qoyanda ağrıdan ağlım başımdan çıxırdı.

Ancaq bu tədbirlər polislərin istədiyi nəticəni vermədi, tamam əksinə oldu: bütün qəzada "bolşevik" sözü geniş yayıldı. Bəlkə, həmin şəraitdə heç bir təbliğat polislərin gördüyü bu işi görə bilməzdi.



Camaat gördü ki, məni oğurluq, adam öldürmək, soyğunçuluq üstə deyil, kəndliləri müdafiə etdiyim üçün, özü də qorxmadan, açıqca müdafiə etdiyim üçün döyürlər. Onlar inandılar ki, bolşeviklər bəylərin əleyhinə mübarizə edir, kəndliləri mülkədarların və polislərin zülmündən azad etmək istəyirlər.

Strajniklər məni yolun yarısında ağacların kölgəsində saxlayıb, çarıqlarımı geyməyi təklif elədilər. Mən onlara dedim:

– Buna görə sizi işdən çıxararlar, bekar qalarsınız.

Onlar cavab verdilər:

– Əgər geyməsən, səni burada qoyub, dağlara gedəcəyik!

Dondarlı kəndi ilə Dəmirçilər kəndi arasında Çayzəmi çayının vadisi ilə uzanan yolun kənarında bitmiş tək-tək, lakin şax-şəvəlli ağaclar və meyvə bağları isti vaxtlar yorğun yolçuları çox cəzb edir. Yolun qırağındakı meyvə bağları çəpərsizdi. Külək ağacların təpəsindəki yarpaqları yavaş-yavaş tərpədirdi. Çayın şırıltısı bu bağların daimi sakini olan quşların səsini batırırdı.

Yolun hər iki tərəfi qalın, yamyaşıl otluq idi. Otun, cürbəcür çiçəklərin, yetişmiş ərik və gilənarın ətri yorğun yolçuya qüvvət verirdi.

Yolun bu hissəsindən gözəl Kəpəz çox aydın görünür, onun zirvəsi əzəmətlə dağların üzərində ucalırdı. Təpəsinin qarı hələ əriməmiş Kirs adamın gözünü oxşayırdı. Dağların son qolu olan Dağtumas Gəyən çölünün üzərində yüksəlirdi. Kəpəzə baxanda istər-istəməz xatirinə soyuq bulaqları olan gözəl Qızıl Daş düşürdü.

Məni aparan strajniklərin ikisi də mənim kimi, bu adamı valeh edən təbiətin qoynunda doğulmuş və böyümüşdülər. Biri danzaverli çopur Murad, o biri isə Seytaslı Saleh bəyin oğlu idi.

Belə isti gündə adam meşə, dağ, çəmən, bulaq haqqında danışmaq istəyir, onlar yadına düşəndə adamın ürəyi yüngülləşirdi.

Susuzluqdan boğazım qurumuşdu, amma strajniklərə ağız açmaq, icazə almaq istəmirdim. Ətrafda heç şey məni fərəhləndirmirdi. Hətta

həmişə adamı fərəhləndirən Kəpəz də elə bil üstümə uçmuşdu. Mən özümü inandırmağa çalışırdım ki, müsavat hökumətinin axırıma çıxmaq istəməsi heç də ölüm hökmü demək deyil. Ancaq yenə də məni əhatə eləyən bu gözəlliyi, bəlkə də, son dəfə görürəm- fikri başımdan çıxmır, bütün şüurumu dumanlandırırdı.

Biz azacıq dincəlib yerimizdən tərpənmək istəyirdik, birdən ağacların dalından bir dəstə atlı strajnik çıxdı. Onlar mənim tamam savadsız böyük qardaşım Novruzu qolları arxadan bağlı halda qabaqlarına qatıb, qova-qova gətirirdilər.

Qardaşım başını aşağı salıb, kədərli halda gedirdi. Onun arxasınca üç cərgə, hər cərgədə dörd strajnik gedirdi. Mənim birdən ağlıma belə bir fikir gəldi: "Görünür, onlar Novruzu harada isə qəflətən yaxalayıb tutublar".

Qardaşım məni görüb, diqqətlə, həyəcanla mənə baxmağa başladı. Mən axsamamağa çalışdım, hətta gülümsədim. Lakin o başa düşdü, özünü saxlaya bilməyib, var gücü ilə qışqırdı:

– Səni döyüblər!? – O bunu deyib ağladı.

Biz dayandıq. Strajniklər bizə mane olmadılar.

Mən qardaşıma qısaca dedim:

– Ağlamaq lazım deyil. Səni də döyəcəklər. Ona görə aparırlar. Səni döyəndə qışqırma, ağlama, yalvarıb aman istəmə. Sakitcə get, özünü kişi kimi apar.

Nəhayət, uryadnik qışqırdı:

– Ayırın onları!

Bizi ayırdılar: onu döyməyə, məni isə yenidən həbsxanaya apardılar.

Məni aparan strajniklərə dedim:

– Novruzun heç bir günahı yoxdur! Onu mənim qardaşım olduğu üçün həbs ediblər...

Çopur Mahmud dedi:

– Sizin kənddən kimə rast gəlsələr, həbs edirlər. Belə hesab eləyirlər ki, sizin kənddə hamı bolşevik fikri ilə zəhərlənibdir. Dünən ora böyük



bir dəstə strajnik getmişdi. Görünür, elə ora çatcaq qardaşını tutublar.

– Yəqin, indi sənə çörək gətirən də olmayacaq, – deyə o sözünə davam elədi. – Sənin əmin oğlu İmranı az qalmışdı Kölcük kəndində tutsunlar. O kəndin sakini Hüseynxan bəy strajnikləri görüb İmranı gizlətdi, polislər gedəndən sonra Xalac kəndinə seyidlərin[1] yanına yola saldı ki, İmranın gətirdiyi bir az yeməyi onların vasitəsilə sənə çatdırsınlar.

Mən həbsxananın həyətinə girəndə dustaqları gəzməyə cıxarmışdılar. Xanlar bəy bir kətilin üstündə oturmuşdu. Hacı Bədəl beli bükülmüş halda onun yanında dayanmışdı. Xanlar bəy diqqətlə mənə baxaraq, ucadan dedi:

– Səni döydülər?

Mən cavab verdim:

– Bəylərdən ayrı şey gözləmək olarmı?

– Sən düz danışmırsan, bəylərin hamısı bir deyil.

– Hələlik fərq görmürəm.

Xanlar bəy, qəzəbli-qəzəbli, ağzına gələni ucadan Sərməstbəyovun qarasına dedi.

Əmrah Məmiş oğlu evə qayıdarkən yolüstü Teymurmüsgənliyə, dostunun atası kürd Cəfər əmigilə dönür. O burada həmkəndliləri, daşaltılı Teymur Fərzəliyev və Göyüş Məmmədovla görüşür. Onların ikisi də mənim məktəb yoldaşlarım idi.

Əmrah Dəmirçilər kəndində olan əhvalatı tamam-kamal onlara nəql edir.

Göyüş Məmmədov deyir:

– Sən onu nahaq yerə Dəmirçilərə aparıbsan. Sən bilirdin ki, polis onu güdür.

Fərzəliyev fikrini söyləyir:

– İndi bu barədə danışmağa dəyməz. Onu necə azad eləmək barədə düşünmək lazımdır. Mənə elə gəlir ki, biz asanlıqla gecə həbsxanaya basqın edib, onu apara bilərik.

[1] Məhəmməd peyğəmbərin nəslindən olduqları üçün o vaxt seyidləri həbs eləmirdilər.

Əmrah deyir:

– Mən ondan ayrılarkən dedi ki, özü xəbər verməyincə heç bir tədbir görməyək.

– Bəli, belə vaxtlarda tələsmək təhlükəlidir! Kəndə get, lazımi adamlarla məsləhətləş və nə etmək istədiyinizi bizə xəbər ver. Biz müskanlılar bu işdə sizə kömək etməyə hazırıq. – Qoca Cəfər əmi sözünü belə bitirir.

Laçın dağlarından axan xırda çaylar Bağırbəylidən yuxarıda bir-birinə qarışaraq Həkəri çayını yaradır. Bu çay qırx kilometr şimaldan cənuba axır, uzun illərdən bəri sağ sahilini yuyaraq, hündür sıldırım yarğan eləmişdir. Çayın bu sahili gah dərin, gah da dayaz dərəlikdir.

Eyvazlılar kəndini keçəndən sonra Bərgüşad deyilən qıjov Vorotan çayı da Həkəri çayı kimi dərin dərələrlə axır. Hər iki çay – Həkəri də, Bərgüşad da Qaralar və Kavdadıq kəndlərindən aşağıda birləşərək, Araza tərəf axır. Bərgüşad və Həkəri çayına tərəfi dik və sıldırım yamac olan Yazılar düzü həmişə məhsuldar yer sayılıb. Bu düzün bir hissəsi lap qədimdən Əliquluuşağılılarındır.

Bərəkətli, məhsuldar torpağı və bol meyvəli bağları olan bu kənd həris mülkədarları cəlb etməyə bilməzdi. Mülkədar Mehdibəyov bir vaxt Əliquluuşağı kəndini öz əlinə keçirmiş və malikanəsinə çevirmişdir. O özü Şuşada yaşayırdı, ancaq uzun müddət bu kəndin məhsulunun onda birini töycü almışdı.

Başqa Zəngəzur kəndliləri kimi Əliquluuşağı kəndindən də çox adam Bakıda neft mədənlərində işləyirdi. Əliquluuşağıda fəhlə təsiri Azərbaycanın digər kəndlərindən çox hiss edilirdi. Burada kəndlilər daha mütəşəkkil idilər, polislərin və bəylərin təzyiqinə kəskin cavab verirdilər. Əliquluuşağılılar zülmə dözmür, mütiliyi sevmirdilər. Onlar bir əngəl baş verəndə əlbir olur, köməkləşirdilər. Əliquluuşağılılar öz ruh yüksəklikləri ilə ətraf kəndlilərdən həmişə fərqlənirdilər.

Əliquluuşağıda kortəbii yığıncaqlar tez-tez olurdu. Bu yığıncaqlarda vacib həyati məsələlərdən danışılırdı. Bugünkü yığıncağı Əmrah Məmiş oğlu çağırmışdı. Məni azad eləmək məsələsini müzakirə etmək lazım idi. Yığıncaqda Gürcülü kəndindən də bir neçə adam iştirak edirdi.

Əmrah sözünün axırında deyib:

– Mənə elə gəlir ki, Dəmirçilərə adam göndərib, Nəzər Heydərova bildirmək lazımdır ki, biz onu həbsxanadan zorla azad etmək istəyirik. Bütün kəndlilər bizə kömək edəcəklər. Bir gecə nə vaxta sözləşsək, yüz əlliyə qədər silahlı kəndli götürüb, onu azad edərik. Bunu ona xəbər vermək üçün təklif edirəm Firdovsini göndərək. Firdovsi bunu bacarar.

Əmrahın təklifi yekdilliklə qəbul olunur.

Teymurmüsgənli kəndində qocalar, həmişəki kimi, evlərin kölgəsində oturub, keçmişdən söhbət edirdilər. Söhbət eləyənlər Cəfər əminin başına toplaşmışdılar. Axırıncı sözü, qəti sözü, o deməli idi.

Bir dəstə gənc kürd qocalara qoşuldu.

Seyidəli dedi:

– Cəfər əmi! Yaman darıxırıq, lap cana doymuşuq.

Cəfər əmi hirslənib onu danlamağa başladı:

– Nədir, yenə əlləriniz gicişir? Soyğunçuluq etmək istəyirsiniz? Onsuz da əlin qanlıdır! Günahlarını yumaq üçün sən gərək ömrün boyu sakit, dinc dolanasan.

Gözlənilmədən qoca yerindən qalxdı, daha oturmaq istəmirdi. Cəfər əmi möhkəm zoğal çəliyinə söykənə-söykənə, qocalara məxsus yavaş addımlarla çıxıb getdi. Qoca bərk dilxor idi, arıq, sümüyü çıxmış əlləri əsirdi, dodağı titrəyirdi. Gözünün ağı-qarası bircə oğlunun öldüyü günü xatırlayanda həmişə bu hala düşürdü.

Qəfildən Gölcük tərəfdən bir gənc tövşüyə-tövşüyə özünü söhbət eləyənlərə yetirib dedi:

– Qoşun gəlir! Atlı qoşun! Bir ucu yoxuşun dibində, o biri ucu Gölcükdən çıxıb qurtarmayıb.

Cəfər əmi onu evə ötürən Atakişiyə tərəf dönüb dedi:

– Oğul, bunlar polislərdir. Onlar bizim kəndə gəlmir. Amma

yolüstü, bir-iki saatlığa bizim kənddə ləngiyə bilərlər. Onlar Əliquluuşağıya gedirlər. Tez atı min, Əmrah Məmiş oğluna xəbər ver ki, ayıq olsunlar. Bədbəxtliyə bir bax! Yazıq əliquluuşağılılar!

Əliquluuşağıda yığıncaq qurtarırdı. Elə bu vaxt Atakişi aşağıdan, balaca dərədən çıxdı, atdan düşməmiş Cəfər əminin tapşırığını Əmraha çatdırdı.

Enli, gür Bərgüşad çayına kiçik, lakin qıjov bir çay tökülür. İki çayın birləşdiyi yerdə, onların yatağından hündürdə, kiçik Ağ yazı düzü var. Bu düzdən bir neçə kilometr aralıda Lalazar[1] körpüsü görünür. Polislər Əliquluuşağıya yalnız bu körpüdən gələ bilərdi. İndi, yazda, çayın daşan vaxtı, Bərgüşadı dayaz yerlərdən keçməyə yalnız çox qoçaq adam ürək eləyə bilərdi; o da həyatı bahasına.

Müdafiə planı adamın ağlına qəfil gəldi: polislərin qabağını körpüdə kəsmək lazımdır! Onların qabağını almaq yalnız bu cür mümkündü.

Əmrah Məmiş oğlu yüzə qədər silahlı götürüb Ağ Yazı düzündə yaxşı mövqe tutdu. Körpü və yolun xeyli hissəsi buradan yaxşı görünürdü.

Polislər yamacı qalxıb, Müsgənli kəndinə girdilər. Dəstənin başında çolaq İsmayıl bəy gəlirdi. Sərməstbəyov Şuşaya getdiyi üçün qəza rəisini o əvəz edirdi. Yüz əllidən artıq strajnik atını yedirtmək və özləri də qarınlarını doldurmaq üçün Müsgənli evlərinə dağılışdılar. Çolaq İsmayıl bəy Teymur Fərzəliyevin evinə düşdü.

İsmayıl bəy şübhə ilə qaşqabaqlı halda Fərzəliyevə dedi:

– Yəqin, bizim gəldiyimizi çoxdan əliquluuşağılılara xəbər veribsiniz?

– Nə danışırsan, İsmayıl bəy! Sizin gəldiyinizi biz haradan bilirdik?

– Düz demirsən! Yolda, təpənin üstündə, sizin adam dayanmışdı, bizi görən kimi yox oldu.

– Yox, İsmayıl bəy, yəqin naxırçı imiş. Bu saat bizim mal-qara

[1] Lalazar körpüsünü 1864-cü ildə Xınzirək kəndindən olan varlı erməni Lalazar tikdirmişdi. Bütün ili bu körpüdən ermənilər və azərbaycanlılar istifadə edirdilər.



orada otarılır, əgər inanmırsınızsa, buyurun, yoxlayın.

Strajnik qayıdıb xəbər gətirdi ki, doğrudan da, orada mal-qara otarılır, onların gördükləri adam yenə təpənin üstündə oturubdur. O, polisləri görəndə qorxusundan kolluqda gizlənibmiş.

– İsmayıl bəy yəqin, səhərdən heç nə yeməmisiniz. İcazə verin, toyuq kəsim.

– Neynək, etiraz eləmirəm.

Fərzəliyev, əliquluuşağılıların Ağ Yazı düzünə çıxması üçün nə qədər vaxt lazım olduğunu fikirləşərək xörəyi ləngidirdi.

Nəhayət, İsmayıl bəy və arxasınca da atlıları kənddən çıxdılar. Dəstə çox görünmək üçün strajniklər tək-tək, bir-birindən xeyli aralı gedirdilər. Qabaq atlılar Kürd düzünə[1] çatanda, atlının gerisi hələ Müsgənlidən üzülməmişdi.

Kürd düzündə İsmayıl bəyə xəbər verdilər ki, Ağ Yazıda adam görünür. İsmayıl bəy durbinlə baxıb silahlı adamları aydın gördü. Lakin dəstəni geri qaytarmaq istəmədi.

Qabaqdakı strajniklər körpüyə çatanda əliquluuşağılılardan üçü birdən atəş açdı. Güllələr vıyıltı ilə daşa dəydi və biri sərpib, atın birini yaraladı.

Strajniklər geri çəkildilər. İsmayıl bəy dəstəni bağa çəkdi. Aslan bəy ona məsləhət gördü ki, bir qədər gözləsin, sonra Əliquluuşağı kəndinə çapar göndərib tapşırsın ki, Gürcülü kəndinə nümayəndə göndərsinlər.

– Ağıllı məsləhətdir! Onsuz da biz bu kənddən bir neçə adam həbs etməliyik.

İsmayıl bəy dəstəyə Gürcülüyə yola düşməyi əmr etdi.

– Strajniklərin qabağında durmayın! Qoy kefləri nə istəyir, eləsinlər – lap kəndi dağıtsınlar!

Dəstə geri döndü. Əliquluuşağılıları çaşdırmaq üçün strajniklər özlərini elə göstərdilər ki, guya gəldikləri yolla qayıdırlar. Ancaq Daş Təpə dərəsinə enib Gürcülüyə tərəf döndülər.

[1] Kürd düzü kürd kəndi Daşaltının ərazisindədir.

Çolaq İsmayıl bəy bizim bağçaya düşüb əmr etdi ki, bizim və əmimgilin evlərini axtarsınlar. Uryadnik gizlənmək ağlına belə gəlməyən qoca əmim Məhəmmədi tutub, ondan tüfəng tələb etdi. Qoca and-aman elədi ki, onda tüfəng yoxdur. Bu zaman uryadnik strajnikə əmr etdi ki, bir pişik gətirib, qocanın şalvarına salsın.

– Arxayın olun, onda tüfəngi harda gizlətdiyini deyər.

Anam qocanı təhqir eləyib, biabırçı halda ələ salmaq istədiklərini görüb, əmimə dedi:

– Get, tüfəngi gətir ver bu itlərə. Onları görüm həmişə xəcil olsunlar.

Bu vaxt Əli Xudaverdi oğlunun evində Göyərabaslı uryadnik Həsən bəy Cəbrayıl bəy oğlu aləmi bir-birinə qatmışdı. O, qab-qacağı sındırır, yorğan-döşəyi eşiyə tökür, şor motalını xəncərlə cırır və tələb edirdi ki, tüfəngləri harada gizlətdiklərini desinlər.

Dəqiqəbaşı qışqırırdı:

– Sizin bu quldur evinizdə, yəqin? böyük bir dəstə gizlənib! Soruşuram: hanı silahlar! Nə qədər ki hamınızı güllələməmişəm yerini deyin!

Kənddə bütün evlərdə vəziyyət belə idi. Strajniklər evlərdən yağ, xalça, mis qazan, samovar və başqa şeylər götürür, əkinləri atlarla taptaladılar, kəndliləri döyürdülər. Nəticədə 7-8 tüfəng tapdılar. Qardaşım Novruzu kəndin kənarında tutmuşdular. O dərə ilə qaçırmış, lakin atlılar onu hələ kənddən görüblərmiş.

Əliquluuşağılılar polislərin göndərdiyi çaparı dinləyib, bu qərara gəldilər ki, İsmayıl bəyin yanına Mahmud Paşayevi göndərsinlər. Nümayəndə ilə İsmayıl bəy arasında danışıq gedən zaman bəziləri bu qorxulu işdən əl çəkməyi, polislərə silahlı müqavimət göstərməməyi təklif etdi.

– Nəyimizə gərəkdir! Bunun üstündə bütün kəndi dağıdarlar. Hökumətlə zarafat eləmək olmaz...

Əmrah cavabında dedi:



– Kəsin səsinizi, binamuslar! Adamı qabağa verib, dalından qaçmaq kişi işi deyil.

Mahmud Paşayev Gürcülüdə İsmayıl bəylə danışıq zamanı özünü çox ağıllı aparırdı. İsmayıl bəy dəstəni Əliquluuşağına döndərməyi təklif edəndə, o cavab verdi:

– Bu mümkün deyil. Bu barədə heç danışmağa dəyməz. Mən təklif edirəm. Atlılarınızı kənd icmasının ərazisindən çıxarın, yoxsa üsyan qalxacaq. Bizim silahlı adamımız çoxdur. Sizin strajniklərinizin burada törətdikləri biabırçılıqlar cəzasız qalmayacaq. Əgər siz bu kənddən çıxıb getməsəniz, bir saatdan sonra əliquluuşağılılar burada olacaqlar, başqa kəndlərdən də gələcəklər...

Uzaqda bir neçə güllə atıldı. Bunu Mahmudun əvvəlcədən Gürcülünün yaxınlığında, Böyük Düzdə qoyduğu beş nəfər atırdı. Mahmud ayağa qalxdı:

– Bu bizim şərti işarəmizdir. Əgər yarım saata sizin dəstə buradan çıxmasa, əliquluuşağılılar hücum edəcək.

Bir neçə dəqiqədən sonra polis dəstəsi yığışdı. Teymurmüsgənlidən keçib getmək dəstə üçün təhlükəli olduğuna görə İsmayıl bəy əmr etdi ki, Qurtlubulaq, Göyərcik və Qarıqışlaqdan keçib, geri qayıtsınlar.

Çayın kənarında, Lalazar körpüsündən aşağıda, əliquluuşağılıların bağlarında, ağacın dibində bir uryadnik strajniklərlə pusquda dayanmışdı. Bu vaxt qoca atam atla yolda göründü. Strajniklər ağaclıqdan çıxaraq, kişini atdan salıb qollarını bağladılar.

– Vicdanınız olsun! Mən qoca kişiyəm, ömrümdə heç kəsə pislik etməmişəm...

– Yaxşı, yaxşı, - deyə uryadnik onun sözünü kəsdi. – Bu sözləri orada deyərsən. Bizə ciddi əmr var, gərək səni aparaq.

– Mən piyada, qolları bağlı bu uzaq yolu gedə bilmərəm.

– Ha, ha! Bəlkə, səni faytona mindirək? Müqəssir gərək piyada getsin. Aparın onu...

...Əmrah Məmiş oğlunun ürəyinə damır ki, nə isə bir pis iş olacaq. Ona görə də bir neçə silahlı atlı götürüb kəsəsinə Ağ Yazıdan keçib atamın dalınca körpüyə tərəf gedir. Onlar körpünün yanında strajniklərlə rastlaşırlar.

– Aha. Tutmağa adam tapıblar, vicdansızlar. Qocanı hara aparırsınız?

Əmrahın səsini eşidib atam yalvarmağa başlayır:

– Oğul! Allah xatirinə, güllə atmayın! Qan tökməyin! Mən öz dövranımı sürmüşəm. Məndən ötrü heç kimi öldürməyin!..

– Narahat olma, ata! Qan da tökməyəcəyik, səni də verməyəcəyik, – deyə Əmrah qocanı sakitləşdirib, uryadnikə müraciət eləyir: – Siz qocanı aparmaq fikrindəsiniz?

Uryadnik qurudu: o, Əmrahı yaxşı tanıyırdı, başa düşürdü ki, onun əlindən sağ qurtarmaq müşkül işdir. Uryadnik çətinliklə cavab verdi:

– Mən günahkar deyiləm. Mənə əmr olunubdur. Mən gü-nah-kar de-yi-ləm...

Birdən Əmrah strajniklərə qışqırır:

– Açın kişinin qollarını!

Ancaq silahlı kəndlilər strajnikləri qabaqladılar. Onlar atamın qollarını açıb, Əmrahın yanına gətirdilər.

– Məgər sən qayıdıb deyə bilməzdin ki, qocanı tapa bilmədim? İndi nə qədər sağsınız rədd olun buradan! – Sonra qocaya tərəf dönüb dedi: – Ata, səni heç yerə buraxmayacağam. Atını min, mənimlə gedək evə.

Bu əhvalatdan bir neçə gün sonra axşam toranlığında hökumət starşinası Aslan bəy bir neçə strajniklə həmin körpünün yanında gizlənmişdilər.

Molla Abbas Əliquluuşağıdan qayıdırdı. O, körpünü keçəndə Aslan bəy qarşısına çıxdı. Aslan bəy bir neçə gün idi mollanı izləyirdi, nəhayət tapmışdı.

– Salaməleyküm, ay molla!



– Əleykümsalam, ay Aslan bəy! Məndən nə istəyirsiniz?

– Mənə əmr olunub ki, səni həbs edim.

Aslan bəy ehtiyatlı tərpənirdi. O, molla Abbasın qolunun zoruna bələd idi, qorxurdu ki, onu götürüb çaya atar.

– Məni həbs eləmək? Nə üçün? Nə cinayət eləmişəm?

Körpünün hər iki tərəfindən strajniklər mollaya yaxınlaşdılar.

Mollanın yadına düşdü ki, cibində balaca bir kağız var, onu tələf eləmək lazımdır. O tez kağızı ağzına qoydu, çeynəyib uddu. İndi arxayın idi; başqalarına ziyanı dəyməyəcəkdi. Tapança, yaxud bıçaq-xəncər gəzdirmədiyi üçün ürəyində özünü danladı.

Strajniklər onun qollarını bağlamaq istədilər. Molla əvvəlcə birini, sonra da o birisini yüngülcə kənara atdı.

Aslan bəy qışqırdı:

– Kəmənd atın!

Strajniklər kəməndi mollanın boynuna keçirib dartdılar. Molla boğulub yıxıldı, huşunu itirdi. Aslan bəy və strajniklər istehza ilə ona gülürdülər. Bir neçə dəqiqədən sonra molla özünə gəldi və əl-ayağını tamam sarınmış gördü. Aslan bəy acı-acı gülüb dedi:

– İndi, molla, biz səni özümüzlə aparacağıq. Sənə qabaqcadan xəbərdarlıq etdik ki, müqavimət göstərmə. Amma sən bizə qulaq asmadın. Nahaq yerə. Sənin qolun zorludur, buna söz ola bilməz. Bizim də hiyləgərliyimiz var. Biz sənə qalib gəldik.

Ertəsi gün molla Abbası döyülmüş, qolları bağlı qəza rəisinin yanına apardılar.

Sərməstbəyov məni strajniklərə döydürdüyü gün oturduğu eyvanda oturmuşdu. Molla qolları bağlı halda eyvanda pilləkanın yanında, qəza rəisinin qarşısında dayandı. Aslan bəy dustağı rəisə təqdim edib, sevinə-sevinə, sakitcə bir kənara çəkildi.

– Molla, ağsaqqallarla birlikdə "hökmü" mənə verəndə sizin haqqınızda o qədər də səhih məlumatım yox idi. Deme, sizin, hökumət əleyhinə fəaliyyət göstərməkdə böyük təcrübəniz var imiş.

Siz 1909-cu ildə də belə qiyamlar təşkil eləmişsiniz. Belədirmi? – Sərməstbəyov rişxəndlə danışırdı.

Molla cavab verdi:

– Cənab rəis! Sizcə, evimin talan olunması barədə hökumət idarəsinə şikayət verməm qiyamdır?

– Mən onu nəzərdə tutmuram, molla. İsmayıl bəy mənə danışıb ki, siz Cabbar bəyə nə isə bir hədə məktubu yazıbsınız!

– Bəy, Allahdan qorxun! O məktubu mən on il bundan əvvəl, çar hökuməti zamanı yazmışdım! Axı indi Azərbaycanda cümhuriyyətdir – respublikadır.

– Sizcə, indi bizim respublikanın yiyəsi yoxdur?

– Bəy, respublikada gərək zorakılıq olmasın...

– Sənin kimi şuluqçu və qanun pozanlar ağıllarına gələni eləmək üçün, eləmi?

Eyvandakı səs-küyü eşidib, adamlar yavaş-yavaş toplaşmağa başladılar.

Sərməstbəyov mənim başıma gətirdiyi oyunu mollanın başına gətirə bilməzdi. O öz-özünə təəssüflənirdi: "Heyif, hər halda molladır".

Heç kimin küçədən görmədiyini güman edərək, o, mollaya yaxınlaşdı, sinəsinə bərk bir yumruq ilişdirdi. Ancaq bunu adamlar gördülər.

Həyətdən səs eşidildi:

– Bir baxın, o, mollanı vurdu!

Molla yıxıldı, diyirlənib pilləkənlə aşağı düşdü, huşsuz halda yerə sərildi...

Bərgüşada yaxın olan bütün kəndlərdə, Bəxtiyarlı dağ keçidlərindən aşağılarda, çəltik əkilən yerlərdə daima qızdırma hökm sürərdi. Bu kəndlərin böyükdən tutmuş kiçiyədək bütün camaatı həmin xəstəlikdən əzab çəkərdi. Gün çıxandan batanacan qurşağadək lilli, günəşdən qızmış suyun içərisində çəltik becərmək və ağcaqanadlar adamları üzüb tamam taqətdən salmışdı... İndi bu adamlar, bir nəfər kimi, al-qan içində yerə sərilmiş molla Abbasa yaxınlaşır, kədərlə ucadan deyirdilər... "Lənətullah!" Molla bu səs-küyə özünə gəlib, əlini qocalara tərəf uzadaraq yalvardı:

– Allah xatirinə, çıxın gedin! Məndən ötrü bir nəfər də müsəlman gərək əzab çəkməsin! Mən bunu istəmirəm...

Sakitcə, dinməz-söyləməz kənarda dayanmış qocaların üzü aşağı göz yaşı axırdı...

Mollanı bizim yanımıza, həbsxanaya gətirəndə onun başında salamat yer yox idi. Ağ saqqalı qandan keçə kimi olmuşdu.

Həbsxana ağzınacan dolu idi. Kameralarda nəinki uzanmaq, heç oturmaq mümkün deyildi. Tezliklə dustaqların bir hissəsini, o cümlədən də bizi başqa kameraya köçürdülər.

Bizim olduğumuz bina polis məntəqəsinin yaxınlığında idi, ona görə pristavın gözünün qabağında idik.

Bizi gəzməyə çıxardıqları zaman binaya iki atlı yaxınlaşdı.

Yaxın günlərdə ikinci nahiyəyə[1] pristav təyin olunmuş Qarabağın Kəbirli kəndindən olan Cabbar Niyazov əmr elədi:

– İkisini də tərksilah edib, həbsə alın!

Atlının biri bunu eşitdi, atını geri döndərib dedi:

– Hünəriniz var, məni tərksilah edin.

O, atını sürüb getdi. İkinci atlı da onun kimi. Polislərdən heç kəs onların arxasınca düşməyə cürət eləmədi.

Dustaq Hacı Bədəl bu münasibətlə bir beyt dedi:

Dadanmısınız mənim kimi pirana,
Cavab verin Hüseyn kimi Şirana!

Demə, Hacı Bədəl birinci atlını, məzməzəkli Hüseyn Abdullayevi tanıyıb. Onu başqa dustaqlar da tanıdı. Hüseynin kəndlilər arasında inqilabi iş apardığını mən də eşitmişdim, ancaq ilk dəfə görürdüm.

Gəzinti qurtardı, bizi yenə kameraya saldılar. Qocalar kəndlilərlə bəylər arasında olan münasibətdən, hansı kəndin hansı bəy tərəfindən nə vaxt ələ keçirildiyindən danışırdılar.

[1] Bizim nahiyə üçüncü sayılırdı.

Ancaq at ayağının tappıltısı və dəmir qapı qıfılının səsi bizim söhbətimizi yarımçıq kəsdi. Sərməstbəyov yırtıcı heyvan kimi içəri soxuldu. O, Xanlar bəyə və Hacı Bədələ dedi:

– Tezliklə siz azad ediləcəksiniz! Cəzanızın vaxtı qurtarır.

Sonra o mənə müraciət etdi, o dəqiqə də qaşqabağını tökdü:

– Sabah sizi Şuşaya yatab edəcəyik. Bu ikisi isə – nədənsə o mənə baxıb, əli ilə qardaşımı və molla Abbası göstərdi: – Azərbaycandan sürgün ediləcəklər. – Sərməstbəyov susdu, sonra aram-aram mənə dedi:

– Sən general qubernatorun əmri ilə güllələnəcəksən! Başa düşdün? Güllələnəcəksən...

Molla rəğbətlə mənə, düz gözümün içinə baxırdı. Bilmək istəyirdi ki, mən qorxmadım ki?

Xanlar bəy mənə təsəlli verməyə başladı:

– Bilirsən, deyərlər ki, "şər deməsən, xeyir gəlməz!" Şuşaya gedəndən sonra yenidən istintaq başlanacaq. O zaman sən çoxlu şahid göstər. Hər dəfə yeni-yeni şahidlər istə...

– Nə üçün?

– Qanun üzrə onlar şahidlərin hamısını danışdırmalıdırlar. O vaxtacan da işin üstündən yarım il keçər. Bu müddət ərzində iş soyuyar. Sonra da, kim bilir, necə olacaq. Bəlkə, vəziyyət tamam dəyişdi. Məni başa düşdün?

Xanlar bəy vəkil idi. Buna görə ona çox inanırdım.

– Xeyirxah məsləhətlərinə görə, çox sağ ol!

Sabahı gün bizi yatab etdilər! Xanlar bəylə, Hacı Bədəllə xudahafizləşdik. Hacı Bədəl məni saxlayıb bir qədər pul təklif etdi.

– Bilirəm, özünüzlə heç bir şey götürə bilməmisiniz, amma yolda, xüsusilə şəhərdə pul lazım olacaq.

– Çox sağ ol, Hacı! Mən bunu unutmaram! Xahiş edirəm, atama xəbər verin, pullarınızı qaytarsın! Bir xahişim də var: çalışın, bizim yatab edilməyimizi, elə bu gün Hüseyn Abdullayevə xəbər verin.

Həyətdə bütün işlərə Sərməstbəyov özü başçılıq edirdi. Bizi bir



cərgəyə düzdülər: molla ortada, qardaşım sağda, mən solda. Mollanın sağ qolunu qardaşımın sol qoluna, mənim sol qolumu mollanın sağ qoluna qandalladılar.[1]

Mən həyətdə Xürrəm Babayevi gördüm. O, Dondarlı icmasının başçısı, mənim məktəb yoldaşım idi. Qışda mən onunla görüşəndə demişdim:

– Bu hökumət tezliklə yıxılacaq, ondan əl çək.

O vaxt mənə cavab vermişdi:

– Bizə belə də yaxşıdır! Sizin fantaziyanız bizə lazım deyil.

İndi Xürrəmlə göz-gözə gələndə mən başımla qandalları göstərdim. "Bunlarmı yaxşıdır?"

Xürrəm tərəddüdlə Sərməstbəyova yaxınlaşıb, müti halda, qorxa-qorxa xahiş etdi ki, bizim qolumuzdan qandalları açsınlar. Sərməstbəyov ona tərs-tərs baxaraq, acıqlı-acıqlı bağırdı:

– Rədd ol burdan, köpək oğlu! Yəqin sən də bolşeviksən!

Qandallarımızı açmadılar. Bizi pristavın yanına iyirmi beş strajnik aparırdı. Biz idarəyə çatanda Sərməstbəyovla Sultanov eyvanda oturmuşdular. Çolaq İsmayıl bəy yatab kağızlarını, təqsirnamələri üç iri paketə qoyub bağladı. O indi qəza polis idarəsində işlər müdiri işləyirdi. Biz qabaqda, atlı strajniklər isə arxada dayanmışdılar.

Molla, Sərməstbəyova müraciətlə dedi:

– Yazın, yazın! Nə istəyirsiniz, yazın! Mənim günahım odur ki, Kərbəlaya gedəndə yolda nəcisinə bulanmış alçaq atanı ölümdən qurtarmışam. Gör o vaxt nə böyük səhv eləmişəm!

Sonra o, İsmayıl bəyə dedi:

– Səni də, Çolaq, Gorusun küçələrində sərxoş yıxılıb qalanda gərək boğub öldürə idim. Kaş o vaxt cəhənnəmə vasil olaydın...

Bəylər bizə nifrətlə baxırdılar. Mən də onlara bəzi sözlər dedim:

– Biz yenə qayıdacağıq! Özü də əli süpürgəli qayıdacağıq!

Bizi apardılar. Qabaqda üç strajnik, onların arxasınca qəza rəisinin

[1] Bunlar adi dustaq qandalı deyildi, kəndlilərin atın qabaq ayaqlarına çidar vurduğu nazik zəncirli qandal idi.

müavini Qara bəy Hacıbəyov, üç atlı, onlardan sonra biz, bizdən arxada isə qalan keşikçilər gedirdi. Elə bil mən müsavat hökumətinin baş nazirinə qəsd eləmişdim...

Kəndin küçələrinin birində lap arxadan gələn keşikçini orta yaşlı, ucaboy bir qadın saxlayıb, başı ilə bizi göstərdi:

– Allah xatirinə, onlar acdır! Al bu pendir-çörəyi, yolda onlara verərsən. Məni onların yanına qoymazsınız. Onlar mənim ərimin dostlarıdır.

Strajnik vəhşicəsinə qadının üstünə qışqırdı:

– Rədd ol buradan! İstəyirsən, məni də onlarla birlikdə Şuşa həbsxanasına salsınlar?

Bu qoçaq qadının adı Tərlan idi. O, atamın dostunun arvadı idi. Onun qüdrətli, mərdanə siması hələ də gözümün qabağındadır.

Bizi gur, qıjov Bərgüşadın sahilinə çıxartdılar. Məni fikir götürdü: “Biz çayı necə keçəcəyik? Bizi batırmayacaqlar ki?”

Keşikçilərin hamısı atla keçdilər. Təəccüblüdür, bu atlar bellərində silahlı adam olduğu halda belə sürətlə axan çayı necə üzüb keçirlər?!

Biz bir neçə strajniklə çayın sağ sahilində qaldıq, lap çaşmışdıq, bilmirdik nə edək. Strajniklərin biri mənə yaxınlaşıb, yavaşca dedi:

– Qorxma, heç nə olmaz. Açıq əlinlə mənim atımın üzəngisindən tut, ancaq elə et ki, əlin suyun altında qalsın. Məni başa düşdün? Onlar da – o başı ilə yoldaşlarımı göstərdi – səndən yapışsınlar. Beləcə üzüb keçərsiniz...

Qara bəy Hacıbəyov çayın o biri tərəfinə keçərək, atını bizə tərəf döndərib, çayı keçəcəyimizə diqqətlə baxırdı. O istəyirdi ki, çayı keçəndə strajniklər bizə kömək etməsinlər. O, bizim strajniklə bir vaxtda hərəkət etdiyimizi və onunla aramızda olan məsafənin dəyişmədiyini görüb, işin nə yerdə olduğunu başa düşdü. Çayı keçəndən sonra xilaskarımızı daha görmədik. Hacıbəyov onu qəza polis idarəsinə göndərdi. Çox təəssüf ki, biz həmin strajnikin adını soruşmadıq!

Çayın sol sahilinə çıxdıq. Çay getdikcə arxada qalırdı. Qara bəy qabağa getdi. Bizi on beş strajniklə uryadnik aparırdı. Bəlkə, indi vəziyyət bir qədər yüngülləşdi?!

Saray kəndindən Yazılara gedən yol sıldırım yamacdır. Uryadnik bizi tələsdirirdi:

– Tez, cəld olun! – deyə o hər dəqiqə qışqırırdı.

“Tez olun!” demək asandır. Belə isti gündə dirsəkdən yuxarı qolu bağlı yerimək çox çətindir. Uryadnik atını yaxına sürüb, mollanı, ya da məni qırmacla vurur, bizi qovurdu. Gözümün qabağında göy dairələr yaranırdı. Qırmanc ətimi qızmar dəmir kimi yandırırdı. Molla dözə bilmədi:

– Ey böyük Allah!

Pəhləvan cüssəli, göygöz molla aciz-aciz, hirslə başını bulayırdı.

O, yolun sol tərəfini, uçurumu uryadnikə göstərib dedi:

– Murdar, köpək oğlu! Əgər qolum bağlı olmasaydı, səni at qarışıq bir göz qırpımında ora atardım!

Axşam Həkəri çayının sahilindəki Qaraimanlı kəndində qaldıq. Bizi bir evə saldılar. Evin sahibi çoxdan yaylağa köçmüşdü. Otaq tozla, birə ilə dolu idi, hörümçək toru basmışdı. Bir belə hörümçək haradandı? Yeməyə heç nə vermədilər, heç iştahamız da yox idi.

Qara bəy istirahət edib dincəldikdən sonra, gəlib bizim otağın astanasında dayandı, nifrətlə bizə baxdı. Biz torpağın, tozun içində oturmuşduq.

Mən Hacıbəyova rus dilində dedim:

– Biz bayıra çıxanda olmazmı qandalları açsınlar. Axı bir yerdə... eyibdir! Bu bizim birinci xahişimizdir. İkincisi, xahiş edirik, qandalı qolumuzdan açıb ayağımıza vurun ki, gecə yata bilək.

– Sizin xahişinizi yerinə yetirə bilmərik. Mənə belə əmr verilib. Onu yerinə yetirməyə bilmərəm. Siz dustaqsınız – bunu yaddan çıxarmayın...

Bürkü və tozlu gecə idi. Tez-tez ayılırdıq. Səhər tezdən yuxudan doymamış, bizi qaldırdılar. Yenə qandallı gedirdik. Cığır çox dar olduğuna görə yanakı gedirdik. Harda qabağımıza bir bulaq, yaxud

gölməçə çıxırdı, köpüncən içirdik, amma yenə də yanğımızı söndürə bilmirdik. Su da rastımıza tez-tez çıxmırdı.

Günorta Səfiyan kəndinə çatdıq. Bizi bir evin eyvanına yığdılar. Bir qarı bizə bir bayda ayran və bir az da yuxa verdi. Qarı deyinirdi:

– Kül başınıza, bu mollanı niyə tutmusunuz?

O mənə baxıb dedi:

– Yazıq sənin nənən...

Yola düşdük. Təpənin dalında, bir evin yanına xeyli kəndli yığışmışdı. Bizim qabağımızca strajniklər gedirdi. Kəndlilər yoldan çıxmadılar. Bu adamların çoxunu mən Bakıdan tanıyırdım: neftçi fəhlələr idi.

"Təsadüfi görüşdürmü?" – deyə öz-özümə düşündüm, özüm də cavab verdim: "çox çətin..."

Uryadnik çəkinə-çəkinə qışqırdı:

– Dağılışın!

İzdiham dağılmadı. Qara bəy Hacıbəyov və Cabbar Niyazov bərk səksəkəyə düşmüşdülər, rəngləri qaçmışdı, həyəcanla kəndlilərə baxırdılar.

Qabaqda gedən uryadnik və strajniklər kəndlilərə şallaq silkələdilər. Ancaq kəndlilər daha da sıxlaşdılar.

İzdihamın içərisindən kimsə qışqırdı:

– Onların qollarını açın! – Yolu kəsmiş adamların sifəti tutqun, qətiyyətli idi, gözlərindən qəzəb yağırdı.

Uryadnik və strajniklər yavaş-yavaş şallaqları aşağı saldılar.

Niyazov vəziyyəti başa düşüb, bu qərara gəldi ki, yaxşısı budur. Camaatı sakitləşdirsin.

– Yaxşı, bu saat onların qollarını açarıq.

O, uryadnik Calala əmr etdi ki, bizim qollarımızı açsın. Calal o saat əmri yerinə yetirdi. Qara bəy Hacıbəyov ona mane olmağa çalışdı:

– Axı onlara mən cavabdehəm!

– Xeyr, sən yox, öz nahiyəmdə mən onlara cavabdehəm! – deyə Niyazov əsəbi halda cavab verdi, sonra alçaqdan dedi: – Siz nə



istəyirsiniz? İstəyirsiniz ki, onları əlimizdən alsınlar? İstəyirsiniz ki, vuruşma başlasın![1]

Qandallarımızı açdılar və Şuşaya qədər yolu nisbətən asan, çox yorğunluq duymadan getdik. Qandallar yazıq mollanın qolunu dirsəkdən yuxarı sürtüb yara eləmişdi. Biz arıq olduğumuz üçün qandallar qolumuza boş idi, onu isə bərk sıxırdı. Ancaq qandalları açanda tələsik dedi: "Yavaş!"

Bizi Kətən düzü ilə aparırdılar. Bura cavan ağacları qırılmış meşəli yamac idi. Bura yaxınlaşanda gördük ki, uryadniklər yolda baş-başa verib nə barədə isə danışırlar. Sonra Qara bəy yenə atını çapıb qabağa getdi.

Bizi bir uryadnikin strajnikləri aparırdı. O biri iki uryadnik isə öz strajniklərini bir yerə toplamışdı, nə barədə isə danışırdılar. Bizi bir ağacın kölgəsində saxladılar.

Uryadnik laqeyd adam kimi dedi:

– Bir az dincəlin! – Lakin biz bunun hiylə olduğunu başa düşdük.

Qabaq pöhrəlik idi. Molla bərk təşvişə düşdü. "Onlar bizi çayda batırmaq istəyirdilər!.. İndi isə burada işimizi bitirmək istəyirlər!.." Mən də bərk həyəcan keçirirdim. Öz-özümə fikirləşirdim: "Bura kənddən-kəsəkdən aralıdır... Uryadnik Calalı da qəsdən uzaqlaşdırdılar ki, onlara mane olmasın". Mən əvvəldən hiss eləmişdim ki, uryadnik Calal o biri iki uryadnikdən bizə yaxşı münasibət bəsləyir.

Molla Abbas elə hey ətrafa baxır, strajniklərin hər bir hərəkətinə göz qoyurdu. O, aşkar əsəbiləşmişdi, tez-tez nəfəs alırdı. Qardaşımın

[1] İkinci nahiyənin ərazisində həddindən çox qaçaq məzməzəkli vardı. Abdullayevi Dəmirçilərdə tutmaq istəyəndən sonra məzməzəklilərlə Niyazovun arasında münasibət kəskinləşmişdi. Buna görə Niyazov onlarla hesablaşmaya bilməzdi. Niyazov başa düşdü ki, məzməzəklilər Abdullayevu tutmağa qoymazlar. Yolda baş verən bu əhvalatı Abdullayev tərəfindən təşkil olunduğuna polis rəisinin heç bir şübhəsi yox idi. Sonradan aydın oldu ki, bizi aparan keşikçiləri yolda Abdullayev saxlatdırmışdı.

isə, həmişə qəzəblənəndə olduğu kimi, gözləri kəlləsinə çıxmışdı. O, hirsli-hirsli gah bu, gah da o biri gözətçiyə baxırdı. Onların ikisi də nahaq yerə ölmək istəmirdilər.

Mən uryadnik Calaldan gözümü çəkmirdim. O, hələ də öz strajnikləri ilə nə barədə isə danışırdı. İndi bütün ümidimiz ona idi. Bir də axı kimə ümid bağlaya idik?! Mənim yadıma düşdü ki, Calal, ata-babadan bizimlə yaxın olan Tarovlu kürdlərindəndir. Madam ki, o tarovlulardandır, demək, bizə qohumluğu da çatır.

Mollanın və qardaşımın narahat olması uryadnikləri ehtiyat üçün bəzi tədbirlər görməyə məcbur etdi. Onlar strajniklərə əmr etdilər ki, bizdən bir qədər aralansınlar.

– Qoyun dincəlsinlər! İşiniz olmasın!..

Molla təşvişlə mənə baxdı: onlar strajnikləri bizdən aralayıb, bizi vurmaq istəyirdilər. Mən diqqətlə mollanın gözlərinə baxdım. Onu başa salmaq istəyirdim ki, təşvişə düşmək nahaqdır, özünü itirməsin. Molla hirslə üzünü döndərdi. O məni də təşvişə salmaq istəyirdi.

Calal bizim yanımıza gəlib, o biri uryadniklərə dedi:

– Onları öz strajniklərimlə mən aparacağam!

O, cavab gözləmədən strajnikləri ilə bizi üzük qaşı kimi əhatəyə aldı.

– Siz isə arxadan gələ bilərsiniz.

Onun bu qətiyyəti o biri uryadnikləri yaman çaşdırdı. Lısaqoradək bütün yolu bizi uryadnik Calal apardı.

Sonra mən təfərrüatı ilə öyrəndim ki, "meşədə qaçmaq istədiklərinə görə" bizə qabaqcadan xaincəsinə sui-qəsd hazırlanırmış. Onu da bildim ki, bizim Şuşa həbsxanasına göndərildiyimiz barədə Calalı Hüseyn Abdullayev xəbərdar edibmiş.

Yolda uryadniklərin biri Calala yaxınlaşıb dedi ki, sərəncam var ki, bizi Şuşaya aparanda yolda öldürsünlər. Calal ona cavab verdi ki, o gərək bu barədə öz strajnikləri ilə danışsın. Calal uryadniklə olan söhbəti strajniklərinə danışıb fikrini bildirməmiş, məzməzəkli strajnik Surxay həyəcanla dedi:



– Biz bu cür rüsvayçılıq eləyə bilmərik! Əgər onların günahı varsa, qoy Şuşada güllələsinlər! Niyə bu işi yolda istintaqsız, məhkəməsiz bizim əlimizlə edirlər?

Calal Surxayın sözünə qüvvət verdi:

– Onların günahı budur ki, bəylərlə mübarizə edir, kəndlilərin tərəfini saxlayırlar. Məgər biz kəndli deyilik?

Müsavat polislərinin növbəti təşəbbüsü: "meşədə qaçmaq istədiyimizə" görə bizi qırmaq niyyəti baş tutmadı.

Calal sonralar, Semyonovun Qızıl Əsgər hissəsində olduğu zaman, 1920-ci ilin payızında, qırmızı partisan kimi Qafan rayonunun Arsevanik kəndində daşnaqların əli ilə öldürüldü.

Tərxanlı kəndi Qarabağ dağ silsiləsinin qərb yamacında bir yaylaqdır. Bizi bu kənddə dağlı Fərzəlinin evinə salıb, qapıya da gözətçi qoydular.

Mən indi heç nəyi gizlətmək istəmirdim. Üzümü Mollaya tutub dedim?

– Qoca olduğunuza görə sizə indiyədək mən İsmayıl bəylə və müsavat polisləri ilə mübarizəyə cəlb eləməmişəm. Bizim kənddə on beşə qədər adam onlara qarşı fəal mübarizə aparır. İndi onların nə iş gördüyünü bilmirəm. Qorxuram, mübarizəni dayandırıb, geri çəkilsinlər. Son iclasımızda mən onların hamısını xəbərdar etdim ki, bu işdə tutulmaq olar, gərək o zaman işi zəiflətməyək. İndi biçin vaxtı yaxınlaşır, bəylər bəhrə istəyəcəklər. Qorxuram, bu gərgin şəraitdə bizimkilər özlərini itirsinlər...

Molla Abbas mənə dedi:

– Sən bu barədə düşünmə!

– Bolşeviklər düşünməyə bilməzlər! – Mən yarızarafatla cavab verib, mollanın nə deyəcəyini gözlədim.

– Yenə bolşeviklər! Axı bolşeviklərsiz də ədalətli olmaq olar! Daha bolşeviklər nəyə lazımdır!?

Qapının cırıltısı söhbəti kəsdi. Calalın qoyduğu strajnik fərəcanlı Həsənəli Baxşiyevi içəri buraxdı!

– Sən bura necə düşdün? Səni də həbs ediblər?

– Abdullayev tapşırıb ki, sizi qarşılayım.

– Onda sabah bizimlə Şuşaya gedək. Orada sənin qohumların, tanışların var. Bəlkə, bizə kömək eləyə bildin.

– Yaxşı, sizinlə Şuşaya gedərəm. Lısaqor gədiyi Müsəlmanlar kəndinin strajnikləri tərəfindən mühafizə olunur. Onlara mənim tanışım Qubad başçılıq edir. O məni görəndə işin nə yerdə olduğunu başa düşəcək. Axı Lısaqoru keçəndən sonra Calalın nahiyəsi qurtarır. O geri qayıdandan sonra sizi təzədən qandallaya bilərlər. Hə, lap yadımdan çıxmışdı, sizə xəbər verim, – deyə Həsənli Baxşiyev sözünə davam elədi. – Qabaqda, Turşsuyun yanında Məzməzək obalarıdır. Hüseyn Abdullayev də oradadır. O, Qubadı yaxşı tanıyır. Mütləq onun yanına gedib, hər şeyi xəbər verərəm.

Lısaqor gədiyində Qubad strajnikləri ilə bizi gözləyirdi. Həsənəli Baxşıyev atını Qubadın yanına sürüb, ona nə isə dedi.

Qubad, Qara bəyi dəstəsi ilə irəli buraxdı. Onlar gözdən itdilər. Qubad məni atının tərkinə aldı. Strajniklərdən biri və Həsənəli molla ilə Novruzu atlarının tərkinə mindirdilər.

Biz korun karvansarasına bu cürə gəldik.

– Sizin kənd bəy kəndidir? – deyə Qubad soruşdu.

– Bəli.

– Yaxşı ki, bizim kənd bəy kəndi deyil, hökumətindir.

Mən ona cavab verdim:

– Siz də çox vergi verirsiniz. Əgər belə getsə? sizin kəndi də bəylər ələ keçirəcək. Axı indi hər yerdə iş başında bəylərdir. Hökumətə Usubbəyov başçılıq edir. Xosrov bəy Sultanov bütün Qarabağı öz hakimiyyəti altında saxlayır. Ondan aşağılar da – qəza rəisləri, pristavlar, hətta yüzbaşılar da bəylərdir. İndi vəziyyət çar hökuməti vaxtındakından da pis olub.

– Bacıoğlu, biz müsəlmanlar fitnəkar adam deyilik. Mən bizim söhbətimiz barədə heç kəsə bir kəlmə deməərəm. Amma, Allah xatirinə, bir də belə sözlər danışma.



– Bolşeviklər müsavat-bəy hökumətinin zorakılığından danışmaya bilməz!

Qubadın sifəti qıpqırmızı qızardı, bir az keçdikdən sonra o soruşdu:

– Bacıoğlu, sən düz deyirsən?

– Bəli.

Həsənəli də Qubadın rəngi qaçmış üzünə baxdı. O, başını buladı, elə bil məndən soruşurdu: “nə olub?” Mən çiynimi qısdım: “bilmirəm”.

Bir az ara verəndən sonra Qubad dedi:

– Sən mənim yaman xətrimə dəydin.

– Hiss eləyirəm, ancaq başa düşmürəm niyə? Doğrusu, nə pis iş baş versə, mənim adımla bağlı olur.

– Mən əvvəlcə bir şeyə görə təşvişə düşdüm: fikirləşdim ki, Qara bəy səni necə hörmətlə gətirdiyimi Xosrov bəyə xəbər verəcək. Bura bax, – o tez söhbəti dəyişdi, – sən müsəlmanlığa inanırsan, ya yox? Deyirlər ki, bolşeviklər dinə inanmır, Allahı, peyğəmbəri danırlar... Bu doğrudur?

– Bolşeviklər Allaha inanmırlar. Amma dini qadağan eləmirlər. Onların barəsində bu şayiələri bəylər yayırlar.

– Bilirsən, sənə nə demək istəyirəm? Əgər sən Allaha inansan, bəladan uzaq olarsan. Axı sən çox cavansan, hələ heç bir günah iş tutmamısan! Mənim həm sənə yazığım gəlir, həm də özüm qorxuram...

Biz hiss edilmədən zastavaya çatdıq. Qubad atı saxlayıb mənə dedi:

– İndi düş. Şəhərdə sizi, necə qanundur, elə aparmalıyıq.

Bizim üçümüz də yenə qandallı, yanaşı gedirdik. Bizi şəhərin kənarı ilə Qayballar yamacı ilə Gəncə darvazasına tərəf aparırdılar. Zəngəzur (Yerevan) darvazasından keçirib şəhərin erməni məhəlləsi ilə aparmağa utanırdılar. Camaat deyərdi ki, bunlara baxın, molla da bu hökumətin əleyhinədir.

Bu yolun hər qarışı mənə tanışdı. İlk dəfə mən bu yolu Malıbəyli furqonunda Gorusdan Yevlaxadək olan 208 kilometr yolu beş günə getmişdim. 1902-ci ildə bu yolla Yevlaxdan Qafana mis əritmə

zavodlarına daş kömür[1] aparmışıq. Qayıdan baş furqonlara hazır, əridilmiş mis yükləyirdik. Qafandan Yevlaxadək olan 278 kilometr yolu furqonlar yeddi günə gedirdi. Tısbağa kimi sürünürdü! Lakin bu da mədənçilərə sərf edirdi. Hətta belə nəqliyyatla da onlar böyük gəlir götürürdülər.

Şuşada bizi Bazarbaşı yaxınlığında dustaqxanaya saldılar. Axşam Həsənəli yanımıza gəldi. Demə, dustaqxananın rəisi, müsəlmanlı cavan oğlan onun tanışı imiş. Həsənəli təzə xəbər gətirmişdi:

– Şəhərdə söz gəzir ki, guya Xosrov bəy bizim qəzada həyəcanı yatırmaq üçün Hacı Molla Şükürün oğlu Mirzə Məhəmməd Axundovu ora rəis göndərir. O, belə fikirləşir ki, bununla Allahın köməyi ilə bolşevizmin kökünü kəsəcək!

Molla gülümsünüb, xırıldaya-xırıldaya dedi:

– Hacı Molla Şükürün mərhum böyük qardaşı vaxtilə mənimlə Təbrizdə oxuyub. Hacı Molla Şükür özü Şərqdə islam dinin yaxşı bilən adamlardan biridir.

Mən mollaya dedim:

– Bəli, bəylər hakimiyyəti əllərində saxlamaq üçün onu ruhanilərlə bölmək istəyirlər. Bunu başa düşmək çətin deyil.

Molla cavab verdi:

– Mən bu bölgüdə iştirak etmirəm.

Həsənəli təklif etdi ki, bizim birimiz Axundovla görüşək. O bizi Axundovun yanına aparacaq bir adam tapmağa söz verdi.

Mollaya soyuq dəymişdi, öskürəyi ara vermirdi. O bu vəziyyətdə heç yerə gedə bilməzdi.

...Mən dustaqxananın rəisi ilə şəhərin dalanlarından keçərək, Axundovun yanına getdim. Ona evinin qabağında rast gəldik. Üzümə təəccüblə baxdı.

Mən dedim:

– Məni, Molla Abbası və savadsız qardaşımı Zəngəzur qəzasından

[1] Əvvəllər 1902-ci ilə qədər, ibtidai üsulla mis əridərkən 1 pud metal əritmək üçün 50 pud odun, yaxud ağac kömürü işlətmək lazım idi.



Şuşa dustaqxanasına yatab eləyiblər. Bu gün gəlib çatmışıq. Dustaqxanadayıq. Sizə demək istəyirəm ki, əgər məndən bir bolşevik kimi şübhələnmək mümkün olsa da, sizing böyük qardaşınızla Təbrizdə oxumuş Molla Abbasdan şübhələnmək olmaz. Hökumətin ruhanilərlə belə rəftarı kəndliləri həyəcanlandırır. Mirzə Məhəmməd, sizdən xahiş edirəm, mollaya kömək edin, o çox qocadır, bu əzab-əziyyətə tab gətirməz!

Axundov məni başdan ayağa süzdü: cırıq çarıqlar, kəndbəkənd gəzən dərzinin evdə toxunmuş şaldan tikdiyi köhnə pencək, şalvar... Mən gözləyirdim görüm, o nə deyəcək. Amma o susurdu. Birdən ağlıma gəldi: "deyirlər, yaman rüşvətxor adamdır". Ona görə ürəklənib dedim:

– Mirzə, xəcalətinizdən çıxarıq! Biz yaxşılıq itirən adam deyilik.

– Oğul! Mən sizin işlə tanışam! Burada islam tərəfdarlarına sizin vəhşi bəylər baxan kimi baxmırlar! Mollanı həbs eləmək – İslam dinini tapdamaq deməkdir. Mən belə hesab edirəm ki, mollanın yanınızda olması hökmün məzmununu aydınlaşdırmağınıza sizə kömək edər. Amma bu mənim şəxsi fikrimdir.

Mən bir qədər sakitləşmiş halda geri qayıtdım. Adam çox olan küçələrə çıxmadan, başqa dalanlarla dustaqxanaya qayıtdıq.

Bizi, 21 iyun 1919-cu il, 172 nömrəli sənədə əsasən, Zəngəzur həbsxanasından yatab edilmiş dustaq kimi Şuşa həbsxanasına saldılar. "Nə üçün həbs olunub?" – sualının qabağında yazılmışdı: "Hökumət qayda-qanununu, ictimai sakitliyi pozduğuna görə"[1].

Məni Bəhram bəy Cavanşirov yatan kameraya, molla ilə qardaşımı isə başqa kameraya saldılar.

Bəhram bəy uzun müddət polis pristavı olmuşdu. Sonra isə, özünün dediyinə görə, Denikinə hüsn-rəğbət bəslədiyi üçün Xosrov bəyin ona qəzəbi tutmuşdu. Kamerada iki taxt var idi. Biri divarın dibində, koridora açılan qapının sağ tərəfində, ikincisi isə pəncərənin qabağında, koridora köndələn divarın dibində. Dəmir barmaqlıq

[1] Azərb. SSR Dövlət arxivi. F. 1038, yazı I, sax. qov. 26, v. 35 (arxası)

vurulmuş pəncərə elə düzəldilmşdi ki, yalnız bir parça səma görünürdü. Bəhram bəyin taxtının üstündə evdən gətirilmiş yatacaq var idi: qalın yun döşək, qar kimi ağ, yumşaq tük yastıq, qırmızı ipək üzlü yorğan. Mən quru taxtanın üstündə yatırdım. Bəhram bəyin əynində yaşıl rəngə çalan qəşəng pijama, başında araqçın, ayağında yumşaq çust var idi. Mənim ayağımda isə altı taxta həbsxana başmağı, əynimdə kobud dustaq paltarı var idi.

Biz yavaş-yavaş bir-birimizə isinişdik. Bəhram bəy şeir yazırdı, muğamatı da pis oxumurdu.

Taxtın üstündə uzanmışdım. Titrədirdim. Yəqin qızdırma-titrətmə idi. Sonra titrətmə kəsdi, bərk qızdırırdım. Boğulurdum, hava çatmırdı. Gözümün qabağında divar elə hey ucalır, pəncərə hara isə uzaqlaşır, kiçik bir nöqtəyə çevrilirdi. Gözümün qabağını qara bir pərdə aldı, hər şey yox oldu. Nə qədər huşsuz qaldığımı bilmirəm.

Üçüncü gün qızdırmam düşdü, amma çox zəifləmişdim. Molladan və qardaşımdan xəbərim yox idi: yəgin onları sürmüşdülər.

Bəhram bəy mənə bir qəzet verdi. Qəzetə göz gəzdirib bir yazı gördüm: "Rusiya cəbhələrində vəziyyət barədə məlumat". Oxudum:

"Antanta Sovet Rusiyasına hücuma keçmişdir. Kolçaqın, Yudeniçin, Denikinin ağ orduları və ingilis qoşunları bu hücumda iştirak edirlər. Yudeniç Pribaltikadan Peterburqa hücum edir. Rusiyanın şimalında və Türküstanda ingilis qoşunları hərəkətə başlayıb. Denikin cənubdan hücuma keçir".

Qoca anam evdə atama rahatlıq vermirdi.

– Niyə oturmusan? İndi sən nəyə gərəksən? Bundan sonra sənin qapını heç kəs açmayacaq. Niyə oğlanlarının dalınca getmirsən? Onlar ölsə, sən də öləcəksən.

Atam Şuşaya gəldi. Çoxdan buralarda olmamışdı. Axırıncı dəfə çörək pulu qazanmaq üçün Bakıya gedəndə buradan keçmişdi. Bu çoxdanın əhvalatı idi. O vaxt hələ Zaqafqaziya dəmir yolu çəkilməmişdi.



Şuşada atamı bərk qorxutmuşdular. Məsləhət görmüşdülər ki, şəhərdən tez çıxsın, qubernatorun idarəsinə heç ayağını basmasın, yoxsa onu tutarlar.

Atam kəndə qayıtdı, yenə anam ağlayıb deyindi.

Xınzirək təşkilatı bizim başımıza gələn əhvalatı, bizə aid olan hər kiçik hadisəni diqqətlə izləyir və Gorus bolşevik komitəsinə çatdırırdı.

Bizim qəzada silahlı kəndlilərin müsavat polisləri ilə toqquşması daşnaqları da təşvişə salmışdı. Onlar Xınzirəyə gələn azərbaycanlılardan yaman göz-qulaq idilər. İndi İmran Məmmədov Xınzirəyə gedə bilməzdi. Bir gecə itin hürməsinə İmran və ailə üzvləri eşiyə çıxdılar, qaranlıqda iki qaraltı gördülər. İmran onlara yaxınlaşıb, Qaragin Sailyanı və Abel Qavalyanı tanıdı.

Onlar üçlükdə kiçik bağçaya girdilər.

– İmran, biz burada çox ləngiyə bilmərik. Tez əmini Şuşaya göndər. Qoy qubernatorun idarəsində Çingiz İldırımın qəbuluna getsin, adamlarınızın nədə müqəssir edildiyini ona danışsın.

İmran təəccüblə onların üzünə baxdı: Çingiz bəyin?

– Bəli, bəli, Çingiz bəyin! Niyə təəccüb eləyirsən? Məgər sən bilmirsən ki, Çingiz İldırım Şuşada işləməklə bolşeviklərə kömək edir?

Qaragin sözünə bir qədər ara verib dedi:

– Çingiz İldırımı başa salacaqlar, o, Nəzərin atasını qəbul edəcək. Qaragözov, Abbas Sultanovun[1] vasitəsilə Çingizlə əlaqə saxlayacaq. Başa düşdün?

İmran hər şeyi başa düşdü.

– Nəzərin atasına İldırım barədə hər şeyi demə. Nə deyəcəyini və necə deyəcəyini özün fikirləş. Yaxşı olar deyəsən ki, Çingiz İldırımdan çox şey asılıdır, gedib ondan Nəzəri buraxdırmağı xahiş eləmək lazımdır.

[1] Abbas Sultanov Çingiz İldırımın əmisi nəvəsi idi. Zəngəzur bolşevikləri bu əlaqədən istifadə edirdilər.

Mən atamı ikiqat barmaqlıq arxasından, həbsxana rəisi Teymur bəy Paşabəyovun yanında gördüm. İsmayıl bəy Sultanov da yanında dayanmışdı. Bəyin bura gəlməsi nə demək idi? Mən sualıma cavab tapa bilmirdim. Görünür, Sultanov mənə baxmağa, kam almağa gəlmişdi. Bəlkə, Qızıl Ordu Bakıya yaxınlaşırdı, bəy müsavat "hökumətinin" axırının çatdığını duymuşdu? Ancaq mənim dünən oxuduğum qəzetdə belə şey yox idi... Rusiyada əks-inqilaba qarşı qanlı mübarizə hələ davam edirdi və axırının necə qurtaracağını demək çətin idi. Birdən yadıma düşdü: Denikin cənubdan hücuma keçir? İsmayıl bəyin keyfi ona görə kökdür... Yoxsa onun burada nə işi vardı.

Mən həbsxana koridorunda çoxlu dustaq gördüm. Bunlar Qarabağın Hindarxı kəndindən idi. Bəylərin əleyhinə üsyan etdikləri üçün onları tutmuşdular. Həmin kəndlilər həbsxanada 30-40 nəfər idilər. Bəhram bəy dedi ki, Gəncə qəzasında kəndlilərdən böyük silahlı dəstə düzəldilibmiş. Qazax qəzasında da çaxnaşma var. Bəlkə də, Bəhram bəy bilirdi ki, Bakı fəhlələrinin əksəriyyəti bolşeviklərin arxasınca gedir. Dənizçilər və dəmir yolçular Petrov-Port Limanı (Mahaçqalaya), Denikinə ingilis silahı aparmaqdan imtina edirlər.

Görünür, bütün bu hadisələr İsmayıl bəyi mənimlə belə hoqqa çıxartmağa məcbur etmişdi.

O, gizlincə, hətta bir qədər kədərlə gülümsünüb məndən soruşdu:

– Necəsən?

Bu sualı müxtəlif mənada başa düşmək olardı. Düz mənada: "kefin necədir", yaxud da gizli mənada: "Yaxşı ələ keçibsən, sənə belə lazımdır".

Mən cavab verdim:

– Necəyəm? Yaxşı.

– Mən cənab Paşabəyovdan xahiş etdim ki, mənə və atana səninlə görüşməyə kömək eləsin.

– Nahaq zəhmət çəkibsiniz. Mənim buna ehtiyacım yoxdur.

O, narazı halda atama baxdı: görürsən necə oğlun var?

Paşabəyovun və Sultanovun yanında atamla söhbətim qısa və başdansovdu oldu. Mən heç bir şey öyrənə bilmədim. Çox dilxor halda kameraya qayıdıb, taxtın üstə sərildim və dərin, kədərli fikrə getdim.



Atam qubernatorun idarəsinə gedib, Çingiz İldırımın qəbuluna düşdü. Çingiz ona dedi ki, tezliklə bizi azad edəcəklər, istintaqı təzə qəza rəisi Axundova tapşıracaqlar.

Çingiz İldırım atama verdiyi sözü yerinə yetirdi. Şuşa həbsxanasında bir ay yatandan sonra üçümüzü də azad elədilər.

Yoldaş İldırım sonralar atamın onun yanına necə gəldiyini mənə belə nəql edirdi:

– Qoca, beli azacıq bükülmüş bir kişi içəri girib, salam verdi. "Sizə şikayət ərizəsi vermək olar?" "Kimsən, nədən şikayətin var?" "Zəngəzurdanam. İki oğlumu həbs eləyiblər". "Nə üstündə?" "Cənab rəis, bolşevik kimi həbs eləyiblər". "Sən necə bilirsən, onlar bolşevikdirlərmi?" "Heç nə bilmirəm, cənab rəis. Mən qoca kişiyəm". "Necə məgər, qocalar cavanlardan az başa düşür?" "Qabaqlar işdən biz yaxşı baş açardıq, amma indi başımızı itirmişik". Mən qocanı sakitləşdirdim, dedim ki, tezliklə üçü də evdə olacaq. Mənim tapşırığım üzrə iki gündən sonra müstəntiq sənin işini yanıma gətirdi. Onu dinləyib, əmr elədim ki, sizi buraxsın və işi təhqiqat üçün təzə rəisə versin. Müstəntiq razı olmadı, tələb etdi ki, sizin üçünüzü də həbsxanada danışdıraq. Mən qorxurdum ki, birdən danışıq zamanı molla sizi ələ verər. Müstəntiqə dedim: "Siz bilmirsinizmi, heç bir günahı olmayan mollanı həbs eləyiblər? Axundov mənə deyib ki, molla çox hörmətli adamdır. Molla, Axundovun mərhum atası ilə tanışmış. Ona görə də buraxılmasını israr edir". Müstəntiq öz sözündən dönmürdü: "Biz onları iki-üç günə dindirib qurtararıq". "Siz arxayınsınızmı ki, mollanın həbs olunması qəzada üsyana səbəb olmayacaq? Siz o yerlərə bələd deyilsiniz. Amma mən bilirəm, indi oralarda nə həngamə var. Məgər əliquluuşağılıların çıxışı bizə bəs deyil?" "Əgər belə təhlükə varsa, mən mollanın azad olunmasına

etiraz eləmirəm". Başa düşürsünüzmü, mən sizi həbsxanadan çıxarmaq istəyirəm, o isə mollanı buraxmağı təklif edir. Bilmirəm nə eliyim! Mən ona dedim: "Molla onlarsız həbsxanadan getməz. Onlar qohumdurlar. Üçünü də buraxmaq lazımdır. Əgər cənab Axundovun aparacağı istintaqdan bir şey çıxsa, onları yenidən həbs edərlər". Nəhayət, müstəntiq mənimlə razılaşdı. Necə bilirsən, Nəzər, molla sizi ələ verərdimi?

– Xeyr! Əvvəla, bizim gizli təşkilatımızdan və bu təşkilatın Gorus komitəsi ilə əlaqəsindən onun xəbəri yox idi. İkincisi, o çox dəyanətli adam idi. Lap onu güllələməyə aparsalar da, bir söz deməzdi. Onun xalqla əlaqələri möhkəm idi – bütün kəndlilər kimi o da töycü verir, biyara gedir, bəylərə nifrət edirdi. Axı müsavatçılar bizləri, bolşevikləri Allahsız adlandırır, özlərini isə həqiqi müsəlman kimi qələmə verirdilər. Mollanın həbs olunması, camaatın qabağında döyülməsi onun mənimlə, qardaşımla bütün qəzanın içi ilə yatab edilməsi xalqı müsavat hökuməti əleyhinə daha çox qaldırmışdı.

Mən Gürcülüdə artırmada taxtın üstündə uzanmışdım. Həbsxanadan təzəcə qayıtmışdım. Əliquluuşağıda Əmrah mənə at və tüfəng vermişdi. Yolda məni yenə titrətmə tutdu. Atdan düşən kimi uzandım. İmran gəldi və dedi:

– Pristav bizim nümayəndəmizi danışıq üçün sabah Şamsız kəndinə çağırıb. Bəylər şikayət eləyiblər ki, biz taxılı biçmişik, bəhrə verməkdən boyun qaçırırıq.

Pristavın yanına Xankişini, Həsəni və Əlini göndərməyi qərara aldıq. Onlara tapşırdıq ki, töycü verməkdən qəti boyun qaçırsınlar.

Xankişi ertəsi gün axşam pristavın yanından qayıdıb gəldi. Pristav onlara təklif etmişdi ki, bir ərizə yazıb, bütün təqsirləri mənim və molla Abbasın üstünə yıxsınlar. Söz verib ki, əvəzində bizdən aldıqları tüfəngləri və strajniklərin apardıqları bəzi şeyləri qaytarsın.

– Biz ona cavab verdik ki, "icazə verin, fikirləşək!" Sonra çıxıb gəldik. Yəqin, o axşama qədər bizi gözləyib.

Pristav Gürcülüyə gəldi. Onu qəza rəisi Axundov bəhrə yığmaq



üçün göndərmişdi. Ancaq bir şərtlə: iki ağsaqqal əlini Qurana basıb and içməlidir ki, keçən il, 1918-ci ildə bəhrə vermişik.

Bizim kəndin sahiblərindən biri olan Həmid bəy Sultanov, Göyərcik kəndinin sahibi Şahrux bəy Sultanov, Eyvazlı kəndinin sahibi Sədətqulu bəy Mustafabəyov və Novlu kəndinin sahibi Əli bəy də pristavla gəlmişdilər. Onlar bizi məcbur etmək üçün toplaşmışdılar. Əgər biz bəhrə versək, başqa kəndlər də bəylərə bəhrə verəcəkdi.

Lakin biz sözümüzün üstündə möhkəm durmuşduq. Keçən il türk əsgərlərinin və quldurların köməyi ilə bütün kəndlərdən bəhrə almışdılar. Lakin 1919-cu ildə 1918-ci ilə əsaslanmağı biz qanunsuz hesab edirdik. Çünki əvvəllər kəndlilər bəylərə çar hökumətinin qanununa əsasən bəhrə verərdi. İndi isə çar hökuməti devrilmişdi, onun bütün qanunları öz gücünü itirmişdi. Respublika çar hökumətinin qanunlarını saxlaya bilməzdi.

Bizim kəndin sahibi Həmid bəy Sultanov dedi:

– Bunlar sizin uydurmanızdır! Siz yaxşı bilməlisiniz ki, müsavat hökumətinə ən varlı Gəncə bəylərindən Nəsib bəy Usubbəyov başçılıq edir. Sizin quberniyanın başçısı isə Hacısamlı bəylərindən Xosrov bəy Sultanovdur. Sizcə, onlar öz xeyirlərinə olmayan qanunlar verəcəklər?

Bizim kəndli Xankişi Ağakişi oğlu pristava dedi:

– Respublikanın heç bir qanununda kəndli ilə bəyin münasibəti müəyyənləşdirilməmişdir. Belə qanun yoxdur! Ona görə də qeyri-qanuni, zorla bəhrə toplamağa yol verməik. Əgər zorakılığa əl atsanız, biz də sizə o cürə cavab verəcəyik! Bizim müqavimət göstərməyimiz haqqına olacaqdır!

– Pristav, zor işlətməyə mənim ixtiyarım yoxdur. Əhvalatı qəza rəisinə çatdıraram.

Bu fəsildə təsvir etdiyim hadisələr, Zəngəzur mülkədar sinfinə qarşı mübarizə əvvəlcə çar hökumətinin, sonra isə əks-inqilabi millətçi müsavat hökumətinin və ingilis-Amerika imperializmi agentlərinin

bilavasitə iştirakı ilə qızışdırdığı milli qırğınla bir zamanda baş vermişdi.

Bəy-müsavat hökuməti 1918-ci ildə Zəngəzura gəlmiş türk əsgəri hissələrindən istifadə edərək, erməni kəndlərini dağıtdı. Daşnaq hökuməti isə Türkiyədən keçmiş silahlı qaçqınların köməyi ilə Azərbaycan kəndlərini talan elədilər.

Deməк lazımdır ki, yerli erməni və azərbaycanlı kəndlilərin əksəriyyəti bu talançılıqda iştirak eləmirdi. Əksinə, mümkün olan yerlərdə kəndlilər burjua millətçilərinə qəti müqavimət göstərirdilər. Lakin bu çıxışlar amansızcasına yatırılırdı.

Təsvir etdiyimiz dövrlərdə müsavat və qaşnaq hökumətlərini bir-biri ilə vuruşmağa qızışdıran ingilis-Amerika müdaxiləçiləri Zaqafqaziyada ağalıq eləyirdilər.

Belə bir şəraitdə gizli işləyən bolşeviklər milli fitnəkarlıq əleyhinə, başı çox bəlalar çəkmiş xalqların qardaşlığı uğrunda fədakarlıqla mübarizə aparırdılar.

Görkəmli inqilabçı M.Əzizbəyov qardaş qırğınının təşkilatçılarını ifşa edərək, Bakıda mitinqlərin birində onların ünvanına demişdi:

– Siz dünyanın yalançı yaradıcılarısınız. Siz yoxsulların qanı üçün cavab verəcəksiniz. Özünüzü xalqı sevən kimi göstərməyin. Siz qardaş qırğını törədərək, Zaqafqaziyada zəhmətkeş kütləni Rusiya fəhlələrinin ümumi mübarizəsindən uzaqlaşdırdınız... Ancaq unutmayın ki, intiqam günü qabaqdadır.

Bolşeviklərin kütlələr arasında böyük siyasi iş aparması sayəsində burjua millətçilərinin fitnəkarlığı ifşa olundu.

Bəzi fırıldaqçı daşnaqlar hələ 1917-ci ildə Gorusda milli qırğın törətməyə səy edirdilər. 1917-ci ilin yayında bir dəstə daşnaq guya Şirnuxu yolunda baş vermiş bir soyğunçuluq haqqında məlumat verib, bu “faktı” yoxlamaq üçün icraiyyə komitəsinin iclasını çağırmağı tələb edirdilər.

İcraiyyə komitəsinin sədri Mişa bəy Paronyan iclası çağırmağa məcbur oldu. İclasda avara adamlar komitənin üzvlərindən çox idi.



Bir gün əvvəl Şirnuxu yolunda olmuş soyğunçuluq haqqında sədr qısaca məlumat verdi.

Çıxış edənlər bir ağızdan dedilər ki, soyğunçular müsəlmanlar idi, yəni azərbaycanlılar idi. Vəziyyət getdikcə gərginləşirdi.

Bu vaxt mənim yanımda dayanmış, əynində tələbə paltarı olan bir gənc söz istəyib, tanışlıq verdi: Qaragözov Armenak Mkrtıçeviç.

O, qətiyyətlə bildirdi:

– Bir neçə erməni soyulduğu üçün, – bəlkə elə soyanlar da ermənilərdir – biz yol verməriк ki, şəhərdə erməni-müsəlman qırğını düşsün!

Çar hökuməti bu yolla zəhmətkeşlərin diqqətini inqilabdan yayındırırdı. Doğrudanmı, siz başa düşmürsünüz ki, müxtəlif millətləri bir-birinin üzərinə salmaq inqilabı məhv etmək deməkdir. İcraiyyə komitəsi bu cür fitnəkarlığın qarşısını almalıdır.

Qaragözovun çıxışı iclasdakıları ayıltdı. İndi çıxış edənlər sakit danışırdılar. Onların çoxu sülhə və qardaşlığa çağırırdı.

Axırda Paronyan soruşdu:

– Bu məsələ barədə təklif varmı?

Qaragözov o saat, elə buradaca, pəncərənin qabağında, ayaq üstə yazdığı qərarın layihəsini oxudu. Layihə qəbul olundu.

Demək lazımdır ki, inqilabçı Qaragözovun çıxışı 1917-ci ildə Gorusda baş verə biləcək qırğının qarşısını aldı.

İclas bağlandı, adamlar sakitcə dağılışdılar. Mən Armenaka yaxınlaşıb ürəkdən təşəkkür etdim. O mənə əl verdi, haradan gəldiyimi soruşub, dedi:

– Bu mənim borcumdur! – Sonra ona yaxınlaşan adamları görüb, əlavə elədi: – Ümidvaram ki, biz yenə görüşəcəyik!

1918-ci ildə Zəngəzurda daşnaqların ehtiyat silahlı qüvvələri əsasən, Türkiyədən axışıb gəlmiş erməni qaçqınlardan ibarət idi. Daşnaqlar onların köməyi ilə həmin il Qafan və Sisyan rayonlarında olan Azərbaycan kəndlərini dağıtdılar. Bu rayonların qaçqınları

Qubadlıya, Zəngilana, Laçına dağıldı. Elə həmin vaxt gəlmiş türklərin köməyi ilə müsavatçılar da Azərbaycan ərazisində olan erməni kəndlərini dağıtdılar.

Zəngəzur yenə milli qırğın meydanına çevrildi.

Zaqafqaziyanı idarə eləmək üçün 1917-ci ilin martında Müvəqqəti hökumət Rusiya imperialist burjuaziyasının siyasətini yeridən "Xüsusi Zaqafqaziya Komitəsi" yaratmışdı.

Rusiyada Böyük Oktyabr Sosialist inqilabı qalib gəldikdən sonra Zaqafqaziyada burjua mülkədar əks-inqilabçı hakimiyyət orqanı olan seym yaradıldı. Almaniya imperialistlərinin tələbi ilə 1918-ci ilin mayında seym Zaqafqaziyanı, başında əks-inqilabçı hökumət duran üç burjua respublikasına: Ermənistan, Azərbaycan və Gürcüstana parçaladı. Ermənistanda burjua-millətçi hökumətə daşnaqlar başçılıq edirdi.

1918-ci ilin mayında Türkiyə Brest sülh müqaviləsini pozaraq, Ermənistanın xeyli hissəsini işğal etdi. Həmin ilin iyun ayında Türkiyə ilə daşnaqlar arasında bağlanmış müqaviləyə əsasən, Ermənistanın ərazisi iki qəzaya: Yerevan və Eçmiədzin qəzasına bölündü. 1918-ci ilin noyabrında Almaniya bloku Birinci Dünya müharibəsində məğlub edildi. Buna görə terklər Zaqafqaziyadan getməli oldular. Daşnaq hökuməti indi də Zaqafqaziyanın sərvətini bölmək üçün öz aralarında mübarizə edən ABŞ və Böyük Britaniya imperialistlərinə xidmət etməyə başladı. 1919-1920-ci illərdə ingilis-Amerika imperialistləri Zaqafqaziya xalqları arasında qardaş qırğını törətdilər.

Birləşmiş Ştatların inhisarçıları üç respublikanın üçünü də – Gürcüstanı, Ermənistanə və Azərbaycanı tutmağa can atırdı. Amerikalılar üç respublika arasında ərazi çəkişməsi və milli müharibə törədərək, onların daxili və xarici işlərinə qarışdılar. ABŞ hökuməti bu bəhanə ilə "bitərəf zona" yaratdı. Belə bir zona Şərur-Naxçıvan rayonunda da yaradılmışdı. Burada – erməni və azərbaycanlıların yaşadığı ərazidə hakimiyyət Amerika qubernatorunun əlində



idi. Beləliklə, ingilis-Amerika müstəmləkəçiləri daşnaqların, müsavatçıların və gürcü menşeviklərinin vasitəsilə Zaqafqaziyada "parçala və hökm et" siyasəti yeridirdilər.

1919-cu il dekabrın əvvəllərində, bilavasitə müdaxiləçilərin iştirakı ilə müsavatçılar və daşnaqlar tərəfindən düzəldilmiş, Zəngəzura qardaş qırğınına yola salınan qoşunun İrəvanda paradı oldu. Əslində, bu, Amerikanın Zəngəzura müdaxiləsi idi. Bu müdaxilənin nəticəsində insanların xatirəsindən silinməyən faciəli hadisələr baş verdi.

Bu qanlı hadisələri törətməkdə Amerika imperialistlərinin məqsədi Zəngəzurla Qarabağı ələ keçirmək hesabına "bitərəf zonanı" genişləndirmək, gələcəkdə Abşeronun neft yataqlarını ələ keçirmək və ingilis neft maqnatlarını Bakıdan çıxarmaq idi.

*ÜÇÜNCÜ FƏSİL*

## ZƏNGƏZURDA SOVET HAKİMİYYƏTİNİN QURULMASI

Qızıl Ordu əks-inqilabi qüvvələri əzərək, Şimali Qafqazı Denikinin diviziyalarından təmizlədi və 1920-ci ilin aprelində Azərbaycana yaxınlaşdı.

Qızıl Ordunun qələbəsindən ilham alan Azərbaycan fəhlə sinfi və əməkçi kəndliləri Kommunist Partiyasının rəhbərliyi ilə "Sovet Azərbaycanı uğrunda!" – şüarı altında öz azadlığı uğrunda qəti mübarizəyə başladı. Kommunistlər Azərbaycan Kommunist (bolşeviklər) Partiyasında birləşərək silahlı üsyana hazırlığı gücləndirdi. Üsyana rəhbərlik etmək üçün inqilabi qərargah yaradıldı. Hər yerdə gizli döyüş dəstələri və fəhlə drujinaları yaradıldı.

Aprelin 27-dən 28-ə keçən gecə müsavat parlamenti və hökuməti buraxıldı. Azərbaycan Sovet Sosialist respublikası elan olundu.

Kommunist Partiyası və inqilabi hökumət sovet hakimiyyətinin elə ilk günlərindən iqtisadiyyatın sosialistcəsinə yenidən qurulması məsələlərinin həllinə başladı.

Sovet hakimiyyəti bütün bu tədbirləri müsavatçı əks-inqilabçılarla, bəylərlə, xanlarla və kapitalistlərlə amansız mübarizə şəraitində həyata keçirirdi. 1920-ci ilin aprelində Bakıdan qaçmış müsavat başçıları respublikanın qəzalarında sovet hökuməti əleyhinə qəsdlər və qiyam təşkil edirdilər.

Zaqafqaziya əks-inqilabçılarının və imperialistlərin köməyi ilə müsavatçılar 1920-ci il may ayının 25-də Gəncədə sovet hakimiyyəti əleyhinə qiyam qaldırdılar. Qızıl əsgərlərin, fəhlələrin, şəhərin və yaxın kəndlərin yoxsullarının köməyi ilə qiyam tezliklə yatırıldı.

1920-ci il iyunun əvvəllərində əks-inqilabçılar Qarabağda qiyam qaldırdılar. Lakin onlar xalqı öz pis işlərinə cəlb edə bilmədilər. Qarabağın partiya təşkilatları və inqilab komitələri bütün



zəhmətkeşləri – azərbaycanlıları və erməniləri əksinqilab əleyhinə birgə mübarizəyə qaldırdılar[1].

AK(b)P Qarabağ komitəsi daşnaqların Qarabağdan belə başı alovlu çəkilməsindən istifadə edərək, Qarabağdan daşnaqların qovulduğunu və Qızıl Ordu hissələrinin bütün cəbhələrdə irəlilədiyini Zəngəzur Patiya Komitəsinə xəbər vermək üçün Şmavon Şahnazaryanı qaçqın sifəti ilə Zəngəzura göndərdi. Şahnazaryan mayın 26-da Dığa gəldi. Dıq partiya özəyi onu elə həmin saat gizli Zəngəzur qəza partiya komitəsinin yerləşdiyi Əliqulukəndə göndərdi. Daşnaqlar Şahnazaryanın Zəngəzura gəldiyini eşidib, onu bərk axtarırdılar. Şmavon AK(b)P Qarabağ komitəsinin tapşırığını yerinə yetirib, geri qayıtdı.

Qarabağda qiyam yatırıldıqdan sonra Qızıl Ordunun 32-ci diviziyasının ayrı-ayrı hissələri indiki Laçın rayonunun ərazisinə gəldi. Bir dəfə bir kiçik dəstə qızıl əsgər bələdçi ilə gəlib Hacısamlıya çıxdı. Əsgərlər meşədə iki ilxı xam at gördülər. Onlar bu atların kimin olduğunu bilmək istəyərək, vaxtında Şuşaya, diviziya qərargahına qayıda bilmədilər. İyunun 24-də diviziya komandiri Rantik 25 süvari əsgərlə bu əsgərlərin başına nə iş gəldiyini bilmək üçün Hacısamlıya getdi və yolda azaraq, gedib daşnaqların əlində olan Dıq kəndinə çıxdı.

Zəngəzurda inqilabi hərəkatın fəal iştirakçısı olan Avanes İsrailoviç Akopyan və başqa kommunistlər tez əsgərlərin qabağına çıxdılar. Rantikin dəstəsini daşnaq zabiti də görmüşdü. Zabit qızıl əsgərlərə yaxınlaşanda Rantik və Akopyan partiya təşkilatı və komandanlıq adından ona kənddə hakimiyyəti təhvil verməyi təklif etdilər. Daşnaq

---

[1] Gəncədə müsavatçıların üsyanının qızğın vaxtında, Azərbaycan Kommunist Partiyası Qarabağ komitəsinin göstərişi ilə Zəngəzurun və Qarabağın on kəndində (Fərəcan, Syarası, Bəşərat, Xtsabert, Arpagədik, Tezxarab, Spitakaşen və s.) Q.M.Ter-Sərkisov tərəfindən azərbaycanlılarla ermənilərin birgə yığıncağı keçirildi. Yığıncaq erməni və azərbaycanlı zəhmətkeşlərini əks-inqilaba qarşı və xalqlar dostluğu uğrunda birlikdə mübarizə üçün birliyə çağırdı. Nəticədə kəndlilər silahlı dəstələr təşkil edərək, onları əks-inqilabi qüvvələri tez məhv etmək üçün göndərdilər.

zabiti özünü itirərək, xahiş etdi ki, ona Gorusla danışmağa imkan versinlər.

Komandir Rantik kənd kommunistlərinin iclasını çağırdı və buradaca aşağıdakı tərkibdə inqilabi komitə yaratdı. Levon Afunts (sədr), Hayk Melik-Barxudaryan (sədrin köməkçisi), Avanes Akopyan (inqilabi komitə katibi) və iki nəfər: Sergey Ohacanyan və Ambartsum Melik-Barxudaryan inqilabi komitə üzvü.

Zəngəzurun daşnaq qubernatoru Melik-Yolçuyan, Rantiki daşnaq hökumət adamları ilə danışıq aparmaq üçün gəlmiş elçi hesab edib, zabit vasitəsi ilə ona Gorusa gəlməyi təklif etdi.

Gizli Zəngəzur qəza bolşeviklər komitəsinin katibi Akop-Kamari[1] elə həmin gün öyrəndi ki, daşnaqlar Qızıl Ordu dəstəsini məhv etmək üçün hər cür tədbir görürlər. Vaxtı itirmək olmazdı. Kamari goruslu kommunist Yego Qazaryanla Dığ partiya özəyinə məktub göndərdi. Məktubda partiya özəyinə tapşırılırdı ki, Rantikin dəstəsinə xəbər versinlər ki, daşnaqların ordusu qat-qat onlardan çoxdur, ona görə müvəqqəti olaraq mütləq kənddən çıxsınlar. Kommunistlərin xəbərdar etdiyi qırmızı süvarilər Zabuq kəndinə çəkildilər. Dığ kəndinin 30-a yaxın əhalisi, o cümlədən kommunistlər də onlarla kənddən çıxdılar. Onlar istəyirdilər ki, əgər süvari dəstə mühasirə edilsə, yaxud daşnaqların süvari polkunun hücumuna məruz qalsa, o zaman dəstəyə kömək etsinlər.

Şteyqerin başçılıq etdiyi sovet süvari diviziyasının qərargahı Şuşada, rastabazar küçəsində, şəhər klubunda idi. Diviziyanın komandanlığı Ranter və Akopyandan öyrəndi ki, general Dronun süvari ordusu çox tələsik Zəngəzurdan çıxmış və kommunistlərin fəaliyyəti nəticəsində daşnaqların Gorusdakı piyada batalyonu dağıdılmışdır. Ona görə də süvari qoşunu Zəngəzura yeritməyi qət etdilər.

Dığ kəndindən gələn yoldaşları Şuşa qəza inqilab komitəsinin sədri

[1] 1920-ci ilin martında Şuşadan gəlmiş Akop Komarı gizli qəza bolşeviklər komitəsinin katibi idi. Ona qədər Zəngəzur gizli bolşeviklər komitəsinin katibi Yeremiya Bakunts idi.



Bahadur Vəlibəyov qəbul etdi. Vəlibəyov azacıq ehtiyat ərzağından Dığ kəndlilərinə 16 pud qənd, bir o qədər də şirni, bir neçə yeşik tütün və sabun verdi. Bunlardan əlavə, o geri qayıtmaq üçün dığlılara fayton və araba da verdi.

Amo Barxudaryan bu hadisədən xeyli sonra Vəlibəyovu xatırlayaraq deyirdi:

– Bizə görkəmli dövlət xadimi, yaxşı kommunist və gözəl bir yoldaş təsiri bağışladı.

Yuxarıda haqqında danışdığımız fəal Zəngəzur kommunisti avanes Akopyan, Qarabağın və Zəngəzurun fövqəladə komissarı Cəmil Vəzirovdan XI Qızıl Ordu hissələrinin Zəngəzura çağırılması barədə binagüzarlıqda olmağı xahiş etdi. Akopyanın xahişinin cavabında Vəzirov dedi:

– Sizə lazımi kömək ediləcəkdir. Ya mən elərəm, ya da bu günlərdə mənim yerimə gələcək Armenak Qaragözov nə lazımdır edər.

Şuşadan Zabuqa qədər bütün yol uzunu camaat 32-ci süvari diviziyanı öz xilaskarları kimi qarşıladı. Ətraf Zabuq, Abdallar, Markiz, Kərəviz, Sus, Cahazur kəndlərinin camaatının toplaşdığı tat Dərəsi kəndində çağırılmış mitinqdə Lətif adlı bir kəndli dedi:

– Biz ömrümüz boyu rus xalqına borcluyuq. O, azərbaycanlıları və erməniləri azad edərək, yenidən köhnə dost kimi birləşdirdi. Sovet hakimiyyəti həmişə var olsun!

Daşnaqlar, Qızıl Ordu hissələrinin sərhəddə yaxınlaşdığını görüb, Dığ kəndində mövqe tutdular.

Komandir, qan tökməmək üçün dığlı kommunist Avanes Akopyanı və başqalarını daşnaqların hissəsinə göndərdi. Akopyan sıldırım bir dağa dırmaşıb, Zabuq körpüsü yanında səngərə girmiş daşnaq əsgərlərinə qışqırdı:

– Mən, Avanes Akopyan heç vaxt əsgərlərə yalan deməræm.

Akopyan bu sözləri deyib, daşnaq əsgərlərinə yaxınlaşdı... Əsgərlər onu üzük qaşı kimi əhatəyə aldılar. Akopyan Qızıl Ordu hissələrinin yaxınlaşdığını onlara söylədi və təklif etdi ki, bütün əsgərlər dağılışıb

evlərinə getsinlər.

Akopyan əsgərlərə dedi:

– Siz bilin ki, mən heç vaxt heç kəsi aldatmamışam. Başa düşün: rus fəhlə-kəndli Qızıl Ordusu yaxınlaşır. Bu ordu daşnaq fırıldaqçılarından azad olmaqda bizə kömək edir. Siz öz taleyinizi bu qan-içən daşnaqlarla bağlamamalısınız. Bütün Rusiyada olduğu kimi, Zəngəzurda da Sovet hakimiyyəti qurulacaq, dinc həyat başlanacaq. Biz həmişəlik istismarçılardan azad olacağıq!

Akopyanın daşnaq ordusu içərisinə girməsi münaqişəsiz keçmədi. Onun əsgərlər qarşısında çıxış etdiyini eşidib, daşnaq zabiti, tələsik ora gəldi və kommunisti həbs etdi. Həyəcanlanmış əsgərlər onun dərhal azad edilməsini tələb etdilər. Daşnaq əsgərləri elə qətiyyətli idi ki, zabit qorxub Akopyanı buraxdı.

Dığda böyük mitinq oldu. Kommunistlər, bitərəf kəndlilər bir-birinin ardınca çıxış edərək, sovet hakimiyyətini ürəkdən alqışladılar.

İyulun 1-də 32-ci süvari diviziya Dıqdan gedərək, bir güllə belə atmadan Gorusa daxil oldu. Elə həmin gün diviziyanın Qaryagin qəzası tərəfdən yaxınlaşan hissələri, Azərbaycan kəndi olan Məlikəhmədlidə Samson Babalaryan və Samvel Kolunts yoldaşlarla rastlaşdı. Onlar Xınzirək kəndində daşnaqlar əleyhinə təşkil olunmuş may üsyanında iştirak etmiş və indi daşnaqların əlindən qaçıb burada gizlənmişdilər. Onlar, daşnaqların kənddə nə qədər silahlı qüvvəsi olduğunu və bu əsgərlərin kəndlilərin təsiri nəticəsində öz komandirlərinin, ümumiyyətlə, daşnaq hökumətinin əleyhinə olduğunu süvari diviziyanın komandanlığına bildirdilər. 32-ci süvari diviziyanın hissələri qan tökmədən Xınzirəkdə olan daşnaq hərbi hissəsini tərksilah etdi və buraxdı. Bir neçə saatdan sonra 32-ci süvari diviziyanın hissələri Gorusa daxil oldu. XI Qızıl Ordunun İnqilabi hərbi şurası yanında açılmış komandirlər kursunun dinləyiciləri, başda komandir N.S.Yanuşevski və komissar S.M.Mojonts olmaqla Zəngəzura kömək etmək üçün Bakıdan gəldi. Onlar yerli partizanlarla birlikdə Zəngəzurda sovet hakimiyyətinin ilk günləri daşnaqlara qarşı mübarizə etdilər.



Üç gündən sonra Zəngəzurun fövqəladə komissarı Armenak Qaragözov Gorusa gəldi. Mən Armenakla ilk dəfə 1917-ci ildə şəhər icraiyyə komitəsinin millətçi üzvlərinin tələbi ilə çağırılmış iclasında görüşdüm. Onunla birlikdə Azərbaycan K(b)P MK tərəfindən Zəngəzur təşkilatına köməyə göndərilmiş Bakı partiya təşkilatının köhnə üzvləri, fəal kommunistlər – Mixail Çalyan, Mixail Manuçaryan, Levon Arustamyan[1] və Artyom Mirzoyan da gəlmişdi.

İyulun 5-də Zəngəzur qəza inqilab komitəsi yaradıldı: Akop Komari (sədr), Mixail Çalyan (sədrin köməkçisi), Xristofor Mkrtıçyan (katib) və Levon Arustamyan (inqilab komitəsinin üzvü) seçildilər. Onların hamısı köhnə, təcrübəli partiya üzvləri[2] idi.

Goruslu Xristofor Mkrtıçyan Şuşa realnı məktəbində oxumuşdu. 1916-cı ildə RSDFP sıralarına daxil olmuş, iki il keçdikdən sonra isə Gorusa qayıdıb, Zəngəzur bolşevik təşkilatının qabaqcıl işçilərindən biri olmuşdu. O, 1920-ci ilin noyabr ayının ortalarında Sisyan rayonunun Qarakilsə kəndində əksinqilabi daşnaq qiyamı zamanı öldürüldü.

Mixail Mosesoviç Çalyan Bakıda dəmiryolçu ailəsində doğulmuşdu. O, 1905-ci ildə inqilabi fəaliyyət üstündə Tiflis şəhər məktəbindən çıxarılmışdı. Çalyan 1917-ci ilin sentyabr ayında partiyaya daxil olmuşdu. 1918-1920-ci illərdə Teresk vilayətində və Tiflisdə gizli inqilabi iş aparmışdı.

Levon Ağasiyeviç Arustamyan Gorus rayonunun Kərəvinc kəndində anadan olmuşdu. 1904-cü ildən partiya üzvü idi. Arustamyan

[1] Levon Arustamyan Zəngəzura sovet hakimiyyəti qurulandan iki həftə əvvəl gəlmişdi və daşnaqlar tərəfindən həbs olunmuşdu. Qızıl Ordu hissələri Gorusa gələn kimi o, həbsxanadan azad edildi.

[2] Akop Mirzəcanoviç Komari (Becanyan) indiki Mardakert rayonunun Lüləsaz kəndində anadan olmuşdu. O, 1905-ci ildə Qori Müəllimlər Seminariyasını qurtarmış və həmin il RSDFP sıralarına daxil olmuşdu. O, bolşevik qeyri-leqal "Sosoal-demokrat", "Raboçaya Borba" və "Kommuna" (erməni dilində) qəzetlərinin nəşrində iştirak etmiş və tez-tez məqalələr dərc etdirmişdi. Kamari 1908-ci ildən 1910-cu ilə qədər Dığ kəndində müəllimlik etmişdi. 1920-ci ilin mart ayında Şuşadan Zəngəzura gəlib, gizli qəza partiya təşkilatına başçılıq etmişdi.

inqilabi iş üstündə çar hökuməti zamanı həbs olunmuş və 1908-ci ildən 1913-cü ilə qədər Şamaxı həbsxanasında yatmışdı.

Bir qədər keçdikdən sonra inqilabi komitənin sədri Ayrapet Tatyan oldu, Akop Komari partiya işinə keçdi.

İnqilabi komitə yanında aşağıdakı şöbələr yaradılmışdı: daxili idarə, maarif, ictimai təminat və səhiyyə, torpaq, ərzaq, müsadirə, xalq təsərrüfat şurası, rabitə və teleqraf, yol və evlər idarəsi.

Zəngəzurda sovet hakimiyyəti qurulması barədə qəza inqilab komitəsinin məlumatına Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanov teleqramla belə cavab vermişdi: "Bütün Zəngəzurda sovet hakimiyyəti qurulması barədə vurduğunuz teleqramı indicə çox böyük sevinclə oxudum. Bir dəqiqə belə şübhə etmirəm ki, çoxdan gözlənilən bu gün, Azərbaycan və Ermənistan zəhmətkeş kütlələrinin yaradıcı surətdə birləşməsi yolundakı bütün son maneələri həmişəlik məhv edəcəkdir. Zəngəzuru əksinqilabçı yırtıcılardan xilas etmək üçün Sovet Azərbaycanının əlindən gələn köməyi etmək əzmində olduğunu sizə bildirdiyimə son dərəcə şadam.

Şərqin sərhəddində olan Zaqafqaziyada fəhlə-kəndli hökumətinin əsasını möhkəmləndirməkdə Zəngəzur zəhmətkeşlərinin tezliklə bizim ümumi işimizə qoşulmasını arzu və təbrik edirəm. "Nərimanov"[1].

Mən Teymurmüsgənlidə inqilab komitəsinin sədri işləyirdim. Cahanbaxş Abdullayev inqilab komitəsinin katibi idi.

Sovet hakimiyyətinin ilk günlərindən, demək olar ki, qəzanın bütün kəndləində mitinqlər olurdu.

İyulun əvvəllərində Xınzirək kəndində məktəbin qabağındakı böyük meydançada mitinq oldu. 1920-ci il mayın 28-də general Dro bu kənddə zəhmətkeşlərin üsyanını vəhşicəsinə yatırıb, onlara qanlı divan tutmuşdu. Zəngəzurun fövqəladə komissarı Armenak

Qaragözovun atası Mkrtıç Qaragözovu camaatın gözü qabağında güllələmişdi. Armenak mitinqdə çıxış edərək dedi:

– Əliquluuşağı kəndindən burada iştirak edən dostlarımız Məhərrəmin, Səfərin, Fərhadın üzünə baxanda ürəyim ağrıyır. Bir həftə bundan qabaq onların öz doğma yurdlarına necə qayıtdıqlarını gördüm. Lakin onların yurdlarının izi belə qalmamışdı. Onlar indi öz evlərinin xarabalığı yanında palaz altında yatırlar. Soruşuram, xınzirəkli Bağdasar onun özü kimi zəhmətkeş kəndli Fərhaddan nə istəyirdi? Əlbəttə, heç nə! Bağdasar da, Fərhad da həmişə öz əllərinin zəhməti ilə yaşayıblar, heç kəsi incitməyiblər, heç vaxt heç nə mənimsəməyiblər. Bu adamlar bütün ömürləri boyu dost-mehriban yaşayıblar. Onların düşmənçilik eləmələri, dava eləmələri üçün heç bir səbəb yox idi. Sultanovlara, Rüstəmbəyovlara və Melik-Yolçiyanlara bu kəndlilərin əməyinin bəhrəsini mənimsəmək üçün onları bir-biri ilə vuruşdurmaq xeyirli idi. Sizin evlərin xarabalıqları və Qala dərəsi kəndində erməni evlərinin xarabalıqları erməni xalqı ilə Azərbaycan xalqının düşməni olan daşnaqların və müsavatçıların kim olduqlarını aşkar sübut edir. Burada azərbaycanlılarla ermənilərin bir mitinqdə qardaşcasına görüşməsi məni sevindirir. Bir-biri ilə görüşərkən onların sifətlərinin sevincdən necə güldüyünü gördüm. Sevinin, yoldaşlar! Xoş günlərimiz hələ qabaqdadır! Qara günlərimiz qurtardı! Zəngəzur torpağı kommunizm həqiqəti və Sovet şəfəqi nuruna qərq olunmuşdur!

Əliquluuşağı kəndindən olan Fərhad Məmmədov mitinqdə çıxış etdi:

– Bizim qəlbimizdə olan bütün sözləri Armenak dedi. Bizim yalnız bircə arzumuz var – dinc yaşamaq və işləmək!

Dostluq görüşlərində hamılıqla əl-ələ verib qonşu kəndlər arasındakı çəkişmələrə son qoydular. Xınzirək kəndi ilə Əliquluuşağı kəndi arasında olan torpaq mübahisəsini biz Gorusda iclasda həll etdik. Mübahisədə bizim inqilab komitəsini mən təmsil edirdim, Xınzirək inqilab komitəsini isə Qaragin Sailyan təmsil edirdi. Yığıncaqda hər iki kəndin adamlarının nümayəndəsi iştirak edirdi.

Biz mübahisəni çox asanlıqla həll etdik. Çünki ermənilər də, azərbaycanlılar da kommunist kimi, qarşılarında duran vəzifəni aydın

[1] "Bakinski raboçi" qəzeti, № 35, 5 oktyabr 1957-ci il.

başa düşürdülər. 1920-ci ilin yanvarında və martında baş vermiş qanlı hadisənin qarşısını ala bilmədiklərinə görə indi xəcalət çəkirdilər.

Erməni kommunistləri baş vermiş hadisələr nəticəsində daşnaqların azərbaycanlı kəndlərini dağıtdıqlarını nəzərə alaraq, azərbaycanlı kəndlilərin etimadını itirməmək və daşnaq-müsavat hakimiyyətinin ağır nəticələrini tez aradan qaldırmaq üçün çox güzəştə getdilər.

Zəngəzurun nahiyə və kənd inqilab komitələri partiya təşkilatlarının rəhbərliyi altında hər yerdə inqilabi qayda-qanun yaradır, bəylərin, məliklərin, qolçomaqların, kilsə və məscidlərin torpağını alıb, aztorpaqlı kəndlilərə verirdilər.

Zəngəzurda Qızıl Ordu hissələri dəyişilirdi. Şərait elə gətirmişdi ki, burada 32-ci diviziyanın və yenicə gəlmiş 28-ci piyada diviziyasının çox kiçik hissələri qalmışdı.

Daşnaqlar bundan istifadə edərək Qafanda və Sisyanda eyni vaxtda qiyam qaldırdılar. Qızğın vuruşmada briqada komissarı A.İ.Leonov, Qafan inqilab komitəsinin sədri Baqrat Artünyan və milis rəisi Akop Mkrtıçyan öldürüldü.

Zəngəzurda daşnaq silahlı qüvvələrinin başçısı general Njde Qafanı zəbt etdikdən sonra, öz quldur dəstəsini Gorusa yeritdi. Bu vaxt Dərələgöz qəzasından Sisyana qayıtmış general Dro da öz süvariləri ilə Gorusa hücum etdi. İyulun 30-da daşnaqlar Gorusu tutdular. Avqustun 7-də Qızıl Ordu hissələri özlərini yetirib, daşnaqları əzərək, geri oturtdu və Gorusu azad etdi.

Hava, yerin meşəlik və dağlıq olması daşnaqalara kömək edirdi. Onlar hələ də hakimiyyətləri altında olan Sisyan, Qafan və hətta Mığri rayonlarının kəndlərindən silahlı qüvvə toplayırdılar.

Belə ağır bir şəraitdə Zəngəzur qəza partiya təşkilatının qurultayı çağırıldı. Qurultay 1920-ci il dekabr ayının ikinci yarısında Gorusda açıldı. Qurultayın işinə Armenak Qaragözov rəhbərlik edirdi. Qurultayın nümayəndələri Zəngəzurun həm erməni, həm azərbaycanlılar hissəsindən olan partiya təşkilatlarının nümayəndələri idi.



Qurultay qəza komitəsi seçdi. Komitənin rəyasət heyətinin üzvləri bunlar idi: Akop Komari, Xristofor Mkrtıçyan, Maqiç Maşuryan, Oruc Babayev, Kərim İsgəndərov, Ayrapet Tatyan və bu sətirlərin müəllifi.

Lakin qurultay qurtarandan bir neçə gün sonra daşnaqlar yenidən Gorusu tutdular. Qızıl Ordu hissələri Qarabağa çəkildi. Bu çəkilmə zamanı Maqiç Maşuryan daşnaqlar tərəfindən öldürüldü. Bir neçə gün qabaq isə Sisyanda goruslu Xristofor Mkrtıçyan və çekist Benik Sərkisyan daşnaqlar tərəfindən öldürülmüşdü.

Kommunistlərin bir hissəsi Qızıl Ordu ilə Qarabağa, bəziləri Bakıya getdi. Bir hissəsi isə Qubadlıya köçdü. Kommunistlərin çoxu Zəngəzurda gizli işə keçməli oldular.

1921-ci il yanvarın ikinci yarısında Qubadlıda yenidən qəza partiya qurultayı çağırıldı. Gorusda seçilmiş qəza komitəsi dağıldığı üçün yenidən qəza komitəsi seçmək lazım idi. Qəza partiya komitəsinin yeni tərkibinə seçilmiş yoldaşlardan bir neçəsi bunlar idi: Hüseyn Abdulla oğlu Abdullayev – kəndli oğlu idi, Məzməzək kəndində anadan olmuşdu, 1917-ci ildən partiya üzvü idi; Əli Ağaməli oğlu Əmiraslanov – Balahəsənli kəndində anadan olmuşdu, Gorus məktəbində, sonra isə Şamaxı realnı məktəbində oxumuşdu, 1920-ci ildən partiya üzvü idi; Oruc Babayev – Dəmirçilər kəndində anadan olmuşdu, kəndli idi, Gorus məktəbini və Yelizavetpolda (indiki Kirovabad) sənəd məktəbini qurtarmışdı, 1920-ci ildən partiya üzvü idi; Yeqo Qazaryan – Gorusda anadan olmuşdu, 1919-cu ildən partiya üzvü idi, vətəndaş müharibəsi zamanı daşnaqlara qarşı mübarizədə iştirak etmişdi, gizli Gorus partiya təşkilatının ən fəal iştirakçılarından idi; Arsen Kyarunts – Gorusda anadan olmuşdu, 1919-cu ildən partiya üzvü idi, vətəndaş müharibəsində və gizli partiya işində fəal iştirak etmişdi; Savalan Şirinov – yoxsul kəndli idi, Şahverdilər kəndində andan olmuşdu, 1919-cu ildən partiya üzvü idi, vətəndaş müharibəsinin iştirakçısı olmuşdu, kənd kommunist özəklərinin ilk yaradıcılarından biri idi.

Qurultayda məni qəza partiya komitəsinin katibi seçdilər.

Qızıl Ordu hissələri Zəngəzurdan çıxandan sonra qəzanın yüz iyirmi kilometrlik qərb sərhəddi boyunca daşnaqlar dayanmışdı. Qəza cənubdan İranla həmsərhəd idi. Burada dövlət sərhəddini qoruyan yox idi. Buna görə də Araz çayı boyunca 35 kilometr məsafədə Qaradağ (İran) quldurları tüğyan edirdi.

Qəzanın Şuşaya və Bakıya yolu, şimal-şərq hissəsi Əlyanlı kəndində məskən salmış böyük quldur dəstəsi tərəfindən tamam kəsilmişdi. Quldurlar bütün yola nəzarət edir, nə qəzaya, nə də qəzadan heç kəsi və heç nə buraxmırdılar. Təpədən dırnağadək silahlanmış quldurlar Həkəri çayının sol sahilində Yusubbəylidən Müsəlmanlaradək soyğunçuluq edir və qırğın törədirdilər.

Digər böyük quldur dəstəsi, Dünyamalı Yüzbaşının (keçmişdə Qaryagin qəzasında yüzbaşı olmuşdu) və Keçəl Kazımın dəstəsi Araz çayından tutmuş Tumas dağlarına qədər Gəyən çöllərində tüğyan edirdilər. Bu dəstədə yüz iyirmiyə qədər atlı var idi. Onlar qabaqlarına kim çıxsa, milliyyətindən asılı olmayaraq, qiymətli nəyi olsa, tutub alırdılar.

Soyğunçuluq çox vaxt ölümlə qurtarırdı. Bunlardan əlavə, quldurlar vəzifəli şəxsləri və kommunistləri öldürürdülər.

Nə Bakı ilə, nə də qonşu Şuşa ilə telefon, teleqraf əlaqəsi yox idi.

Beləliklə, silahlı düşmən qüvvələri Sovet hakimiyyəti qurulmuş kiçik Qubadlı qəzasını hər tərəfdən əhatəyə almışdılar.

İngiltərə və ABŞ tərəfindən qızışdırılan daşnaqlar 1920-ci il sentyabrın 24-də Bardiz və Ketekə yaxınlığındakı türk qoşunlarına hücum etdilər.

Bunu gözləyən, səfərbərliyi qurtarmış türk qoşunu daşnaqların hücumunu dəf edərək, əks hücuma keçdi. Sentyabrın axırında türklər Sarıqamışı, Mərdələki tutdular və Ermənistanın içərilərinə doğru irəliləməyə başladılar.

İngilis-Amerika imperialistlərinin hesabına görə türk ordusu bir qədər də irəliləyib, o zaman Azərbaycanda olan Qızıl Ordu hissələri ilə toqquşmalı idi.



Türk qoşunu ruhdan düşmüş daşnaq ordusunun ciddi müqavimətinə rast gəlmədən, oktyabrın 20-də Kars qalasını, noyabrın 7-də isə Aleksandropol şəhərini tutdu.

Türk qoşununun Ermənistanı tamam işğal edəcəyini görüb, – bu isə Sovet fəhlə-kəndli hökumətinin mənafeyinə uyğun deyildi, – Sovet hökuməti noyabrın 11-də yenidən Ermənistan və Türkiyə hökumətinə öz vasitəçiliyini təklif etdi.

Noyabrın 18-də on günlük sülh müqaviləsi bağlandı.

1920-ci il noyabrın 28-də Dilicanda Ermənistan fəhlə sinfi və zəhmətkeş kəndliləri inqilabi komitə yaratdı. Ertəsi gün komitə Ermənistan Sovet Sosialist Respublikası yaradılması haqqında deklarasiya verdi. İki gün sonra, 1920-ci il dekabrın 2-də, Ermənistan SSR-in suverenliyi haqqında RSFSR ilə Ermənistan SSR arasında müqavilə bağlandı.

Beləliklə, Ermənistanda sovet hakimiyyəti quruldu.

Bir qədər sonra Zəngəzurun Tatıv kəndində daşnaqlar "Azad syunik hökuməti" təşkil etdilər. Bu "hökumət" özünə iqamətgah Gorusu deyil, çox arxa və təbiət etibarilə müdafiə üçün çox əlverişli yer olan Tatıvı seçdi. Daşnaqlar xalqa deyirdilər ki, Tatıv erməni xalqının qədimliyini təcəssüm etdirir (Syunik adı da buradandır), onların dediyinə görə, guya burada olan erməni monastırlarının müqəddəs və qədim olması kəndi alınmaz edir. Tatıvda 932-ci ildə tikilmiş monastır var idi. Bu monastır 1931-ci ildə zəlzələdən dağıldı.

Ermənistan əllərindən çıxdıqdan sonra daşnaqlar kiçik Zəngəzurun ermənilərinə pənah apardılar. Onlar ümid edirdilər ki, mövhumat zəhəri və qədim keçmişləri ilə xalqın başını dumanlandıracaqlar.

Daşnaqlar Tatıvda çoxlu fitnəkar məzmunlu vərəqələr çap edirdilər. Onlar azərbaycanlılara müraciətlə yazırdılar: "Bolşevikləri qovun, əl-ələ verib bolşeviklərin yolunu kəsək!" Əlbəttə, bunlar heç bir nəticə vermədi.

Daşnaqların burada olan silahlı qüvvələri zəngəzurlular üçün böyük

təhlükə idi. Daşnaqlar mərkəzləri Tatıv olmaqla Zəngəzur qəzasının bütün kəndlərində öz hakimiyyət orqanlarını bərpa etmişdilər.

Biz, gizli işləyən kommunistlər, həmişə ayıq olmağa məcbur idik və erməni yoldaşların vasitəsilə Gorusu, Xınzirəyi və Şinheri nəzarət altında saxlayırdıq. Onların vasitəsilə biz general Njdenin orada nə iş gördüyündən və kəndlilərin əhvali-ruhiyyəsindən xəbər tuturduq.

Kitabda Zəngəzur kommunistlərinin Azərbaycan partiya təşkilatları ilə necə çətin bir şəraitdə əlaqə saxladıqlarını göstərən xarakterik epizodlar veriləcək. Daşnaq qoşunlarının sayı və tutduğu mövqe barədə bütün məlumatlar Şuşa qəza partiya komitəsi vasitəsilə Azərbaycan K(b)P MK-ya çatdırılırdı. Bu məlumatlar əsasında mən 1921-ci ilin mayında, Bakıda, Azərbaycan K(b)P MK yanında Ermənistan partiya təşkilatının rəhbər işçiləri Saak Ambartsumyanın, Yeremey Bakunsun, Ayrapet Tatyanın daxil olduğu, Ermənistan K(b) P MK-nın nümayəndələrinə xüsusi məlumat verdim.

Daşnaqların ərazisində olan xınzirəkli kommunist-kəndlilərdən təşkil edilmiş kəşfiyyat dəstəsinə cəsur kəşfiyyatçı, 1918-ci ildən partiya üzvü, daşnaq əks-inqilabçılarına qarşı silahlı çıxışın fəal iştirakçısı Arşak Balayan başçılıq edirdi. Onun kəşfiyyat dəstəsinə - Qukas Yüzbaşyan, Qriqori Baluyan, Baxşi Aruşanyan, Tevos Şaxnazaryan, Matevos Asaturyan, Qaragin Dilənçiyan və Qaragin Kyalunts daxil idi.

Daşnaqların bütün cidd-cəhdlərinə baxmayaraq, Arşak Balayan Xınzirəyə gəlir, qoşunun sayı, tutduğu mövqe və qurduqları istehkam barəsində bizə məlumat gətirirdi[1]. Bir dəfə Balayanın üç kommunistdən ibarət dəstəsi kənddən çıxarkən daşnaqların bir rotası onları mühasirə edir. Bütün günü atışırlar, ancaq yenə də axşam qaranlıq düşəndə kəşfiyyatçılarımız mühasirədən çıxırlar. Bundan sonra daşnaqlar öz pulları ilə Balayanın başı üçün bir neçə milyon pul vəd etdilər.

Bir dəfə Arşak Balayan karvanla Şuşaya gedən bir dəstə partizanı

---

[1] Balayanı və onun yoldaşlarını Əliquluuşağı kəndindən olan kommunistlər – Əbdül Cəfərov, Cəlal Musayev və b. qarşılar və yola salardılar.



qurtarmışdı. Karvan Qubadlı kəndində düzəldilib, ərzaq gətirmək üçün Şuşaya gedirdi. Daşkənd kəndindən olan Nikolay Ayriyanın başçılıq etdiyi yeni təşkil olunmuş partisan dəstəsinə qoşulmaq üçün karvanla birlikdə dəstə erməni yoldaşlar da gedirdi. Partiza dəstəsi, Todorskinin komandanlıq etdiyi Qırmızıbayraqlı Qafqaz korpusunun sərəncamında idi. Sonralar Azərbaycanda sovet işçisi kimi məşhur Sviridov isə korpusun komissarı idi.

1921-ci il mayın 5-də Şuşaya gedən karvanı quldurlar Akara kəndinin yanında mühasirəyə alıb, bütün silahları təhvil verməyi təklif edirlər. Lakin partizanlardan başqa, karvançıların heç birində silah yox idi.

Karvançılardan biri quldurlarla danışmağa başlayır və tələb edir ki, yoldan çıxsınlar. Quldurlar bildirdilər ki, onlar partizanları tərk-silah etmək istəyirlər. Bunlar burada beləcə danışarkən, Rşak Balayan xəlvətcə yaxındakı çayı adlayıb quldurların arxasına keçir və oradan gözlənilmədən onlara atəş açır. Belə ağıllı bir tədbirlə quldurları karvana yol verməyə məcbur edir.

Qubadlı qəza partiya komitəsinin üzvləri Yeqo Qazaryan və Arsen Kyarunts Gorusla əlaqə saxlayırdılar. Gecə biz onları daşnaqların ərazisində olan Maqancux kəndinin yanında Ambarsum bəyin bağına qədər yola salır, geri qayıdanda isə şaxtalı qış olmasına baxmayaraq, bir adamın görəcəyindən qorxaraq, körpüdən keçməyib, qurşağadək suya girir, Bərgüşadın dayaz yerindən keçirdik.

Belə vaxtlar İmran Məmmədovla mən hər səhər səbirsizliklə işarə gözləyirdik. Səhərin ala toranlığında Gürcülüyə üç-dörd kilometr qalmış Yeqo Qazaryan onatılandan iki dəfə atəş açır, bununla da Gorusdan sağ-salamat qayıtdığını bizə bildirirdi.

Daşnaqların ərazisində olan Şinher kəndi ilə kommunistlərdən Arşak Aramyan, Arsen Ağasiyan, Parseq Arakelyan, Sukes Aqasiyan, Qukas Mkrtıçyan, Tatevos Abkaryan, Asatur Xurşidyan, Avak Aqamalyan, Sergey Baqdasaryan, Arutyun Tovmasyan əlaqə

saxlayırdılar. Bu yoldaşları biz düşmən ərazisinə Məzrə kəndindən yola salırdıq, orada onları bizim nümayəndəmiz Tahir Həziyev qarşılayır və yola salırdı.

Bu dəstənin üzvlərindən Sukes Aqasiyan daşnaqların yalan sözlərinə aldandı, yoldaşları ilə geri qayıtmadı, Şinher kəndində qaldı. Bir neçə gündən sonra onu tutub, Tatıv kəndinə göndərdilər. Daşnaqlar onu diri-diri tatıv monastırının o vaxt olduğu yerdən uçuruma tullamışdılar.

Daşnaqlar hiss etdikdə ki, azadlıq ordusu olan Qızıl Ordunun xeyrinə kəşfiyyat işləri aparan kommunistlərdən öz ərazilərini müdafiə edə bilməyəcəklər, ən alçaq fitnəkarlığa əl atmağa başladılar.

Onlar Məzməzəkdə gizlənmiş Ambarsum Ter-Ohanesyanı[1] çağırıb, ona Gorusda açıq yaşamağa imkan verdilər. Ambarsum özünü kommunist kimi qələmə vermiş, sonra isə guya öz marksist məsləkinin ziyanlı olduğunu başa düşərək, nəhayət, xristiyan monastırına qayıtmışdı. Keşiş Gorusda, erməni kilsəsində, cammatın gözü qabağında Ter-Ohanesyanın günahını bağışlatdı və elan elədi ki, könüllü olaraq xristian dininə qayıdan hər bir kommunistin günahı bağışlanacaqdır.

Daşnaqlar Şinher və Xınzirək kəndini qırmızı kənd adlandırdı. Doğrudan da, bu kəndlər həmişə bolşeviklərin dayağı olmuş və xeyli inqilabçı vermişdi. Bakı təşkilatının köhnə kommunistləri, 1904-1905-ci illərdən partiya üzvləri – Andrias Apriya, Aleksandr Baqdasarov, Maqiç Arzayan və başqaları Xınzirək kəndindən çıxmışdılar.

Qəza komitəsi daşnaqların Şinher və Xınzirək kəndinə münasibətini bildiyinə görə, həmin kəndlərdən olan kommunistlərin həbs olunmaq və öldürülmək təhlükəsi olduğu üçün onlara təklif etdi ki, oraya qayıtmasınlar. Lakin ailələrindən nigaran qalan yoldaşlar kəndlərinə qayıtmağa məcbur oldular. Qayıtdıqdan sonra Moses Aqasiyanı və

[1] Ter-Ohanesyan 1922-ci ildə gənc kommunist, qəza komitəsi rəyasət heyətinin üzvü Molla Əhmədli kəndindən olan Ocaqqulu Musayevin öldürülməsini təşkil etdiyi üçün 1924-cü ildə ifşa edildi. Buna görə o 1924-cü ildə Yerevanda güllələndi.



Abkar Abkaryanı möhkəm (hərəsinə 100 zoğal çubuğu) döymüşdülər. Buna baxmayaraq, onlar Qubadlıda olan erməni kommunistləri ələ verməmişdilər.

Xınzirəkdə olan daşnaq zabiti oğulları bizimlə olan yeddi qocanı çağırıb kilsə və general Njdenin adından dilə tutmuşdu ki, evlərinə qayıtmaq üçün öz oğlanlarına təsir etsinlər. Daşnaq qocalara söz vermişdi ki, onların oğlanlarını döyməyəcəkdir. Əks halda, qocaların ailəsini məhv etməklə hədələmişdi.

Qocaların yeddisi də Əbdülcə kəndinə, bizim yanımıza gəldi. Onlar bir həftədən artıq burda qaldılar, yalvarıb oğlanlarını evlərinə qaytarmağa çalışdılar.

Axırda qocalar əlacsız qalıb Xınzirəyə qayıtdılar. Onların hamısını həbs edib, bərk döymüşdülər. Sevi Şahnəzəryanı isə daşnaqlar öldürmüşdülər. Arşak Balayanın arvadı Marqarıtanı və Makar Aqababyanın anası Təzəgülü də bərk döymüşdülər.

1921-ci ilin mayında Qızıl Ordu Dərələgöz və Qarabağ tərəfdən Zəngəzura yaxınlaşan vaxt da daşnaqlar Qubadlı qəzasında olan kommunistləri tutub güllələməyə çalışırdılar. Bunun üçün onlar kommunistlərin atalarını: Sergey Boqdasaryanın atası Xudabaxışı, Tatevos Abkaryanın atası Qalustu, Tatevos Akopyanın atası Artünü və Arşak Abramyanın qardaşı cavan oğlan Aleksandrı Xanlıq kəndinə – bizim yanımıza göndərmişdilər. Kommunistlərin qohumlarını biz geri qayıtmağa qoymadıq. Bir neçə həftədən sonra onlar partizanlarla gedib öz kəndlərinin daşnaqlardan azad olunmasında iştirak etdilər.

Ermənistanda sovet hakimiyyətinin müvəqqəti çətinliklərindən istifadə edərək daşnaqlar imperialist hökumətlərin yaxından köməyi ilə əks-inqilabi qiyam qaldırıb, 1921-ci il fevralın 18-də Yerevanı tutdular.

Belə son dərəcədə çətin hərbi-siyasi vəziyyəttdə daşnaqlar Qubadlı qəzasını ələ keçirmək üçün Zəngəzurda hər cür tədbirlərə əl atırdılar. Daşnaqlar müsavatçı-bəy ünsürlərin köməyi ilə öz arxalarını kommunistlərdən təmizləməyə, Qubadlının çörəyi ilə qoşunlarını

təmin etməyə və tezliklə onları, Qızıl Ordu tərəfindən mühasirəyə alınmış Yerevanı xilas etmək üçün göndərməyə çalışırdılar. Bundan əngəzurda olan qoşunlarının bir hissəsini Qarabağa, orada ağalıq eləyən fırıldaqçı Tevanın köməyinə göndərmək istəyirdilər. Tevanın arxasında Qarabağda sovet hakimiyyəti əleyhinə əksinqilabi qiyam qaldırmağa çalışan qəddar daşnaqlar (Armenak Ter-Danielyan və b.) gizlənmişdilər.

Məhz bu məqsədlə "Azad Syunik hökuməti" Yerevandan, daşnaqların başçılarından, tapşırıq almışdı ki, Qubadlının əksinqilabçı hissəsi ilə – bəylərlə, qolçomaqlarla, mürtəce ruhanilərlə və s. dostluq əlaqəsi yaratsın. Aydındır ki, Zəngəzur daşnaqları Qubadlıda kommunist təşkilatlarını dağıtmağı və burada əksinqilabçı müsavat hakimiyyəti yaratmağı bu dostluğun əsası hesab edirdilər. Bu məqsədlə general Njde 1921-ci il martın 21-də Gorusa yaxın olan Azərbaycan kəndlərinin "nümayəndələrinin" yığıncağını çağırmağı qərara aldı.

Biz bu yığıncağın çağırılacağını Xocahanda eşitdik. Qəza partiya komitəsi mənə, Yeqo Qazaryana və Göyüş Hümbətəliyevə tapşırdı ki, kəndlərə gedib daşnaqların bu fitnəkarlığını pozaq.

General Njde yığıncağa "nümayəndə" seçmək üçün Eyvazlılar kəndinə bir dəstə daşnaq göndərmişdi. Biz ora gələnədək daşnaqlar üç nəfər "nümayəndə"seçmişdilər: Eyvazlıdan Eyvazbəyovu, Şirnuxudan Hacı Həşimi, Məlik Əhmədlidən isə varlı maldar Kərbəlayi Ağaməmmədi.

Yoldaşlar kəndlərdən qayıdıb bizə bu barədə xəbər verdilər və bildirdilər ki, daşnaqlar əhalinin azərbaycanlılar hissəsindən seçdikləri "nümayəndələri" özləri ilə götürüb aparıblar. Biz sabahı gün Njdenin yanından qayıtmış "nümayəndələrlə" görüşüb, onların generalla görüşünün nə ilə qurtardığını öyrəndik. Njde "nümayəndələrə" bəxşiş paylamış və söz vermişdi ki, əgər azərbaycanlılar daşnaqlarla birləşsə, daşnaq qoşunlarını Qarabağ dağlarına çıxarıb, Sovet qoşununu Zəngəzura girməyə qoymayacaq. Sonra general "nümayəndələrə"



bildirmişdi ki, əgər onlar bütün şərtlərə əməl etsələr, ingilislər söz verir ki, Təbrizdə olan anbarlarından çoxlu sənaye malları göndərəcək və Zəngəzurda bolluq yaradacaqlar.

General "nümayəndələrə" bildirmişdir ki, belə bir yığıncaq aprelin 6-da Aqarakda da olacaqdır.

Martın 31-də biz Dondarlıda yığıncaq çağırdık. Şahsuvarbəy Kələntərovu və Bəhlul Əfəndi Bəhcəti də dəvət etdik. Çünki onlar aprelin 6-da Aqaraka gedib, orada danışıqları poza bilərdilər. Hər halda, biz, bu yığıncağın təşəbbüskarları – Oruc Babayev, Yeqo Qazaryan, Hümbətəliyev və mən – az da olsa, buna ümid bağlayırdıq. Çünki Aqaraka yaxın kəndlərdə nüfuzumuz az olduğu üçün oraya kommunistləri göndərə bilmirdik, yoldaşlarımızı itirməkdən qorxurduq.

Biz bilirdik ki, Bəhlul Əfəndi və Kələntərov istəsələr, çox adamı general Njdenin yanına yığıncağa getməyə qoymazlar.

Yığıncaqda mən vəziyyəti ətraflı izah edib, "nümayəndələrdən" xahiş etdim ki, Njdenin planını pozmağa çalışsınlar.

Birinci Bəhlul Əfəndi cavab verdi:

– Biz bilirik ki, hər bir hökumət müəyyən müddət böhran keçirir. Görünür, indi, Sovet hakimiyyətinin də böhranı başlayıb, ona görə biz ayrı hökumət gələnə qədər qayda-qanunu gözləyək.

Bu fitnəkar çıxışa mən belə cavab verməli oldum:

– Əgər siz Qızıl Ordunun müvəqqəti olaraq bir qəzadan çəkilməsini Sovet hökumətinin böhranı hesab edirsiniz, çox yanılırsınız. Yaxın günlərdə Zəngəzurda Sovet hakimiyyəti qurulacaqdır. Biz sizə zor eləmirik. Ancaq siz xalqınızın mənafeyini hər şeydən üstün tutursunuzsa, bizə kömək etməlisiniz. Bir il bundan qabaq bu general Njdenin nə işlər tutduğu sizə məlumdur, indi isə o, azərbaycanlılara "dostluq əli" uzadır.

– Bizim düşmənimiz ermənilər deyil, daşnaqlardır. Erməni communist Qazaryan burda bizim yanımızdadır. Sizə məlumdur ki, kommunist ermənilər daşnaqlara qarşı amansız mübarizə aparırlar.

Çətinliklə də olsa, axırda bu iki nəfər, general Njdenin müşavirəsini pozmaq üçün əllərindən gələni edəcəklərinə söz verdilər.

Aprelin 6-da axşam Xocahan kəndində AK(b)P qəza komitəsi rəyasət heyətinin iclası oldu. İclasda Əli Əmiraslanov, Hüseyn Abdullayev, Qara İlyasov, Kərim İskəndərov, Qulu Əbdüləzimov, Savalan Şirinov, Yeqo Qazaryan, Lətif Şəfiyev, Arsen Kyarunts, Oruc Babayev, Arşak Balayan və Əli Şahmuradov iştirak edirdilər. İclasda daşnaqlarla müsavatçıların dilbir ola biləcəkləri təhlükəsi müzakirə edilirdi, onlar Aqarakda danışıb, bizi mühasirə edə bilərdilər. İclas səhərə qədər çəkdi.

Səhər gözlənilmədən Çingiz İldırım atlı gəldi. O, quldurların tüğyan elədiyi Qaryagin qəzasını gecə tək keçib gəlmişdi. Çingiz AK(b)P MK-nın sovetlərə seçkilər haqqında tapşırığını bizə yetirdi. Biz qəzada vəziyyət barədə Çingizə məlumat verdik. O ölkənin daxili və xarici vəziyyəti ilə bizi müfəssəl tanış etdi və dedi:

– Daşnaqların silahlı hissələri Qızıl Ordunun təzyiqi ilə geri çəkilir, tezliklə Dərələgözdən sonra, Zaqafqaziyada əks-inqilabın son yuvası olan Zəngəzur azad ediləcəkdir. Biz bilirik ki, sizin vəziyyətininz çox çətindir, lakin bu çətin günlər çox az qalıbdır. Gördüyünüz kimi, partiyanın mərkəzi komitəsi bu çətin günlərdə belə imkan tapıb sizinlə əlaqə saxlayır. Mən xüsusi tapşırıqla gəlmişəm: necə olursa-olsun, sizin yanınıza gəlim, dediklərimi sizə çatdırım, bəzi sözlər də deyəcəyəm.

Sovetlərə seçkilər məsələsinə keçərkən, Çingiz İldırım nəzərdə tutulan seçki sisteminin mahiyyətini, inqilab komitəsini sovetlərlə əvəz etməyin zəruri olduğunu bizə izah elədi. O qeyd etdi ki, vətəndaş müharibəsi davam elədiyi üçün qəzada bizim inqilab komitələri öz işlərini görüb qurtara bilməmişdir. Qubadlı istisna təşkil eləyə bilməz, ona görə, bütün kommunistləri Sovetlərə seçkilər keçirməyə cəlb etmək lazımdır.

Çingiz İldırımın Azərbaycan Sovet Sosialist Respublikasının nümayəndəsi kimi gəlməsi Qızıl Ordunun Qarabağdan çəkilib getməsi



barədə daşnaqların yaydıqları şayiələrin tamam yalan olduğunu göstərdi və qəzanını camaatını ruhlandırdı. Sovetlərə seçkiləri kəndlilər Sovet hakimiyyətinin möhkəmlənməsi əlaməti kimi qiymətləndirdi.

General Njdenin yanına Aqaraka müşavirəyə xeyli azərbaycanlı getmişdi. Bunlar Xocahan, Mincivan, Xurama, İskəndərbəyli və digər kəndlərdən olan antisovet əhvali-ruhiyyəli, zəhmətkeşlərin inqilabçı təbəqəsinin, ilk növbədə kommunistlərin əleyhinə fəal mübarizə aparmağa hazır olan bəylər və qolçomaqlar idi.

General Njde dedi ki, Sovet hökuməti ilə müharibədə daşnaq Ermənistanı tək deyil. Türkiyəni bu müharibəyə cəlb edəcək ingilis-Amerika imperialistləri onların arxasında dayanmışdır. O, bildirdi ki, amerikalılar və ingilislər Ermənistanın əhalisi bol ərzaq və sənaye malları ilə, ordunu silah və paltarla təmin edirlər.

Antanta imperialistləri, doğrudan da, daşnaqların qoşununu lazım olduğundan da artıq ərzaq və silahla təmin edirdi. M.B.Traskunov "Qafqazskaya Krasnoznamennaya" kitabında arxiv sənədlərinə əsaslanaraq yazır:

"Daşnaq ordusu Amerika çörəyi yeyirdi. Yalnız 1920-ci ilin iyulunda ABŞ Ermənistana 50 min əsgər üçün ərzaq, silah və hərbi sursat göndərmişdi.

ABŞ-ın daşnaqlara belə yaxınlıq eləməsi İngiltərəyə, Fransaya, İtaliyaya və digər imperialist hökumətlərə Yaxın Şərqdə, Zaqafqaziyada və Ermənistanda ərazi zəbt etməyə mane olmurdu. Lloyd-Corc hökuməti daşnaq ordusunun döyüş qabiliyyətini yüksəltmək qayğısına qalaraq, 1920-ci ildə ona 40 min əsgər üçün silah və paltar göndərmişdi, Fransa isə 10 min tüfəng və 10 milyon patron vermişdi".

Biz bilirdik ki, Zəngəzurda kəndlilər ərzaqdan korluq çəkirlər. Bu, general Njdenin martın 27-də Gorusda Qubadlı qəzasının əks inqilabçı nümayəndələri ilə keçirdiyi müşavirədən sonra, ermənilər taxıl almaq üçün tez-tez Azərbaycan kəndlərinə gəlməyə başlayanda, daha aydın hiss olundu.

Daşnaq quldur dəstələrinin özbaşınalığı, Zaqafqaziyanın başqa xalqları arasında qardaş qırğını salmaları, bütün kişilərin ucdantutma daşnaq ordusuna səfərbər edilməsi – bütün bunlar erməni xalqının həyatını çox ağır vəziyyətdə olduqları üçün daha şəhərə taxıl göndərmirdilər.

1920-ci il sentyabrın 4-də Bakıda çağrılmış Şərq Xalqları qurultayına Ermənistan zəhmətkeşləri nümayəndələrinin göndərdiyi bəyanatdə deyilirdi:

"Ermənistan iqtisadi cəhətdən olduğu kimi, mənəvi cəhətdən də düşkünləşmişdir. O, iri addımlarla uçuruma gedir. Ermənistanın fəhlə-kəndli kütləsi mauzerçi-quldurların köməyi ilə son dərəcə qorxudulmuşdur"[1].

General Njdenin çağırdığı müşavirəyə bir də qayıdaq. Qubadlı qəzasından gəlmiş bəylər və qolçumaqlar, generalın boş sözlərinə inanaraq, tüfəng və xəncərlərini oynadaraq, daşnaqlara hər cür kömək edəcəklərinə söz verirlər. Ancaq bu qəribə müşavirənin axırında İskəndərbəyli kəndindən olan qoca Aslan bəy Sultanov söz istəyir:

– Cənab Njde, gərək unutmayasınız ki, sizin komandanız altında olan daşnaq ordusunun burada yüzlərlə kəndi məhv etdiyi, çoxlu silahsız bədbəxt adamları güllələndiyi həmin qanlı hadisələrdən heç bir il də keçməyib. Mən sizə bildirirəm: müsəlmanlar sizə inanmırlar və indi burada meydan oxuyan bu başıboş adamların arxasınca heç kim getməyəcək.

Bu çıxış bura toplaşanları, xüsusən general Njdeni ayıldır, o həmin dəqiqə dönüb evə gedir.

Aslan bəy çox da varlı adam deyildi. O, şərq ədəbiyyatı klassiklərini: Firdovsini, Sədini, Hafizi, Ömər Xəyyamı çox yaxşı bilirdi. O, millətindən və dinindən asılı olmayaraq adam öldürməyi ən böyük cinayət hesab eləyirdi. O, günahsız insanların qanını sel kimi axıdan, indi isə hər şeyi unutmuş kimi, adamları bolşeviklərin

[1] Şərq xalqları jurnalı, № 1. Oktyabr, 1920-ci il, səh. 49.



əleyhinə birləşməyə çağıran bu hərbçi adamı görmək belə istəmirdi.

Beləliklə, Njde ilə azərbaycanlı əks-inqilabçıların danışığı baş tutmadı. Bunu bizə Aqarakda müşavirədə iştirak etmiş bir nəfər danışdı. Təkəbbürlü Aslan bəy isə ömrün sonuna kimi bu barədə heç kəsə bir kəlmə danışmamışdı.

General Njdenin yanında çağrılmış müşavirədən sonra daşnaqların tutduğu ərazidən adamlar Azərbaycan kəndlərinə gəlməyə başladı. Bir dəfə Yeqo Qazaryan, Göyüş Hümbətəliyev və mən meşədən çıxıb, Novlu kəndinə Göyüşün evinə gedirdik. Birdən burada goruslu üç nəfər erməni gördük. Onlar bizi, xüsusən bolşevik kimi tanıdıqları Yeqonu görüb getmək istədilər, lakin biz onları qaytardıq.

Bu üç nəfərlə görüşümüz çox yerinə düşdü. Son bir neçə gündən bəri yoldaşlarımızı itirəcəyimizdən qorxaraq, biz heç kəsi Gorusa göndərməmişdik. İndi bu qərara gəldik ki, bu üç nəfəri çağırdığımız mitinqə aparaq. Biz qəzada daşnaqların nəzarəti altında olan kəndlərdə yaranmış vəziyyət barədə mitinqdə kəndlilərə məlumat verməli idik. Biz hesab etdik ki, iclasa çağırılmış üç erməni burada eşitdiklərini gedib Gorusda xalqa danışacaqdır.

Biz mitinqdə Sovet respublikalarının beynəlxalq vəziyyəti haqqında, Zaqafqaziyanın üç respublikasında olduğu kimi, bütün Rusiyada, həmçinin Ukraynada, Belorusiyada, Türküstanda sovet hakimiyyəti qurulması barədə danışdıq.

Biz dedik:

– Yalnız bircə Zəngəzurda, bu kiçik yerdə, daşnaqlar ağalıq eləyir. Lakin erməni xalqı tezliklə Zəngəzur camaatına, həyasızcasına öz xalqının mənafeyini qərbin imperialistlərinə satan fırıldaqçı daşnaqlardan azad olmaq işində kömək edəcəkdir. Vətəndaşlar, bu barədə kimə bacarırsınız, danışın, onlar isə öz növbələrində qoy hamıya bildirsinlər ki, Zəngəzur tezliklə, erməni xalqının qəddar düşməni olan daşnaqlardan azad olunacaqdır.

Çıxışımızı mitinqdə iştirak edən bütün kəndlilər, o cümlədən goruslu qonaqlar alqışladılar.

*DÖRDÜNCÜ FƏSİL*

## SOVETLƏRƏ İLK SEÇKİLƏR

Qəza partiya komitəsinin qərarı ilə Zəngəzurun Qubadlı dairəsində seçkilərə rəhbərlik etmək Lətif Şəfiyevə və mənə tapşırılmışdı.

Biz on kün ərzində Qubadlının bütün kəndlərində sovetlərə seçkiləri təşkil etdik. Seçkilər açıq səsvermə ilə keçirilirdi. Yığıncağa toplaşanlar seçkidən əvvəl heç kəsdən qorxub-çəkinmədən irəli sürülmüş namizəd barəsində öz fikirlərini söyləyirdilər.

Respublikanın bir çox qəzalarından fərqli olaraq, Qubadlı qəzasında qadınlar kişilərdən yaşınmırdılar, çadrasız gəzirdilər. Qızlar ər evinə köçənə qədər üzlərini örtməzdilər: onlar ərə gedəndən sonra da yalnız bir neçə ay yaşınırdılar. Buna görə Qubadlıda sovetlərə seçkilərdə qadınlar da iştirak edirdi.

Bütün yığıncaqlarda, əsasən, sovet hökumətinin qurulmasında fəal iştirak etmiş adamlar – yoxsul və ortabab kəndlilər deputat seçilirdilər.

O zaman birbaşa seçki sistemi yox idi. Kənd sovetlərinə deputatlar seçilərkən, eyni zamanda dairə Sovetlər qurultayına nümayəndələr seçilirdi.

Bütün kəndlərdə və dairələrdə seçkilər, bir qayda olaraq, zəhmətkeşlərin fəal iştirakı ilə keçirilirdi. Zəhmət adamları kənddə, dairədə, qəzada və hətta respublikada hakimiyyət başında kimin duracağının onların idarəsindən asılı olduğunu başa düşdükləri üçün təsadüfi adamların, xüsusilə bəy və qolçomaq "əlaltılarının" namizədlərini heç nədən çəkinmədən, qətiyyətlə rədd edirdilər. Kəndlərdə belə hadisələr olurdu.

Novlu kəndində hələ müzakirə başlamamış seçicilər bir ağızdan tələb etdilər ki, kim tərəfindənsə namizədliyi irəli sürülmüş Cəfərqulu bəyin adı siyahıdan silinsin. Əbilcə kəndində bir küncdə gizlənmiş hacı Teymur bəyi iclasdan çıxarmış və onu səs vermə hüququndan



məhrum etmək haqqında qərarlarını protokola yazmışdılar. Çoxlu bəy ailəsi olan Xocahan kəndində bəylər bütün kəndliləri səs vermək hüququndan məhrum etməyə çalışmış, lakin nəticədə siyahıdan özləri silinmişdilər.

Sovetlərə seçkilər zamanı daşnaqlarla da az-çox açıq toqquşma olurdu.

Biz seçki keçirmək üçün Teymurmüsgənlidən Əliquluuşağına getməyə hazırlaşırdıq. Gözlənilmədən Göyüş Məmmədov gəldi. O nağıl etdi ki, dünən axşam Məlik Əhmədli kəndinə Xınzirəkdən bir neçə zabitlə daşnaq kapitanı gəlmişdi. Balaca bəy Qasımbəyov və Əliquluuşağından olan iki qaçaq da onlarla gəlmişdi. Onlardan biri Göyüş Məmmədova tapşırıb ki, bizim arxamızca göz-qulaq olsun. Biz yuxarı kəndlərə gələndə tez onlara xəbər versin...

Qasımbəyov vəd eləmişdi ki, bu xəbərçiliyin əvəzində Yeqo Qazaryanın onatılan ingilis tüfəngini Göyüş Məmmədova bağışlayacaq.

– Uşaqlar, Yeqo Qazaryanın tüfəngi o qədər yaxşıdır ki, boyun qaçıra bilmədim - deyə Göyüş Məmmədov sözünü zarafatla qurtardı. Göyüşün daşnaqların Əliquluuşağı da olduğunu xəbər verməsinə baxmayaraq, biz yenə də ora gedib sovetlərə seçki keçirməyi qərara aldıq.

Biz daşnaq agentlərindən xəlvət kəndə axşam girdik və tez kəndlilərin seçki iclasını təşkil etdik. Mən seçicilərə təlimatı başa saldım və Sovet hökumətinin nailiyyətlərindən danışmağa başladım. Birdən təpədən dırnağadək silahlanmış Balaca bəy Qasımbəyovun öz dəstəsi ilə yaxınlıqda dayandığını gördüm. Görünür, onlar çoxdan bizi izləyirmişlər. İndi isə bir kənarda dayanıb bizə gülürdülər, sanki deyirdilər: "Eybi yoxdur, eybi yoxdur, siz öz deputatlarınızı seçin, onsuz da bu yerlərdə bolşeviklər olmayacaq".

Bu vaxt mən dedim:

– Respublikanın bəzi yerlərində hələ də elə adamlar var ki, bolşeviklərin, xalq hakimiyyətinin qəti qələbəsinə inanmırlar. O cür

adamlar sizin aranızda da, bu kənddə də var. O cür adamlara biz bu gün deyirik: nə qədər gec deyil, silahınızı yerə qoyun, xalqa qarışın, sonra sizin üçün pis olar.

İclasa toplanmış kəndlilər bir dəstə silahlı quldurun yaxında dayanmasının toqquşmaya səbəb ola biləcəyini anlayıb, onlara təklif etdilər ki, burada boş-boşuna meydan oxumasınlar, sağ-salamat çıxıb getsinlər. Ancaq daşnaq agentləri yenə də çıxıb getmir, bir-birinin üzünə baxıb gülürdülər.

Kəndlilərlə silahlı daşnaqlar sözləşdikləri vaxt dörd nəfər xəlvətcə iclasdan çıxıb tüfəng gətirmək üçün evlərinə getdi. Mən açıq səsə qoymaq üçün namizədlərin siyahısını tuturdum, ancaq heç fikrimdən çıxmırdı ki: "bu saat atışma başlanacaq. Necə olsun?"

Daşnaq agentləri iclasda olan bir neçə kəndlinin əlində tüfəng görüb, başa düşdülər ki, bu dəfə də bir iş görə bilməyəcəklər, bəlkə də, işləri daha pis olacaq. Qaçaqlar çıxıb getdilər.

İclas qurtardıqdan sonra biz geri qayıtdıq. Əliquluuşağıdan dörd nəfər tüfəngli kəndli bizi Teymurmüsgənliyə qədər ötürdü.

Kənd sovetlərinə çox vaxt yoxsul kəndlilər, bir neçə il qazanc dalınca Bakıya getmiş, proletar ailəsində yaşayıb zəhmət çəkmiş adamlar seçilirdi. Eyvazlı, Əliquluuşağı və Novlu kənd sovetlərinə keçmiş Bakı fəhlələri – Fərhad Şirinov, Firdovsi Cəfərov və Səlim Cabbarov seçilmişdi. Həmzəli kənd soveti sədrliyinə yoxsul-fəal Muxtar Məhərrəmovu seçdilər.

Qubadlı, Zəngilan və Səfyan dairə icraiyyə komitəsi sədri vəzifəsinə kəndlilərdən Qara İlyasov, İbrahim Hacıyev və Aslan Əsədov seçilmişdir.

Qəza icraiyyə komitəsinin plenumu AK(b)P MK-nın tövsiyə etdiyi nümayəndəni – şuşalı Hüsü Hacıyevi sədr seçdi. Sovetlərə seçkilərin keçirilməsində Hüsü Hacıyev də yaxından iştirak etmişdi.

Qəza sovetlər qurultayı birinci Azərbaycan Sovetlər qurultayına on nümayəndə seçdi. Onların arasında Qubadlıdan kəndli Ramazan Məmməd oğlu, Teymurmüsgənli kəndindən Talıb (familiyası



xatirimdə deyil), Çingiz İldırım, Hüsü Hacıyev, Qara İlyasov, mən və başqaları var idi.

Fəhlə, kəndli, qızıl əsgər və matros deputatların birinci Ümumazərbaycan Sovetlər qurultayı 1921-ci il mayın 6-dan 19-dək Bakı şəhərində davam etdi. Azərbaycan xalqının tarixində birinci dəfə olaraq qurultay Azərbaycan SSR-in konstitusiyasını qəbul etdi.

Qurultay konstitusiyaya əsasən, Azərbaycan inqilab komitəsi əvəzinə respublikanın ali qanunverici və təşkilatçı orqanı – 74 üzvdən və 25 namizəddən ibarət AzMİK (Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi) seçdi. Bu sətirlərin müəllifi də AzMİK-in üzvlüyünə seçildi.

Qızıl Ordunun zərbələri altında daşnaq qoşunları getdikcə Yerevandan uzaqlaşırdı. Onların çoxu Dərələgözə toplanmışdı. Daşnaqların Zəngəzurda olan silahlı dəstələri də buraya gəlirdi. Onlar Qızıl Ordu tərəfindən mühasirəyə alınmış Yerevana köməyə tələsirdilər.

General Njde burada Dərələgözdə Qızıl Ordu komandanlığının nümayəndəsini qəbul etdi. Nümayəndələr daşnaq qoşunlarının təslim şərtlərini ona verdilər. Njde tələblərə cavab gözləmədən gecə xaincəsinə sovet qoşunları üzərinə hücum etdi.

Lakin daşnaqların müqaviməti tezliklə qırıldı və Sovet qoşunları Dərələgözə, Sisyanın yaxınlığındakı kəndə girdi.

Başda Vratsyan olmaqla daşnaq hökuməti Tatıva köçdü. 1921-ci il aprelin axırlarında burada "Azad Syunik hökumətinin" əvəzinə yenə də Vratsyanın başçılığı ilə "Yeni Ermənistan hökuməti" yaradıldı. Bir neçə gündən sonra qolçomaqların və ruhanilərin iştirakı ilə daşnaqların qurultayı çağırıldı. Qurultayı parlament elan etdilər. Aprelin 27-də bu parlament başda general Njde olmaqla "Dağlıq Ermənistan hökumətini" təşkil etdi.

Daşnaqlar ingilislərin köməyi ilə təbiətən müdafiə üçün əlverişli olan Zəngəzurda çox qalacaqlarına ümid edirdilər. Buna görə onlar qəzanın ərazisində sui-qəsdi gücləndirir, erməni və qonşu

azərbaycanlı zəhmətkeşləri qorxudur, eyni zamanda Qızıl Ordu hissələrinin Dərələgöz və Qarabağ tərəfdən Zəngəzura yaxınlaşdığını gizlədirdilər.

Daşnaqlar Azərbaycan kəndlərinin əhalisinə dinclik vermirdilər. O zaman cəmi 5-6 evi olan Sofulu kəndi Bərgüşadın sahilində, erməni Maqancuğun qarşı tərəfində idi. Uzun illər erməni qolçomaqlarına muzdurluq etdiyinə görə erməni dilini çox yaxşı bilən Dadaş Səfərov Sofuluda yaşayırdı. Daşnaqlar elə güman edirdilər ki, Səfərov erməni kommunistləri ilə birlikdə Zəngəzur kəndlərində kəşfiyyat aparır. Əslində isə belə deyildi. Kommunist Salam Adıgözəlov da həmin Sofulu kəndində yaşayırdı.

Daşnaqlar dumanlı-çənli gecənin birində sakitcə çayı keçib, kəndi mühasirəyə aldılar. Dadaşla Salamı tutub özləri ilə apardılar.

Lakin qarşı tərəfdə, çayın solunda olan Davudlu kəndinin camaatı bundan xəbər tutdu. Davudlular daşnaqların Dadaşla Salamı apardıqlarını görüb, onları buraxdırmağı qət etdilər. Bu vaxt daşnaqlardan bir neçə adam ayrıldı. Xəlvətcə Dadaşı kənara çəkib, yolda öldürdülər. Davudlular Salamı aparan daşnaqları saxlayır, onların hədə-hərbələrinə fikir verməyib, dustağı buraxmağı tələb etdilər. Daşnaqların karıxdığını görən Salam qaçıb davudluların arasında gizləndi.

Birinci Azərbaycan Sovetlər qurultayından sonra 1921-ci il iyulun əvvəlində mən Bakıdan Xanlığa gəldim. Bir neçə gündən sonra mən daşnaqlar tərəfindən tutulmuş sərhəd kəndlərinə getməli oldum.

Mən, Hümbətəliyev və İsaxov Xanlıqdan axşam çıxdıq. Səhər tezdən, gün çıxmamış Gürcülü kəndinə çatdıq. Evimiz bomboş idi: həyətdə nə bir heyvan, nə də it var idi. Səsimə əmim qızı Zivər çıxdı. Demə, Zivər at ayağı tappıltısı eşidib, qaçıb gizlənibmiş, elə bilib ki, gələn daşnaqlardır. Zivər bildirdi ki, bütün ailə meşəyə qaçıb. O dedi:

– Gündüz xəbər gəldi ki, Balaca bəy Qasımbəyovla kapitan səni tutmaq üçün gecə bizim evə basqın eləyəcəklər.



Biz atdan düşməmiş ailəni axtarmağa getdik. Hava işıqlaşanda bizimkiləri Novlu kəndində bir samanlıqda tapdıq. Atam dedi ki, daşnaq kapitan bizi hədələyib deyirmiş ki, əgər məni tapmasa, evimizi dağıdacaq, ailəmizi də Xınzirəyə aparacaq.

Yola nəzarətçi qoyub, daşnaqların Xınzirəkdə nə etdiyini öyrənmək üçün Əliquluuşağına etibarlı bir adam göndərdik.

Axşam Əliquluuşağından xəbər gəldi. Daşnaqların hamısı yaxınlaşmaqda olan Qızıl Ordu hissələrinin və partizanların qabağını saxlamağa hazırlaşırdılar.

Xınzirəkli kommunistlər Hayq Danielyan Əliquluuşağılı Fərhadın vasitəsi ilə bizə çatdırdı ki, əgər bu daşnaq agentləri bir gün əvvəl Əliquluuşağında, Məlik Əhmədlidə kommunistlərin var-yoxunu talan etmək, ailələrini əsir almaq, sui-qəsd planı qururdularsa, indi heç kəsin gözünə görünmürlər. Bizim evə basqın etməyə hazırlaşan kapitan Xınzirəyin müdafiəsini yaxşı təşkil etmək üçün oyan-buyana qaçırdı.

Bizimkiləri Novluda qoyub, gecə başqa kəndlərə getdik.

Ermənistan Xalq Komissarları Sovetinin sədri A.Myasnikovun 1921-ci il iyunun 19-da dərc olunmuş respublika zəhmətkeşlərinə müraciətində daşnaqların Zəngəzurdakı fırıldaqları barədə deyilirdi: "Ermənistan hökuməti Zəngəzurunda da Qarabağ kimi dinc yaradıcılıq işinə qoşulması üçün çox güzəştlərə getdi...

Çox təəssüf ki, Zəngəzurda gizlənmiş quldurlar və cinayətkar başçılar bunu başa düşmədilər. Sovet Sosialist Ermənistanı hökumətinin vaxtında nota verməsinə baxmayaraq, onlar mayın 16-da səhər tezdən bizim qoşunların üzərinə hücum etdilər...

Beləliklə, onlar Zəngəzur kəndlilərinin və Ermənistan zəhmətkeşlərinin ümidlərini puça çıxarmağa başladılar. Mübarizə başlandı. Bu mübarizənin qələbə ilə qurtaracağına bizim şübhəmiz yoxdur"[1].

---

[1] Böyük Oktyabr Sosialist inqilabı və Ermənistanda Sovet hakimiyyətinin qələbəsi. Sənədlər məcmuəsi. Yerevan. Aypetrat, 157, səh. 567.

Sovet qoşunları Ermənistan tərəfdən Zəngəzura üç istiqamətdə gedirdi: Ermənistan Qızıl Ordusunun 1-ci, 2-ci və 3-cü polku Vedi-Dərələgöz-Sisyan tərəfdən; 184-cü, 4-cü süvari polku Naxçıvan-Biçənək-Sisyan tərəfdən; 177-ci və 178-ci polklar Naxçıvan-Ordud-Mığri tərəfdən; 1-ci Qafqaz korpusu isə Qarabağ tərəfdən Zəngəzur üzərinə hücuma keçdi.

Sovet qoşunları daşnaqların müqavimətini dərhal qıraraq hər tərəfdən Zəngəzurun ərazisi ilə irəliləməyə başladı. Yerli əhalidən olan daşnaq əsgərləri komandirlərinə tabe olmayaraq, evlərinə dağılışdılar.

İyulun 2-də 1-ci Qafqaz korpusu Gorusa daxil oldu. Onların arxasınca Sisyan tərəfdən gələn hissələr də şəhərə girdi.

Daşnaq hökuməti, başda general Njde olmaqla, Qafan dağlarına çəkildi və Mığridən İrana adladı.

1-ci Qafqaz korpusunun hərbi komissarı Sviridov Myasnikovun adına vurduğu teleqramda bildirirdi:

"Gorus. 3. VII. 1921-ci il. Zəngəzur daşnaq əksinqilabçılarından tamam təmizlənəndən və orada fəhlə-kəndli hökumətinin qəti qələbəsindən sonra bütün Zəngəzurda inqilabi qayda-qanun yaradıldığını bildirməklə, Qafqaz korpusu özünü xoşbəxt hesab edir. İnqilabi komitələrə işi təşkil etməyə başlamaq üçün öz hüquqları və vəzifələri barədə təlimat verilmişdir... Başda Njde olmaqla fırıldaqçılar dəstəsi İrana qaçdı. Hərbi komissar Sviridov"[1].

Bu məlumatla əlaqədar olaraq, Azərbaycan K(b)P MK katibi yoldaş Kominski Bakıda həmkarlar ittifaqları qurultayında xəbər verdi:

"...Teleqram alınmışdır ki, Njdeyə qarşı aparılan hərbi əməliyyat qələbə ilə qurtarmış, iyulun 2-də səhər saat 4-də əks-inqilabçı dəstənin mərkəzi olan Gorus igid qırmızı əsgərlər tərəfindən tutulmuşdur"[2].

---

[1] Böyük Oktyabr Sosialist inqilabı və Ermənistanda Sovet hakimiyyətinin qələbəsi. Sənədlər məcmuəsi. Yerevan. Aypetrat, 1957, səh. 565-566.

[2] "Bakinski raboçi" qəzeti, 4 iyul, 1921-ci il.



Daşnaqları nə ağaları ingilis-Amerika imperialistləri, nə də ingilislərin göstərişi ilə dostluq etdikləri bəy-müsavatçılar xilas edə bildilər.

Zəngəzur kəndliləri həmişəlik Sovet hakimiyyəti qurdular.

Mənim erməni yoldaşlarım bizim ailə üçün o qədər əziz və doğma olmuşdular ki, atam-anam onları bir az görməyəndə məndən çox onlardan nigaran olurdular. Tək bizim ailədə deyil, bizim kənddə və Bərgüşadın sahilində olan başqa kəndlərdə də bütün ailələr azərbaycanlı kommunistlərdən çox erməni yoldaşlardan nigaran qalırdılar.

Daşnaqları görməyə gözü olmayan azərbaycanlı kəndlilər erməni kommunistlərini ürəkdən sevirdilər. Maraqlı bir əhvalat danışım:

...1921-ci il may ayının əvvəlləri idi. Kəndimizə bir dəstə erməni kommunisti gəlmişdi. Əliquluuşağıdan xəbər verdilər ki, daşnaqlar bunu bilib, kəndə silahlı dəstə göndərirlər. Başda Arşak Balyan olmaqla kommunistlər daşnaqları qarşılamaq üçün Lalazar körpüsünə tərəf yola düşdülər. Bizim kəndin kommunistləri və silahlı bitərəflər də onlarla getdi. Bir az keçdikdən sonra atışma səsi gəldi. Atışma kəsildikdə kimisə şayiə yaydı ki, daşnaqlar bütün kommunistləri körpüdə qırıb, bizim kəndi dağıtmağa, talamağa gəlirlər.

Yeqo Qazaryan bizim evdə xəstə yatırdı. Yerindən tərpənə bilmirdi. Birinci növbədə onu xilas etmək lazım idi. Qadınlar ona arvad paltarı geyindirib, qoca qarıların arasında gizlətdilər. Ancaq bütün təşviş əbəs imiş. Daşnaqlar Ağyazı tərəfdən gürcülülərin və əliquluuşağılıların atəşi altına düşüb, vahimə içərisində Aynaxlı dərəsinə çəkilmişdilər.

Bizim xalqların qəlbində qardaşlıq hissi əsrlərdən bəri yaşayır. Erməni ilə azərbaycanlı arasındakı söhbətlərdə həmişə "biz din ayrı qardaşıq" sözlərini eşitmək olardı.

Azərbaycanlılarla ermənilər həm məişətdə, həm də iş-gücdə bir-biri ilə sıx bağlı idi. 1905, 1918, 1919, 1920-ci illərdə baş vermiş

hadisələr zamanı heç bir qadağan onların görüşüb danışmasına mane ola bilməmişdir. İyrənc millətçilik siyasəti illərində onlar heç bir təhlükədən çəkinmədən bir-biri ilə qardaş kimi görüşürdülər.

1905-ci ildə Danzaver bəyləri olan Sultanovlar kiçik erməni kəndi Eritsiatumu mühasirə etdikləri zaman, bəylərin iradəsinin əksinə olaraq, köhnə dost olan erməni və azərbaycanlılar səngərlərdən çıxıb, bir-birini qucaqlayır, öpüşür, uzun müddət ayrılmırdılar. Məcburən ayrılanda isə deyirdilər:

– Artün, sənin canın üçün mən atmayacağam!

– Sənin canın üçün, Mikayıl, mən də atmayacağam!

Ermənilərlə azərbaycanlılar bir dağın, bir təbiətin oğul-qızlarıdır. Onlar bir torpağın çörəyini yeyirlər.

Düşmənlərin bu iki xalqı parçalamaq istəməsinə baxmayaraq, həyat onları əsrlərdən bəri davam edən qardaşlığa çağırırdı. Din xadimləri bu iki xalqda bir-birinə qarşı nifrət oyatmağa çalışırdılar. Din xadimləri nəinki başqa dindən olanlara, dinin qoyduğu bu qadağaların doğruluğuna çağırırdı. Azacıq şübhə eləyən adamlara da xor baxırdı.

Mən, Yeqo və atam bizim evdə oturmuşduq. Evimiz iki qatlı, uzun bir samanlıq idi. Qaçqınlıqdan qayıdandan sonra buranı birtəhər ev eləmişdik. Samanlığın bir tərəfinə mal-qara üçün saman və ot yığılmışdı. Ortada mal-qara saxlanırdı. Özümüz isə evin o biri başında yaşayırdıq. Mal-qara yerinə biz tərəfdən keçib gedərdi. Samanlıqda arakəsmə-zad yox idi. Peyin yaş olanda bizim müvəqqəti evimizdə nəfəs almaq olmurdu.

Evin tavanından ocağın qırağında oturanların üstünə tez-tez t orpaq tökülürdü. Bərk yağış yağanda su içəri dolurdu. Belə vaxtlarda evin üstünə çıxıb, ağac mala ilə palçığı hamarlayıb, yarıqları tutardıq.

Belə münasib olmayan bir şəraitdə bir dəfə Yeqo dini mübahisə açdı. İsanın varlığını inkar elədi. Atam üzünü mənə tutub dedi:

– Deyəsən, Yeqo müsəlmən olmaq istəyir. Madam ki İsanı danır, demək, Məhəmmədə biət etməlidir. Elədirmi?

Yeqo cavab verdi:

– İsadan da ağılsız Məhəmmədə biət eləmək? Xeyr, mən nə onu, nə də o birisini tanımaq istəmirəm. Mən heç Allahın özünü də tanımaq istəmirəm.

Atam özünü itirmiş halda qışqırdı:

– Səsini kəs, dinsiz! Mən günahkaram, Allah təqsirimdən keçsin! – O sözünə davam elədi: - Yeqo, sən dəlisən! Nə üçün məni dinsiz eləmək istəyirsən?

– Ata, bir fikirləş, – deyə Yeqo cavab verdi, – əgər Allah qadirdirsə, bəs nə üçün siz var-yoxdan çıxdınız! Əgər çox rəhmlidirsə, nə üçün buna yol verdi?

Atam uzun müddət bu sözlərin təsiri altında qaldı, amma qoca vaxtında ürək eləyib dindən üz döndərə bilmədi.

Buna görə bir dəfə Yeqoya dedi:

– Biz sizinlə qardaşıq, ancaq dinimiz ayrıdır. Biz, Yeqo, din ayrı qardaşlarıq. Belə deyilmi?

Həmin 1921-ci ilin qışında şinherli kommunist Armenak Mailyan və eritsiatumlu kommunist Yeprem Artünyan şahverdili Ocaqqulunun ocağının kənarında oturub söhbət edirdilər. Yeprem Ocaqverdiyə dedi:

– Sən Allaha inanmırsan, amma namaz qılırsan. Deməк, Allahı aldadırsan. Buna görə Allah sənə qənim olar.

Ocaqverdi qonağın sözlərini ciddi qəbul edib, cavab verdi:

– Mən Allaha inanıram, özüm də namaz qılan vaxt nə olursa-olsun yarımçıq kəsmərəm. O anda mənə güllə atsalar da, kəsmərəm.

Gün batırdı. Axşam namazının vaxtı çatmışdı. Ocaqverdi durub, namazdan qabaq dəstəmaz aldı, sonra xalçanın üstündə üzünü qibləyə tutub namaz qıldı. Namazını qurtardıqdan sonra o sakit halda dedi:

– Siz məndən inciməyin. Mən həmişə deyirəm: biz sizinlə qardaşıq, ancaq dinimiz ayrıdır.

Armenak dedi:

– Qulaq as, Ocaqverdi, gəl nə Allaha, nə də astvasa inanaq. Biz kommunizm ideyalarına, Lenin ideyalarına inanaq. O zaman, sözsüz, həqiqi qardaş olarıq!

Savalan Şirinov evə gəlib dedi:

– Sən doğru deyirsən, Armenak. Azərbaycanlılarla ermənilər qardaş olublar, qardaşdılar və qardaş olacaqlar!

Mən irəlidə "qəza partiya komitəsi" deyəndə indiki oxucu elə düşünə bilər ki, bu komitə qəza şəhərinin gözəl binalarından birində idi, onun neçə-neçə otağı, şöbələri vardı, hər gün ora saysız-hesabsız məktublar gəlirdi. Ancaq belə deyildi. Qəza komitəsinin bütün vacib sənədləri bir qovluğun içində saxlanırdı, biz onu özümüzlə kəndbəkənd gəzdirirdik. Adətən, əks-inqilabçı qaçaqların basqınına məruz qalmamaq üçün kəndlərə 5-10 nəfərlik silahlı dəstə ilə gedirdik.

Qəza komitəsinin heç otağı da yox idi. Katib, qəza komitəsinin üzvləri, təlimatçılar və operativ tapşırıqları yerinə yetirən digər işçilər (onlar 20 nəfərə qədər idi) Əbilcə kəndində Hacı Teymur bəyin evində, bir otaqda yaşayırdılar.

1921-ci ilin sonunadək Qubadlı partiya təşkilatında nə yenidən qeydə alma, nə də təmizlik aparılmışdı. Qubadlı partiya təşkilatında olan kommunistləri yenidən qeydə almaq üçün 1921-ci ilin may ayının axırında, Yerem Bakuntsdan, Ocaqqulu Musayevdən və bu sətirlərin müəllifindən ibarət ilk komissiya yaradıldı. Komissiya kommunistləri qeydə ala bilmədi, çünki 1921-ci ildə Zəngəzur Ermənistana daxil idi. Bakunts və Musayev isə sovet Ermənistanında partiya təşkilatında uçotda idilər. Bizim komissiya beləcə dağıldı. AK(b)P MK-nın təşkil etdiyi ikinci komissiya öz işini 1922-ci ilin əvvəllərində qurtardı.

Bütün dairə komitələri kimi, qəza komitəsi də heç yerdən pul almırdı. Qəza komitəsinin və dairə komitələrinin işçiləri maaş almırdılar. Bir dəfə vəziyyət o yerə çatdı ki, Xocahan mülkədarı İsfəndiyar bəy, Zəngilan dairəsindən qayıdan bir yoldaşımızı ələ salaraq demişdi:

– Niyə özünüzü belə əldən salırsınız? Mən çəltik qurudan vaxt gəlib sərçələri qovsanız, gününüzə bir girvənkə düyü verərəm, acqarına bu kəndləri gəzməkdən o yaxşıdır!

Güzəranımızın bu cür ağır olmasına baxmayaraq, biz həddindən çox səmərəli işləyirdik, təşkilatımız gündən-günə böyüyürdü. 1921-ci ilin yanvarından avqustunadək, səkkiz ay ərzində, qırx bir kənddə partiya özəyi yaratdıq. Bu partiya özəklərində 163 partiya üzvü və 55 namizəd fəal çalışırdı. Bunlardan başqa, otuz dörd kənddə kommunist partiyasına rəğbət bəsləyən 265 kəndli var idi[1].

Qəza partiya komitəsi kəndlərdə bütün işlərini partiya özəkləri vasitəsilə görürdü. Onlar kəndlilər arasında təbliğat işi aparır, kənd inqilab komitələrini, sonralar isə kənd sovetlərinin fəaliyyətinə rəhbərlik edirdilər.

Bütün kommunistlər silahlı idi. Onlardan əlavə, bir çox zəhmətkeş kəndlilərdə də silah var idi. Onlar kommunistlərlə birlikdə mübariz dəstələr təşkil edir, nəinki öz rayonlarının kəndlərində, başqa kəndlərin sahəsində də əks-inqilabçı dəstələrə qarşı tez-tez fəal mübarizə aparırdılar.

Əlbəttə, bizim partiya işində təcrübəmiz yox idi. Qəza Bakıdan uzaq olduğundan AK(b)P MK-nın direktivlərini və gündəlik ədəbiyyatı vaxtında ala bilmirdik. Belə şəraitdə Qızıl Ordu gələnədək hər yerdə Sovet hökumətini qorumağı biz partiya təşkilatlarının əsas vəzifəsi hesab edirdik. Bizim bütün işlərimiz bu vəzifənin yerinə yetirilməsinə yönəldilmişdi.

Mənim yerimdə qəza partiya təşkilatının katibi olan Abbas Sultanov özünün 10 dekabr 1921-ci il hesabatında, qəza partiya təşkilatının o dövr fəaliyyətini (yanvar - sentyabr 1921-ci il) xarakterizə edərkən yazırdı:

[1] Azərbaycan KP MK-nın Partiya Tarixi İnstitutunun partiya arxivi, F. 1, siyahı 125, iş 214/160.

"Qubadlı qəza partiya təşkilatı bütün gücünü daşnaqlara qarşı mübarizə cəbhəsinə toplamışdı... O, hərbi işdən avqust ayının əvvəllərində azad olmuşdu. Bu uzunmüddətli cəbhə işi partiyalı yoldaşları döyüşçüyə çevirmiş və dinc işdən uzaqlaşdırmışdı... Qubadlı qəzası yoxsul erməni zəhmətkeşlərinin düşməni olan daşnaqların əleyhinə apardığımız mübarizə işində partiya-mübarizə qərargahı idi."

Abbas Sultanov əks-inqilabçı qüvvələrlə mübarizə məsələsinə toxunarkən yazırdı:

"Qubadlı partiya təşkilatı nə qədər qurbanlar vermiş, müvəqqəti gizli işə keçərkən necə ağır dəqiqələr keçirmişdir... Qubadlı partiya təşkilatı ağ canavar sürüsü içərisində mədəni-təşkilati işlərdən əl çəkib, yoxsulları sayıqlıqla müdafiə etməli olmuşdu. Bunun üçün atlı dəstələr düzəldir, Zəngəzurun gizli işləyən siyasi adamları ilə əlaqə yaradır, cəbhə işləri ilə məşğul olurdu"[1].

[1] Azərbaycan KP MK-nın Partiya Tarixi İnstitutunun partiya arxivi, F. 1, siyahı, 125, sax. qov. 498/428, v. 12.



*BEŞİNCİ FƏSİL*

# BANDİTİZMLƏ MÜBARİZƏ

İnqilabi qayda-qanun yaratmaq, müsavatçıların və daşnaqların dağıtdığı təsərrüfatı bərpa etmək, bəylərin və xanların müsadirə edilmiş torpaqlarını yoxsul kəndlilər arasında bölmək – Sovet hakimiyyət orqanlarının bütün bu tədbirləri əks-inqilabçılarla amansız mübarizə şəraitində həyata keçirilirdi.

Zəngəzur və Qubadlı qəzalarında müsavatçıların və daşnaqların Sovet hakimiyyətinin qanunlarına və sərəncamlarına açıqca tabe olmamaq tədbirləri qurtardıqdan sonra silahlı müqavimət göstərməyə, qaçaqçılığa başladılar.

Xarici imperialistlər tərəfindən təşkil olunmuş müsavat və daşnaq bandaları bu iki qəzanın kənd və obalarını dağıdır, zəhmətkeş əhalini amansızcasına soyur, məsul partiya və sovet işçilərini öldürürdülər.

Keçmiş Hacısamlı mülkədarları Xosrov bəy və Sultan bəy Sultanovlar böyük bir antisovet bandanın fəaliyyətinə başçılıq edirdilər. Digər Sultanovlar Qubadlı sahəsində Lətifin və Kərimin bandasına başçılıq edirdilər. Sonralar bu banda bir daşnaq bandası ilə birləşərək iki qəzanın ərazisində dolanmağa başladı.

Zəngilan rayonunda, İran sərhəddində Mincivan bəyləri Bəhmən bəyin bandasını təşkil etmişdilər.

Mənim aşağıda təsvir edəcəyim bir neçə əhvalat müsavatçılar və daşnaqların Sovet hakimiyyəti əleyhinə necə iyrənc əməllərə əl atdıqlarını açıq göstərəcəkdir.

Bizim qəza təşkilatımız Əyin kəndində, daha doğrusu, onun yaxınlığında çadırlarda idi. İş bunda idi ki, yayda Həkəri və Bərgüşad çayı boyu bütün kəndlərin camaatı öz mal-qaraları ilə ay yarımlığa yaylağa – Aslanlar yaylağına köçərdilər. Ağcaqanadı özünə çəkən mal-qara gedəndən sonra (ocaq yanmadığı üçün indi ağcaqanadı tüstü qovmurdu) kənddə yaşamaq mümkün olmur, ərzaq tapmaq

da olmurdu. Bütün bunlar və birinci növbədə kütlə arasında daima iş aparmaq zəruriyyəti, qəza partiya təşkilatını yaylağa köçməyə məcbur edirdi.

1921-ci il iyul ayının axırlarında mən Əyin kəndində qızdırmalı halda çadırda yatmışdım. Milis nəfəri qəza icraiyyə komitəsinin sədri Hüsü Hacıyevdən mənə bir məktub gətirdi. Hacıyev iki gün əvvəl inqilabi hərbi şura üzvü Əliheydər Qarayevin çağırışı ilə Şuşaya getmişdi. Hacıyev məndən xahiş edirdi ki, tez Qaralar kəndinə, onun yanına gəlim.

Bu çağırışdan əvvəl belə bir əhvalat olmuşdu. Hüsü Hacıyev Şuşadan qayıdarkən AK(b)P qəza komitəsini xəbərdar etmədən o, bir dəstə milislə Əlyanlı kəndinin Deşdahat köçünə getməyi qət edir. Dəstə təpəni aşıb obaya çıxır. Hacıyev və müavini Oruc Babayev bir alaçığa, qalanları isə başqa alaçığa düşür. Oruc Babayev alaçıqda tək bir qarı qaldığını görüb, banditlərin qurduğu tələyə düşdüklərindən şübhələnir. Qarı onun sorğu-sualına belə cavab verir: kişilər aşağıda, kənddə biçin biçməyə qalıblar.

Hacıyevlə Babayevi müşayiət edən dondarlı milis rəisi Əli Bəylərov təşvişlə bildirir ki, o biri alaçıqlarda da kişi yoxdur.

Qarı başa düşməmək üçün Babayevlə Bəylərov rusca Hacıyevə deyirlər ki, görünür, kişilər köç düşən talanın ətrafındakı meşədədirlər. Xeyli mübahisədən sonra onlar Hacıyevi mütləq buradan çıxıb getməyə razı salırlar. Qərara gəlirlər ki, əvvəlcə iki milis, onların arxasınca bir milis nəfəri ilə Hacıyev, onlardan sonra isə qalan adamlar getsin. Belə də edirlər.

Həqiqətən də, meşədə gizlənmiş banditlər bunu görüb on nəfərlik bir dəstəni kəsə yolla iki sıldırım təpənin arasından keçən çay keçidinə göndərirlər. Çayı keçib yamaca qalxmaq ancaq tək-tək mümkün idi. Bizim adamlar köç yerindən çıxan kimi çayın keçid yerindən və meşə tərəfdən güllə atılır. Dəstə təpənin döşündə iki tərəfdən atəş arasında qalır.

Çayın keçidində gizlənmiş banditlər iki milisi – mahmudlu Salman Novruzovu və qayalı Nəbini vururlar. Hacıyev atdan sıçrayıb, ağacın dalına girir və atışmağa başlayır. Yoldaşları da atışırlar.

Bu zaman fərəcanlı Əziz dərənin o biri yamacı ilə Haral kəndindən evinə gedirmiş. O, işin nə yerdə olduğunu başa düşüb, bir ağacın arxasına girir, banditlərə sərrast atəş açmağa başlayır. Milis rəisi Bəylərov bunu görüb, banditlərin üzərinə atəşi gücləndirir. Hacıyev və bir neçə yoldaş bundan istifadə edərək çayı keçirlər. Bu vaxt Oruc Babayev köç yerindən düşərkən banditlər onu öldürürlər. Banditlər köç düşən taladan dərənin o tərəfində eyni hündürlükdə olan yerdə Əzizin gizləndiyini görüb bir neçə sərrast güllə ilə onu susdururlar. İndi həm bunlar, həm də keçiddə gizlənən banditlər Bəylərovu atəşə tuturlar, onu da, yanında olan milisi də yaralayırlar. Güllə Bəylərovun ayağını parçalayır, o huşunu itirir. Banditlər çatıb, Dondarlı milis rəisini qılıncla doğrayırlar. Atışma zamanı qəza milis rəisinin müavini və Xanlıq milis rəisinin müavini yaralanır. Öldürülmüş dörd nəfərin silahı və iyirmi at banditlərə qalır.

Qəza komitəsi rəyasət heyətinin bütün üzvləri Haral kəndində toplanmışdı. Deşdahat banditlərini izləmək üçün ətraflı plan hazırlandı. Onlara başqa qolçomaq bandit dəstələrinin də qoşula biləcəyini nəzərə alaraq, Zəngəzur qəzasından kömək istəmək qərarına gəldik. O zaman xüsusi təyinatlı hissənin – XTH-in güclü bir hissəsi hələ Gorusda idi. Hüseyn Abdullayevi və məni ora göndərmək qərara alındı.

İki ay əvvəl kommunistlərə amansız divan tutan, fırıldaqçı daşnaq generalı Njdenin iqamətgahı olan Gorusda indi hakimiyyət başında bizim sadiq yoldaşlarımız idi. Onlarla məsləhətləşib, bu qərara gəldik ki, kömək üçün iyirmi əsgər və XTH-dən iki pulemyot götürək.

Biz Haralda bu qərara gəldik ki, başqa kəndlərdə olan əliyanlıları çağıraq, mümkün olsa onları Deşdahat bandasını izləməyə cəlb eləyək. Bu vaxt deşdahatlılar, köçüb hara isə getmişdilər. Canlarını qurtarmağa çalışırdılar.

Əliyanlıda çox hörmətli adam olan səksən yaşlı Məhəmməd Kərbəlayı Sarı oğlunu iki oğlu ilə və onların digər ağsaqqalı olan

Babaşı bacısı oğlu ilə Harala çağırdıq. Onlar həmişəki kimi yaxşı silahlanmışdılar.

Onlardan soruşduq:

– Yaxındakı dərədə atışma başlananda niyə milislərin köməyinə gəlmədiniz?

– Biz nə biləydik ki, milislərə atırlar? Axı bu barədə bizə qabaqcadan xəbər verməmişdilər! Qoy yoldaş Hüsü Hacıyev özü desin: o bizə heç nə deməmişdi!

Bizə bu cavabı uzun ömrü boyu yüzlərlə günahsız adam öldürmüş, mahir fırıldaqçı və qəddar cinayətkar qoca Kərbəlayı Məhəmməd verdi. O, üzünü oğlanlarına tutub soruşdu:

– Sizə bir söz deməyiblər ki? Bəlkə, sizə xəbər eləyiblər, mənə deməmisiniz? Doğrusunu deyin: burada yalan danışmaq olmaz! – O bu sözləri deyərkən çox mənalı-mənalı bizə baxdı. – Ayıq olun, bu yoldaşlar qəza hökumətinə başçılıq edirlər.

– Nə danışırsan, ata!? Biz səndən heç nə gizlətmirik. Onlardan da heç nə gizləmərik. Allaha and olsun ki, biz heç nə bilmirdik.

Qoca çiyinlərini çəkərək bizə dedi:

– Görürsünüzmü? Onlar mənə yalan deməzlər! Biz heç nə bilmirdik!

Hüsü Hacıyev onlara dedi:

– Elə güman edək ki, siz kimin kimlə atışdığını bilmirdiniz. Deşdahatlıların harada olduğunu ki bilirdiniz?

– Biz onu bilirik ki, onlar dünən alaçıqlarını yığışdırıb hara isə köçüblər. Deyirlər ki, Ziyarət dağına tərəf gediblər. Gəlin yoxlayaq.

Mən qocadan soruşdum:

– Bizimlə onların dalınca gedərsiniz?

– Bu nə sözdür? Sovet hökumətinə kömək eləmək bizim borcumuzdur. Əlbəttə, sizinlə gedəcəyik və nə əmriniz olsa, yerinə yetirəcəyik.

Aydındır ki, bandit dəstələrini tutmaq işində qoca Kərbəlayı Məhəmmədə ürək qızdırmaqda biz böyük səhv elədik. Ancaq biz bunu bir qədər sonralar başa düşdük, daha səhvimizi düzəltmək mümkün deyildi.

Səhəri gün biz başda əliyanlı bələdçiləri Ziyarət dağına tərəf yola düşdük. Bu zirvə, Qarabağ dağ silsiləsinin təpəsində, Kirsdən cənubdadır. Bu yerlərdə gözəl otlaqlar olur. Yayda bu yerlərə öz mal-qaraları ilə nəinki əliyanlılar, hətta Qaryagin qəzasının bir neçə köçəri tayfası da gəlir. Əliyanlılar bu köçəri tayfalarla çox dost idilər.

Bizə yol göstərən qoca Məhəmməd tez-tez oğlanlarına qışqırırdı. Onun cırıldayan səsi bütün mahalı bürüyürdü:

– Ey, ay uşaqlar! Sayıq olun! O köpək oğlanları birdən bu təpənin dalında olarlar!

– Ey, Həsən! Tez qabaqdakı meşəni yoxla, onlar burada da gizlənə bilərlər!

Kirsə qədər yolüstü biz bir neçə kənddə camaatla söhbət elədik, oğurluqla, qaçaqlıqla, adam öldürməklə mübarizə aparmağın və dinc həyat sürməyə keçməyin zəruri olduğunu onlara başa saldıq.

Biz bir gündə xeyli yol gedərək Kirsin cənub tərəfindən Qarabağ dağ silsiləsini keçdik, ancaq Deşdahat banditlərini heç yerdə tapa bilmədik. Axşam Qaryagin qəzasından yağləvədlilərin köçündə qaldıq. Marşrutumuzu Kərbəlayı Məhəmməd müəyyən edirdi. Elə bu obada da onun məsləhəti ilə düşmüşdük.

O dedi:

– Deşdahatlılar köçərilərə qarışa bilərlər. Biz burada gecələməliyik. O yaramazları tapmaq üçün heç bir fürsəti əldən buraxmaq olmaz...

Sonralar biz bildik ki, Kərbəlayı Məhəmməd hay-küy salmaqla bizim hansı tərəfə getdiyimizi və nə tədbir gördüyümüzü banditlərə bildirirmiş.

Əlbəttə, biz Deşdahat banditlərini o səfərdə tuta bilmədik.

1922-ci ilin yayı idi. Axşamlar çox qaranlıq olur, gecəyarı ay çıxırdı.

Kiçik ağılda bir neçə inək və öküz fınxırırdı. Bu yaxınlarda qardaşı

öldürülmüş kənd soveti sədri kommunist Şükür Xəzan oğlunun arvadı itin səsinə ayıldı. Arvad yata bilmədi: dünən inəkləri doğmuşdu, indi uşaqlara verməyə bol südləri olacaqdı. Yorğun ərini ayıltmamaq üçün, arvad ehmalca artırmaya çıxdı.

Gündüz biçdikləri taxıl arvadın gözünün qabağından getmirdi. Dolu sünbüllü, hündür, qalın zəmi dənin ağırlığından əyilirdi. Balaca meh əscək zəmi dəniz kimi dalğalanır, xışıldayır, uğuldayırdı. Arvad dənizi çox görmüşdü: o da buralı bir çox arvadlar kimi, Bibiheybət neft mədənlərində yaşamışdı.

Xışıltı onu fikirdən ayırdı. O, başını qaldıranda dəhşətdən yerində donub qaldı. Çəpərin dalından papaqlı bir baş görünürdü. Bərk qorxmuş qadın sakitcə evə girdi. Əri yatırdı. Dünən onun qardaşını öldürmüşdülər, bu gün isə çəpərin dalında bir papaq görünürdü... Arvad tüfəngi və patrondaşı divardan götürdü...

İt daha bərk hürdü... Nəhayət, əri ayıldı. İtin səsinə yerindən dik atıldı. O, arvadını yanında əlitüfəngli gördü. Arvad hasarın dibində adam olduğunu pıçıltı ilə ona dedi.

Şükür tez geyindi, tüfəngi götürüb, evin tinində gizləndi. Yarısı çəpərin dalından görünən bandit də tüfəngli idi.

Şükür soruşdu:

– Kimsən, nə istəyirsən?

Bandit boğuq səslə cavab verdi:

– Hər kiməmsə, sənə evə qayıtmağı məsləhət görürəm, yoxsa öldürüləcəksən.

Bu. təhqir idi.

– Mən sənin evində deyiləm, sən mənim evimdəsən. Nə qədər sağam, qoymaram ağulumdan bir buzov da çıxarsınlar. Ağlını başına yığ, sağ-salamat buradan çıx get.

– Mən buzov oğurluğuna gəlməmişəm. Mən səni, kommunisti öldürəcəyəm! Sən də qardaşın kimi öləcəksən!

Banditin gülləsi yayındı. Şükürün gülləsi hədəfə dəydi, bandit yerə sərildi.



Şükür bir qədər gözlədi; sonra ehtiyatla çəpəri aşıb, ölmüş alçağın başının üstə dayandı. Arvadı ağlaya-ağlaya yaxınlaşdı: o qan intiqamından qorxurdu. Ölən kimdir?

– Kərbəlayı Xəlil bəyin oğludur!

– Oy, daş başımıza! İndi bizim hamımızı öldürəcəklər...

– Arvad, indi qışqırmaq vaxtı deyil. Get uşaqları oyat. Yüngül şeyləri fərməşə yığ. Bu saat atı və öküzü çıxarım, şeyləri yükləyək, uşaqları da üstünə mindirək, çıxaq burdan gedək.

– Hara gedəcəyik? Qaçıb onların əlindən qurtarmaq olar?

– Dığa gedərik. Orada, erməni kəndində, bizi tapmazlar.

Güllə səsi dərələri aşıb Xoşgədik kəndinə də çatdı. Öldürülmüş bandit bu kənddə yaşayırdı...

Kərbəlayı Xəlil bəy bərk təşviş içində idi. O bilirdi ki, oğlu Həkəri tərəflərə getdi, oralarda kimi isə öldürmək istəyirdi. Bəy özünün iki böyük oğlunu və qardaşı Məşədi Nurulla bəyi, onun oğlanlarını oyatdı. Onların altısı da kəndin ortasında dayandılar. Kərbəlayı Xəlil bəy bütün silahlı kəndliləri çağırdı və Həkəridəki atışmadan əliyanlıları xəbərdar etmək üçün çapar göndərdi.

Həkəridə güllə səsinə və qadınların qışqırtısına kəndlilər evdən çıxdılar. Şükürün bütün yaxın qohumları işin nə yerdə olduğunu bilcək dinməzcə evlərinə qayıdır, onun kimi tələsik qaçmağa hazırlaşırdılar.

Silahlı kəndlilər kəndin ətrafında səngərə girdilər. Xoşgədiklilər gələndə ailələr və mal-qara təhlükəsiz yerə çıxana kimi atışacaqdılar. Bir gecənin içində bütün kəndlilər öz kəndlərini tərk edib, qonşu Dığ, Xınzirək, Gornidzor və s. kəndlərə köçdülər.

Əliyanlılar başda Kərbəlayı Xəlil olmaqla gecə ikən Həkəriyə gəldilər. Səngərə girmiş kəndlilər onlara təklif etdilər ki, geri qayıtsınlar, yoxsa axırı pis olacaq.

Bəy cavab verdi:

– Hanı oğlum! Qoy o çıxsın, onda biz geri qayıdarıq!

– Sizin oğlunuz bura gəlməyib!

– Bəs gecə o atışma nə idi?!

– Bilmirik, bizdən uzaqlarda atışırdılar. Görünür, yol keçənlər imiş. Yollarda azmı adam veyillənir...

– Bəs nə üçün bura gəlibsiniz?

Əliyanlılar sevinirlər: aha, tələyə düşüblər! Lakin həkərililər çox sakit idilər.

– Biz də atışma səsinə çıxmışıq.

– Onda biz sizə qonaq gəlmişik.

Həkərililər bunu gözləmirdilər. Bilmədilər, nə desinlər. Nəhayət, onlardan biri dedi:

– Sizin oğlunuzu, Kərbəlayı Xəlil bəy, gecə görüblər. O yolla Malxələf tərəfə gedirmiş.

İndi oğlunun Həkəridə öldürüldüyünə Kərbəlayı Xəlilin şübhəsi qalmadı. Səngərə girənlərə birinci o atəş açdı, ondan sonra o biriləri.

Lakin cavab atəşi o qədər güclü oldu ki, onlar bir addım irəli gedə bilmədilər. İş belə olduqda Məşədi Nurulla bəy oğulları ilə həkərililərin atəş açdığı təpənin arxasına keçdi və arxadan vurmağa başladı. Tezliklə həkərililər bir neçə yaralılarını da götürüb kənddən çıxdılar. Kənddə heç kəs qalmadı: nə adam, nə də mal-qara. Kəndə qəbir sükutu çökdü. Hətta itlər də hürmürdü: onlar da öz sahibləri ilə getmişdilər.

Səhər xoşgədiklilər bütün Həkəri kəndini tutdular, öküzlərini gətirib, xırmanda taxıl döyməyə başladılar.

Dığ kəndində bir neçə adam karvansarayın yanına yığışıb, diqqətlə uzağa baxırdı. Bunlar Martiros Baratyan, Sergey Barxudaryan, Ayrapet Marutyan, Nikolay Barxudaryan, Avetis Eyvazyan, Aslan Papalunyan idi. Lap uzaqda, aşağıda Cicimli dərəsindən sanki qara bir lent uzanırdı. Uzaqdan bunun adam, mal-qara, yaxud da elə hər ikisi olduğunu seçmək olmurdu...

Əlində durbin olan alçaq boylu cavan bir oğlan onlara yaxınlaşdı... Onun iti çənəsi, enli üzü, sərçə kimi balaca, lakin ceyran gözü kimi mehriban gözləri var idi. O, əyninə hərbi pencək, qalife şalvar



geymişdi, hündür dabanlı uzunboğaz çəkməsi onun boyunu bir qədər uca göstərirdi, başında yan qoyulmuş şapka vardı. Sağ çiynindən taxta qoburlu onatılan tapança asmışdı.

Martiros Baratyan mauzerli gəncdən xahiş etdi ki, baxıb görsün Cicimli dərəsi ilə gələn kimlərdir? Bu şux gənc Zəngəzurun görkəmli kommunisti Avanes Akopyan idi. O, durbinlə baxdı və bir dəqiqədən sonra dedi ki: uzaqda aşağıda adamlar mal-qara ilə Dığ kəndinə tərəf gəlirlər.

Bu adamlar kim ola bilərdi? Akopyan təklif etdi ki, cığır daş yola çıxan yerdə həmin adamları qarşılasınlar. Belə də etdilər.

Bu adamlar öz mal-qarası ilə hara isə çıxıb gedən həkərili tanışlarını görəndə təəccüb qaldılar. Arvadların üzləri cırılmışdı, uşaqların göz yaşları hələ qurumamışdı, yorulub əldən düşmüş kişilər məyus və qaşqabaqlı idilər.

– Şükür, nə olub?

– Heç soruşma, yoldaş Avanes, dərdimiz böyükdür!..

Dığlılar keçən gecə baş vermiş hadisəni məyus-məyus dinlədilər. Onlar axırda dedilər:

– Olan olub, keçən keçib... Bizim kəndə düşün. Bir müddət qalarsınız, sonra görək axırı necə olur... O banditlər bura burunlarını soxmağa cürət edə bilməzlər... Bir il olmaz ki, biz daşnaqların əlindən qurtarmışıq, indi də bu müftəxorlar sizə əziyyət verirlər.

Həkərililərin çoxunu burada dostları vardı: Gevork Qalustyan, Arustam Şequns, Aqa Şequns, Asrat Asratyan, Semyon Surnuverans və başqaları... Şükürgil burda qaldılar. Bir hissəsi isə Gornidzorda və Xınzirəkdə dostlarının evinə düşdü.

Bir neçə gündən sonra Şükürə qohumluğu çatmayan həkərililər öz evlərinə qayıtdılar. Əlbəttə, əliyanlılar onları qoyub getdikləri evlərinə buraxmadılar, ancaq çayın sağ tərəfinə düşmələrinə mane olmadılar. Yazıq həkərililər nazik çubuq alaçıqların üstünə palaz çəkib, özlərini burada qızmar günəşdən qoruyurdular.

Əliyanlılar onların gözünün qabağında taxıllarını daşıyıb,

xırmanlarında döyürdülər.

Qəza icraiyyə komitəsinin sədri mən və AK(b)P qəza komitəsinin katibi Abbas Sultanov təzə qaçqınları belə acınacaqlı bir vəziyyətdə gördük. Biz həmin pis əhvalatı eşidib bura gəlmişik. Qadınların ahnaləsi, uşaqların hıçqırtısı, kişilərin məyus görkəmi...

Xoşgədiklilər tutduqları kəndi qaytarmaq istəmirdilər. Kərbəlayı Xəlil bəy və Məşədi Nurulla bəy bizimlə danışan zaman bildirdilər ki, buradan heç yerə getməyəcəklər, qatili və onun qohumlarını öldürməmiş sakitləşməyəcəklər.

Kərbəlayı Xəlil bəy dedi:

– Tək qatil deyil, onun qohumlarından da bir adamı sağ qoymayacağıq!

Biz, bu özlərindən çıxmış quldurların başına ağıl qoymaq istədik:

– Axı onların heç bir günahı yoxdur. Əgər gecə bir adam həyətinizə gəlib, sizə güllə atsa, siz onu öldürməzsiniz?

Kərbəlayı Xəlil bəy həyasız-həyasız dedi:

– Biz öldürsək də, kəndimizdən qaçmazdıq, özümüzü müdafiə edərdik. Hər adam gərək öz gücünü bilsin!

– İş ki, belə oldu, onda biz də Sovet hökumətinin nümayəndəsi kimi qəzada əmin-amanlıq yaratmaq üçün müəyyən tədbir görməyə bilmərik! – deyə biz bu qan tökməyə hazırlaşan intiqamçılara bildirdik.

Nəhayət, Xəlil bəy ağzından qaçırdı:

– Biz tək deyilik! Bizim arxamızda Sultan bəy və İskəndər bəy Sultanovlar dayanıblar!

Mən o zaman Qubadlı qəzasında baş vermiş iki böyük hadisəni qısaca təsvir etdim. Milis orqanlarında, Dövlət təhlükəsizlik orqanında, nəhayət, Səfiyan dairə icraiyyə komitəsinin sədri, yaxşı bir kommunist Aslan Əsadovun böyük kitabında, əliyanlı qaçaqların törətdiyi çoxlu soyğunçuluq, ölüm hadisələri qeyd edilmişdir.

Əliyanlı banditləri ilə mübarizə məsələsi dəfələrlə qəza icraiyyə komitəsinin və AK(b)P Qəza komitəsinin Rəyasət Heyətində müzakirə edilmişdi. Hər bir hadisə yerinə nəinki tək qəza milis rəisi, qəza siyasi



bürosunun rəisi (o zaman Dövlət təhlükəsizlik orqanı belə adlanırdı), hətta qəza partiya komitəsinin və icraiyyə komitəsinin rəhbərləri də dəfələrlə gedirdilər. Lakin hər dəfə qatillər və quldurlar dəstə ilə dağlarda, meşələrdə gizlənir, çox kəndlərdə isə, sadəcə olaraq, qocalar onları gizlədirdilər.

1922-ci ilin yanvar ayında qəza partiya komitəsinin katibi Abbas Sultanov AK(b)P MK-ya yazmışdı:

"AK(b)P MK-ya bildirirəm ki, bu ilin yanvar ayının 10-dan Həkəri çayının sol tərəfində Balı Sultanlı kəndindən Üçtəpə kəndinə qədər olan yol dinc əhali üçün bağlıdır. Banditlər bu yolu kəsir, ailəsi üçün ərzaq aparan adamları soyurlar. Daha çox ac Kürdüstan[1] əhalisi ziyan çəkir. Onlar axırıncı inəklərini gətirib Birinci Ağalı dairəsində düyüyə dəyişirlər...

...Banditlər nə bədbəxt qadınlara, nə də yetim uşaqlara rəhm eləyirlər, hamısını soyurlar. Soyğunçuluq son həftə daha təhlükəli xarakter almışdır"[2].

Qubadlı qəzasında 1922-ci il sentyabrın 14-dən 23-dək banditizmə qarşı mübarizə barədə baş milis idarəsinin məlumatında bildirilir:

"Qubadlı qəzasının sərhəddində olan Əliyanlı kəndi hökumətə tabe olmur. Qonşu kəndlərin əhalisinə divan tutur, onları söyür, öldürür, heyvanlarını aparır, dinc əhalini daima qorxu altında saxlayırlar"[3].

Həmin il oktyabrın 1-7-nə olan məlumatda əlavə göstərilir:

"Sayı 300 silahlıya çatmış, öz məqsədlərinə çatmaq üçün əlverişli mövqe tutmuş əliyanlı banditlərinin özbaşınalığı qəzada gündən-günə artır"[4].

Son dərəcə təhlükəli Əliyanlı banditlərini ləğv etmək üçün qəzada silahlı qüvvə çatmırdı. Buna görə qəzanın rəhbər orqanları AK(b)

[1] Laçın rayonu nəzərdə tutulur.
[2] Azərbaycan KP MK-nın Partiya Tarixi İnstitutunun partiya arxivi. F. 1, siyahı 125, sax. qov. 498/428, v. 2.
[3] Az. SSR Dövlət arxivi. F. 27, siyahı 5, iş 52, v. 4.
[4] Yenə orada, v. 5.

P MK-ya qəzada vəziyyət barədə müfəssəl məlumat yazıb, kömək göstərməsini xahiş etdi.

Bizə, əlbəttə, kömək etdilər.

1922-ci il oktyabrın 5-də Xanlıqdan Cəbrayıla gedirdik. Yolumuzu dəyişmişdik – Dünyamalı yüzbaşı ilə Keçəl Kazımın dəstəsinin nəzarəti altında olan Gəyən düzündən keçirdik.

Biz dörd nəfər idik: Göyüş Hümbətəliyev, Qulu Əsədov, milis nəfəri Şahmurad və mən. Şahmurad bizi Qarabağ dağ silsiləsinin ətəyi ilə aparırdı. Qaranlıq, çiskinli bir gecə idi. Yaşayış məntəqələrindən aralı, cığır düşməmiş yerlərlə gedirdik.

Mən Cəbrayılda Qaryagin qəzasının rəhbərləri və xüsusi dəstə komandiri ilə görüşməli idim. Təyin olunmuş vaxtda səhər saat 8-də gəlib çatdıq. Bizi Hüsü Hacıyev qarşıladı. O, AK(b)P Qaryagin qəza komitəsinin katibi idi. Bizi, köhnə iş yoldaşlarını görəndə, həmişə olduğu kimi, çox sevindi. Çox vacib və məsuliyyətli işdə biz bir-birimizə kömək etməli, iki qəzanın dinc əməyini soyğunçu-banditlərdən qorumalı idik.

Hüsünün kabinetində kiçik, operativ bir müşavirə oldu. Qaryagin qəza icraiyyə komitəsinin sədri Məmmədxan Məmmədxanov və xüsusi dəstə komandiri Jurba da müşavirədə iştirak edirdi. Hüsü xəbər verdi ki, bizim qəzalarda banditizmin kökünü kəsmək üçün xüsusi dəstə yoldaş S.M.Kirovdan və N.Nərimanovdan tapşırıq almışdır.

Müşavirədə Əliyanlı banditlərini məhv etmək üçün operativ plan hazırladıq. Belə qərara gəldik ki, əliyanlılardan qərbdə biz mövqe tutaq: milislər, silahlı kommunistlər və bitərəf kəndlilər. Bu o demək idi ki, biz Muradxanlı, Haral və Amudux kəndlərində yerləşməliyik. Bizim vəzifəmiz – əsas qüvvələr şərqdən, Qarabağ dağ silsiləsi tərəfindən banditlərin üzərinə hücuma keçəndə onların qabağını kəsmək idi.

Əməliyyat ertəsi günə təyin olundu. Mən həmin gecə qayıtmalı, bütün günü adamları toplamalı və sabah gecə işə başlamalı idim.

Gecə həmin yoldaşlarla, həmin yolla xanlığa qayıtdıq.



Silahlı adamları necə toplayaq ki, banditlər xəbər tutub, müdafiəyə hazırlaşmasınlar, yaxud dəfələrlə olduğu kimi, qaçmasınlar? Adamları xəlvət toplamaq müşkül iş idi. Ona görə şayiə yaydıq ki, Dünyamalı yüzbaşının dəstəsi əleyhinə əməliyyata hazırlaşırıq. Əlbəttə, bu barədə Dünyamalı heç nə bilməyəcəkdi, çünki ora heç kəs getmirdi.

Mən səhərə yaxın birinci dəstə ilə tərpəndim.

Muradxanlı kəndini keçəndə gördük ki, əliyanlılar arxayın, heç nədən şübhələnmədən əkin əkirlər. Yuxarı kənddən zurna-nağara səsi gəlirdi. Əgər orada toydursa və burada əkin əkirlərsə, demək, bizim əməliyyat gizli qalıbdır...

İrəli getdik. Maraqlanıb soruşanlara cavab verirdim ki, respublika rəhbərlərindən biri Ağdama gəlib, onun yanına gedirik, çağırıbdır.

Əliyanlılardan biri soruşdu:

– Xeyir ola?

– Xeyirdir! Bizim rayon yaxşı rayon sayılır! – deyə mən cavab verdim.

Haral kəndinə yaxınlaşıb, yarımühasirəyə aldıq.

Kəndin o biri tərəfi uçurum idi, qaçmaq mümkün deyildi. Yavaş-yavaş irəlilədik, nəhayət, kəndə girdik. Ancaq heç kəsi tapa bilmədik.

Xoşgədik kəndi bura yaxındır. Kərim İsgəndərovu və Qulu Əbdüləzimovu kiçik bir dəstə ilə ora göndərdik. Onlara tapşırdıq ki, xoşgədiklilərə bildirsinlər ki, Əliyanlı banditləri mühasirə olunublar. Yalnız könüllü surətdə bizim dəstəyə gəlməklə canlarını qurtara bilərlər. Belə danışıb qərara gəldik ki, əgər buna razı olsalar, İsgəndərov onları tərksilah edib, mənim sərəncamıma göndərsin. Bizim arxamızca gəlib Muradxanlı kəndini tutmuş Abbas Sultanovla və Amudux kəndini tutmuş dəstə komandiri ilə də belə danışıb razılaşmışdıq...

İsgəndərov Xoşgədiyi mühasirəyə alıb, tələb etdi ki, kəndin bütün silahlı kişiləri yanına gəlsin. Danışıq üçün Kərbəlayı Xəlil bəy və Məşədi Nurulla bəy onun yanına gəldilər. Onlar silahları alınmamaq şərti ilə bizim dəstəyə qoşulmağa razı oldular. İsgəndərov yeddi nəfəri tərksilah edib, yanında saxladı və altı nəfəri silahlı bizim yanımıza

göndərdi. Axırda onların da hamısı tərksilah edildi, pəyəyə salınıb üstlərinə güclü keşikçi dəstəsi qoyuldu. Bəsdir tüğyan etdiyiniz!

Səhəri gün Muradxanlı kəndindən Abbas Sultanovdan təxminən bu məzmunda bir məktub aldım:

"İndi 30 Əliyanlı banditi yanımdadır. Silahlarını və cinayətkarları vermək şərtləri barədə onlarla danışıram. Onlar hələlik özlərini sakit aparırlar. Qorxuram ki, pis bir iş olduğunu bilsələr, vuruşsunlar. Mənim adamım azdır, xahiş edirəm kömək göndərin!"

Səfyan, Məlikpəyə və Həkəri kəndlərindən bizə qoşulmuş 30 nəfər kəndlini o saat Muradxanlıya göndərdik.

Günortaya yaxın məlumat aldıq ki, Deşdahat kəndində əməliyyat zamanı bizim dəstədən bir neçə nəfər, o cümlədən komandirlərdən biri, kommunist Qulam İsmayılov öldürülübdür. Bizə təklif etdilər ki, həmin dəstəyə kömək üçün Deşdahata hərəkət edək. Biz ora tələsirdik, qalın meşədən keçib gedirdik, qabaqcadan kəşfiyyat aparmamışdıq, bir-birimizdən 25 metr aralı hərəkət edirdik. Meşədə heç kəsi tapmadıq. Tez onların dalınca Deşdahata getdik. Kəndi tez tutduq, lakin banditləri tuta bilmədik, onlar öz ailələri ilə meşəyə çəkilmişdilər.

Dəstə komandiri Muradxanlıya yola düşməyi əmr etdi. 30 silahlı kəndli hələ oraya çatmamışdı. Mən qabağa keçdim ki, Abbas Sultanovun yanına çağırdığı Əliyanlılar, kəndlilərin dəstəsini, yaxud bizim dəstəni görüb atəş açmasınlar.

Yolumuz Deşdahat və Başarat tərəfdən gələn iki çayın birləşdiyi yarğanın dibi ilə keçirdi. Bu iki çay çox qədim zamanlardan burada birləşərək cənuba doğru uzanan sıldırım dağların arasından özlərinə yol açmışdı. Burada çayın eni 10 metr, sıldırım yarğanın hündürlüyü isə 100 metrdən artıq olar. Dağın şimal və cənub qolu şərqə burulur və Əliyanlıya gedən yolu tamam kəsir. Onların bütün kəndləri, ətəyi ilə iki çay axan bu iki dağ qolunun arasında idi. Möhkəm təbii istehkam!..

Bu dəfə bizim dəstə yuxarı ilə, baş Qarabağ dağından gedirdi, qaçaqlar heç yerə gedə bilmədilər. Lakin onların çoxu qaçıb dağların



yamacında olan meşələrdə gizlənə bilmişdi.

Muradxanlıya çatıb, Abbas Sultanovun qərargahı yerləşən Cümşüd bəyin evinə getdim.

Abbas Sultanov otaqda buxarının qabağında oturmuşdu. Əliyanlılar isə divar boyu əyləşmişdilər. Hamısının yanında tüfəng var idi. Mən içəri girəndə əliyanlılar ayağa qalxdılar.

– Oturun!

Sakitcə oturdular.

Mən rus dilində Abbas Sultanova dedim:

– Sən çox məharətlə onları toplamısan, bunu hamı bacarmazdı. Ancaq bir halda ki onlar silahlarını və cinayətkarları vermək istəmirlər, – axı, onlar özləri də cimayətkardılar, özləri özlərini necə ələ versinlər?.. Qısası, gəl onları bu saat burdan aparaq. Biz hökumət adından danışırıq, onlar üçün indi mühasirə olduqları vaxt, "hökumət" sözü çox böyük qüvvədir. Bir onlara bax: gör bu "qartallar" indi necə qorxaq qarğaya dönüblər.

Abbas Sultanov soruşdu:

– Səninlə adam gəldimi?

– Əlbəttə! Ev mühasirə edilib. Onlar heç yerə çıxa bilməzlər.

Mən əliyanlılara müraciət edib, bütün vəziyyəti onlara danışdım və əmr etdim ki, tüfənglərini, xəncər-bıçaqlarını təhvil verib, bir-bir otaqdan çıxsınlar.

Abbas Sultanovla yanaşı oturmuş Həsənxan bəy yavaş-yavaş ayağa qalxdı. Ondan sonra o biriləri də qalxdılar. Onlar sınayıcı nəzərlərlə gah Abbas Sultanova, gah da mənə baxır, sifətimizdə azacıq tərəddüd kölgəsi görməyə çalışırdılar. Biz ötkəm-ötkəm gülümsünürdük. Onlar başlarını aşağı salıb, məyus-məyus stola yaxınlaşır, silahlarını onun üstünə qoyur və bir-bir otaqdan çıxırdılar...

Qorxulu və tutulmaz banda bu cür məhv edildi.

Cavad və Qaryagin qəzasının köçəriləri də Zəngəzurun azərbaycanlılar yaşayan hissəsinin maldarları kimi lap qədimdən

yayda Zəngəzurun otu bol yaylaqlarına köçərdilər.

Ancaq 1918-ci ildən köçərilər bu yaylaqlardan məhrum olmuşdular. Müsavatçıların və daşnaqların ağalığı dövründə maldarlardan heç kim Zəngəzur yaylaqlarına qalxmırdı.

1922-ci ildə, bütün Zəngəzurda Sovet hakimiyyəti qurulduqdan sonra köçərilər buraya köçməyə yenidən imkan tapdılar. Mayın ikinci yarısından başlayaraq, köçərilər öz saysız qoyun sürüləri, qaramalları və at ilxıları ilə arasıkəsilmədən əsrlərdən bəri tapdanmış köç yolu ilə üçtəpələrdən və Maldaşdan keçirdilər.

Xeyli müddət idi ki, Zəngəzur qəzasının yollarında tüğyan eləyən bir banda – erməni və azərbaycanlılardan ibarət, kinayə ilə "beynəlmiləlçi" adlandırılan, yaxşı silahlanmış bir quldur dəstəsi – onları yırtıcı heyvan kimi güdürdü. Bu banda tez-tez soyğunçuluq edir, hətta adam öldürməkdən çəkinmirdi.

Uzun müddət bu bandanı məhv etmək mümkün olmadı. Bəzən onlar tutulmaz olurdu. Gecə bir yerdə soyğun baş verirdi, səhər isə bandanın səsi elə uzaq yerdən gəlirdi ki, inanmaq olmurdu.

Bu "qüdrətli" banda ilə yanaşı, Xallava kəndindən olan Kərimin və Xalaç kəndindən olan Lətifin bandası Zəngəzurda tüğyan edirdi. Bu banda əvvəlcə on beş nəfərdən ibarət idi, sonra sürətlə artıb çoxalmışdı.

Bu iki banda iki qəzada normal həyatı tamam pozmuşdu. Hər cür əks-inqilabçı ünsürlər baş qaldırmışdılar. İş o yerə çatmışdı ki, orda-burda qalmış müsavatçı və daşnaq ünsürləri az qalırdılar ki, bizim qəzanın bu və ya digər rəhbərini öldürməyi onlardan tələb etsinlər. Kərimlə Lətifin Bərgüşad dağlarında, Kəpəzin yaxınlığında, meşədə gizlənmiş bandası iki dəfə Qara İlyasovun və mənim üstümə düşmək istəmişdilər. Ancaq baş tutmamışdı. Bir dəfə biz onlar gözlədiyindən bir qədər əvvəl keçib getmişdik, ikinci dəfə isə banditlərin bizi milislər müşayiət etdiyini görüb, atəş açmağa cürət etməmiş, gizlənmişdilər.

Bir qədər keçdikdən sonra Kərimin və Lətifin bandası "beynəlmiləlçi" ilə birləşdi. Necə deyərlər, birləşdilər, ümumi dil tapdılar...



Bir dəfə Qafandan qayıdarkən biz Kəpəzin sıldırım, çılpaq döşündə bir bulaq başında təpədən dırnağadək silahlı iki adama rast gəldik. Onlar dağın təpəsində bizdən yuxarıda dayanmışdılar. Ancaq o qədər yaxın idilər ki, biz onları tanıdıq. İkisi də Əyin kəndindən idi. Birinin adı Əyyub, o birininki isə Fərman idi. Qəzada Sovet hakimiyyəti qurulanadək onların ikisi də ara-sıra soyğunçuluq edirdilər. Ancaq indi başqa dövr idi, onlar adamları soymaqdan əl çəkmişdilər. İndi qəflətən... başımızın üstünü kəsib, tüfəngi bizə tuşlamışdılar. Əyyub və Fərman tələb edirdilər ki, biz silahları yerə tökək. Mən qabaqda idim, arxamca qəza milis rəisinin müavini Əziz Quliyev, bizdən xeyli arxada isə bir neçə atlı milis gəlirdi. Biz bu basqının fitnəkarlıq məqsədilə kim tərəfindən təşkil edildiyini başa düşüb, onlara dedik:

– Əgər yaşamaq istəyirsinizsə, çıxın gedin!

Bu sözləri deyib, atımızı döndərib çıxıb getdik.

Sabahı gün səhər ertə Sultanov iki qardaşı ilə Mac kəndinə Məşədi Tağı bəyin köçünə, mənim yanıma gəldi. Bəyləri dünən gündüz meşədə rast gəldiyimiz qaçaqlar müşayiət edirdi. Mən çox təəccübləndim. Gələnlərin beşi də təpədən dırnağadək silahlı idi. Bu vaxt köçdə məndən başqa kişi yox idi. Hamı sübh tezdən yaylaqdan tarlaya, taxıl yığmağa getmişdi. Qəflətən tökülüb gəlmiş bu adamlar atdan düşəndən sonra Sultanov təkəbbürlə bığını eşərək dedi:

– Eşitdim ki, dünən bu ikisi, – o, Fərmanla Əyyubu göstərdi, – təsadüfən meşədə, bulağın üstündə, sizi tanımayıb dikbaşlıq eləyiblər. Mən buna çox məyus oldum. – Sultanov qollarını açdı və özünü peşman kimi göstərdi. – Allah haqqı, onlar sizi tanımayıblar! O qədər xəcalət çəkirlər ki, bu gün məni dilə tutub, bura gətiriblər ki, yanımda günahlarını boyunlarına alıb, sizdən üzr istəsinlər.

Mən peşman olmuş bu günahkarlara baxdım. Onların heç vecinə də deyildi. Mən Sultanova dedim ki, əgər bu iki nəfər gələcəkdə özlərini sakit aparsalar, onları cəzalandırmaq fikrim yoxdur.

Mən qonaqlarıma yola düşmək və hara getmək istədiyimi dedikdə, Sultanov bildirdi ki, o da öz yoldaşları ilə elə o tərəfə gedir.

Yolda, dağa çıxdığımız zaman, bir sürü mal-qara gördük. Onları sağmağa aparırdılar. On altı yaşlı naxırçı Şükür bizi görüb, mənə dedi ki, bizim indi keçəcəyimiz meşədə on nəfər silahlı adam ağacların dalında gizlənmişdi. "Onlar məndən soruşdular ki, sən Şamsıza getmisən? Mən o saat başa düşdüm ki, onlar səninlə elə-belə maraqlanmırlar. Cavab verdim ki, sən çoxdan Şamsıza gedibsən. O zaman silahlı adamlar ağacların arxasından çıxıb, tələsik Kəpəzə tərəf getdilər".

Şükürün verdiyi xəbər Sultanovu bərk hiddətləndirdi. O, həmin on nəfəri izləməyi mənə təklif etdi. Mən Sultanovun fikrini başa düşdüm. O, qəsdən Lətifin və Kərimin dəstəsini meşədə pusquda qoymuşdu. O əvvəlcə mənə hədə-hərbə gəldi, dedi ki, qəzanın bütün təşkilat rəhbərləri kimi məni də hər vaxt, hər yerdə ölüm gözləyir. Sultanov riyakarlıq eləyirdi. Banditləri izləməyi təklif etməklə məni inandırmaq istəyirdi ki, onları məhv etməyə həmişə hazırdır. Mən özümü elə göstərirdim ki, guya ona inanıram. "İzləmək", gözlənildiyi kimi, heç bir nəticə vermədi. Biz Sultanovla sakitliklə ayrıldıq.

Ertəsi gün Zəngəzurdan gəlmiş məsul milis işçisi Makar Aqababov bizə xəbər verdi ki, Sultanovun və onun bəzi dostlarının "beynəlmiləlçi" banda ilə əlaqəsi var. Bu banda öz qarşısına yalnız soyğunçuluq deyil, mahalın rəhbər işçilərini cismən məhv etməyi də məqsəd qoymuşdu. Həm də bunu elə təşkil edirdilər ki, özləri sudan quru çıxır, heç kim, heç vaxt onları cinayət üstdə tuta bilmirdi...

Milis işçilərinin çox hissəsi, indi haqqında söhbət açdığımız günlərdə, Arazı keçib İrandan gəlmiş böyük bir bandanı Susan meşələrində izləməklə məşğul idi. Həmin əməliyyat zamanı qəza milis rəisi və bir neçə milis yaralanmışdı. Ancaq banda da məhv edilmiş, mal-qaranı qovub İrana apara bilməmişdi.

Fəhlə-kəndli balalarından ibarət milis heç nədən çəkinmədən qəzada Sovet hakimiyyətinin möhkəmləndirilməsi uğrunda mərdliklə, şücaətlə mübarizə aparırdı. Milisin Sovet hökumətinə necə sədaqətli



olduğunu göstərən hadisələr içərisində aşağıdakı əhvalat çox parlaq sübutdur.

1920-ci ilin yayında Zəngilan dairə milis rəisi Cəbrayıl Şirin oğlu zəngilanlı qaniçən Teymur bəy Cavanşirovu həbs edib Bakıya göndərdi. Bunun intiqamını almaq üçün Zəngilan bəyləri Cəbrayılı öldürmək üçün Qaradağ banditi Təhməzi dilə tuturlar. Bir dəfə mal-qara qovub apararkən Təhməz bir təpənin arxasında gizlənir, bilir ki, Cəbrayıl mütləq oğrunu izləyəcəkdir. O burdan, marıqdan Cəbrayılı vurdu. Bu vaxt Cəbrayılın kiçik qardaşı İbadulla özünü yetirib banditi öldürdü. Ancaq özü də Təhməzin gülləsindən öldü.

Bəzən Sovet hakimiyyəti əleyhinə mübarizə sırf ideoloji forma alırdı. Bununla əlaqədar olaraq, Bəhlul Əfəndinin bizim rayonda apardığı təxribatçılıq barədə xüsusi danışmaq lazımdır. O, panislamizm bayrağı altında sünnilərlə şiələri birləşdirmək istəyirdi. Deyirdilər ki, hətta bir kitab da yazıb, orada sübut etmək istəyir ki, indiyə qədər imam Hüseynə təziyə saxlamayan sünnilər də imam Hüseynə ağlamalıdır.

Həkəri kəndi camaatının Əliyanlı banditlərinin qorxusundan erməni kəndlərinə qaçması da bu vaxt olmuşdu.

Qəzada vəziyyət çox gərgin idi. Biz gecələr yatmır, həmişə atlı gəzir, at belində mürgüləyirdik. Bütün kommunistlər və məsul sovet işçiləri səfərbər edilmişdi. Bandaları ləğv etmək üçün Zəngəzurda hətta xüsusi süvari dəstə düzəldilmişdi. Dəstənin rəisi etibarlı adamlar vasitəsilə müntəzəm olaraq banditlərin planları və yaxın günlərdə necə hərəkət edəcəkləri barədə məlumat alırdı. Bir dəfə rəis xəbər tutdu ki, banda iki dəstəyə bölünüb, Sisyan dağlarında köçərilərə iki yerdə basqın etmək istəyir. Rəis onları izləməyi qərara aldı. Bir gecədə bandit dəstələrinin ikisi də mühasirəyə alındı. Onlar möhkəm müqavimət göstərirdilər, buna baxmayaraq, tamam məhv edildilər. Bu, başqalarına da ibrət oldu.

Bu böyük və təhlükəli bandanın məhv edilməsinə Zəngəzur qəza icraiyyə komitəsinin sədri Artünyan, qəza dövlət təhlükəsizlik idarəsinin rəhbəri Arşakuni və qəza milis idarəsinin rəisi Sailyan

rəhbərlik etmişdilər. Onlar əməliyyatın gedişi haqda bizə müntəzəm məlumat verir, nəinki bütün banda, hətta onun kiçik bir hissəsi bizim qəzaya keçəndə tez bizi xəbərdar edirdilər. Ancaq banda, əsasən, Zəngəzur ərazisində fəaliyyət göstərirdi.

Zəngəzurdakı böyük banda məhv edildikdən sonra köçərilər soyulacaqlarından və öldürüləcəklərindən ehtiyat eləmədən arxayın öz yollarına davam edirdilər. Çoxlu kiçik qaçaq dəstələri də bərk qorxuya düşmüşdülər. Onların çoxu indi milisdən qaçırdılar.

Bəhmən bəy adlı birisinin dəstəsi xeyli müddət Zəngilan rayonunda tüğyan elədi. Bu dəstəni Mincivan və Xurama bəyləri təşkil etmişdi. Burada – İranla sərhəd olan yerlərdə, banditlərin işi yaxşı idi. Çünki o vaxtlar dövlət sərhəddi əməlli-başlı qorunmurdu. İzlənən banditlər asanlıqla İrana keçirdilər. Bu bandanı da məhv etmək lazım idi.

Zəngilana gələn milis dəstəsi gecəni Mincivanda qaldı. Həmin gecə bəylər Rüstəm bəyin evinə toplaşıb, bizim dəstə Tiri kəndinin yanında Zəngilan çayını keçərkən onu necə mühasirəyə alıb, məhv edəcəklərini müzakirə edirdilər. Bəylər belə qərara gəldilər ki, milis dəstəsi çayı keçərkən Xuramalı Əli bəy Tiri dağı tərəfdən hücum etsin, Rüstəm bəy isə öz dəstəsi ilə arxadan vursun.

Rüstəm bəyin evindəki məclisdə iştirak eləyən bəylərdən biri səhəri bizə xəbər verdi ki, Rüstəm bəy və başqa bəylər milis dəstəsinin silahı ilə öz adamlarını silahlandırıb, qəzada hakimiyyəti ələ keçirmək, bütün kommunistləri və məsul işçiləri öldürmək niyyətindədirlər. Lakin gecə bəylər razılığa gələ bilmədilər. Çünki bəylərin biri dedi ki, bu plan onun xoşuna gəlmir və o bu plan barədə milis dəstəsinə qabaqcadan xəbər verəcəkdir. Həmin gecə bəylər milis dəstəsinə hücum etmək haqqında heç bir qərar qəbul etmədən dağılışırlar.

Səhər bizim dəstə istiqamətini dəyişmədən Tiri tərəfə hərəkət etdi. Yolda heç kəsə rast gəlmədən biz Ağoyux düzünə çıxdıq. Bir qədər gedib Xurama kəndinə çatdıq. Gecə Rüstəm bəyin evində olmuş Əli bəyi burada tapdıq.

Biz ona dedik:



– Bizə xəbər veriblər ki, siz gecə Rüstəm bəygildə olubsunuz. Bu doğrudurmu?

Əli bəy turp kimi qızardı. Biz sözümüzə davam etdik:

– Biz bu gün qəsdən bura gəlmişik. İstəyirik sizə deyək ki, bu saat həbs edə bilərik. Ancaq biz bunu etmək istəmirik. Bizim məqsədimiz – sovet adamlarına yaşamaq və işləmək üçün şərait yaratmaqdır. Əgər biz bunu müqavimətsiz eləyə bilsək, çox yaxşı! Yox, əgər birisi bu işdə bizə mane olmaq istəsə, sovet qanunları ilə dərhal cəzasını alacaqdır.

Ertəsi gün səhər dəstə Keçikli kəndi yaxınlığındakı talanı mühasirəyə aldı. Bəhmən bəy başda olmaqla banditlər burada, köçdə gecələmişdilər. Onlar 12-15 nəfər idilər. Qadınlara və uşaqlara bir xəta toxundurmamaq üçün banditlərin gecələdikləri alaçıqlara güllə atmadıq. Onlar bundan istifadə edərək, bir-bir Zəngilan milisi dayanmış meşəli dərəyə çəkildilər. Milislər qaçan banditlərə atəş açdı. Burada böyük bir səhvə yol verdik. Milislərin bir hissəsi öz adamlarını vurmamaq üçün və meşəli dərədən banditlərin onsuz da çıxa bilməyəcəklərini güman edərək atəş açmadılar. Milislərin arasında elə adamlar da vardı ki, gələcəkdə qan intiqamından qorxaraq, banditlərə deyil, hara gəldi atəş açırdılar.

Bu müvəffəqiyyətsiz əməliyyatdan sonra bir müddət Zəngilan ərazisində soyğunçuluq və qətl baş vermədi. Bəhmən bəyin bandası sonralar qəza camaatının yaxından köməyi ilə məhv edildi.

Köhnə vəhşi qan intiqamı çox vaxt inqilabi qanunçuluq uğrunda mübarizəyə mane olurdu, lakin bəzi hallarda köməyi də olurdu. Əməliyyat zamanı əgər bizim aramızda intiqamçı qəbilələrdən bircə adam olsa idi, bizə heç bir banda güllə atmazdı. Belə bir əhvalat oldu: bir dəfə banda yolun qırağında, pusquda dayanıb, bizim rəhbər işçiləri gözləyirmiş. Onlar Aşağı Mollu kəndindən olan Məhəmməd İsaxovu bizimkilərin arasında görüb, onlara atəş açmırlar. Banditlər hamının yaxşı bələd olduğu Mollu tayfaları ilə ömürlük düşmən olacaqlarından qorxmuşdular. Bilirlər ki, onlar bunu əvəzsiz qoymazlar, ona

görə onların tayfasından olan adamın yanında güllə atmamışdılar. Banditlər dəfələrlə İsaxova xəbərdarlıq etmişdilər ki, o, sovet işçiləri ilə gəzməsin. Lakin İsaxov bu xəbərdarlığa fikir vermir və beləliklə də, banditizm əleyhinə mübarizədə milis işçilərinə kömək edirdi.

Tezliklə bizim və bizə qonşu bütün qəzalarda banditlər məhv və tərksilah edildi. Əvvəllər onların müvəffəqiyyətinə sevinən və bizə meydan oxuyan adamlar indi milisi uzaqdan görəndə ikiqat olurdular.

Bu cür əhvalatlardan danışmağa daha ehtiyac yoxdur. Təsvir etdiyim əhvalatlar Sovet hakimiyyətinin ilk illərində uzaq Qubadlı qəzasında banditizmə qarşı necə gərgin, çətin və təhlükəli mübarizə apardığımızı aydın göstərir.



*ALTINCI FƏSİL*

## ÇƏYİRTKƏ

Respublikada xalq təsərrüfatını bərpa etmək uğrunda hamılıqla, inadlı mübarizə başlamışdı. Azərbaycan neft sənayesini bərpa etmək sahəsində Bakı neftçilərinin əldə etdikləri ilk müvəffəqiyyətlər beynəlxalq imperializmin və onların agentlərinin Bakı neft mədənlərini xarici kossesiyaların əlinə vermək ümidlərini kəsdi. Fəhlə və mühəndislərin fədakar, inadlı əməyi sayəsində neft sənayesi texniki cəhətdən yenidən kökündən quruldu: jelonka – dərinlik nasosu ilə, zərbə ilə qazmaq isə - rotorla əvəz edildi. Kənd təsərrüfatında əkin sahəsi ildən-ilə artırdı, taxılın və pambığın məhsuldarlığı çoxalırdı.

Bütün Azərbaycanda olduğu kimi, Qubadlı qəzasında da mülkədar torpaqları müsadirə edilib, torpaqsız və aztorpaqlı kəndlilər arasında bölüşdürülürdü. Qəza icraiyyə Komitəsinin Torpaq şöbəsi torpaq bölməklə məşğul idi. Aşağı Həmzəli kəndindən olan kommunist İsmayıl Hacı Həsən oğlu Hacıyev bu işi yaxşı görürdü. Qəzada uçub dağılmış evlər bərpa olunurdu. Demək olar ki, bütün kəndlilərin sığınacağı vardı. 1921-ci ildə də ondan əvvəlki 20-ci il kimi, respublikada yaxşı taxıl toplanmışdı.

Torpaqsız və aztorpaqlı kəndlilər Sovet hakimiyyətinin onlara verdiyi torpaqda əla məhsul yetişdirib ruhlanırdılar. Nəinki yoxsul kəndlilər, hətta ortabablar da özlərini sovet hökumətinə borclu bilirdilər. Çünki o, Azərbaycan kəndlisini quldur, millətçi partiyaların düçar etdikləri ölümdən qurtarmışdı. Respublikada kəndlilərin əsas hissəsi sovetlərin tərəfinə, yeni həyat qurmaq yoluna keçmişdilər.

Sovet hakimiyyətinin bu müvəffəqiyyətləri əks inqilabi qüvvələri hiddətləndirirdi. Xalq təsərrüfatında hər dəfə yeni müvəffəqiyyət qazanılanda onlar aranı qarışdırır, müxtəlif böhtanlar, şayiələr yayırdılar.

1922-ci ilin yazında Azərbaycanın aran rayonlarına çəyirtkə gəldi.

Düşmənlər sevinir, şənlik edir, bu fəlakətdən sovet hökuməti əleyhinə istifadə etməyə çalışırdılar. Ruhanilər hər yerdə şayiə yayırdılar ki, Allah çəyirtkəni allahsız bolşeviklərə bəla göndəribdir. Onlar kəndin, obanın camaatına məsləhət görürdülər ki, gələcəkdə, daha dəhşətli fəlakətdən, ilanların hücumundan yaxa qurtarmaq üçün sovet hökumətindən üz döndərsinlər.

Əks-inqilab torpaq idarələrinin çəyirtkə ilə apardığı mübarizəni pozmağa, aclıq salıb kəndliləri sovet hökumətindən narazı salmağa çalışırdı. Əlbəttə, siyasi düşmənlər buna nail ola bilmədilər. Sovet hökumətinin gördüyü tədbirlər sayəsində respublikada əkinlərin tamam məhv olmasının qarşısı alındı.

1922-ci ilin may ayı idi. Bizim qəza təşkilatlarının yerləşdiyi Xanlıq kəndində xoş, günəşli bir gün idi. Kəndin bütün evləri yaşıllıq içərisində itmişdi. Üstü ağ və çəhrayı çiçəklə dolu meyvə bağlarına tamaşa etdikcə, adamın gözləri dincəlirdi.

Qaranquşlar evlərin damında özlərinə yuva tikmişdi, tezliklə bala çıxaracaqdılar. Leyləklər uzun, üçkünc qanadlarını yelləyə-yelləyə bu ağacdan o ağaca uçur, söyüd, çinar və qarağac ağaclarına qonurdular. Qıjov Həkəri çayı bülbüllərin, bildirçinlərin, torağayların səsini batırırdı. Kəndlilər hərdənbir gələcək məhsulu xəyalən gözləri qabağına gətirərək, bellərini düzəltmədən işləyirdilər. Onların çoxusu şalvarlarını çirməyib, bütün günü dizə qədər suyun içində ləklərdə çəltik əkirdi. Arvadlar şirin söhbət eləyə-eləyə ərlərinə tarlaya yemək aparırdı. Bir neçə kəndli arvadı Həkəri çayının lilli suyunda xalça-palaz yuyur və toqqaçla çırpırdılar.

Azad nəfəs alan kəndlilər fərəhlə dinc həyata girişmişdilər.

Belə aydın bahar günlərinin birində biz qəza təşkilatında dəhşətli bir xəbər aldıq. Gəyən düzü ilə bizim qəzaya tərəf yolda qabağına çıxan hər şeyi məhv eləyən çəyirtkə gəlir!

Kəndli üçün bundan dəhşətli fəlakət yoxdur! Hər şeydən əvvəl, adamın ağlına hamının göz dikdiyi bol məhsulun batacağı gəlir! Acından üzülmüş, əldən düşmüş, şişmiş uşaqlar və qadınlar gəlib



gözünün qabağında durur. Elə bil günəşli, aydın gündə, bir an içərisində bütün göy üzünü zülmət kimi bir qaranlıq bürüyür...

Abbas Sultanovla Gəyənə getdik. Gözümüzün qabağında müdhiş bir mənzərə açıldı: uzunluğu iyirmi kilometr, eni beş kilometr bir sahədə xışıltı sala-sala, dalğalana-dalğalana sel kimi çəyirtkə irəliləyirdi. Bu sahədə torpağın üstünü sürətlə irəliləyən iri çəyirtkələr örtmüşdü. Bu irəliləyən, daha doğrusu, çay kimi axan kütləyə ancaq bircə an baxmaq olardı. Əgər bir az çox baxsan, sənə elə gəlir ki, özün də bu çəyirtkə seli ilə birlikdə irəliləyirsən...

Sabahı bütün qonşu və ətraf kəndlərin kişiləri, arvadları, yeniyetmələri əllərində süpürgə, yaba, dırmıq çöldə çəyirtkə qırırdılar. Axşamüstü gərgin işdən üzülüb əldən düşmüş yorğun, ümidsiz adamlar başları aşağı, qəlblərində ağır kədər evə qayıdırdılar. İndi əvvəlki sevinc və ruh yüksəkliyi yox idi. İndi kəndlilərin üzündə yalnız qüssə, kədər və göz yaşı görmək olurdu.

Səhərə yaxın çəyirtkə artıq Xanlıq kəndinə yaxınlaşırdı. Lakin kəndə çatana kimi bu acgöz həşərat iki böyük enli kanal keçməli idi. Çəyirtkə birinci kanala çatdıqda suya tökülür, bir qədər axdıqdan sonra o biri tərəfə keçirdi. Bu bizim ağlımıza bir şey saldı: kanalların yanında iri çalalar qazmağa başladıq. Alaçıqların çətənlərini söküb, bura gətirdik. Kəndlilər çətənlə kanalın qabağını kəsməyə başladılar. Su ilə axan çəyirtkə gəlib bu çətənlərin qabağına toplaşır, kəndlilər onu vedrə ilə, qazanla, əllərinə keçən hər cür qabla götürüb çalaya tökürdülər. Çala ağzına kimi dolandan sonra isə onun üstünə torpaq töküb basdırırdıq. Torpaq tərpənirdi, ancaq biz üstünə bir qat da torpaq tökürdük, yalnız bundan sonra çəyirtkə məhv olurdu.

Həkəri çayı boyu Əfəndilər kəndindən başlayaraq, çayın aşağısına, Məmmədbəyli kəndinə qədər çəyirtkəni qırmaq üçün belə səmərəli üsuldan istifadə edirdilər.

Birinci kanaldan adlayan çəyirtkələr ikinci kanala tökülür və orada da bu qayda ilə məhv edilirdilər. Kimyəvi dərman və zooloqlar gəlib çıxana qədər, biz bu yolla xeyli çəyirtkə məhv etdik.

Səhərisi Bakıdan bizə köməyə gəlmiş xalq komissarlar sovetinin nümayəndəsi İsrafil İbrahimov (ona "Saqqal" deyirdilər) yeni üsulla nə qədər çəyirtkə qırdığımızı görəndə təəccüb qaldı. Onların gətirdiyi kimyəvi maddələri havada uçan çəyirtkələri qırmaq üçün işlətdilər.

Həkəri çayı boyu kəndlərin camaatının tələsik gördüyü tədbirlər qəzanın başqa kəndlərində vəziyyəti bir az yüngülləşdirdi. İndi onlar yalnız orada-burada toplanıb qalmış və sonra İrandan uçub gələn çəyirtkə dəstələrini qırırdılar. Çəyirtkə qəzanın kənd təsərrüfatına böyük ziyan vurmuşdu. Buna baxmayaraq, biz Qubadlı camaatını aclıqdan qurtara bildik.

Abbas Sultanov o zaman AK(b)P MK-ya yazdığı məlumatda göstərirdi:

"Qanadlanmış çəyirtkələr Qubadlı qəzasının, demək olar, əkin sahəsinin yarısını (40%) məhv etdi. Çəyirtkə fəlakəti kəndliləri ruhdan saldı. Milli qırğının bütün acılığını görmüş Qubadlı camaatı təzəcə öz yuvasına qayıdıb, Sovet quruluşundan bəhrələnməyə başlamışdı ki, bu tərəfdən çəyirtkə onun dərdinin üstünə dərd qoydu. Partiya sayıq idi, hər cür fitnəkarlığa qarşı işgüzar təbliğat aparıb, sübut etdi ki, böyük aqronom biliyinə malikdir. Karıxmış kəndlilərə təklif edildi ki, suvarılan sahələrdə qarğıdalı, lobya və digər bitkilər, suvarılmayan sahələrdə isə darı əksinlər. Kəndlilər məsləhətə baxdılar. Bol yağış yağdığı üçün sözsüz yaxşı məhsul olacaqdır! Beləliklə çəyirtkənin yazlıq əkinə vurduğu ziyanın əvəzi, bəlkə, payızlıq əkində çıxdı"[1].

Azərbaycan Xalq Komissarları Sovetinin təklifi ilə mən Araz çayını keçib, orada çəyirtkəni qırmaq üçün bizim dəstənin İran ərazisinə keçməsi üçün yerli xanla danışmalı idim.

Şərtləşdiyimiz gün mən və məni müşayiət edən işçi bərə ilə Mincivan səmtdən Arazı keçdik və çayın sahilində İran xanı ilə görüşdük.

[1] Azərbaycan KP MK-nın Partiya Tarixi İnstitutunun partiya arxivi, F. 1, siyahı 125, iş 204, v. 4.



Biz yaxınlaşan vaxt o, döşəyin üstə oturub, yastığa dirsəklənmişdi. Döşək göy otun üstə sərilmiş böyük bir xalının üstünə salınmışdı. Molla dizlərini qucaqlayıb xanın qarşısında, lap ayağının yanında oturmuşdu. 70 nəfərə qədər kəndli kənarda durmuşdu. Bunlar keşikçi idimi?

Xan bizi görüb ayağa qalxdı. Biz əynimizə şinel geymiş, üstdən taxta qoburlu mauzer bağlamışdıq. Nəzakətsizlik bilib özümüzlə tüfəng götürməmişdik.

Xanın və mollanın əlini sıxıb, biz burada dayanan kəndlilərin hamısına əl verdik. Onlar çəkinə-çəkinə, kələ-kötür, qabarlı əllərini bizə uzadır, bizim kimi böyük adamların (hər halda xandan böyük adamların, çünki xan bizi görüb ayağa durmuşdu) onlarla bərabər adam kimi görüşməsinə inanmırdılar.

Biz oturduq. Xan da oturdu. Kəndlilər ayaq üstə dayandılar.

Mən onlara müraciətlə dedim:

– Əyləşin!

Kəndlilər bir-birinə baxdılar, sonra gah mənim, gah da xanın üzünə baxdılar. Xan dinmirdi – mənim kəndlilərə "əyləşin" deməyim aşkar onun xoşuna gəlməmişdi.

Mən xana dedim:

– Bizim ölkədə indi qayda belədir: ya hamı oturmalıdır, ya da hamı ayaq üstə dayanmalıdır. Biz bütün adamları bərabər hesab edirik.

O məcbur olub hirslə kəndlilərə dedi:

– Əyləşin!

Mən gəlişimizin məqsədini söylədim:

– Cənab xan! Bizim çəyirtkə qıran dəstələrə icazə verin, sizin ərazinizdə olan çəyirtkəni qırsınlar. O zaman biz Qaradağ camaatını da aclıqdan xilas edərik...

Xan mənə cavab verdi:

– Ağa! Cənab! Çəyirtkə Allahın göndərdiyi bəladır! Heç ağlım kəsmir ki, adamlar onun qarşısını ala bilsin!

– Şəriətdə və Məhəmməd haqqında hadislərdə deyilir ki... – Elə ki

mən "Məhəmməd" adı çəkdim, molla ucadan avazla dedi:

– Allahümmə səlli əla Mühəmməd və ali Mühəmməd!

Bizdən başqa, buraya toplaşan adamların hamısı mollanın dediyini bir ağızdan təkrar elədilər.

Mən təzədən danışmağa başladım, ancaq bayaqkı əhvalat təkrar edilməsin deyə, peyğəmbərin adını çəkmədim:

– Şəriətdə və hadisələrdə deyilir ki, Allah insanlara min bəla və min bir dərman göndərib. Bircə ölümə çarə yoxdur. Belə məlum olur ki, şəriətə görə də hər bir fəlakətə qarşı mübarizə eləmək lazımdır. Çəyirtkəyə qarşı ona görə mübarizə eləmək lazımdır ki, – mən kəndliləri göstərdim, – camaat aclıq çəkməsin. Çəyirtkə ilə necə yaxşı mübarizə aparmağı onlara öyrətmək lazımdır.

Molla cavab verdi:

– Bəli! Siz, cənab, doğru buyurursunuz! Ancaq bunun üçün ağamız Məhərrəm xanın, – Allah onun canını sağ eləsin! – icazəsi lazımdır. O indi Əhərdədir[1].

Molla buradakı xanı nəzərdə tutaraq sözünə davam elədi:

– Kərim xan icazə verər, yazıb Məhərrəm xandan icazə istərik.

Kəndlilərin yanında şəriət məsələlərindən xəbərdar bir adamla mübahisə etmək istəməyən mollanın bicliyini başa düşdüm. Lakin ona etiraz eləmək çətin idi.

Mən sualedici nəzərlərlə xana baxdım. O, başını tərpətməklə, mollanın dediklərini təsdiq etdi. Sonra əlavə etdi:

– Mən Əhərə yazaram və üç gündən sonra sizə xəbər verərəm. – O, Məhərrəm xanın adını çəkmədi. Görünür, kiçik, yoxsul feodalla, böyük, varlı feodal arasında nə isə bir inciklik var idi.

Daha bir iş qalmamışdı. Bununla da danışığı qurtardıq.

Azərbaycanlı və erməni ruhanilərin yaydıqları şayiələrə qarşı mübarizə aparmaq, fəlakətin həqiqi səbəbini və çəyirtkə ilə mübarizə aparmağın üsullarını camaata izah eləmək üçün biz hər bazar günü

[1] Əhər – İranın Qaradağ mahalının mərkəzidir.



Xocahanda və Zəngilanda keçirilən həftəlik bazardan istifadə edirdik. İndi bu sətirləri oxuyan adam nəzərə almalıdır ki, kəndlilər başdan-başa savadsız olduğu üçün bizim o zaman hökumətimizin həyata keçirdiyi tədbirləri mətbuat vasitəsi ilə onlara çatdırmağa imkanımız yox idi. Buna görə qəzanın rəhbər işçilərinin, əksər hallarda isə qəza partiya komitəsi katibinin, yaxud qəza icraiyyə komitəsi sədrinin kəndli bazarlarına toplaşanlar qarşısında çıxış edib, mühüm bir məlumat verməsi, yaxud əks-inqilabçıların yaydıqları fitnəkar bir şayiəni ifşa etməsi adi hadisə idi.

Demək lazımdır ki, bazar meydançasına natiq gələn kimi, xüsusilə qəza komitəsinin, yaxud qəza icraiyyə komitəsinin rəhbər işçiləri gələn kimi kəndlilər məmnuniyyətlə toplaşır və ona diqqətlə qulaq asırdılar.

Mən bir dəfə Zəngilan bazarında stolun üstünə çıxıb nitq deyirdim. Kəndlilər üçün çox mühüm olan bir neçə məsələyə toxunduqdan sonra ruhanilərin fitnəkarlıqlarından danışdım:

– Mollaların dediyi kimi, əgər Allahın qoşunu çəyirtkə və ilandan ibarətdirsə, mən o cür Allahı heç tanımaq istəmirəm! – Bu vaxt gördüm ki, bəzi kəndlilər mənim sözümdən həyəcanlandı. Mən o saat başa düşdüm ki, "heç tanımaq istəmirəm" deməklə böyük səhv etdim. Əgər səhvimi düzəltməsəm, kəndlilərlə söhbət aparmaq mümkün olmayacaq. Ona görə nitqimi elə qurdum ki, "nozən billah bila təşbeh!" – lap yerinə düşdü.

Toplaşanlar sakitləşib diqqətlə məni dinləməyə başladılar.

İyun ayının axırlarında erməni kəndi Kərəvincə çəyirtkə gəlməsi bütün qəzanın kəndlərini həyəcanlandırdı. Hamı elə bilirdi ki, mayın əvvəllərində o səksəkəli günlərdə aparılan mübarizədən sonra bu acgöz həşəratın kökü kəsildi, lakin qəzada təzədən fəlakət başlamışdı.

İyun ayında Kərəvinc kəndində camaat bağda meyvə yığırdı. Əla məhsul yetişmişdi. Uca, nazik budaqlı ağacların üstü qırmızı və ağ şirin gilasla dolu idi. Gilənar da qızarmağa başlamışdı. Ərik ağaclarının təpəsi yerə dəyirdi. Tənəklər qora ilə dolu idi. Üçtəpələr

düzündə arpa-buğda yavaş-yavaş dən tuturdu.

Kəndlilər bu rəngarəng bol məhsulu acgöz həşəratlardan qorumaq üçün əl-ələ verib, çəyirtkəni qırmağa girişdilər. Sahələrin birində tarlada, son dəstə çəyirtkəni çalaya doldurub üstünü torpaqlamış kəndlilərin arasında qoca, dindar kəndli Şamxal Allahverdiyan həyəcanlı nitq söyləyirdi:

– Gecə yuxuda İsa yanıma gəlib dedi, sizə çatdırım ki, bolşeviklərdən üz döndərin. Yoxsa bütün dünya məhv olacaq! İşi buraxın! Çəyirtkənin gəlməsi – Allahın xəbərdarlığıdır! Onsuz da siz onu qırıb qurtara bilməyəcəksiniz! Siz cəhd etdikcə onun sayı daha da çoxalacaq! Bu gün qırdınız – sabah gələcək, yaxud iki gün sonra gələcək. Mütləq gələcək!..

Kəndlilər dərin fikir içərisində dağılışdılar.

Axşam kənd kommunistlərinin iclası oldu. İsanın zühuru məsələsi müzakirə edilirdi. Qərara alındı ki, sabah nahar vaxtı iclas çağırılsın və Allahverdiyan ora dəvət olunsun. O gördüyü yuxunu iclasda danışsın, kommunistlər isə ona layiqincə cavab versinlər. Ancaq iclası çağırmazdan əvvəl bir iş də görmək lazımdı...

...Gecə yarısı Şamxal Allahverdiyanın iti yalnız bircə dəfə hürdü. Qüvvətli əllər bir göz qırpımında bu səs-küylü keşikçinin boğazından yapışıb uçurumdan aşağı tulladı.

Şamxal neft çırağının tutqun işığında antisovet proklamasiyanın ermənicə mətnini bir vərəqə köçürürdü. Onun evi kəndin kənarında idi. Gecənin bu vaxtı buraya yad adam gəlməzdi. Şamxal qapının cırıltısını eşidib başını qaldırdı, içəri girən tanış kəndliləri gördü. O qabağındakı kağızı stolun üstündən götürüb, cibinə soxmaq istədi. Ancaq gec idi. Əzilmiş, yarısı köçürülmüş vərəq artıq kommunistlərin əlində idi.

Sabahı kəndlilərin iclasında kommunistlər Allahverdiyanın evindəki əhvalatı danışdılar və fitnəkarlıq vərəqini oxudular. Allahverdiyanın özü də iclasda idi. O, kəndlilərdən bağışlanmasını xahiş etdi. Dedi ki, onu yoldan çıxarıblar.



İclasda iştirak eləyənlər ucadan gülə-gülə ondan soruşdular:

– Sən İsanı yuxuda görmüşdün?

– Mən heç kəsi yuxuda görməmişəm...

– Bəs "İsanın gəlməsini" uydurmağa və Sovet hökuməti haqqında bu cür iftiraları yazmağa səni kim məcbur edirdi?

Kəndin kommunistləri Şamxalı əhvalatı olduğu kimi danışmağa məcbur etdilər. Demə, çəyirtkənin gəlməsindən xeyli əvvəl qonşu kilsənin keşişi Qaragin Simonyan bir neçə dəfə onun yanına gəlib, danışıb ki, mütləq bolşeviklərdən üz döndərmək lazımdır, yoxsa Allah kəndə, bütün qəzaya böyük bəlalar göndərəcəkdir. İki gün bundan qabaq Simonyan onu çağırıb tapşırıb ki, guya İsanı yuxuda gördüyünü hamıya danışsın...

Beləliklə, antisovet böhtan yayanlar bir kəndin kommunistləri tərəfindən ifşa edildilər.

Həmin günlər Zəngəzurun başqa bir kəndində, Xınzirəkdə, qoca qarı Mariya Xandasyan kəndliləri dilə tuturdu ki, hər ev bir öküz qurban kəssin. Əgər onun dediyi edilsə, təkcə Xınzirək kəndində 70-dən çoxöküz kəsilməli idi.

Başqa bir qoca arvad Dığ kəndində şayiə yayırdı ki, Gornidzor tarlalarında bədəni adam, başı ilan olan bir nəhəng peyda olub. O deyib ki, çəyirtkə əkini məhv etdikdən sonra, həmin əjdaha yaxın kəndlərin camaatından adam əti istəyəcək... Dığ kəndinin dindar adamları bütün bu uydurmalardan bərk qorxuya düşərək, gecə dörd cərgə düzülüb, dizi üstə kilsənin başına dolanır, Allaha yalvarırdılar ki, günahlarından keçsin.

Çox kəndlərdə Sovet hökumətinin düşmənlərinə xidmət edən mollalar və keşişlər öz agentləri vasitəsi ilə fitnəkar şayiələr yayır, bununla sovet adamlarının üz vermiş fəlakətlə – İrandan gəlmiş çəyirtkə ilə mübarizə aparmasına mane olmaq istəyirdilər.

## BƏHLUL ƏFƏNDİ BEHCƏTİN FİTNƏSİ

Qızıl Ordu hissələri 1920-ci ilin noyabr ayında Zəngəzurdan gedəndən sonra bəylər və ruhanilər burada xeyli silahlı qüvvə saxlamış daşnaqların köməyi ilə hüquqlarının qaytarılacağına ümid edirdilər.

Hər vasitə ilə xüsusi mülkiyyətini əlində saxlamaq, kimin köməyi ilə olursa-olsun torpağını qaytarmaq, hüququnu bərpa eləmək lazımdır! Bəylər fikirləşirdilər ki: "Daşnaqlar varlıların mülkiyyətini müdafiə edir. Daşnaq hökuməti üzvlərinin çoxu müsadirə olunmuş kəndli torpaqlarını əllərinə keçirərək özləri iri mülkədar olmuşlar. Mülkədar mülkədara mane olmaz". Beləliklə, nəinki daşnaqlar, hətta müsavatçılar da bir-biri ilə ittifaqa girirdilər.

1921-ci il iyun ayının 5-6-da Gorusda Sovet hakimiyyətinin qurulmasından iyirmi altı gün qabaq, Ağalı kəndindən Həmzə bəy[1], Xurama kəndindən isə Əli bəy daşnaq partiyasının başçısı Vratsyan tərəfindən qəbul edilmişdi. O zaman Hacısamlı Sultan bəy Sultanov şərtləşdikləri gün general Njde ilə görüşmək üçün köhnə Gorus kəndinə getməyə çalışırdı. Lakin yolda Pəriçınqıl adlanan yerdə Ocaqqulu Musayevin partizan dəstəsi ilə toqquşaraq, Sultan bəy geri qayıtmağa məcbur olmuşdu. Daşnaqlar tələsik Sovet hökuməti əleyhinə müsavatçılarla hərbi ittifaq bağladıqlarını elan etdilər. Lakin bu ittifaq sabun köpüyü kimi dağıldı. Müsavatçılar onlara kömək etmək üçün toplaşanadək daşnaqlar məhv edildi.

Zəngəzurda daşnaqların bütün fırıldaqları boşa çıxdıqdan sonra müsavatçılar onlarla əlbir olub, Sovet hakimiyyəti əleyhinə banditizm formasında fəaliyyətə başladılar. Lakin onları bu işdə də bir ümidsizlik gözləyirdi. Sovet hökumətinin qəti tədbiri nəticəsində burjua

[1] Həmzə bəy 3-4 pud gümüşü İrana keçirərkən Sovet hakimiyyəti orqanları tərəfindən tutulmuşdu.



millətçilərinin bandası tamamilə ləğv olundu. İrandan uçub gəlmiş çəyirtkələr barədə hər iki millətin ruhanilərinin düzəltdikləri murdar hoqqalar da puça çıxdı.

Yeni iqtisadi siyasəti, əsasən mal dövriyyəsinin inkişaf etdirilməsi kəndlilərin təsərrüfata maraqını artırmışdı. Bu da kənd təsərrüfatının yüksəldilməsinə səbəb oldu.

Artıq 1922-ci ildə Azərbaycanda yeni iqtisadi siyasətin təsərrüfata müsbət təsiri hiss olunurdu. Əkin müvəffəqiyyətlə keçdi, camaata çox əmtəə malları satılmağa başlandı. Bizim Qubadlı qəzasına yaxın şəhərlərdə – Gorusda, Şuşada, Cəbrayılda ticarət inkişaf etdi. Bir qədər keçdikdən sonra Xocahanda, Zəngilanda, Xanlıqda dükanlar açıldı. Hər yerdə həftəlik bazarlarda açıq alver gedirdi.

Sinqilabçılar təsərrüfatda olan bütün bu dəyişiklikləri özləri istədikləri kimi yazaraq, bu qərara gəlirdilər ki, yeni iqtisadi siyasət – Oktyabr inqilabının nailiyyətlərindən əl çəkmək, kapitalizmə qayıtmaq Sovet hökumətinin məhvi deməkdir. Hətta bəzi keçmiş mülkədarlar bu qərara gəlmişdilər ki, qabaqkı mülkləri sovet hökumətindən tələb eləməyin vaxtı çatmışdır. Məsələn, keçmiş mülkədar Şuşadan Məhrizli kəndinə gəlib, kənd Sovetinə bildirmişdi ki, kəndlilər keçən bir neçə ilin töycüsünü verməlidirlər. Bir çox bəylər torpaqlarını geri ala bilməyib, tələb edirdilər ki, xırda müəssisə kimi, heç olmasa, dəyirmanlarını onlara qaytarsınlar. O zaman yeni iqtisadi siyasətə görə keçmiş sahibkarların bəzi xırda müəssisələri özlərinə qaytarılırdı.

Ancaq yeni iqtisadi siyasətin məqsədi sosialist təsərrüfatı üsulunun kapitalizm üzərində qələbəsindən başqa bir şey deyildi. Sovet hökuməti iqtisadiyyatın ən vacib sahəsi olan – torpağı, iri sənayeni, bankları, nəqliyyatı, daxili və xarici ticarəti öz əlində saxlayaraq, bununla xüsusi capital üzərində gələcək qələbəni təmin edirdi.

"Biz bir il geri çəkildik. İndi biz partiya adından deməliyik: – bəsdir!"[1].

[1] V.İ.Lenin. Əsərləri, IV nəşri, 33-cü cild, səh. 283.

Əks-inqilab kapitalizmdən əlini tamam üzdü. Qəzəbdən başlarını itirmiş mülkədarlar Zəngəzurda Bəhlul Əfəndi Bəhcətin əli ilə Sovet hökumətinin əleyhinə çıxmaq qərarına gəldilər. Əhalini başlarına yığa bilmək üçün onlar bu fitnəyə dini don geydirdilər, adını cihad qoydular.

Mən Bəhlul Əfəndini ilk dəfə 1918-ci ilin sonlarında Dəmirçilər kəndində görmüşdüm. O, orada müsavatın hansı bir cəmiyyətinə isə nümayəndələr seçilməsinə rəhbərlik edirdi. Seçkiyə hər kənd icmasından 10-15 adam çağırılmışdı. Bəhlul Əfəndi nəzərdə tutulmuş nümayəndələrin namizədliyini elan etdi və təklif elədi ki, nümayəndələr ayrılıqda müzakirə edilsin, axırda yekun vurulsun və kimin seçildiyi elan olsun. Mən seçkini demokratikləşdirmək üçün təklif elədim ki, namizədlər elə burada, bütün icmaların nümayəndələrinin yığıncağında müzakirə edilsin. Bu, Bəhlul Əfəndinin xoşuna gəlmədi. O hirsli-hirsli mənə baxıb dedi:

– Siz, oğlum, çox cavansınız, belə şeyləri başa düşməzsiniz.

Camaatın çoxu mənə cəmiyyətdə öz yerini bilməyən bir uşaq kimi təəccüblə baxıb dağılışdılar.

İkinci dəfə mən Bəhlul Əfəndini Teymurmüsgənli kəndində gördüm. O, Sisyandan və Qafandan gəlmiş qaçqınlara verilən maddi yardımın paylanmasına göz qoymağa gəlmişdi.

Bəhlul Əfəndi məndən soruşdu:

– Bəylərlə niyə yola getmirsiniz?

Mən cavab verdim:

– Bəylər bizim sinfi düşmənimizdir.

– Niyə məhz sizin sinfi düşməninizdir?

– Ona görə ki, biz zəhmət çəkirik, bəylər isə heç nə eləmir, ancaq bizim əməyimizin bəhrəsini yeyirlər.

– Cavan oğlan, siz şəriət elmini yaxşı bilmirsiniz, – deyə Bəhlul Əfəndi cavab verdi. – Şəriətdə açıqca deyilir ki, sahibkar torpağının icarəsi üçün torpağın yetirdiyi məhsuldan istədiyi qədər haqq ala bilər.



Mən ona cavab verdim:

– Məhəmməd VII əsrin feodallarının və qolçomaqlarının tərəfini saxlayırdı. Ona görə şəriətin belə deməsi heç də təəccüblü deyil. İndi, Əfəndi, iyirminci əsrdir, zəhmətkeşlər istismardan azad olurlar.

Bəhlul diqqətlə mənə baxdı, sonra öz tərəfdarlarına tərəf dönüb, mənalı-mənalı dedi:

– Bax bundan bolşevizmin iyi gəlir...

Üçüncü dəfə Bəhlul Əfəndini məni Dondarlı kəndinə gətirib döydürdükləri gün, qəza rəisi Sərməstbəyovla balkonda oturmuş gördüm. Bəhlul Əfəndinin familiyası Behcət idi. O, qəzanın qazısı idi.

Bəhlul Əfəndi vəzifəcə özündən böyük adamlar barəsində heç vaxt xəsislik etməzdi. O, vəzifəli şəxsləri qonaq etməyi və tez-tez onlara bəxşişlər verməyi sevirdi. Behcət qazı adını "müqəddəs" Hacı Qasım Çələbinin qızına evlənməklə daha da "müqəddəsləşdirmişdi". Bu "müqəddəs" qız onu neçə-neçə arvadlarından biri idi.

Müqəddəs sayılan piy basmış qoca Hacı Qasım Çələbi Əfəndilər kəndində yaşayırdı. O, bir kəndə getmək istəyəndə ətrafına yığılmış məsləkdaşları "müqəddəs"i elə yola salırdılar ki, onu qarşılamaq üçün dindar kəndlilər bir neçə kilometr qabağına çıxardılar. "Müqəddəs"in düşdüyü kənddə qadınlar onun ayağını yuyurdular.

Ətraf kəndlərdən həmişə camaat Çələbiyə çoxlu böyük hədiyyələr: pul, qoyun, gəbə, kisə-kisə düyü, buğda gətirərdilər. Çələbi adını yaxşıya çıxartmaq üçün çox nadir hallarda ona gətirilən şeylərdən yetimlərə və yoxsullara da paylayardı.

Bu mənfur və alçaq adam utanmadan xalqı aldadır, hər cür hiylələrə əl atır, görünməmiş cinayətlər edirdi.

Hacı Qasım Çələbi 1922-ci ilin əvvəllərində öz tərəfdarlarına tapşırdı ki, kəndlilər arasında belə bir şayiə yaysınlar: bu il buğdadan çox arpa əkmək lazımdır, çünki arpa bu il bol olacaq. Qəza icraiyyə komitəsinin sədri kimi mən hiyləgər Çələbinin bu cür "aqrotexniki" məsləhətlərinin qarşısını almağı lazım bilib, qəza milis rəisinə

tapşırdım ki, onu yanıma gətirsin.

Yarım saatdan sonra qəza təşkilatları yerləşən Xanlıq kəndindən altı ağsaqqal mənim kabinetimə girdi. Onlar yalvardılar ki, mən Hacı Qasım Çələbini yanıma çağırmayım, yoxsa yer tərpənəcək, ya ondan da betər fəlakət baş verəcəkdir. Mən qocaları sakitləşdirdim, dedim ki, Çələbiyə heç nə olmayacaq. Mən ancaq onunla bir az söhbət edəcəyəm.

Çələbi həmin gün icraiyyə komitəsinə gəldi. Özü də tək yox, başında böyük bir dəstə. Qəza icraiyyə komitəsinin artırması, həyət və ona yaxın küçələr dindar adamlarla dolu idi. Onlar Çələbi ilə ona görə gəlmişdilər ki, əgər "müqəddəs"ə bir şey olsa, onu incidənə divan tutsunlar.

Mən bütün bunları nəzərə alaraq, Çələbini qapının ağzında nəzakətlə qarşıladım, kresloda oturtdum, ədəb xatirinə bir qədər oradan-buradan danışandan sonra sözü gətirib ilin quraqlıq, məhsulun az olmasına çıxartdım.

"Müqəddəs adam" ikinci mərtəbəyə çıxdığı üçünmü, yoxsa hirsləndiyi üçünmü tövşüyürdü. Mən divardan asılmış dünya xəritəsinə yaxınlaşdım, orada müsəlman ölkələrini ona göstərib, İran, Türkiyə, Ərəbistan xalqlarının oyanmasından danışdım. Bu ölkələrin geri qalmasından danışarkən orada torpaqdan istifadə etmə qaydalarına toxunaraq dedim ki, torpağın beçərilməsi və suvarılması, bu və ya başqa toxumun seçilməsi, hətta səpin vaxtının təyin edilməsi – bütün bu işlər, hər şeydən əvvəl, mütəxəssislərin, aqronomların işidir. Çünki onlar kənd təsərrüfatına rəhbərlik etməzdən qabaq illərlə dərs keçir, çoxlu kitab oxuyurlar.

Bizim "səmimi" söhbətimizin davamı kimi mən Çələbidən kənd təsərrüfatı təhsili olub-olmadığını soruşdum. "Yox" cavabı alanda dedim:

– Onda, Çələbi, kəndlilərə nə əkmək və nə əkməmək barədə göstəriş verməyi sizə məsləhət görmürəm. Biz dini qadağan eləmirik, dindarların izzət-nəfsinə toxunmuruq. Ancaq kənd təsərrüfatını idarə



eləmək işini gəlin torpaq şöbəsinə verək. Mütəxəssislər bu işi sizdən, məndən yaxşı bilirlər.

Çələbi, qəribə də olsa, dərhal mənimlə razılaşdı:

– Oğlum! Siz deyirsiniz məşğul olmayın, məşğul olmaram!

Söhbət vaxtı kabinetin dəhlizə açılan pəncərəsinin qabağında dayanıb diqqətlə bizim söhbətimizə qulaq asan adamların gözünün qabağında mən Çələbi ilə xudahafizləşib onu nəzakətlə yola saldım.

1921-ci ilin baharında Bəhlul Əfəndi Xocahan kəndində çağırılmış birinci qəza kəndlilər qurultayında iştirak edirdi. Onu bura heç kim dəvət eləməmişdi.

Qurultayda biz Sovet hökumətinin aqrar siyasəti haqqında məlumat verir və başa salırdıq ki, yeni iqtisadi siyasətin, bəzi torpaq sahiblərinin düşündüyü kimi, heç də torpaqdan istifadəyə dəxli yoxdur. Bəylərdən alınıb kəndlilərin istifadəsinə verilmiş torpaq həmişəlik xalqın malı olacaqdır. Kəndlilər buna tamam əmin olmalıdırlar və keçmiş mülkədarların fitnələrinə uymamalıdırlar.

Kəndlilərin qurultayında Bəhlul Əfəndi də çıxış etdi. O öz fitnəkar çıxışında dedi ki, ərzaq sapalağı dövrü mülkədarların və digər varlı adamların mal-qarası əlindən alınmışdır. İndi isə yeni iqtisadi siyasətlə əlaqədar olaraq ərzaq sapalağı ərzaq vergisi ilə əvəz olunmuşdur. Sahibkarlardan alınmış kiçik müəssisələr öz sahiblərinə qaytarılır. Madam ki belədir, Bəhlul Əfəndi düşünürdü, demək, Sovet hökuməti yavaş-yavaş inqilabdan əvvəlki qaydalara qayıdır. Yəqin ki, tezliklə torpaq da öz sahiblərinə qaytarılacaqdır. Ona görə bu saat torpaq bölgüsü aparmaq lazım deyil.

Qurultayda iştirak edən kommunistlər, əlbəttə, bu bəy fitnəkarlığına qəti etiraz elədilər. Kommunistlər qurultayda dedilər: bəylərin, Bəhlul Əfəndilərin, Cavanşirovların, Sultanovların, Kələntərovların və digər mülkədarların, qolçomaqların mal-qarası əllərindən alınıbdır. Burjualar öz sənaye müəssisələrini heç vaxt geri ala bilməyəcəkləri kimi, torpaq da heç vaxt mülkədarlara qaytarılmayacaqdır. Torpaq –

onu öz əməyi ilə becərənlərin, xalqın, kəndlinindir.

Qurultayda Bəhlul Əfəndinin əleyhinə bitərəf kəndlilər də qəti çıxış etdilər. Bütün xalq tərəfindən belə tənqid və rədd edilməsinə baxmayaraq, keçmiş mülkədar və müsavat qulluqçusu yenə də qurultaydan çıxıb getmədi, axıra qədər oturdu.

Bəhlul Əfəndi qurultayda əmin oldu ki, Sovet hökuməti dövründə onun işi çətin olacaqdır. Qabaqkı malikanələrindən qazanc götürməyə ümid etmək olmazdı. Qəza hökumətinin siyasətinə əvvəllər olduğu kimi təsir edə bilməyəcəkdi. Sovet hökumətinin dini dövlətdən ayırmaq barədə dekreti onun qazancını kəsmişdi. İndi kəndlilər də onun əvəzinə inanmırdılar. Onların çoxu daha Bəhlul Əfəndiyə bəxşiş göndərmir, öz azacıq qazanclarından məscidə ərzaq və pul ayırmırdılar.

Bəhlul Əfəndi indi heç şübhə etmirdi ki, kəndlilərin əksəriyyəti bu dünyada, yaxud mollaların dili ilə desək, bu fani dünyada, yaxşı yaşamağı, ruhanilərin Allahın adından müsəlmanlara vəd etdikləri axirət dünyasındakı cənnətdən üstün tuturlar.

Lakin din pərdəsi altında fəaliyyət göstərən mürtəce ünsürlərin antisovet məqsədini başa düşməyən və onlara inanan adamlar hələ də var idi. Başda Bəhlul Əfəndi olmaqla bu ünsürlər Sovet hökuməti əleyhinə fəal mübarizə aparmaq fikrində idilər. Onlar öz çıxışlarına iki dini təriqəti – sünniləri və şiələri birləşdirmək təşəbbüsündən başladılar. Sonra onlar məhərrəmlik təşəbbüsünə əl atdılar.

Məlumdur ki, məhərrəmlik təziyəsi 680-ci ildə Kərbəla çölündə (İraq) Xəlifə I Yezidin, şiələrin üçüncü imamını (Xəlifə Əlinin oğlu, Məhəmmədin nəvəsi Hüseyni) və onun qardaşı Abbası qohumları ilə bir yerdə öldürülməsi ilə əlaqədardır. Bu qətl xəlifəlik üstündə ərəb tayfaları – haşimilərlə üməyyənlərin arasında olmuşdu. Həmin vaxtdan hər il müsəlman hicri-qəməri təqviminin Məhərrəm ayı şiələrin bütün şəhər və kəndlərində təziyə saxlayırdılar.

Lakin xalqın mənafeyinə zidd olan Kərbəla hadisəsi, sonralar şəbih çıxarılmasına səbəb olmuş, təziyə isə mürtəce nümayiş şəkli



almışdı. Dindarlar qətl zamanı əyinlərinə qara, yaxud ağ uzun cübbə geyərək: "Şah Hüseyn, Vah Hüseyn!" – deyirdilər. Şiə ruhanilər tərəfindən qızışdırılan dindarlar öldürülmüş imama nəinki göz yaşı tökür, hətta xəncərlə başlarını çapır, uşaqların başını da çətir, sinə və kürəklərinə zəncir vurur, bədənlərinə paslı dəmir keçirir, başlarına kül tökür, burunlarından, qulaqlarından qıfıl, bıçaq, dəmir parçası asırdılar. Bütün bu vəhşiliklər yazılmamış qanun, dini adət-ənənə şəklini almışdı.

Məhərrəmlik təziyəsi mənşəyinə görə "müqəddəs"lərin şəxsiyyətinin dini mərasimidir – əcdadların ruhunu yad etməyin ibtidai formasıdır.

Din xadimləri – seyidlər, mollalar, rozəxanlar üçün məhərrəmlik çox böyük gəlir mənbəyi idi. On gün davam edən məhərrəmlikdə din xadimləri, dindarlardan hədsiz nəzir-pul, yaxud çoxlu şey yığardılar. Onlar məscidin minbərindən, nəzir verənin nəinki özünə, ailəsinə, hətta onu ev heyvanına da dua edirdilər. Ruhanilər öz ciblərinin qayğısına qalaraq, sadə qəlbli dindarlara nə vaxt isə Kərbəlada bir dəstə ərəb feodalları öldürülən zaman baş vermiş hadisələr haqqında uydurmalar danışır, bu dini cəhalət və antisovet əhvali-ruhiyyə ilə insanların şüurunu məharətlə zəhərləyirdilər.

Deməк lazımdır ki, məhərrəmlik yalnız şiələrə aid idi, sünnilər təziyə saxlamırdılar. Bu vəziyyət Bəhlul Əfəndini çox narahat edirdi. Özü sünni olan Bəhlul Əfəndi 1921-ci ilin axırlarında sünni kəndlərini gəzib, kəndliləri inandırmağa başladı ki, şiələrin imamı Hüseynə hamı yas saxlamalıdır. Bəhlul Əfəndi deyirdi: "Məhərrəmlik günü kim göz yaşı və qan axıtsa, imama nəzir versə, o cənnətə gedəcək, çünki "məhşər" günü imam özü onları müdafiə edəcəkdir". Bəhlul Əfəndi, bir qayda olaraq, öz dini moizələri ilə siyasi, antisovet təbliğat aparırdı.

Gündəlik izahat işləri, din əleyhinə aparılan təbliğat sayəsində biz, şiələrin məhərrəmlik günləri bu biabırçı adətinə son qoyduq. Bu zaman biz son dərəcədə sarsaq bir hadisəyə rast gəldik. Bizim

qəzada indiyə kimi məhərrəmlikdə təziyə saxlamayan sünnilər gözlənilmədən bu mərasimi keçirməyə və onun ən acınacaqlı, qüssəli adəti olan – qurban kəsməyə başlamışdılar. Əgər qəzada yaşayan şiələr məhərrəmlikdə qətl vaxtı başlarını yarmağı tərgitmişdilərsə, indi bu işlə sünnilər daha qızğın məşğul olmağa başlamışdılar. 1922-ci ilin payızında Qubadlı qəzasının sünnilər yaşayan bütün kəndlərində kişilər və arvadlar müntəzəm olaraq axşamlar məscidə, məscid olmayan yerlərdə isə bir adamın evinə toplaşardılar. Burada onlar şiə mollasının bir sözünü də buraxmamağa çalışaraq, diqqətlə ona qulaq asardılar. Molla imamların faciəli ölümünü çox bəlağətlə nəql edirdi. Bu dini yığıncaq zamanı molla tərəfindən əvvəlcədən hazırlanmış gənclər birdən sinəzən oxumağa başlayardı. Bu, mərsiyəxanın işə başlaması üçün hazırlıq idi.

Xanlıqda belə işlərdə çox mahir olan Molla Həsənqulu çıxış edirdi. Onu fırıldaqçı Bəhlul Əfəndi Sovet hökumətindən xəlvət, məxsus bu iş üçün İrandan gətirmişdi. Bu qaçaq cəhalət təbliğatçısının yaxşı səsi var idi, qanlı Kərbəla müsibəti ilə əlaqədar hekayət və rəvayətləri yaxşı bilirdi.

Molla yanıqlı sinəzən oxuyandan sonra orta əsr faciəsindən bir əhvalat danışır və yavaş-yavaş növhə deməyə başlayırdı. Kişilər hönkürür, arvadlar isə səs tuturdular: "ağam vay, ağam vay!"

Molla Həsənqulu söhbətinə çoxlu rəvayətlər əlavə edərək dindarları cuşə gətirməyi, onları ağladıb-sızlatmağı bacarardı. Bir də görürdün, molla səsini kəsirdi. Dindarlar hələ ürəklərini boşaltmamışdılar. Molla yaxşı bilirdi ki, əgər belə eləməsə, çoxlu nəzir verməzlər. Molla bəlağətlə bir neçə kəlmə əlavə edərək, tez nəzir gətirənlərə özü də varlılara daha çox və ucadan dua oxumağa başlayırdı. Qəpik-quruş verən kasıbların isə ancaq adını çəkir. "Allah bərəkət versin!" – deyirdi.

Əhvalat bu qayda ilə on gün davam edirdi. Onuncu gün imam və onun qohum-əqrəbası gəlirdi. Aşura günü ağköynəklər açıq meydana çıxırdılar. Onlar iki cərgə üz-üzə dayanır, astadan növhə



deyə-deyə dövrə vururdular. Birinci cərgə addımlaya-addımlaya deyirdi: "Şaxsey", yəni "Şah Hüseyn!", ikinci cərgə isə ona cavab verirdi: "Vaxsey" yəni "Vay Hüseyn!" İştirakçılar qızışırdılar. Sonra birinci cərgə atılıb-düşür, qışqırırdı: "Heydər!" İkinci cərgə dayanıb, yavaşca deyirdi: "Səftər!"

Birinci cərgədə dayanmış dindarlar cuşə gələrək xəncərlə başlarına vururdular. Bir dəqiqənin içərisində ağ köynəklər al-qana boyanırdı. Coşmuş adamlar xəncəri dərin vurub özlərini öldürməsinlər deyə, xüsusi adamlar onların arxasınca gəzir, onlar xəncəri endirəndə qabağına ağac tuturdular.

Müsibəti molla kəsirdi. O, əlində xəncər olan dindarların qabağına çıxıb onları sakitləşdirən bir dua oxuyurdu. Birinci cərgə qətli qurtarandan sonra, ikinci cərgə başlayırdı. Sonra İmam Hüseynin ölüm şəhbehi başlanardı. Hüseyn rolunu molla özü oynayırdı. Kənddə ən uca və enli kürək adam Həzrət Abbasın rolunu oynayırdı. Ələkbər (imamın oğlu) və Qasım (imamın qardaşı oğlu) rolunda isə savadlı gənclər çıxış edirdi. Savadlı və göyçək bir cavan oğlan isə Səkinənin (imamın qızı) rolunu oynayırdı. Tamaşanın əvvəlində Səkinəni Qasıma nişanlayırdılar ki, o dünyaya nakam getməsin.

Bir sözlə, İranda şiələr arasında geniş yayılmış və sonralar XVIII əsrdə Qarabağa keçmiş qətl sünnilər arasında da yayılırdı.

Bəhlul Əfəndi belə cidd-cəhdi ona başqa bir sahədə də müvəffəq olmağa kömək edirdi. O, qaçaqları, oğruları, adam öldürənləri başına toplayıb, gizlincə 400 nəfərdən ibarət yaxşı silahlanmış təxribatçı dəstəsi düzəltmişdi. Bu dəstənin istinadgahı Dağtumas, Sirik, Qazanzəmi, Maşanlı kəndləri idi. Bu kəndlər Qaryagin qəzasına daxil idi. Ancaq bizim qəza mərkəzinə – Xanlığa yaxın yerlərdi. Bəhlul Əfəndi bu silahlı adamları saxlamaq üçün maddi yardımı Xanlıq, Çay Tumas, Əfəndilər və Usubbəyli kəndlərinin varlılarından alırdı.

İlk vaxtlar Bəhlul Əfəndinin fəaliyyəti saydığımız kəndlərdən kənara çıxmırdı. O hətta öz doğma Dondarlı kəndində belə zəhmətkeşləri Sovet hökumətinin əleyhinə qaldıra bilmədi. Lakin

qolçomaqlıqdan salınmış mülkədar, mürtəce qüvvələri xalq hakimiyyəti əleyhinə qaldırmaq üçün dişlərini qıcıyıb yaxşı fürsət gözləyirdi. Ona elə gəlirdi ki, bunun üçün ən yaxşı məqam Əlyanlı əməliyyatından sonra işə başlamaqdır. Bəhlul Əfəndi banditləri məhv etmək üçün gəlmiş xüsusi dəstə gedəndən sonra üsyana başlamağı qət eləmişdi.

Otağa böyük əlvan xalılar döşənmiş, divara Xanlıq xalçaları vurulmuşdu. Buxarı odunla yandırılırdı. Pəncərələr yalnız bir tərəfə açılırdı. Pəncərənin birinin qabağına neft lampası qoyulmuşdu. Çırağın yanında iri qara bir çalma vardı.

Kişilər divar boyu yerdə oturmuşdular. Çoxu qocalar idi. Aralarında cavanlar da vardı.

Buxarının sağ tərəfində yetmiş yaşlı bir qoca əyləşmişdi. Qarnı o qədər yekə idi ki, bardaş qura bilmirdi. Onun başında araqçın vardı.

Qoca kişinin yanında, başında türk fəsi olan ağ saqqallı, sağlam, ucaboy, enlikürək bir kişi əyləşmişdi. Böyründə yastıq olsa da, söykənməmişdi. Yaşı 60 olardı.

Nökər içəri girib, bu kök kişinin və başında türk fəsi olan qocanın indicə acgözlüklə içib boşaltdıqları boş stəkanları aparmaq istədi.

Qoca dedi:

– Birini də gətir!

– Mən daha istəmirəm! – deyə fəsli adam dilləndi.

Başına fəs qoymuş bu enlikürək kişi Bəhlul Əfəndi idi. Nökər eşiyə çıxdıqdan sonra o, qocaya dedi:

– Hacı Çələbi! Torpaq islahatı bütün Azərbaycanda olduğu kimi, bizim qəzada da başa çatdırıldı. Siz bilirsiniz ki, torpaq kəndlilərə verildi. Əvvəllər və indi özgə əməyini istismar edən adamların səs vermək hüququ olmayacaqdır. Ruhanilərə və müqəddəslərə heç bir üstünlük verilmir. Qəzaya nə qazı, nə də molla lazımdır. Din xüsusi dekretlə dövlətdən ayrılmışdır. Sovet hökuməti ayrı, din ayrı! Din deyəndə mən məscidi nəzərdə tuturam. Sizə məlumdur ki, şiələri



təziyə saxlamağa, məscidə nəzir toplamağa qoymurlar. Bolşeviklər hər yerdə bizi açıqca pisləyir, bütün xalqı ateist, dinsiz etməyə çalışır.

Bəhlul Əfəndi sözünə ara verdi, şişmiş, həyəcanlı gözləri ilə oturanları süzüb, sözünə davam elədi:

– Əliyanlıların üstünə gələn dəstə qəzadan gedib. Əgər qərara gəldiyimiz kimi, indi başlasaq, əliyanlılar da, Allah da bizə kömək edər. Fürsəti əldən vermək olmaz, çünki kəndlilər arasında Sovet hökumətinə inananlar çoxalır. Biz Sovet hökuməti ilə barışa bilmərik. Bu hökumət bizim hər şeyimizi: torpağımızı, ad-sanımızı, ixtiyarımızı əlimizdən aldı. Biz sizdən təvəqqe edirik, – Bəhlul Əfəndi üzünü Hacı Çələbiyə çevirdi, – bu kafirlər əleyhinə mübarizədə bizə xeyirdua verin!

Hacı Çələbi xeyli müddət susdu. O hiss edirdi ki, firavanlıq elədiyi vaxtlar keçmişdir. Bolşeviklər kəndlilərin gözünü açır, onları Çələbinin təsirindən azad edir, Allahın əleyhinə qaldırır... Nəhayət, Çələbi dedi:

– Bəhlul! Mən bunların hamısını bilirəm! Onu da bilirəm ki, bundan sonra günümüzü qara eləyəcəklər. Ancaq bütün keçmiş Rusiya imperiyasında qurulmuş Sovet hökumətinə sən nə eləyə bilərsən? Özün deyirsən ki, kəndlilər arasında bolşeviklərə inam artır. Demək, kəndlilər də bizim əleyhimizə olacaqlar. Sovet hökuməti bizi basıb əzər.

Bəhlul Əfəndi Çələbinin bura toplaşmış varlıların yanında belə danışmasını yersiz hesab edib, onun sözünü kəsdi:

– Çələbi, dinin gücünü, müqəddəslərin gücünü unutmayın!..

Toplaşanlar onun sözünə qüvvət verdilər:

– Bəli, bəli! Allah bizə kömək edər!

– Sakit olun! – Bəhlul Əfəndi onlara müraciət etdi. Lakin üzünü Çələbiyə tutub dedi:

– "Allah bizə kömək edər"! – deməkdə onlar haqlıdırlar. Burada əyləşənlərin hamısı iri mülkədarlardır. Onlar yaxşı bilirlər ki, bu gün də olmasa, sabah Sovet hökuməti bu var-dövləti onların əlindən

alacaqdır! Yaxşı olmazmı ki, biz bu var-dövləti onun əleyhinə mübarizəyə sərf eləyək? Qalib gələrik, – olarıq ağa! Yox – qaçarıq İrana. Sərhəd açıqdır, o tərəfə keçmək asan işdir. Əgər indi getsək, bəzilərinin düşündüyü kimi, bizi orada yaxşı qəbul etməzlər. Əgər silahlı çıxış edəndən sonra getsək, deyərlər ki, onların haqqı var, din yolunda vuruşublar. Həm bizi yaxşı qəbul edərlər, həm də gələcəkdə bizimlə hesablaşarlar. Mən belə hesab eləyirəm ki, – deyə Bəhlul sözünü bitirdi. – Siz, ata, bizim çıxışımıza xeyir-dua verməlisiniz! Şəxsən sizə baş verə biləcək fəlakətdən qorumaq üçün Sirik kəndinə köçürüb, orada yaxşı mühafizə edəcəyik.

Çələbi Bəhlul Əfəndini dinləyib soruşdu: bunun üçün çoxlu vəsait toplamısınız? Bəhlul Əfəndi cavab verdi ki, kifayət qədər var. Çələbi yenə dərin fikrə getdi. Çox şeyi ölçüb-biçmək, götür-qoy eləmək, fikirləşmək lazımdı. Qara bir fikir ondan əl çəkmirdi: "bu işlər baş tutmasa, sonra nə olacaq?"

Yarım saat keçdi. Qocanın tərəddüddə olduğunu görüb, Bəhlul Əfəndi məclisdəki adamlara təklif etdi ki, çıxıb getsinlər və onun sərəncamını gözləsinlər. Həmfikirlər tək qalıb söhbətə davam edirdilər. Bəhlul Əfəndi zorla özünü saxlayaraq, qocanı inandırmağa çalışırdı. Lakin o, hiss etdi ki, qəzəbindən səsini titrədiyini gizlədə bilməyəcək. O sözə belə başladı:

– Mən sizə demişəm... Sünnilərə şiələrin imamlarını qəbul etdirməklə mən sünnilərlə şiələri birləşdirmək üçün çox yaxşı zəmin hazırlamışam. Bu panislamizmdir. Bir Allah bilir ki, mən bunun üçün nə qədər zəhmət çəkmişəm! Nə üçün İran hökuməti məhərrəmlikdən istifadə edərək şiələri türklərin əleyhinə qaldıra bildi? Bəs biz nə üçün bundan Sovet hökuməti əleyhinə istifadə etməyək? Siz və mən çox gözəl bilirik ki, Allah tərəfindən heç bir peyğəmbər-zad göndərilməyib. Siz və mən, eləcə də bütün başqa ruhanilər axirətdənsə, bu dünyada firavan, sakit, dinc yaşamağı üstün tuturuq. Axirət dünyası barəsindəki bütün bu hekayətlər küt, qara camaat üçün uydurulmuşdur ki, onlar sizinlə bizə müticəsinə xidmət etsinlər.



Çələbinin yenə də tərəddüd etdiyini görüb Bəhlul Əfəndi qəti hücuma keçdi:

– Siz çox pozğun və günahkar adamsınız! – O, bərkdən qışqırdı və yerindən sıçrayıb otaqda gəzməyə başladı. – Şəriətə görə, gərək sizi çoxdan daşqalaq eləyəydilər. Bilin ki, əgər məni müdafiə eləməzsiniz, sizi ifşa edəcək və qəza qazısı kimi öz adımdan Sovet hökuməti əleyhinə cəhad elan edəcəyəm.

Çələbi mülayim-mülayim gülümsəyərək Bəhlul Əfəndiyə dedi:

– Siz çox nahaq hirslənirsiniz, əzizim. Bu hədələr nəyə lazımdır? Hər işi sakit, ağılla-başla eləmək lazımdır! Sizin uşaqlarınız – mənim nəvələrimdir. Siz harada olsanız, mən də oradayam. Çağırış kağızını ver qol çəkim.

– Xeyr! Sizin ona qol çəkməyiniz lazım deyil. Çağırışa mən tək qol çəkəcəyəm. Siz ancaq camaata deyin ki, hər şeydə mənimlə razısınız.

Üsyan təşkilatçılarının müşavirəsi bununla qurtardı.

Dağ-Tumas kəndi Dağtumas dağının cənub döşündə yerləşir. Bəhlul Əfəndi burada, dağların arasında gizlənmiş bu kənddə Sovet hakimiyyəti əleyhinə silahlı üsyan hazırlayırdı. Cihada hazırlaşan dəstələr burada təlim keçirdilər.

Gödəklər kəndindən olan qatı şiə Təhməz hərbi təlimə rəhbərlik edirdi. Bəhlul Əfəndi qəsdən onu "hərbi mütəxəssis" adlandırmışdı ki, camaat bu gödəklərliyə etibar eləsin.

Bəhlul Əfəndinin həmfikirləri, onun özü başda olmaqla, tez-tez namaz qılırdılar. Belə vaxtlarda Bəhlul Əfəndi həmişə deyirdi: "Əşhədu ənnə la ilahə illallah. Əşhədu ənnə Məhəmmədin Rəsulallah. Əliyyun vəli yullah! Allahdan başqa Allah yoxdur. Məhəmməd Allahın elçisidir, Əli isə onun varisidir". Bu zaman Bəhlul Əfəndi gözlərini yumaraq, xüsusi bir ahənglə: "Əliyyən vəli yullah" – deyərdi. Əvvəllər sünnilər həmin sözləri deməzdilər: ("Əliyyən vəli yullah" "Əli həqiqətən xəlifənin varisidir" deməkdir).

Bəhlul Əfəndi öz tərəfdarlarına bu sözləri dönə-dönə təkrar etdirirdi, həm bu zaman Təhməz göz qoyurdu ki, Əlinin varies olmasını heç kim səhv deməsin. Əgər üsyançılardan biri səhv desə, onu məcbur edirdilər ki, düz deyənə qədər təkrar eləsin.

Təhməz şiələrin kəndi olan Həmzəli, Bala Soltanlı, Mollaburan və başqa kəndlərə gedəndə Bəhlul Əfəndini çox tərifləyər və bütün dindarlara məsləhət görərdi ki, ona hörmət və ehtiram etsinlər, onun bütün tapşırıqlarına sözsüz əməl etsinlər. O, kəndlilərə Bəhlul Əfəndinin şiə təriqətinin bəzi məsələlərini necə səylə sünnilərə izah etdiyini danışardı.

Ancaq üsyana hazırlıq aparılan kəndlərin camaatı Bəhlul Əfəndinin yaxın silahdaşı və agenti olan Təhməzin antisovet məqsədini başa düşüb ondan üz çevirirdilər. Yalançı hərbi mütəxəssis yuxarıda saydığımız şiə kəndlərindən bir nəfər də aldadıb üsyançılar dəstəsinə cəlb edə bilmədi.

Bəhlul Əfəndi Təhməzin fəaliyyətindən narazı olsa da, bunu bir dəfə də açıq üzə vurmazdı. Onun fikrincə, Təhməz şiələr arasında işləyən yeganə adam idi. Üsyan vaxtı o, az-çox xeyirli bir iş görə bilərdi.

Bəhlul Əfəndi Əliyanlı qaçaqları ilə əlaqə yaratmaq fikrinə düşüb, bir dəfə onların başçılarını yanına çağırdı.

Əliyanlı banditləri: Kərbəlayı Məhəmməd, Babaş, Həsən, Qabil, Ədil bəy və Qəhrəman Dağtumasda onun yaşadığı otağa toplaşdılar. Söhbətdə, əlbəttə, Təhməz də iştirak edirdi. Ancaq Bəhlul Əfəndi danışırdı:

– Siz qoçaq adamlarsınız! Sizin içərinizdə elə adamlar var ki, uzun müddət kafirlərə qarşı mübarizə etmişdir. İndi islam dini təhlükə qarşısındadır! Bolşeviklər heç bir dini qəbul etmir, Allahı danırlar. Sizə deməliyəm ki, son illər İmam Hüseyn faciəsini xeyli müddət öyrəndikdən sonra bu qərara gəlmişəm ki, həmin müsibətə sünnilər də ağlamalıdırlar. İndi bir çox sünni kəndlərində elə də edirlər. Təhməz o kəndlərdə olur. Necə deyərlər, o Allah şahididir!..



– Əfəndi doğru deyir, – deyə Təhməz söhbətə qarışdı.

Bəhlul Əfəndi sözünə davam elədi:

– Mən sünniləri inandırdım ki, Əli xəlifənin yeganə varisidir. – O ucadan dedi: – Əliyyən vəli yullah!

Onun dalınca əliyanlılar da bu sözləri təkrar elədilər.

Bəhlul Əfəndi sözünə davam elədi:

– Sünni ruhaniləri indiyə qədər bunu qəbul etmirdilər. Elə bu səbəbə görə müsəlmanlar şiələrə və sünnilərə ayrılmışdılar. Biz din bir qardaşlar bolşeviklərə aman verməməliyik. Mənim dörd yüz silahlı igidim var. Sizin də adamınız az deyil. Gəlin birləşib, qəzada Sovet hökumətini yıxaq. – O, sözünü çox mənalı qurtardı: – Əmin ola bilərsiniz ki, bizim çıxışımızdan sonra Azərbaycanda bütün dindarlar üsyan edəcəklər. Mən danışıqların bütün şərtləri barədə sizə məlumat verə bilmirəm... Lakin belə bir danışıq var...

Kərbəlayı Məhəmməd Təhməzə müraciət elədi:

– Kürdlər nə fikirdədir?

O, yalandan dedi ki, kürdlər də köməyə gəlməyə söz veriblər.

Məhəmməd, Bəhlul Əfəndinin düz gözünün içinə baxaraq xatırlatdı:

– Bizim ağır günlərimizdə siz bizə kömək edəcəyinizə söz vermişdiniz. Lakin biz bu köməyi görmədik. Bu saat bizim gücümüz tükənibdir, biz əzilmişik. Sovetlər isə təsərrüfatı dirçəldiblər. Bütün gənclər, hətta qocalar da Sovetlərə inanırlar.

Qabil Kərbəlayı Məhəmmədin sözünü kəsib dedi:

– Əfəndi, siz başlayın, biz də fikirləşərik. Bəlkə, köməyə gəldik...

Bəhlul Əfəndinin əliyanlılarla müşavirəsi bununla da qurtardı, daha doğrusu, pozuldu. Ancaq buna baxmayaraq, Bəhlul Əfəndi onlardan əlini üzməmişdi. O, belə hesab edirdi ki, əgər əvvəlinci bir neçə gün onun çıxışı müvəffəqiyyətli olsa, qəzanın bütün müsəlmanları onun tərəfinə keçəcəkdir.

Əks-inqilabi çıxış 1922-ci il oktyabrın 18-də kəndlilərin naxırına quldurcasına hücumla başlandı.

Dan yeri təzəcə ağarırdı. Qaradağ dağlarının arxasından boylanan qırmızımtıl günəş Həkəri vadisini nura qərq edirdi. Küləksiz, sakit bir payız günü idi. Xanlıq kəndinin bütün naxırı çöldə otlayırdı. Qəflətən böyük bir silahlı dəstə naxıra hücum etdi. Onlar mal-qaranı bir yerə toplayaraq, naxırçıları qovub, heyvanları Dağtumasa tərəf apardılar. Naxırçılardan biri tez kəndə qaçıb əhvalatı xəbər verdi. Milislər və bir neçə silahlı kommunist banditlərin arxasınca düşdü. Pusquda dayanmış bir dəstə bandit milislərin və kommunistlərin arxasına keçib, onların geriyə yolunu kəsdilər. Milislərlə kommunistlər iki od arasında qaldılar. Buna baxmayaraq, onlar bir neçə yaralı ilə Usubbəyli kəndinə çəkilə bildilər.

Bəhlul Əfəndi bunu qələbə hesab edərək, çapıb Çaytumas kəndinə gəldi. Tutduqları kommunist Allahverdi Ağakişi oğlunu kəndlilərin gözü qabağında ağacdan asdırdı.

Bəhlul Əfəndi qəzanın inzibati mərkəzi Xanlıqda onlara müqavimət göstərə biləcək qüvvə olmadığını öyrənib, öz dəstəsi ilə oraya üz qoydu. Xanlıqda olan yoldaşlar (mən o vaxt Qubadlı dairəsində olmuşam) üç saat davam edən çətin vuruşmadan sonra Həkəri çayının sağ sahilinə keçməli olurlar. Qəza partiya komitəsinin katibi Abbas Sultanov qəza partiya komitəsinin və Qəza icraiyyə komitəsinin işlərinin bir hissəsini birtəhər Xanlıqdan çıxara bilmişdi.

Bəhlul Əfəndi Xanlığa daxil olub, bütün qəzada Sovet hökumətini yıxacağına söz verir. Onun tapşırığı ilə Təhməz bir neçə silahlı adamla mən yaşayan evi mühasirəyə aldı. O, elə zənn edirdi ki, mən qaçıb qurtara bilməmişəm. Lakin mənim evdə olmadığımı yəqin edəndən sonra qıfılı sındırıb mənim şeylərimi, o cümlədən içərisində şəxsi sənədlərim olan portfelimi aparırlar.

Biz qəzadakı bütün qüvvələrimizi toplayıb, üçüncü gün səhərə yaxın Bəhlul Əfəndinin dəstəsini Xanlıqdan çıxardıq. Lakin onlar kəndin üst tərəfində, təpədə yerlərini möhkənləndirib, vuruşmanı davam etdirdilər. Bizim döyüşçülər üsyançılarla yaxın məsafələrdə igidliklə vuruşurdular. Bu döyüşdə Təhməz ağ atının belində bizim



mövqeyimizə soxulmağa çalışırkən ağır yaralandı və çox çəkmədi ki öldü.

Biz bütün bu baş vermiş hadisələr barədə Bakıya teleqram vurduq[1]. Günortaya yaxın Yazılar tərəfdən köməyimizə 80 silahlı atlı kəndli gəldi; bunlar Səfyan dairəsindən idi. Onlar Əfəndilər tərəfdən üsyançıların arxasına keçdilər.

İki saat sonra arxadan və qarşıdan açılan atəş altında üsyançılar öz mövqelərini tərk edib Dağtumasa tərəf çəkildilər, Usubbəyli və Çaytumas kəndlərindən çıxdılar. Dağtumas kəndi uca dağların cənub döşündədir. Ora yol cənubdan, Gəyən düzündən, şimal tərəfdən isə Əliyanlı kəndi Bəşaratdandır. Hər iki tərəfdən yol çox dardır və qayaların arasından keçir, ancaq tək-tək, bir-birinin arxasınca keçmək mümkün idi.

Xeyli silahlı adamı olan və təbiətin özü tərəfindən möhkəmləndirilmiş bu kəndi almağa bizim gücümüz çatmazdı. Biz bu qərara gəldik ki, Bəhlul Əfəndinin geriyə yolunu kəsmək və bandasını son nəfərədək ləğv etmək üçün zəngəzurlu yoldaşlardan kömək istəyək. Bu məqsədlə mən Gorusa getdim.

Yola düşməzdən qabaq, axşam Mollu kəndində Bəhlul Əfəndinin fitnəkar çağırışı əlimizə keçdi. Ərəb hərfləri ilə əllə yazılmış mətni Bəhlul Əfəndi özü tərtib etmişdi. Bu çağırışdan görünürdü ki, Bəhlul Əfəndi qəzanın ruhani başçısı kimi bütün Azərbaycanda cihad elan etmişdi.

Çağırışda fitnəkarlıqla deyilirdi: "Sovet qoşunları Bakıda ağköynəkləri atəşə tutmuşdur! Sovet hökumətinin qorxusunda Naxçıvanda imam Hüseyn təziyəsini qayaların, kolların dibində saxlayırlar. Heç müsəlman qanı olan adam Sovet hakimiyyəti ilə barışa bilərmi? – Çağırış bu sözlərlə qurtarırdı: – Ya qalib gəlib, ağa olaq, ya da şəhid".

Bəhlul Əfəndi bu çağırışla sünniləri və şiələri Sovet hökumətinin əleyhinə qaldırmaq istəyirdi. Ancaq nəticədə qala kimi kənddə

[1] Teleqramı Qaryagindən vurduq. Çünki o vaxt Xanlıqda teleqraf yox idi.

özü tələyə düşdü. Onun fırıldağı baş tutmadı. O, görünür, indi canını qurtarmaq üçün hər şeyə hazır idi. Biz onu tutub mühakimə etməliydik. Bütün kəndlərdə ona lənət oxuyurdular. Xalq başa düşmüşdü ki, o, xalq hakimiyyətinə əl qaldırmışdır.

Çələbi də öz "müqəddəs" ailəsi ilə Əfəndilər kəndindən köçmüşdü. İndi o ya Dağtumasda, yaxud da Sirikdə idi.

Göyüş Hümbətəliyev, Tahir Həziyev, mən və bizi müşayiət edən milis gecə yola düşdük. Lakin yolu azıb başqa dərəyə burulmuşduq. Səhərə yaxın biz Bərgüşad deyil, Həkəri çayının kənarına, Xanlıq tərəfə gəlib çıxmışdıq, deməli, geri getmişdik. Buna baxmayaraq, biz axşamüstü Gorusa çatdıq.

Zəngəzur qəza icraiyyə komitəsi sədrinin kabinetində bizdən, Qubadlıdan gələnlərdən başqa, icraiyyə komitəsi sədrinin müavini, həm də daxili işlər idarəsinin rəisi Saak Ter-Ayrapetyan, qəza siyasi bürosunun rəisi Nikolay Kostanyan, qəza milis rəisi Avanes Akopyan, hərbi komissar Aşot Abramyan və başqaları var idi.

Müşavirəyə qəza icraiyyə komitəsinin sədri Baqrat Artünyan rəhbərlik edirdi. Ona yaxşı kommunist, namuslu və obyektiv insan kimi hamımız hörmət edirdik. O burada oturanların çoxundan yaşca böyük idi və mürəkkəb siyasət məsələlərindən çox gözəl baş çıxarırdı.

Mən qəzamızda baş vermiş hadisə barədə qısaca məlumat verdim və xahiş etdim ki, bizə, mümkün olsa, kömək etsinlər.baqrat təklif etdi ki, yoldaşlar fikirlərini söyləsinlər. Birinci Ter-Ayrapetyan çıxış etdi.

O dedi:

– Bu Əfəndinin fitnəsinin qabağını almaq işində yoldaşlara kömək etmək – bizim beynəlmiləl borcumuzdur. Lakin mən bilmək istəyirəm: bizim silahlı köməyimiz olmadan Qubadlıdakı yoldaşlar özləri işin öhdəsindən gələ bilməzlərmi? Birdən Bəhlul Əfəndinin bandasını ləğv etməkdə bizim iştirak etməyimizi azərbaycanlılar ayrı cür yozarlar.



Ağıllı fikir idi. Bizim qəzaların vəziyyətini nəzərə alan hər kəs belə düşünə bilərdi. Ancaq indi ilk baxışda belə düşünmək olardı.

Avanes Akopyan təklif etdi ki, kömək edilsin. Aşot Abramyan onun sözünə qüvvət verib dedi:

– Yoldaşların burada dediyi kimi, vəziyyət təhlükəlidir! Biz gərək əks-inqilabi bandanın tez ləğv olunmasına kömək edək. Zəhmətkeş camaat buna ancaq sevinəcək. Əsas məsələ də elə budur...

Mən bildirdim ki, bizim qəzanın camaatı Bəhlul Əfəndiyə nifrət eləyir, onun xalq arasında nüfuzu yoxdur.

– Qəzamızın azərbaycanlı zəhmətkeşləri, müsavatçıları sevmədikləri kimi daşnaqları da görmək istəmirlər, – dedim. – Lakin çətin vaxtlarda onların arasında işləmiş erməni kommunistləri həddindən artıq sevirlər. Yoldaş Ter-Ayrapetyanın ehtiyat eləməsi, xüsusilə indi, demək olar ki, yersizdir.

Baqrat Artünyan müşavirəyə yekun vuraraq dedi:

– Burda doğru dedilər: fitnəkarlıqdan qorxmağa heç bir əsas yoxdur! Bu təhlükə deyil, təhlükəli işi ləngitməkdir! O sonra bizim başımıza əngəl olar. Daşnaqların bu işdə əli olub-olmadığını biz dürüst bilmirik. Bildiyimiz kimi, yayda bir bandada ermənilər də, azərbaycanlılar da vardır. O bandanın yalnız soyğunçu dəstə olduğuna əminikmi? Əksinə, faktalardan belə çıxırdı ki, həmin bandaya bizim siyasi düşmənlərimiz rəhbərlik edirlər. İndi Bəhlul Əfəndi gizlin deyil, açıq çıxış edir. Bu fırıldaqçının bandasını ləğv etmək üçün yoldaşlara kömək etmək lazımdır...

Baqrat Ter-Ayrapetyana müraciətlə dedi:

– XTH-dən bir dəstə yaradın və özünüzlə pulemyot götürün! Hazırlıq işlərini bu gecə qurtarıb, sabah tezdənyola düşün! Kostanyan, Akopyan, Abramyan və Aqababov[1] yoldaşlar da sizinlə gedəcəklər. Əməliyyatın gedişi barədə tez-tez bizə məlumat verməyi unutmayın.

Əks-inqilaba qarşı mübarizədə bu bizim birinci birgə müşavirəmiz

[1] Zəngəzur milisinin nizami hissə rəisi.

və birinci ümumi işimiz deyildi.

Bu əhvalatdan xeyli sonra Baqrat İsayeviç mənə yazırdı:

"...Bizim dostluğumuz zəhmətkeş insanların gözəl idealları uğrunda birgə mübarizəyə əsaslanır. Qubadlı və Zəngəzur qəzalarındakı ağır şəraitdə bizim xeyirxah və namuslu işimizə heç nə mane ola bilməz. İrtica qüvvələrinə qarşı birgə işimiz gözəl nəticələr vermişdir. Bax, bizim dostluğumuzun əsası budur". O, sonra yazırdı: "Əgər tale sənin yolunu bizim tərəflərə salsa, bir neçə gün bizdə qonaq qalsan, mənim ailəm çox şad olar..."

Çox təəssüf ki, biz görüşə bilmədik. Baqrat 1957-ci ilin yayında ağır xəstəlikdən Yerevanda öldü.

Bir gecənin içərisində bütün hazırlıqlar qurtardı. Günorta biz Gorusdan çıxdıq.

Qaryagindən sərhəd qoşunlarının süvari polkundan Semyonovun komandası altında altı pulemyotu olan bir eskadron Xanlığa, bizə köməyə gəlmişdi. Əməliyyat planı üzrə bu eskadron XTH-in dəstəsi (Gorusda gələn) ilə birlikdə düşmənin geriyə yolunu kəsmək üçün Padar Başratdan keçib Dağtumasın şimalını tutdu. Şərqdən həmin polkun başqa hissələri gəlirdi. Cənubdan isə biz möhkəmlənmiş yerli dəstələrlə yaxınlaşırdıq.

Hadisələrin gedişi barədə AK(b)P MK katibinə verilən məlumatda deyilirdi:

"Yerli dəstələr Maşanlı və Kazan tərəfdən hücum edərək tezliklə həmin yerləri tutdu. Düşmən geri çəkilib... 52-30 təpəni tutdu. İki saatlıq atışmadan sonra düşmən təpədən qovuldu. Sərhəd qoşunları düşməni bulaq tərəfdən sıxışdırdı, məqsəd onların arxasına keçmək idi. Düşmən mal-qaranı aparmaq fikrində idi. Lakin dəstənin irəlilədiyini görərək bu fikrindən əl çəkib düzə dağılışdı. Havanın dumanlı olduğundan istifadə edərək Araz çayını keçdi"[1].

Bəhlul Əfəndini və onun tərəfdarlarını tapmaq üçün Araz tərəfə

[1] Azərbaycan KP MK Partiya Tarixi İnstitutunun partiya arxivi, f. 1, s. 85, sax. qov. 241, v. 269.



göndərilmiş adamlar gəlib xəbər verdilər ki, onlar Xudafərin körpüsünü keçiblər, İran torpağındadırlar. İran sərhədçiləri onları tərksilah edib saxlamışdı, ölkənin içərilərinə qoymurdu, yuxarılardan göstəriş gözləyirdi.

Qaryagin qəzasının milisləri ilə görüşüb, birlikdə Xudafirin körpüsünə getmək üçün səhər kiçik bir dəstə ilə Tinli kəndinə gəldik.

Kəndin yaxınlığında bir dərəyə endik. İrəlidə, kəndin qarşısında, ağacın kölgəsində bir dəstə silahlı adam vardı. Dərə çox dar idi, sıldırım yamacları çox da hündür deyildi, irəli getdikcə düzə çıxırdı. Dərəyə köndələn bir balaca çay axırdı. Bu çayın kənarında bir-iki seyrək ağac bitmişdi. Həmin adamlar bu ağacların kölgəsində oturmuşdular. Gözlənilmədən onlar bizə atəş açdılar. Getdikcə atəş güclənir, güllələr vıyıldayıb yan-yörəmizə düşürdü.

Biz atəş açmadan tez dərədən sol yamaca çıxıb, irəli cumduq. Buna baxmayaraq, banditlər qorxularından atlarına minib Cəbrayıl tərəfə çapdılar. Onları təqib eləməyə vaxtımız yox idi. Saat yarımdan sonra qaryaginlilər gəlib çıxdı. Onlardan öyrəndik ki, bizə atəş açan Keçəl Kazımın dəstəsi imiş.

Dəstələrimiz Xudafərin körpüsünə yaxınlaşdı. Böyük bir təpənin arxasında gizləndik. İki-iki, üç-üç piyada körpüyə endik. Körpünün qurtaracağında İran zastavası idi. Bəhlul Əfəndinin adamları yaxında görünürdü. Onlar əlli-altmış nəfər olardı, hamısı da silahsız idi. Görünür, tərksilah olunmuşdular.

O vaxt qəza partiya komitəsinin katibi vəzifəsini aparan Qara İlyasovla mən darvazanın pəncərəsinə yaxınlaşdıq. Cinayət işləmiş vətəndaşlarımızı özümüzə qaytaraq, – tələbimizə iranlılar cavab verdilər ki, yuxarı hökumət adamlarının icazəsi olmadan sərhəddi keçmiş adamlara toxunmağa ixtiyarları yoxdur. Biz israr etdik, ancaq iranlılar sözlərindən dönmədilər. Mən geri qayıtdım, İlyasov isə söhbəti davam etdirirdi.

Mənim təklifimlə dəstə gizləndiyi yerdən çıxdı. İran sərhədçilərinin

gözü qabağında iki-iki sıraya düzülüb, körpüyə tərəf irəlilədi.

Lakin iranlılar bizim dəstəni görüb həyəcan qaldırdılar. İki-üç əsgər zastavanın üstündəki təpəni tutdu. Bir nəfər atlı xəbərə qaçdı. İlyasovun apardığı söhbət o dəqiqə kəsildi. Pəncərə bağlandı. Kələyimiz baş tutmadı.

Bəhlul 1923-cü ilin payızında İrandan qayıtdıqda tutulub, on il həbs cəzasına məhkum edildi. Onun şərəfsiz fırıldağı xalq kütləsi tərəfindən heç bir kömək almayaraq, bir-neçə gün davam elədi[1].

[1] Azərbaycan KP MK-nın arxivində bu hadisə barədə qısaca məlumat var (f. 1, s. 123, sax. qov. 231, v. 29). "Qubadlı qəzasında Bəhlul Əfəndi adlı bir nəfər qayınatası Qasım Çələbinin müridlərindən 400 atlı ətrafına toplayaraq oktyabrın 18-də Qubadlı qəzasının mərkəzi Xanlıq kəndinə hücum etdi. O, qəzanın hörmətli adamlarına bəyannamə göndərərək, bütün müsəlmanları: sünni və şiələri ümumi düşmənləri kommunistlərə qarşı mübarizəyə çağırdı. 3 saatlıq vuruşmadan sonra banditlər kəndi də tutdular. Müridlər Xanlıq kəndində Sovet idarəsini, xüsusilə partiya idarələrini dağıtdılar... Banditlər Çaytumas kəndində bir kommunisti tutub, xeyli əzab verdikdən sonra güllələdilər. Qubadlının yoxsul kəndliləri oktyabrın 19-da silahlanaraq düşməni Xanlıq kəndindən çıxartdılar".



*SƏKKİZİNCİ FƏSİL*

## ZƏNGƏZURDA ƏKS-İNQİLABIN AZĞINLIĞI

Zəngəzur Zaqafqaziyada əks-inqilabın axırıncı yuvası idi. 1920-1921-ci illərdə Zəngəzur dağlarında qanlı vətəndaş müharibəsi qızışdı. Kommunistlər və Zəngəzurun bütün zəhmətkeş əhalisi – ermənilər, azərbaycanlılar, ruslar (Bazarçay malakanları) bu müharibədə daşnaq cəlladların bütün dəhşətli əzablarına dözməli oldular. 1919-cu ilin ikinci yarısından başlayaraq, Ermənistan daşnaq hökuməti Zəngəzuru hər vasitə ilə möhkəmləndirirdi, tez-tez buraya tağım, rota, hətta batalyon göndərirdi. 1919-cu ilin dekabr ayında hərbi nazir Dro özü böyük hərbi hissə ilə bura gəldi. O, Zəngəzura yola düşməzdən əvvəl həmin qoşunun qüdrətini Yerevanda paradda nümayiş etdirmişdi.

1919-cu ilin dekabr ayında, 1920-ci ilin yanvar və mart aylarında Dro və Njde bir-birinin ardınca üç dəfə hərbi yürüş edərək, Zəngəzurun azərbaycanlılar yaşayan kəndlilərini talan edib, qoşunlarının bir hissəsi ilə Dağlıq Qarabağa girmişdilər.

Daşnaqlar müsavat qoşunları üzərində qələbədən ruhlanaraq, 1919-cu ilin oktyabr ayında "qardaş ermənilərə kömək" bəhanəsi ilə, əslində isə müsavat hökuməti əleyhinə üsyan hazırlamaq üçün öz emissarları – Arsen Ter-Mikaelyanı (başçı), polkovnik Dəli-Qazarı və rotmistr Martirosyanı qabaqcadan Dağlıq Qarabağa göndərmişdilər. Emissarlara siyasi işçilərdən Artyom Tumyanı və Astvasatur Avetisyanı da qoşmuşdular. Bütün bu dəstə Qarabağa gəldiyi zaman daşnaqlar Zəngəzurda müsavat qoşunlarının hücumunun qarşısını dəf edirdilər və bütün Qarabağı tutmağa hazırlaşırdılar. Müsavat hökuməti də, öz növbəsində, Zəngəzuru tutmaq üçün Qarabağda hazırlıq görürdü.

Daşnaqlar Zəngəzuru və Qarabağı Kür çayına, Gürcüstanın

sərhəddinə qədər sağ sahili tamam tutmaq istəyirdilər. Bu onlara nəinki Bakını, hətta Tiflisi də qorxu altında saxlamağa imkan verərdi. Onlar, söz yox ki, Amerika imperialistlərinin köməyi ilə, özlərinin çoxdankı planlarının birinci hissəsini – "dənizdən-dənizə qədər olan Ermənistan" yaratmaq planlarını bu cür həyata keçirməyə hazırlaşırdılar. Amerikalılar isə Bakının neft sərvətlərinə daşnaqların əli ilə çatmaq istəyirdilər.

"Daşnaqlar Zaqafqaziyaya Ermənistandan girməyə başlayan Amerika imperialistlərinin agenti idi. Amerika imperialistləri Ermənistanın Türkiyə, Rusiya və İran hissələrini birləşdirib, Ermənistan üzərində ABŞ-ın "dost" protektoratlarının qurmaq fikrində idilər. Amerika diplomatlarının hesabına görə, "Böyük Ermənistan" bütün Zaqafqaziyanı tutmaq üçün ABŞ-ın işini asanlaşdırmalı idi"[1].

1920-ci il aprelin 28-də Bakıda, sonra isə bütün Azərbaycanda Sovet hakimiyyətinin qurulması Zaqafqaziyada qüvvələrin nisbətini daşnaqların zərərinə kökündən dəyişdirdi. Onlar indi Zəngəzura təbii istehkamları olan yaxın dəmir yolu stansiyası Yevlaxdan 200 kilometr aralı (Bakı – Yerevan dəmir yolu o vaxt çəkilməmişdi) və şimaldan Zəngəzurun özü kimi dağlıq Şərur – Daralagöz qəzasına bitişik rayon kimi baxırdılar. Onlar elə hesab edirdilər ki, burada yeni qüvvələr toplaya biləcəklər. Onlar bərk ayaqda bura çəkilmək, əgər Ermənistandan qovulsalar burada oturub qalmaq fikrində idilər.

Daima adını dəyişib gah "Azad Syunik hökuməti", gah "Yeni Ermənistan hökuməti", gah "Dağlıq Ermənistan hökuməti" qoyan daşnaq hökuməti, demək olar ki, Zəngəzur dağlarında heç fəaliyyət göstərmirdi.

Erməni xalqı daşnaq canilərindən gördüyü zülmü əsrlərdən bəri yadelli qəsbkarlardan görməmişdi. Daşnaqların zəngəzurda etdikləri vəhşiliklər, tarixçilərin və yazıçıların öz kitablarında təsvir etdikləri sasanilərin, çingizlərin, teymurların, osmanlıların, səfəvilərin,

[1] *SSRİ-də vətəndaş müharibəsi tarixi, c. 3, M., 1957, səh. 333.*



qacarların və digər qəsbkarların etdikləri vəhşilikləri keçmişdi[1].

Bu fəsildə təsvir etdiyim əhvalatlar fikrimizi bir daha sübut edir.

Daşnaq kapitanı Katanyan Dığ kəndinin yuxarı tərəfi ilə gedirdi. Burada evlər mərkəzdə olduğundan seyrək idi, bir-birindən xeyli aralı tikilmişdi. Kapitana elə gəlirdi ki, daşnaqların əleyhinə gizlincə və ustalıqla təbliğat aparan kommunistlər burada gizlənmişlər.

Kapitanın it burnu kimi həssas burnu təzəcə qaynadılan yaz tərəvəzinin iyini aldı. Katanyan iyləyə-iyləyə gəlib yoxsul kəndli Zaxaryanın evinə çıxdı. Doğrudan da, qazanda xıncılovuz qaynadırdılar.

Kapitan fikirləşdi: bu göyərti Dığ kəndində mart ayında hələ çıxmır. Aşağı Azərbaycan kəndlərindən gətirilibdir. Bunu ya ev sahibi gətirib, ya da kəndə azərbaycanlı gəlibdir. İstər o cür, istər bu cür, bu işdə bolşeviklərin əli var...

65 yaşlı Petros Zaxaryan və oğlu Ambarsum yeddi baş ailəni güclə dolandırırdılar. Ehtiyac başlarını elə qatmışdı ki, nə ata, nə də oğul kəndlərinin tez-tez gah bolşeviklərin, gah da daşnaqların əlinə keçməsinə də fikir vermirdilər. Həm qocanın, həm də gəncin bir fikri var idisə, o da körpələri ac qoymamaq idi.

1921-ci ilin baharında bu ailənin vəziyyəti daha ağır idi. Əvvəllər kəndlinin taxılı qurtaranda o, göyərti tez çıxan və arpa erkən yetişən Azərbaycan kəndlərinə gedir, orada borc alır, yaxud biçinçilik eləyirdi. İndi daşnaqlar yoxsulları bunlardan məhrum etmişdi.

Qoca nəvələrinin göz yaşına dözə bilmirdi. O, ac, üzülmüş körpələrə baxanda uşaq kimi ağlayırdı. O, gözü yaşlı halda oğluna təklif elədi ki, gecə daşnaqlardan xəlvət Məzməzək kəndinə gedib, uşaqlar üçün bir şey tapsın.

Qoca ilə oğlu gecə uşaqları analarının yanında qoyub yola düşdülər.

[1] Moisey Xorenski – "Erməni xalqının tarixi", Yeqişe Vartapet – "Tarix", Xaçatur Abovyan – "Ermənistan yaraları", Raffi – "İskra" və s.

Qoca yolda oğluna danışırdı:

– Anan dünyada bir xoş gün görmədi. Bədbəxt həmişə ac olardı, amma gizlədərdi. Nə vaxt soruşsam, cavab verərdi ki, "indicə yemişəm". Mən bilirdim ki, o məni yedirtmək üçün heç vaxt doyunca yemir. Həmişə mənə deyərdi: "Təki sənin canın sağ olsun, yoxsa uşaqlara çörək qazanan olmaz". Anan çoxdan ölübdür. Sənin arvadının da taleyi belədir. Oğlum, mən bilmirəm, ibadət zamanı keşiş deyir ki, dövləti də, kasıblığı da adama Allah verir. Bu, doğrudurmu? Həzrət Məryəm günahımdan keçsin!..

Qoca həyəcanlandı, susdu. Sonra sözünə davam elədi:

– Ruhanilər bizə deyirlər ki, sağ üzünə vursalar, sol üzünü çevir. Heç həmişə döyülmək olar? Niyə varlılar Allahdan qorxmurlar? Axı bizi döyən adamların çoxu savadlılar, varlılardır. Yox, əgər onlar Allaha inansalar, Allahın qəzəblənib onların var-dövlətlərini əllərindən alacağından ehtiyat eləsələr, heç vaxt belə eləməzlər. Sonra məgər varlı adam, onu bir dəfə vuran adamdan intiqam almırmı? Əgər birisi cürət edib onu vursa, varlı nəinki onu döyər, hətta öldürər!

Qoca danışdıqlarından dəhşətə gələrək, əllərini göyə qaldırıb Allaha yalvardı, rəhm dilədi.

1921-ci ildə Azərbaycan tarlalarında taxıl bol oldu. Məzməzəklilərin də taxılı çox idi. Bu kənddən olan Saleh Məhəmməd Həsən oğlu öz kiçik torpaq sahəsindəki ağac kötüklərini çıxarırdı ki, payızda şumlayıb, taxıl əksin. Kötük çıxarmaq ağır işdir. Saleh heç vaxt kötük çıxarmamışdı. Məzməzək kəndində heç kəs bu işin təhərini bilmirdi...

Səhər ertə Petrosla Ambarsum Salehin yanına gələndə o çox sevindi. Salehlə Petros çoxdan dost idilər.

– Allah saxlasın, Saleh!

Müsəlman etiqadına görə ən yaxın erməni dostuna belə rast gələndə "Salaməleyküm" demək olmazdı. Ermənilər və müsəlmanlar bir-birini görəndə "Allah saxlasın!" deyirdilər.

Saleh Petrosla Ambarsumun arıq, solğun sifətini görəndə tez ayağa düşdü, arvadına dedi:



– Tez ol, qonaqlara yemək ver. Görünür, onlar bütün gecəni yol gəlib yorulublar, acdırlar.

Petros çörəyini yeyəndən sonra Salehə dedi:

– Allahdan gizlin deyil, səndən niyə gizlədim? Külfətimiz acdır, Saleh. Bizə əl tuta bilməzsən?

– Petros, istəyirsən sənə üç-dörd pud un, taxıl verim? Yüklə mənim atıma, apar.

Petros öz-özünə fikirləşdi: "Atı mən necə aparım ki, daşnaqlar görməsin?" Sonra dedi:

– Yox, Saleh bu mümkün olan şey deyil!

– Niyə?

– Daşnaqlar bizi güllələyərlər!

– Bəs bura necə gəlmisiniz?

– Doğrudanmı başa düşmürsən? Xəlvət gəlmişik...

– Petros, sənə deməliyəm ki, daşnaqlar yaxşı adamlar deyil.

– Məgər mən deyirəm onlar yaxşı, ya pisdirlər...

– Bəli, sən haqlısa, Petros. Bizim nəyimizə gərəkdir, necə istəyirlər, qoy elə də idarə eləsinlər, təki dava olmasın...

– Saleh! Sənin də, Ambarsumun da canına and olsun, mən heç bir işə qarışmıram! Mənim bircə qayğım var: nəvələrimi bir təhər yedirib, böyüdüm.

– Mən də heç bir işə qarışmıram, Petros. Bizdə də müsavatçılar ağalıq eləyirdilər, indi də bolşeviklər gəlib. Onlar kəndliləri çağırıb, iclas eləyirlər. Amma mən getmirəm, heç nə də danışmıram: nə leyhinə, nə də əleyhinə. "Hə" deyəcəksən – sonra başqaları gəlib soruşacaq: "Niyə o vaxt bolşeviklərin tərəfini saxlayırdın?". "Yox" deyəcəksən – xoşlarına gəlməyəcəksən. Yaxşısı budur, nə leyhinə ol, nə də əleyhinə. Belə deyilmi, Petros?

– Səndən çox xahiş edirəm, Saleh, bizə bir pud un ver. Oğlumla dalımızda apararıq. Sizin çöldən də bir az xıncılovuz yığıb gedərik.

Salehin arvadı Petrosa dedi:

– Petros kirvə! Bəlkə bir az da yuxa salım? Evə çatan kimi uşaqlara verərsiniz. Uşaqlar axı dözümsüz olur...

Arvad bu sözləri deyib ağladı.

– Çox sağ ol, Məsmə! Bilmirəm, sizdən necə razılıq eləyim! Uşaqlar sevindiklərindən atılıb-düşəcəklər.

Gecə Petros və Ambarsum Zaxaryanlar un, çörək və xıncılovuz yüklənib Məzməzəkdən Dığ kəndinə yollandılar.

Kapitan içəri girəndə ac uşaqlar oturub, yemək gözləyirdilər. Qoca ilə oğlu ayağa durub, təşviş içərisində bu caninin nə buyuracağını gözlədilər. Kənddə keşik çəkən bir neçə əsgər də kapitanın arxasıca içəri girdi.

Kapitan əmr elədi:

– Onların ikisini də götürün!

– Kapitan, bizi bağışlayın, uşaqlar ac idi...

– Rədd olun! – deyə daşnaq, qocanın sözünü kəsdi. O çəkməsinin burnu ilə qazanı vurub aşırdı. Kapitan bilirdi ki, o gedəndən sonra xıncılovuzu yerdən yığıb yeyəcəklər. Ona gorə göyü taptaladı.

Petros oğluna dedi:

– Yaxası ac uşaqların əlində qalmış, çörək qazanını itirmiş, heç bir yerdən köməyi olmayan ananın dərdini bu adam çətin başa düşər! O, anasız, balasız yırtıcıdır!

Kapitan stolun arxasında əyləşmişdi. Ata ilə oğul isə onun qarşısında dayanmışdılar.

– Hansı kəndə getmişdiniz?

– Məzməzəyə...

– Sizi ora kim göndərmişdi?

Petros cavab verdi:

– Ac uşaqlar, cənab kapitan...

– Mən səninlə zarafat eləmirəm! De görüm, səni bolşeviklərdən kim ora göndərmişdi?



– Cənab kapitan, bizim kənddə bir nəfər də olsun bolşevik yoxdur. Əgər varsa da, mən tanımıram.

– Qocanı aparın! – deyə kapitan əmr elədi və oğlu danışdırmağa başladı.

– Sən cavansan. Görməli günün qabaqdadır. Əgər sizi Məzməzəyə kimin göndərdiyini, bolşeviklərdən orada kimi gördüyünüzü, onlardan nə xəbər gətirdiyinizi desən, təqsirindən keçərik.

– Cənab kapitan, sizin canınıza and olsun, biz bir nəfər də bolşevik tanımırıq. Uşaqlarım acdır! Biz ora bir tikə çörək tapmağa getmişdik. Siz hökumətsiniz, amma bizə çörək vermirsiniz, aclara kömək eləmirsiniz...

– Demək, çörəyi sizə bolşeviklər verdilər?

– Xeyr! Çörəyi biz özümüz qazanmışıq. Biz bütün günü kəsilmiş iri ağacların kötüklərini çıxarıb, yarım pud un almışıq. Xıncılovuzu da çöldən yığmışıq.

– Kimin yerində kötük çıxarırdınız?

– Kəndli Salehin...

– Səhərəcən fikirləşin. Yaxşı fikirləşin. Əgər düzünü deməsəniz, sizi güllələyəcəyik...

Ertəsi gün səhər ata ilə oğulu yenə kapitan Katanyanın yanına gətirdilər. İstintaq gedən meydançanı əsgərlər araya almışdılar. Əsgərlərin arxasında kəndlilər dayanmışdılar. Kapitan elan elədi ki, hər iki Zaxaryan güllələnəcəkdir. Sonra əlavə elədi:

– Əgər onlardan biri o birisini öldürsə, ikincisini bağışlayacayıq, sağ qalacaq.

İzdiham susurdu.

Qoca Petros kapitana müraciətlə dedi:

– Siz nədən ötrü məni oğlumla güllələtmək istəyirsiniz? Təqsirimiz nədir? Siz, uşaqlarına çörək qazandığına görə adam güllələmək istəyirsiniz?

– Kəs səsini! Yoxsa ikinizi də güllələrlər!

Qoca oğluna dedi:

– Ambarsum, mənim yaşım ötüb, amma sən cavansan, külfət sənin əlinə baxır. Götür tüfəngi, məni vur.

Ambarsumun gözləri qaraldı. O, ağlını itirmiş adam kimi dayanmışdı. Dəli adamlar kimi onun fikri özündə deyildi. O nə eşidirdi?.. Harda görünüb ki, oğul atasını vursun? Yox, yəqin, səhv eşidib! Bəli, bəli... o, qorxulu yuxu görür, bu saat ayılacaqdır, hər şey keçib-gedəcəkdir.

Kapitan tüfəngi ona uzatdı:

– Al, atanı vur, ya da o səni vursun. Mənim üçün fərqi yoxdur.

Ambarsum kapitanın səsinə ayıldı. Çaşqın halda atasına baxdı. O, dəhşətli həqiqəti yalnız indi dərk elədi.

– Ata, mən bacarmaram! Sən məni öldür! Sənin ürəyin bərkdir, sən dözə bilərsən.

Kapitan cavab gözləyirdi. İzdiham susur, heç kəs səsini çıxarmırdı.

– Oğlum, nə danışdığını düşün! Məgər ata doğma balasını öldürə bilər? Dünya elə yaranıb ki, oğul atanın ölümünə asan dözür, nəinki ata oğulun.

Ambarsumun başı gicəlləndi. Onun başı getdikcə aşağı əyildi. Qoca onun vəziyyətini görüb qəzəblə ucadan dedi:

– Ambarsum! Allahın buyruğu belədir ki, oğul atasının ölümünü görsün. Ata – oğul üçün keçən gündür, oğul isə atanın gələcəyidir. Oğul gərək atanın yerini tutsun.

Ambarsum sakitcə dedi:

– Al-la-hın bu-y-ru-ğu... Al-lah nə əd-al-ət-sizdir...

Kapitan tüfəngi ona verdi. İki zabit onun yanında dayanmışdı. Tüfəng dolu idi, yalnız tətiyi çəkmək lazım idi. Ambarsum tətiyi çəkdi. Güllə açıldı. Lakin qoca hələ ölməmişdi.

Kapitan qılıncını qınından çıxarıb, Ambarsuma verdi ki, atasını doğrasın. Qoca ağrıdan inləyirdi. O huşunu itirdi.

Ambarsum əlləri əsə-əsə qılıncı aldı. Lakin saxlaya bilmədi. Qılınc əlindən yerə düşdü.

Kapitan təzədən qılıncı ona verdi və mauzeri qaldırıb dedi:

– Doğra! Yoxsa güllələyəcəyəm!



Lakin qılınc yenə Ambarsumun əlindən düşdü.

Kapitan qılıncla qoca Petros Zaxaryanı şaqqalayıb öldürdü.

1918-ci ildə aydınlıq bir yay gecəsi cavan kəndli İsmayil Gornidzordan Cicimliyə gedirdi. O, Ağsu çayının qırağına çatanda bir dəstə silahlı adamın mal-qara apardığını gördü. İsmayıl başa düşdü ki, qaçaqlar hansı kəndinsə mal-qarasını gecə örüşündən qovub aparırlar. İsmayıl yavaşdı.

Çayın yaxınlığındakı dikdə o xəlvətcə qaçaqlara yaxınlaşıb, onların söhbətinə qulaq verdi. İsmayıl bu sözləri eşitdi:

– Yaxşı oldu ki, mal-qaranı aparmağımızı naxırçı bilmədi.

– Yəqin hələ də kolun dibində yatır...

İsmayıl əyilərək öküzlərin arasına girdi. İndi qaçaqların danışığını daha aydın eşidirdi.

– Öz aramızdır, yaxşı öküzlərdir... Doğrusu, Gornidzor ermənilərі yaxşı öküz saxlayırlar... Bu öküzlər çox yaxşı yer şumlayır.

– Bunlar hamısı doğrudur. Ancaq onların sahibi sabah cütə nə qoşacaq? Biz on iki öküz apardıq!

İsmayıl öküzlərin kimin olduğunu başa düşdü. O, qaçaqların adını eşitmişdi, öküzləri harada gizlədəcəklərini bilirdi. İsmayıl yolun o biri tərəfinə keçib yavaşca öküzlərin arasından çıxdı, qayanın dalında gizləndi. İsmayıl qayanın dalından çıxanda qaçaqların biri onu görüb qışqırdı:

– Dayan, vurdum!

İsmayıl geri, çaya tərəf qaçdı. Qaçaq güllə atmadı, qorxurdu ki, Gornidzorda güllə səsini eşidərlər, atışma başlanar.

Qaçaqlar öküzləri Cicimli kəndinin yaxınlığındakı samanlığa salıb, ağzını da bərk-bərk bağladılar. Sonra yoldaşlarının birinin evinə toplaşıb, vəziyyəti müzakirə etməyə başladılar.

– Bu saat Cicimli kəndində bütün evləri yoxlamaq lazımdır, onda kimin kənddə olmadığı aydın olar.

– Doğrudur, kim evdə olmasa, demək, sən yolda gördüyün adam odur.

Bir qədər sonra qaçaqlar bildilər ki, İsmayıl kənddə yoxdur. Kənd camaatı İsmayılı oğurluğu, soyğunçuluğu sevməyən, ümumiyyətlə, zorakılığa dözməyən bir adam kimi tanıyırdı. Yolda gördükləri adamın İsmayıl olduğuna qaçaqların heç birinin şübhəsi qalmadı.

– Öküzlərin yerini dəyişmək lazımdır. Biz öküzləri hara aparacağımız haqda yolda axmaq-axmaq danışdıq. Yəqin, o hər şeyi eşidib... Yəqin indi, öküzlərin aparıldığını Gornidzorda da bilirlər...

Bu vaxt İsmayıl ehtiyatla Cicimli kəndinə yaxınlaşdı. Gecə aydınlıq idi, ona görə o, çaya tərəf qaçanda qaçaqların öküzləri qovduqlarını gördü. İsmayıl başa düşdü ki, onlar oğurluqlarını görən adamın kim olduğunu tapmağa çalışırlar. İsmayıl pəyənin dalına girib, oğruların öküzləri harada gizlətdiyini gördü. İndi Gornidzora qayıtmaq olardı.

Ertəsi gün səhər tezdən cicimlilər kəndin kənarında böyük bir dəstə silahlı gornidzorlu gördülər. Kəndə çaxnaşma düşdü. Bu gecə Cicimlidə gecələmiş qaçaqlardan başqa, heç kəs bilmirdi ki, nə olub. Kişilər o saat silahlandılar. Arvadlar uşaqlarını götürüb evdən qaçdılar.

Silahlanıb gələnlərin içərisində Karapet Muqumantsın səsi bütün kəndə yayıldı.

– Gecə qaçaqlar öküzlərimizi aparıblar. Biz malımızı tapmışıq. Ağsaqqallarınız yanımıza gəlsinlər. Qalanlar evlərinə getsinlər. İnanın ki, bizim pis fikrimiz yoxdur...

Arvadlar və uşaqlar evlərinə qayıtdılar. Ağsaqqallar sakitcə silahlı ermənilərin yanına getdilər.

– Mərdimazarın evini Allah yıxsın!..

– Bu köpək oğlanları axırda bizim evimizi yıxacaqlar.

– Mən dedim, yəqin, başlandı.

– Arvad-uşaq yaman qorxdu.

Cicimli qocaları bu cür danışa-danışa gornidzorluların yanına gəldilər. Sonra hamısı bir yerdə samanlığa getdilər. Bir-birinə çatılmış on iki öküz burada idi.

Karapet Muqumants üzünü ağsaqqallara tutub soruşdu:

– Bu cür öküzləri şumdan ayırmağa kimin vicdanı yol verib?



Cicimli ağsaqqalı dedi:

– Ay Karapet! O adamın ki ürəyi yoxdur. Sən öl, mən elə bildim ki, bizə hücum edəcəksiniz. Bunlar hamısı cəhənnəmə, ancaq dava olmasın. Yoxsa arvad-uşaq ayaq altında itib batar.

– Elə-belə şeylərin üstündə dava da ola bilər. Qaçaqlarınızın qabağına durun! Yoxsa biz də özümüzküləri saxlaya bilmərik.

– Ay Karapet, sən elə danışırsan, guya mən onları saxlaya bilərəm.

– Sən, tək yox, qocaların hamısı. Doğrudanmı gücünüz çatmır?

Gornidzorlular öküzlərini götürüb kəndlərinə qayıtdılar.

Bir neçə gün keçdi. İsmayıl Gornidzordan qayıdırdı. Qəflətən bir neçə gün bundan qabaq özünün gizləndiyi qayanın dalından güllə açıldı. Güllə gəncin sol qoluna dəydi, ancaq sümüyü zədələmədi. İsmayıl havanın duman olmasından istifadə edərək Gornidzora qayıtdı.

Bütün Zəngəzurda məşhur olan cərrah Qalust həmin axşam onun yarasını yuyub yaxşı-yaxşı sarıdı və dedi:

– Oğlum, yaxşı olar ki, sən heç Cicimliyə qayıtmayasan. Birtəhər elə, burada qal. İstəyirsən, mən səni müftə müalicə eləyim?

– Sağ ol, Qalust əmi, burda qalacağam.

O, atasının dostu Poqos Bacyanın evində qaldı.

İsmayıl cərrahın yanından çıxanda, evin qabağında cavan, gözəl bir qadın dayanmışdı. Bu dul Sofiya idi.

– Salam, Sofiya.

– Salam, İsmayıl. Sən niyə mənim adımı yarımçıq deyirsən?

– Necə yəni yarımçıq deyirəm?

– Axı sən qızların, arvadların hamısına: Anuş bacı, Məryəm bacı deyirsən. Mənə niyə Sofiya bacı demirsən?

İsmayıl pis vəziyyətdə qaldı. Axı o, qəsdən Sofiyaya bacı demirdi. Axı Sofiya onun xoşuna gəlirdi. Ancaq bilirdi ki, bu iş baş tutmaz...

Sofiya qonşu arvadlarla görüşəndə çox vaxt onlara deyirdi:

– İsmayılın heç kəsi – nə atası, nə anası, nə də qardaşı var. Təktənhadır. Qalust əmi onu dilə tutub burada saxlamaqda düzgün elədi. Yoxsa öldürərdilər.

Bir dəfə İsmayıl cərrahın yanına gələndə, sarığını Sofiya özü açıb, yarasını yuyub təmizlədi.

– Sofiya, sən, demə, həkimlik də bilirmişsən!?.

– Nə danışırsan, İsmayılcan. Mən əmimə kömək eləyirəm. Həkimliyi hələ bacarmıram.

Sofiya qeyri-iradı İsmayıla “can” dedi. Ona görə utanıb qıpqırmızı oldu. Bu, İsmayılı həyəcanlandırdı.

– Soruşursan ki, sənə niyə “bacı” demirəm?..

İkisi də başa düşdü ki, bir-birini sevirlər.

Qalust əmi içəri girdi.

– İşlər necədir, Sofiya? Aha, sarğısını acıbsan?

– Bəli, əmi. Bir baxın, yarası sağalır...

Qalust yaraya dərman qoyub, Sofiyaya tapşırdı ki, sarısın, özü isə otaqdan çıxdı.

Sofiya dedi:

– İsmayıl, deyirlər ki, sizin müsəlmanlardan bir şeyx istədiyi xaçpərəst qızını almaq üçün xristian dinini qəbul etmiş, hətta bir neçə il donuz otarmağa da razı olmuşdur. Bu doğrudur?..

– Doğrudur, belə bir şey olubdur. Bəs sən bunu hardan bilirsən?

– Keşiş kilsədə danışırdı...

– Sən nə danışırsan, Sofiya can? Deməк, bu biabırçılıq mənim də başıma gələcək?..

Sofiya ilə İsmayılın sevişdiyini bir neçə gündən sonra bütün kənd bildi. Əlbəttə, bunu hamıdan əvvəl təcrübəli, hər şeyi görmüş Qalust hiss eləmişdi.

– İsmayıl, bir bəladan qurtarıb, ikincisinə düşmüsən. Bir qərara gəlmisən, ya yox?..

Qocanın nə dediyini İsmayıl başa düşdü.

– Yox, Qalust əmi,hələlik heç bir qərara gəlməmişəm. Heç özüm də bilmirəm nə eləyim...

– Bax, özünü gözlə. Daşnaqlar səni rahat qoymazlar. Onlar yırtıcıdırlar. Qorxuram, səni öldürsünlər.

– Sən nə məsləhət görürsən, bəs nə eləyim?

– Madam ki, bir-birinizi sevirsiniz, Sofiya ilə evlən.

İsmayıl məəttəl qaldı.

– Bu mümkün deyil, Qalust əmi!

– Niyə?

– Məgər erməni qızı müsəlmana ərə gedə bilər?

– Onda sən erməni ol, xristianlığı qəbul elə...

İsmayıl diksindi.

– Sən nə danışırsan, Qalust əmi, rüsvay olaram...

– Eh, mənim əzizim, sən çox şeyi bilmirsən. Müsəlmanların belə bir mahnısı var, xanəndələr oxuyur. Bir qulaq as:

Çıxdım dördüncü göydə tapım
Həzrəti Məryəm oğlu İsanı.
Şikayət eləyim o şuxi tərsandan İsaya.
Deyim, axı sən peyğəmbərsən,
Özün eylə bu divanı.
Məni ya erməni eylə, –
Edim məskən kəlisanı.
Və yainki ona qaytar ver dini İslamı.

Qalust əmi gülümsəyərək sözünə davam elədi:

– Ancaq sən, İsmayıl, nə göyə qalxa bilərsən, nə də İsanı taparsan. Bunu sənə mən bir erməni kimi, Sofiyanın qohumu kimi deyirəm. İndi səninlə, xristianla müsəlman arasında fərq qoymayan bir adam kimi danışacağam. Mənə qulaq as. Din – istər İslam, istərsə də Xristianlıq olsun – insanlar üçün çox böyük maneələr yaradıb. Dinə etiqad insanları bədbəxt eləyir. Buna görə də sənə deməliyəm ki, mən nə xristianlığı, nə də Məhəmmədin dinini qəbul eləmirəm. Mən əminəm ki, nə Allah, nə də Məryəm olub. Bunların hamısı zülmkar varlıların uydurmasıdır. Əlbəttə, mən bunu adamlara açıq deyə bilmərəm. Məni

daşqalaq elərlər. Lakin adamların çoxu dinin insanlara vurduğu böyük ziyanı yaxşı başa düşürlər. Hamıdan əvvəl bunu rus xalqı başa düşdü. Onlar istismarçılardan və din xadimlərindən yaxa qurtardılar. Tezliklə bolşeviklər burda da, bizdə də qələbə çalacaqlar. Mən, gördüyün kimi qocalmışam. Amma siz cavansınız... Sovet hakimiyyətini görəcəksiniz. Oğlum!.. Siz cavanlar bədbəxt olmamaq üçün mən sənə məsləhət görürəm ki, rəsmiyyət xatirinə xristianlığı qəbul elə və Sofiya ilə evlən.

Yoxsa bu vəhşi daşnaqlar yəqin, səni öldürəcəklər. Sən Cicimliyə də qayıda bilməzsən.

Sofiya həmin gün İsmayılla görüşdükdə, əmisi ilə olan söhbətin necə qurtardığını və onun nə qərara gəldiyini soruşdu.

– Bilmirəm, Sofiya, bilmirəm sənə nə cavab verim?..

– Əgər biz Cicimlidə yaşaya bilsəydik, mən səninlə ora gedərdim.

– Bizim İslam dinini də qəbul edərdin?

– Bəli. Sən bilirsən, bizim Xınzirəkdə bolşevik qohumlarımız var. Onlar deyirlər ki, əgər iki cavan bir-birini sevirsə, evlənmək istəyirlərsə, evlənə bilərlər. Bir də deyirlər ki, tezliklə Sovet hakimiyyəti qurulacaq! Onda hamı dindən azad olacaqdır. O zaman biz də səninlə azad olacağıq.

– Sofiya, sən lap savadlı adam kimi danışırsan.

– Mən savadlı deyiləm, əzizim. Bolşeviklərdən eşitdiyimi sənə deyirəm. Sən də, mən də bolşevik olacağıq. Bax, görərsən, olacağıq...

1920-ci ildə kommunistlər İsmayıl Nuru oğlu Musayev və Sofiya Teluns Sovet hökumətini əks-inqilabdan mərdliklə müdafiə elədilər. İsmayıl silah götürüb partizanlara qoşulmuşdu. Sofiya isə Gornidzor qadınları arasında təbliğat işi aparırdı.

1920-ci il noyabrın ikinci yarısına XI Qızıl Ordu hissələri müvəqqəti olaraq Gorusdan Qarabağa çəkildi. Çoxlu kommunist və partizan da onlarla getdi. İsmayıl Gornidzor partizanları ilə onların kəndlərinə gedirdi. Kəndi hələ daşnaqlar tutmamışdılar. İsmayıl



partizanlara qoşulub Dığ kəndindən çıxıb gedə bilərdi. Lakin o öz sevimli Sofiyasını qoyub gedə bilmirdi. Axı Gornidzor daşnaqları Sofiyanı öldürə bilərdilər.

Gornidzora az qalmışdı. Qaranlıq çökürdü. İsmayılla Nikolay Babacanyan dərə ilə gedirdi. İkisi də təpədən dırnağa islanmışdı. Bərk yağış yağırdı.

Babacanyan nigaran idi, tez-tez ətrafa boylanırdı.

– Qorxuram, biz çatanacan daşnaqlar kəndə girsinlər. Bəlkə də, indi oradadırlar.

İsmayıl nigarançılığını gizlədib, onu sakitləşdirmək üçün dedi:

– Nə danışırsan, Nikolay, mütləq çatacağıq. Daşnaqlar hələ çox uzaqdadırlar...

Birdən irəlidə güllə atıldı. İkisi də tüfənglərini çiyinlərindən çıxarıb, hazır tutdu.

Qabaqdan kiminsə kobud səsi eşidildi:

– Dayan!

İsmayıl həyəcanla düşündü: "Gornidzor lap yaxındadır... Doğrudanmı, Sofiyanı görməyəcəyəm". Bu vaxt ağacın arxasından bir neçə güllə atıldı. İsmayıl yıxıldı. Nikolay güllə atmağa başladı, lakin cavab atəşi eşitməyib dayandı, inləyən İsmayılın üzərinə əyildi.

– Ağır yaralanmısan?

– Nikolay, hava çatmır, boğuluram.

– Özünü ələ al. Bu saat yaranı sarıyaram...

Gecənin qaranlığında Nikolay yoldaşının yarasını bağladı. O elə bilirdi ki, bununla qanaxmanın qarşısını ala biləcək...

Güllə səsinə kənddə Sofiya diksindi. O, hər dəqiqə İsmayılın yolunu gözləyirdi. Ancaq birdən onun gözlədiyi tərəfdə atışma başlandı. Sofiya şalını çiyninə atıb evdən çıxdı, səs gələn tərəfə qaçdı. Qaça-qaça Sofiya fikirləşirdi: "Bəlkə, güllə ona atılmayıb? Niyə özümü belə öldürürəm?! Yox, yox! Güllə ona atıldı! Mən bilirəm... Bu vəhşi daşnaqlar hamıdan əvvəl mənim İsmayılımı öldürəcəklər. Bəlkə də, indi öldürüblər!" – Sofiya beləcə düşünür, cığırla sürətlə qaçırdı.

Aşağıdan onun qulağına inilti səsi, sonra kminsə boğuq danışığı gəldi. Qadın yerindəcə donub qulaq asmağa başladı.

– Nikolay onsuz da mən ölürəm. Məni qoy get... Tez get, Sofiyanı qurtar...

Sofiya irəli qaçdı, qalın kolların qarasından keçib, dərəyə endi. Nikolay əlində qana boyanmış dəsmal İsmayıla tərəf əyilmişdi. Sofiya Nikolayı kənara itələyib, ərini qucaqladı.

– Qoyaram öləsən? Yaxşısı budur, mən ölüm. Səni evə aparıb çatdırmağa gücüm çatar. Boynumdan tut, tez ol...

İsmayıl sevgilisinin səsini eşidib, bütün gücünü topladı, qalxıb qaranlıqda Sofiyanın boynunu qucaqladı.

– Sofiya, əzizim... Sən hardan gəlib çıxdın? Nə bildin ki, mən buradayam?

– Sus, sus, danışma, heç nə də soruşma. Özüm bura qaçıb gəlmişəm. Başa düşürsən? Atışma səsini eşitdim, qaçıb gəldim...

Yağış kəsdi. Səma açıldı. Ay hər üçünün üzünü işıqlandırırdı. İsmayıl gözünü sevgilisinin üzündən çəkmirdi. O xoşbəxt idi... Ancaq getdikcə nəfəsi təngişirdi...

İsmayıl çətinliklə dedi:

– Nə yaxşı oldu... gəldin. Axırıncı dəfə səni gördüm...

– Sus, danışma, elə demə. Sən ölməyəcəksən, sən bir kimsəyə pislik eləməmisən. Sən yaşamalısan...

İsmayıl güclə sözünə davam elədi:

– Sənin arzun yerinə yetdi, biz ikimiz də bolşevikik!.. Bolşeviklər isə, özün bilirsən, xalq üçün hər şeyi qurban verməlidir. İndi mən özümü qurban verirəm, sən isə ərini...

– O nə danışır!? Eşidirsiniz, o nə danışır!?. – Sofiya Nikolayın üzərinə atıldı, Nikolayın yazıq-yazıq baxdığını görüb, yenidən İsmayılın qarşısında diz çökdü. – Sən heç nəyin fikrini eləmə, İsmayıl! Eşidirsən?.. Sənin belə danışmağa haqqın yoxdur! Biz hələ çox, çox yaşayacağıq! İnanırsan? Eşidirsən?

Keçəl dağdan gələn buludlar Gornidzor çöllərini yenidən zülmətə



qərq elədi. İndi İsmayılın sifəti görünmürdü. O, son dəfə dərindən nəfəs alıb dedi:

– Məni qoyun, tez çıxıb gedin. Məni basdırmaq lazım deyil... Gedin...

İsmayıl huşunu itirdi. Bir neçə dəqiqədən sonra keçindi.

Sofiya Teluns kənddən tez çıxıb gedə bilmədi. Sabahı Poqos Bacuns ona dedi:

– Evdən heç yerə çıxma. Daşnaqlar kənddə hakimiyyəti əllərinə alıblar. Kommunistlərin, demək olar, hamısı dünən çıxıb gediblər. Onlar səni mənə tapşırıblar. Deyiblər səni hara aparım... Ancaq indi mümkün deyil. Bir az gözləməli olacağıq.

– Poqos əmi, İsmayılı gecə dəfn elədik...

– Bilirəm, qızım. Nikolay dedi. Onu kim öldürüb? Bilmədiniz?

– Xeyr! Çox qaranlıq idi. Nikolay atəş açmağa başlayanda heç kəs ona atəşlə cavab verməyib. Yəqin, qorxublar ki, öldürər. Qaçıblar.

– Sofiya, bir də sənə deyirəm, evdən bayıra çıxma.

Sofiya bir neçə həftə idi ki, Poqosun evindən çıxmırdı. Onun öz evini daşnaqlar dağıtmışdı. Daşnaqlar bilirdilər ki, Sofiya Poqos Bacunsun evində gizlənmişdir. Lakin Poqosun camaat arasında böyük nüfuza malik olduğunu bilirdilər. Ona görə də xalqı özlərindən narazı salmaq istəmirdilər. Lakin onlar bu bolşevik qadına divan tutmaq üçün fürsət axtarırdılar. Axırda daşnaqların səbri tükəndi, onlar Sofiyanı güllələmək üçün Gorusa yazıb, əmr verilməsini tələb etdilər. Daşnaq hökuməti Sofiyanı kəndin özündə güllələmək barədə sərəncam verdi. Bunun üçün Gorusda əks-kəşfiyyat işçisi Keton Arzumanovu və Baxış Xoznavarskini Gornidzora göndərdilər.

Bu iki nəfər bir dəstə əsgərin müşayiəti ilə Poqos Bacunsun evinə soxuldu. Ev sahibi onları görəndə özünü itirdi. Bacunsu xataya salmamaq üçün Sofiya özü Xoznavarskiyə yaxınlaşdı və cəsarətlə adını dedi. Əsgərlər onu Poqosun evindən apardılar.

Elə həmin gün daşnaqlar günortadan sonra Sofiyanı bütün kəndliləri topladıqları meydançaya gətirdilər.

Sofiyanı ağaca sarıdılar. Daşnaq Stepan Davdyan, Əsri Əsriyan və Asatur Həsrətyan ondan bir neçə addım aralıda dayanmışdılar. Ketonla Baxış dustağın yanında durmuşdular. Onlar Sofiyaya bəzi suallar verəcəkdilər.

Keşiş Sofiyaya yaxınlaşdı.

– Ölümdən qabaq təqsirini boynuna al! Müqəddəs Məryəm günahını bağışlar.

Sofiya daşnaqların keşişi bura nə üçün gətirdiklərini başa düşürdü. Onlar fikirləşirdilər ki, kommunist qadın "Mən Allaha inanmıram", – deyəcək və keşişi qovacaqdır. Bunu görən xalq isə Sofiyadan üz döndərəcəkdir.

Lakin Sofiya nəzakətlə keşişə cavab verdi:

– Dini qəbul etməkdə hər kəs azaddır. Biz bolşeviklər heç bir gizli qüvvəyə inanmırıq, heç kəsi öz dinindən üz döndərməyə də məcbur etmirik.

Ketonla Baxış soruşdular ki, ölümqabağı o nə demək istəyir.

– Siz, daşnaqlar öz quldur hakimiyyətinizi yalnız Zəngəzurda saxlaya bilmisiniz. Ancaq bir az gözləyin. Tezliklə Qızıl Ordu qayıdıb, sizə divan tutacaq. Sovet hakimiyyəti, zəhmətkeşlər hakimiyyəti bütün Zaqafqaziyada qalib gələcəkdir. İndi məni güllələyin! Cəlladlar!

Üç daşnaq gülləsi mərd bolşevik qadının şərəfli həyatına son qoydu.

Bu oçerkdə təsvir olunan əhvalatlar barədə bizə, qəza partiya komitəsinə məlumatı partizan dəstəsi komandiri Nikolay Ayriyan və Avanes Akopyan göndərmişdi. Bu məlumatları Gornidzor kəndi yaxınlığında cəbhə xəttini keçib gələnlər gətirmişdilər. Sonralar bütün bu məlumatların doğruluğu tamam təsdiq olundu.

Hamının hörmət elədiyi, müsəlmanların Zilan Xaçi çağırdığı xınzirəkli Xaçatur Silanyan bizim Gürcülü kəndinə tez-tez gəlirdi. Xaçatur bizim kənddə düzlüyü ilə onun özü kimi ad çıxartmış



kəndlimiz Xankişi Ağakişi oğlugilə gəlib gedirdi.

Xankişinin üç oğlu, bir qızı, Xaçaturun isə üç qızı, bir oğlu var idi.

Xankişinin bütün ailəsi sonbeşik gözəl, incəbel qızları Nubarı çox sevirdi. Qızı öz kəndliləri, çox şən, gülərüz, zəhmətsevər Rəhmana ərə vermişdilər. Onlar bir-birini çox sevirdilər, çox firavan yaşamasalar da, özlərini xoşbəxt hesab edirdilər.

Rəhman da Xankişi kimi bəylərlə mübarizədə fəal iştirak edirdi, sonra isə kommunist oldu.

Xaçaturun ailəsində hamı ağıllı, gözəl oğulları Hayqın üstündə əsirdi. Bacıların üçü də, xüsusən kiçik bacıları Şuşanik onu çox sevirdi.

Xaçatur çox çətinliklə oğluna orta təhsil verə bilmişdi. Hayq Bakıda realnı məktəbi qurtarmışdı, indi kənddə müəllimlik eləyirdi. O da bolşeviklər partiyasının üzvü və Xınzirək partiya təşkilatının rəhbərlərindən biri idi.

1920-ci ildə Hayq təşkilatın digər rəhbərləri ilə birlikdə kommunistləri silahlandırıb üsyan qaldırdı. Kəndlilərin mitinqində inqilab komitəsinin tərkibi elan olundu. Hayq komitənin sədri seçildi[1].

Lakin elə həmin gün qoşunu ilə Dağlıq Qarabağdan çəkilən general Dro gəlib Gornidzorda dayandı. Xınzirək inqilab komitəsi ona ultimatum verdi, təklif etdi ki, qan tökməmək üçün Dığ kəndində bütün silahları təhvil versin. Süvari orduya səfərbərliyə alınmış zəngəzurluları buradaca ordudan buraxsın (süvari qoşun, əsasən, gəlmələrdən təşkil olunmuşdu). Özü isə öz süvari ordusu ilə Zəngəzurun ərazisindən çıxıb getsin.

Ultimatuma cavab olaraq, Dro süvari qoşunu Xınzirəyin üstünə yeritdi. Kəndi tutdu. Sabahı gün, mayın 28-də Dro məktəbin qabağında İ.Ehtibaryanı və B.Qaragözyanı güllələdi.

Üsyanın Dığ kəndində olan iştirakçıları – Avanes Akopyan, Sergey Ohacanyan və Hayq Barxudaryan bağda gizlənmişdilər. Onlar və bir

[1] İnqilab komitəsinin tərkibinə aşağıdakılar daxil idi: Abel Qavalyan, Arsen Maysuryan, Artun Tataryan, Qaragin Sailyan, Baqrat Qaragözyan və İsgəndər Ehtibaryan.

dərədə gizlənmiş Xınzirək kommunistləri axtarıb gizli qəza partiya komitəsini tapdılar. Qəza komitəsinin sədri Akop Kamari və qəza komitəsinin üzvləri Xristofor Mkrtıçyan, Makiç Maşurov Goru kəndində bağda gizlənmişdilər. Qəza komitəsinin üzvü Yerem Bakuntsı isə Kərəvinc gizli partiya işçiləri kommunist Vazgen Melkumyanın evində gizlənmişdilər.

Daşnaqlar kənddə terroru gücləndirdilər. Ona görə kahalarda və qayalıqlarda gizlənmiş yoldaşlara çox çətinliklə yemək aparmaq mümkün olurdu.

Hayq Silanyanın bacısı Şuşanik Xınzirəkdə hörmətli adam olan Artyom Gülzaryansın oğluna ərə getmişdi.

Başqa bacılar kimi, o da ərinin ailəsindən gizlin, dərədə gizlənmiş qardaşına tez-tez yemək aparırdı.

Bir dəfə xəlvətcə əri Qaragin İsayeviç Sailyana yemək aparmış Manuşak Sailyanla Hayqın yanından qayıdarkən o, ata-anasına baş çəkdi.

Tez qocalmış, bir az da beli bükülmüş Xaçatur Silanyan sevimli qızını qapının ağzında qarşıladı, qucaqlayıb öpdükdən sonra soruşdu:

– Yəqin, Hayqın yanından gəlirsən?

– Yox, yox, ata, sən nə danışırsan!? Mən heç bilirəm, o haradadır?

– Hayqın canına and iç ki, onun yanından gəlmirsən.

– Ata, niyə məni and içməyə məcbur eləyirsən? Məgər sözümə inanmırsan?

Qoca Xaçatur başını aşağı saldı. İndi də qızı Şuşanik təhlükəli yoldadır. Oğlu Hayq kommunistdir. Qızı Varsenik kommunist arvadıdır. Şuşanikin əri bolşevik olmaqdan çox, daşnaq olmaq istəyir. “Hayqı necə qurtarım? – deyə qoca düşünürdü. – Ah, kaş bu daşnaqlar Azərbaycan kəndlərini talan etməmiş olaydılar! Mən Hayqı Gürcülüyə, Xankişinin yanına aparardım, arxayın olardım ki, heç bir şey olmayacaqdır”.

“Xankişi, – deyə Xaçatur düşünürdü, – etibarlı adamdır. O və kürəkəni Rəhman kəndlilərlə birlikdə Sovet hakimiyyəti uğrunda



mübarizə edir. Rəhman Hayqla yaşıddır. Onlar bir-birinin yolunda ölümə gedərlər. Ancaq indi onları haradan tapasan? Daşnaqlar onların arpasını öz atları üçün biçirlər. Mən bilirəm, daşnaqlar mənim yazıq, zəif qızım Şuşaniki tutub, vicdan əzabı çəkmədən öldürəcəklər”.

Lakin bu dəfə Şuşaniki heç kəs görmədi. Qızıl Ordu hissələri gəldi, kənddə yenidən Sovet hakimiyyəti quruldu. Qoca Xaçatur rahat oldu.

Hayq yenə də can-başla qəza partiya komitəsində işləməyə başladı.

Lakin vəziyyət yenə dəyişdi. Zəngəzurda baş verən bir neçə gözlənilməz hadisədən sonra XI Qızıl Ordu hissələri müvəqqəti olaraq Gorusdan getdi. Bir çox görkəmli kommunistlər, o cümlədən Hayq da onlarla birlikdə şəhərdən çıxdılar. Dairə partiya komitəsinin katibi Artyom Mirzoyanla birlikdə Xınzirəyin bir çox kommunistləri də çıxıb getdilər.

Qoca Xaçatur Şuşanikə yanına gəlməyi qadağan etdi. Qorxurdu ki, daşnaqlar bunu bəhanə eləyib, Allah bilir, başına nə iş gətirərlər.

Şuşanikin gözləri tez-tez yaş olurdu. O, ərinin ailəsində bir kəsin görəcəyindən qorxub, evdə başını yastığın altına soxub, xəlvətcə ağlayırdı.

1921-ci ilin may ayında daşnaqlar Xınzirəyə yeni hərbi hissələr göndərdi. İki nəfər zabit Gülzaryansın evində yaşamalı idi.

Zabitlər darvazanı döydülər. Evdə Şuşanikdən başqa heç kəs yox idi. O, qapını açdıqda dik atıldı: daşnaqlarla üz-üzə durmuşdu.

Zabitlər dedilər ki, bir neçə gün burada yaşayacaqlar. Şuşanik cavab verdi ki, evdə ondan başqa heç kəs yoxdur. Daşnaqlar bunu rədd cavabı hesab edərək, çıxıb getdilər. Bir azdan onlar kənddə görkəmli daşnaq olan Şuşanikin qayınanasının qardaşı Gevorq Cavahiryanla gəldilər.

Bu dəfə qapıya qayınana çıxdı. O, evə təzəcə qayıtmışdı. Şuşanik də yaxınlaşdı. Cavahiryan bacısından soruşdu ki, nə üçün onlar zabitləri qəbul etməyiblər. Arvad cavab verdi ki, bu işdən xəbəri yoxdur.

Şuşanik dedi:

– Mən dedim ki, evdə heç kəs yoxdur.

Cavan gəlin yad kişilərlə üzbəüz danışmırdı, sözünü qayınanasının qulağına pıçıldayırdı.

Zabit Artyom Əmircanyan israr edirdi ki, onlarla kobud rəftar eləyiblər.

Bir söz deyəndə qardaşının canına and içməyə uşaqlıqdan adət eləmiş Şuşanik dedi:

– Hayqın canı üçün, mən onlara kobud cavab verməmişəm.

Onun kimin canına and içdiyini bilən kapitan tapançasının qoburunu açdı. Gevorq Cavahiryan da hirslənib özündən çıxdı. Oğluna qırmızılardan qız aldığı üçün bacısını danlamağa başladı...

Şuşanik zahı idi, hələ tamam özünə gəlməmişdi, uşağı bir aylıqdı. O, uşağı təzəcə əmizdirib yatırtmışdı. Bu vaxt onun gözü qabağına qardaşı Hayqın surəti gəldi. Şuşanik onun üzünün hər bir cizgisini aydın gördü. Hayq tez-tez deyərdi: "Bu dünyada bacımdan gözəl qız yoxdur!"

Gəlini, xüsusən nəvəsini necə dəhşətli bir təhlükə gözlədiyini başa düşən qayınana yazıq-yazıq qardaşının üzünə baxdı. Lakin Cavahiryan üzünü ondan çevirib qəzəblə dedi:

– Biz onların kökünü kəsə bilmədik...

Cavahiryan açıqca Hayqı və onun bütün qohum-əqrəbasını nəzərdə tuturdu. Daşnaq zabiti ona cavab verdi:

– Cənab Cavahiryan, əgər siz, kəndin görkəmli daşnağı, bu qırmızılarla qohum olub, hətta onları öz bacınızın evində gizləyirsinizsə, onların kökünü necə kəsə bilərsiniz? – Kapitan yavaş-yavaş tapançasını qoburdan çıxarırdı.

Qoca qarı ağsaçlı başını açıb zabitin ayaqlarına düşdü, yalvarmağa başladı.

– Uşağa rəhm eləyin! Hələ bir ayı tamam olmayıb. Ana südü olmasa, ölər.

Heç bir bandit başını açmış ağ birçək qadının sözünü yerə salmazdı. Belə hallarda həmişə qılınc havada qalır, tüfəng aşağı salınırdı. Ən qəddar bandit belə dönüb çıxıb gedər, düşməninə toxunmazdı. Bu



adət əsrlərdən bəri Zəngəzurda yaşayırdı. Lakin bu adətin daşnaqlar üçün heç bir əhəmiyyəti yox idi.

Daşnaq zabiti özündən çıxmışdı:

– Yox, onu öldürəcəyəm! Nə cəsarətlə o, mənfur adamın adını çəkir! – Zabit Cavahiryana müraciətlə soruşdu: – Məgər siz, onu camaatın gözü qabağında kommunist qardaşından üz döndərməyə məcbur eləməmisiniz?

Bu sözləri eşidəndə Şuşanik sanki yuxudan ayıldı, onun üz-gözündən qəzəb yağdı. O hətta uşağını belə unutdu.

– Necə, mən əziz qardaşımdan üz döndərim? Bunu ancaq siz daşnaqlar edərsiniz! Alçaq, əclaflar! Hayq barədə pis bir söz deməyə cürət etməyin!

Şuşanik başını qaldırıb, düz kapitanın üzünə baxdı. Bu zaman ikinci daşnaq zabiti arxadan onun qollarını burdu.

– Gülləni o mənfur ad çıxan ağzına sıxacağım! – deyə kapitan bağırdı, gülləni düz Şuşanikin alnına çaxdı. Şuşanik yerə sərildi.

Bir saat sonra gülzaryanların evində böyük bir qonaqlıq idi. Gevorq Cavahiryan badəni-badə dalınca qaldırıb, daşnaq zabitləri ilə toqquşdurur, bolşevikləri söyürdü.

Zəngəzurda bacıya, yaxud onun ailəsinə sataşan adamın təqsirindən keçməzlər. Kişilər onları təhqir edənləri öldürürlər. Gevorq Cavahiryanın bacısı onun qabağında başını açıb zabitin ayaqlarına yıxılmışdı. Ancaq nə qoca qarının yalvarışları, özünü alçaltması, nə də daşnaqların onun bacısı gəlinini vəhşicəsinə öldürməsi alçaq daşnaq Cavahiryana təsir etdi...

Yuxarıda dediyim Hacısamlı bəyləri – Xosrov, Sultan və İsgəndər Sultanovlar bütün camaatı qorxu altında saxlayan ən qəddar istismarçı və ən zalım müstəbidlər idi. Çar hökuməti zamanı nə nahiyə pristavı, nə qəza rəisi yerli kəndliləri onların özbaşınalığından qorumaq belə istəmirdi. Zəngəzurun zəngin təbii sərvətləri: meşə sahələri, yaylaqlar varlı sultanovların əlində idi. Ehtiyatsızlıq edib sultanovların dalınca

bircə kəlmə pis danışan kəndlini Sultan bəy cəzasız qoymazdı.

İndiki Laçın rayonunun kəndliləri inqilaba qədər yarıac, çox acınacaqlı həyat keçirirdilər. Kəndlilərin çoxu heç vaxt alt paltarı geyməz, soyunmadan palaz üstündə yatar və elə həmin palazı da üstlərinə örtərdilər. Kəndlilər həmişə evdə toxunmuş şaldan paltar geyərdilər.

Laçın kəndliləri arasından xeyli bolşevik partiyası üzvü, bəy zülmünə qarşı əsl mübarizlər çıxmışdı. Laçınlı İsmayıl Mirzəyev inqilabdan əvvəl Bakıya işləməyə gedib, 1914-cü ildə Kommunist Partiyası sıralarına girmiş, vətəndaş müharibəsi illərində Saritsin yaxınlığında mərdliklə vuruşmuşdu. Onun sifətində qalmış qazaq xəncərinin çapıq yeri xalqın səadəti uğrunda, yeni ictimai quruluş uğrunda mübarizədən əbədi bir nişanə idi. Digər laçınlı – xalqı istismarçıların, müsavatçıların və daşnaqların zülmündən qurtarmaq, Azərbaycan və erməni xalqlarının beynəlmiləl dostluğu uğrunda çalışan qorxmaz şanlı mübariz Ocaqqulu Musayev 1919-cu ildən partiya üzvü idi. O, 1922-ci ildə daşnaq banditləri tərəfindən öldürülmüşdü.

1920-ci ilin mayında Abbas Sultanov kürdlər arasında iş aparmaq üçün Bakıdan Laçın rayonuna göndərildi. Mollaəhmədli kommunist özəyinə arxalanaraq Abbas qısa müddətdə rayon zəhmətkeşlərini mülkədar sultanovların əks-inqilabçı bandaları əleyhinə mübarizə aparmaq üçün birləşdirə bildi. Mollaəhmədli, Qarıqışlaq, Minkənd, Qarakeşiş, Zabuq, Abdallar və bir çox başqa kəndlərin yoxsul və ortabab əhalisi Sovet hakimiyyətinin qurulması və möhkəmləndirilməsi uğrunda mübarizəyə cəlb olunmuşdu. Kəndlərdə inqilab komitələri çox işləyir, kommunist özəkləri yaradılırdı.

Qızıl Ordu gəldikdən sonra Sultan bəy bir tərəfə çəkilib fürsət gözləyirdi. Lakin 1920-ci ilin iyul ayının axırlarında Qızıl Ordu Gorusdan Zabuqa çəkiləndə Sultan bəy inqilab komitələrini məhv etmək, hakimiyyəti öz əlinə almaq üçün kifayət qədər yaxşı vəziyyət yarandığını güman etdi.



Abbasın rayona gəldiyini Sultan bəy bilirdi: bəyin inanılmış adamları kommunistləri gözdən qoymurdular. Abbas isə tez-tez Sultan bəyin malikanəsi olan Hacısamlı kəndi tərəflərə gedir, amma nədənsə özünü təhlükədən uzaq hesab eləyirdi. Sonralar hadisələrin gedişi göstərdi ki, o böyük səhvə yol vermişdir...

Abbas bir gecə Minkənddə, inqilab komitəsinin binasında, keçmiş karvansarayda qalmışdı. Birdən Həmid bəy Nəbibəyov və Teymur Qulu oğlu Allahverdiyev içəri girirlər; bina, əlbəttə, mühasirəyə alınmışdı.

– Sultanov sizsiniz? – deyə soruşdu.

– Bəli, mənəm.

– Əgər siz bizim bəyin qohumusunuzsa, niyə onun evinə düşməmişsiniz?

– Mən sizin bəyin qohumu deyiləm. Familiyamız birdir...

– Ancaq, görünür, siz məşhur nəsildənsiniz. Bu cür adamlar bura gələndə həmişə Sultan bəyin evinə düşürlər. O çox qonaqpərvər adamdır.

– Doğrusu, mən onun yanına gəlmək istəyirdim, ancaq görürsünüz, iş çoxdur, gələ bilmədim. Məndən ona salam söyləyin, deyin ki, yaxın günlərdə onun yanına gələcəyəm.

– Sultan bəy əmr etdi ki, sizi onun yanına aparaq. Biz sizsiz qayıda bilmərik.

Abbas başa düşdü ki, müqavimət göstərmək yersizdir...

Keçəl dağın zirvəsində qar ağarırdı. Onun yamacları gömgöy otlaq idi... Sağ tərəfdə böyük meşəlik görünürdü. Uzaqda, şərq tərəfdə Böyük Qafqazın zirvəsi buludlardan da yüksəyə qalxırdı.

Abbas Sultanov öz-özündən soruşdu:

– Baharın belə xoş vaxtı kim təbiətin gözəl qucağını qoyub, qaranlıq zindana gedər?

Sultan bəy onu balkonda qarşıladı, əlini sıxıb, qonaq otağına dəvət elədi. Bu, parket döşəməli böyük bir otaq idi. Otağın divarlarına yağlı rəng çəkilmiş, qiymətli xalılar vurulmuşdu. İri, işıqlı pəncərələrin

arasına alçaq dəyirmi stol və göy məxmər üz çəkilmiş yumşaq kreslolar qoyulmuşdu.

Sultan bəy Abbasdan soruşdu:

– Təzə nə var, nə yox, əmioğlu?

– Yaxşı xəbərlər çoxdur, Sultan bəy!

– Məsələn.

– Yəqin, sizə məlumdur ki, bütün Azərbaycanda Sovet hakimiyyəti qurulub. Gözəl hadisə tezliklə, elə bu il Ermənistanda da, Gürcüstanda da baş verəcəkdir.

Qonaqdan bu sözləri eşidəndə Sultan bəyin üst dodağı titrədi. Lakin o öz həyəcanını gizlətməyə çalışdı.

– Deyirsən ki, bu il Ermənistanda, Gürcüstanda da Sovet hakimiyyəti qurulacaq? Sən buna əminsən?..

Sultan bəy vəhşi kimi gözlərini Abbasın üzünə zillədi, ancaq çaşqınlıqdan əsər-əlamət görmədi.

– Bəli, bəy, buna şübhə ola bilməz.

– Bəs Qızıl Ordu hissələri niyə Gorusdan getdi?

– Qızıl Ordunun Zabuqa çəkilməsi bəzi adamları sevindirir. Amma qoşunun 50-60 kilometr geri çəkilməsini yalnız sadəlövh, uzağı görməyən adam məğlubiyyət kimi qiymətləndirə bilər.

Sultan bəy evinə gətirilmiş adamla hələ münasibəti pozmaq istəmirdi. Nahardan sonra o söhbəti davam etdirmək qərarına gəldi:

– Siz bura nəyə gəlibsiniz?

Abbas Sultan bəyin üzünə baxıb qərara gəldi ki, gizlətməyin heç bir mənası yoxdur, onsuz da ev sahibi hər şeyi bilir. Abbas açıq danışmağı üstün tutdu:

– Sultan bəy, mən gəlmişəm ki, rayonda Sovet hakimiyyəti qurmaqda camaata kömək eləyim.

– Bəs niyə öz Qubadlınıza yox, Laçına gəlmisiniz?

– Ora başqa yoldaşlar gedibdir.

– Sizinlə hansı yoldaşlar gəlib, burda kimlərlə görüşə bilmisiniz?

Abbas, bəyin niyyətini yaxşı başa düşürdü. Əgər yoldaşlarının



adını desəydi, o saat adam göndərib, hamısını həbs etdirəcəkdi.

Sultan bəyin evinə tərəf dəstə-dəstə silahlı adamlar gəldiyi pəncərədən görünürdü. Abbası qorxutmaq üçün bəy bu nümayişi qabaqcadan hazırlamışdı. Görünür, elə bu fikirlə də o Abbasa əylənmək məqsədilə, güllə atmağı təklif elədi.

Abbas ona cavab verdi:

– Bəy, bizim daha vacib işlərimiz var. gəlin o işlər barədə danışaq...

– Yaxşı, danışaq...

– Mən sizə məsləhət görürəm ki, bu silahlı adamları buraxın. Rayonda Sovet hakimiyyəti qurulmasını bir dost kimi qarşılayın...

– Bəs sonra?

– Sonra qoy adamlar dinc əməklə məşğul olsunlar...

– Bəs mən nə eləyim?

Bu suala cavab vermək çox çətin idi, lakin Abbas, bəyə acı həqiqəti deməyi qərara alıb, əlavə etdi:

– Bu sizin cəzanızı çox yüngülləşdirər...

– Bəs mənim var-dövlətim nə olacaq?

– Onlar xalqın malı kimi sizdən alınacaqdır. Xalqın əli ilə yaradılan hər şey xalqındır.

– Deməli, Sovet hökuməti qurulan kimi bütün var-dövlətimi əlimdən alacaqlar. Mənim özüm və bəzi qohum-əqrəbam həbs olunacaqdır. Siz isə deyirsiniz ki, mənim sakit durmağım cəzamı yüngülləşdirər. Pis düşünməmisiniz, əziz əmi oğlu! Demək, ağıllı adamlar düz deyir: "Gödək adam gündə neçə dəfə allahlıq təmənnasına düşər". Yaxşısı budur, doğrusunu deyəsən: özün mənim var-dövlətimə sahib olmaq istəyirsən!

– Bəy, mən sizə başqa bir məsəllə cavab verəcəyəm: "Uzun adamın ağlı topuğunda olar".

Sultan bəy o saat özündən çıxdı.

– Unutmayın ki, siz mənim duz-çörəyimi yemisiniz...

– Bəli! Mən sizin qonağınızam. Məgər bizim xalqın adəti qonağı təhqir etməyə yol verirmi?

Bəy bir qədər səsini alçaltdı:

– Biz bir yerdə duz-çörək yemişik. Siz onun xatirinə mənə doğrusunu deməlisiniz. Duz-çörəyi sizə buna görə xatırlatdım.

– Sizə dediyimin hamısı həqiqətdir. Mənim üstümə qışqırmağa, məni təhqir etməyə isə dözmərəm. Onu nəzərə alın ki, mən burada Sovet hökumətinin nümayəndəsiyəm! Məni təhqir etmək Sovet hökumətini təhqir etmək deməkdir. Yəqin, sizə məlumdur ki, Sovet hökuməti...

– Siz məni hədələyirsiniz!.. – Bəy özünü saxlaya bilmədi. Hirsindən boğula-boğula bağırdı.

Abbas ona baxaraq sakitcə, həmişəki kimi gülümsünə-gülümsünə dedi:

– Uzun illər bu rayonda ağalıq eləyən adama bax! Hirsindən boğulan zəif iradəli miskin qorxaq! Bəs siz xalqın qəzəbi qarşısında nə edəcəksiniz?

Sultan bəy yerindən sıçrayıb dedi:

– Rədd olun, mənim evimdən!

Abbas sakitcə cavab verdi:

– Mən bilirəm, sizin əlinizdən ancaq bu gələr.

Bəyin səsini eşidən adamları içəri girdilər. Abbas bunu gözləyirdi. O əmin idi ki, onu buradan sağ buraxmayacaqlar. O, bəyin üzünə baxmadan dedi:

– Mən bilirdim ki, siz bir zadəgan kimi də çox alçaq adamsınız! Nökərlərinizin bura gəlməsi onu bir daha sübut edir.

Həmin dəqiqə “qonağı” tutub zirzəmiyə saldılar.

Sultan bəy bütün gecəni yatmadı. Tezliklə var-dövlətinin əlindən çıxacağını fikirləşəndə onu dəhşət götürürdü. Bəy bütün əməllərini xəyalından keçirir, aman istəmək üçün, heç olmasa, bir səbəb tapmaq istəyirdi. Ancaq tonqalda diri-diri yandırdığı biləvli Mahmudun qışqırtısı, toy gecəsi öz otağına gətirilməsini əmr etdiyi on altı yaşlı gözəl Növrəstənin yalvarışları, öz əli ilə öldürdüyü on iki nəfər muzdurun qorxulu, qəzəbli gözləri xatirindən çıxmırdı. Bütün



bunlardan sonra o kəndlilərdən necə aman istəyə bilərdi?[1]

Həbs edildiyi günün sabahısı Abbası Sultan bəyin yanına gətirdilər. Dustaq zahirən çox sakit görünürdü, lakin bütün gecəni yatmamışdı. Səhərə kimi qəmli-qəmli düşünmüşdü ki, Laçın rayonu cəmi bir neçə günlüyə olsa da, birdən bu vəhşi müstəbidin hakimiyyəti altına düşər... Yoldaşları ilə əlaqəsinin kəsilməsi, onların bəy terrorçuları tərəfindən öldürülə biləcəyi fikri onu çox narahat edirdi. Sultan bəyin xırıltılı səsi fikirdən ayırdı.

O dedi:

– Sizin nəsliniz çox qədim nəsildir! Siz Hüseynqulu Sultanın nəslindənsiniz. Əslini danan haramzadadır! Nə qədər gec deyil, səhvinizi düzəldin. Sizdən çox şey tələb olunmur. Siz bir neçə kənddə iclasda çıxış edib, kəndlilərə deməlisiniz ki, bolşeviklərə qoşulmaqda səhv eləmisiniz. Mən sizi öyrətmək istəmirəm. Necə danışmağı siz məndən yaxşı bilirsiniz. Bu dediklərimi eləsəniz, sizi buraxaram, üstəlik də nə istəsəniz, verərəm.

Abbas cəfəng sözlərə dilxor-dilxor qulaq asdı. Sonra qəhqəhə çəkdi. Sultan bəy elə düşündü ki, o dəli olub. Lakin Abbas təzədən ciddiləşdikdə bəyin şübhəsi keçdi. O, Sultan bəyə dedi:

– Sizin təklifiniz mənə çox gülməli gəlir... Bolşeviklər hansı nəsildən olsalar, xüsusi materialdan biçilmişlər. Gəl, bəy, insanlara bioloji cəhətdən yanaşmayaq. Mən də başqa bolşeviklər kimi xalqın zülmdən azad olması yolunda canımdan keçməyə hazıram. Azərbaycanda ən qəddar zülmkarlardan biri sizsiniz. Biz bolşeviklər sizin zülmünüzdən azad olmaq üçün xalqa kömək etməliyik, biz bunu edəcəyik də. Buna şübhə etməyə bilərsiniz.

Abbası yenidən zirzəmiyə atırlar.

Həmin gün başda Sultan bəy olmaqla yaxşı silahlanmış böyük bir

[1]Burada mən mülkədar Sultan bəyin etdiyi cinayətləri bədii formada təsvir etməyə çalışmıram, baş vermiş hadisələri həqiqətən olduğu kimi danışıram. Partiya arxivində cənab Sultan bəyin bu cür bir çox cinayətləri darədə Kürdüstan nümayəndələrinin müfəssəl məlumat verən ərazisi saxlanılır f. 74, s. 1, iş 123, səh. 56, və s.

dəstə atlı Lisaqor tərəfə yola düşdü. Bəy dəstəni meşədə gizlədib, iki nəfər atlı ilə Laçın-dağın təpəsinə çıxdı. Lisaqordan Dığ kəndinə gedən şose yol buradan yaxşı görünürdü. Müvəqqəti geri çəkilmiş sovet qoşunları Abdallarda və Zabuqda idi. Burada daşnaq qoşun hissələri ilə 28-ci süvari diviziya arasında atışma gedirdi.

Daşnaqlar Dığ kəndinin yanında qaynaşırdı. Sultan bəyə elə gəldi ki, onlar hücuma hazırlaşırlar. "Bir qədər gözləyəcəyəm, – deyə o düşündü. – Onlar hücuma başlayan vaxt Sovetlərin hissəsini mən də arxadan vuracağam".

Budur, daşnaqlar Sovetlər tərəfə bir neçə top atdılar, tez-tez pulemyotdan və tüfəngdən atəş açdılar. Sultan bəy özünü saxlaya bilməyib qışqırdı:

– Dəstəyə xəbər verin Abdallara tərəf ensin! – deyə o əmr verdi və öz-özünə düşündü: "Bu, daşnaqlar üçün gözəl hədiyyə olacaqdır".

Sultan bəyi müşayiət edənlərin içərisində yavər vəzifəsini yerinə yetirən adam ona müraciət edərək dedi:

– Bəy! Zəhmət çəkin, Lısaqor tərəfə bir nəzər salın!

Lısaqordan Abdallara qədər olan bütün yol uzunu qoşun gəlirdi. Süvari, piyada və topçu hissələri 28-ci diviziyaya köməyə gəlirdi. Bəy bunu görüb bərk tutuldu, bir kəlmə də danışmayıb, dəstənin yanına çapdı.

Bəy gecə zirzəmiyə, Abbasın yanına gəldi. Abbas açar səsi eşidib qalxdı. Sultan bəy içəri girəndə başı qapının üst tirinə dəydi və ufuldadı.

– Yəqin, bir vaxt bu həbsxananıza özünüzün girəcəyinizi fikirləşməmişsiniz.

Nökərlərdən birinin əlində tutduğu neft çırağı hakimin və məhkumun üzünü işıqlandırdı. Sultan bəy Abbasın sözünə cavab verməyib, o biri nökərlərə içəri girməyi əmr etdi. Bəyin həbsxanaçı Əbdüləli Şükürov başda olmaqla beş nəfər əlində qırmanc içəri girib, Abbası araya aldılar.

– İndi kiminlə görüşdüyünü bizə deyəcəksən, yoxsa yox?



– Mən sizə heç nə deməyəcəyəm.

Bəyin işarəsi ilə Abbası həyətə çıxarıb, yerə uzatdılar və bərk döyməyə başladılar. Abbas susurdu. Bəy nökərləri saxlayıb soruşdu:

– İndi deyəcəksən?

– Satqınlığı ancaq siz bacararsınız!

Döyülmüş bədənə yenidən zərbələr endirildi.

Birdən kim isə dedi:

– Gələn var!

Sultan bəy heç kəsi gözləmirdi. Ona görə əmr etdi ki, Abbası yenidən zirzəmiyə salsınlar.

Gələn Əliyanlı Ədil bəy idi.

– Təzə nə xəbər var, bəy? Axı sən sabah gəlməli idin!

– Bəy, ona görə bir gün qabaq gəlmişəm ki, bəd xəbər var. Zabuqdan Abdallara qədər hər yer qırmızıların qoşunları ilə doludur.

– Mən bunu bilirəm! Yaxşısı budur, de görüm, əliyanlılardan kömək olacaqmı?

– Onlar İrana keçmək üçün sizə kömək eləməyə hazırdırlar!

Bəy istədi bir də soruşsun ki, əliyanlılar Sovet hökuməti əleyhinə çıxış edə bilərlərmi, ancaq onların güclü Qızıl Ordu hissələrinə qarşı çıxış etməyəcəklərini fikirləşib susdu.

Sabahı gün Abbas gözləri bağlanmış halda bəyin nökərlərindən birinin tərkində gedirdi. Meşənin içində, dərədə onu bir ağaca bağlayıb gözlərini açdılar. Sultan bəy soruşdu:

– İndi deyəcəksən?

Həmin beş cəllad tüfəngi dustağa tuşlamışdı.

Dərə meşənin qalın yerində idi. Abbasdan bir neçə metr aralıda daşın altından dupduru buz kimi bulaq axırdı. Yaxın dağların yamaclarından axan saysız-hesabsız bulaqlar aşağıda birləşərək qıjov çay əmələ gətirirdi. Suyun şırıltısı quşların səsinə qarışmışdı. Meşədə, yəqin palıd koğuşunda gizlənmiş şənəbub oxuyurdu.

Bəyin nə üçün bu yeri seçdiyini Abbas başa düşdü. Təbiətin belə səfalı qucağında kim ölmək istərdi!? Bu yerdə adam yaşamaq və

təbiətdən zövq almaq istəyirdi! Bəy sözünə davam elədi:

– Sən hələ cavansan! Özünə yazığın gəlsin!

– Yox, Sultan bəy, mən sizin sualınıza cavab verməyəcəyəm.

Bu zaman yaylım atəşi açıldı. Abbasın başına quru yarpaq və budaq töküldü. Abbas ağrı hiss etməyib başa düşdü ki, bəy hələlik onu qorxutmaq istəyir. Abbas alt dodağını dişləyərək, çatılmış qaşları altından məyus bir təbəssümlə Sultan bəyin üzünə baxdı. O, meyid tək saralsa da, möhkəm, mərdliklə dayanmışdı. Bəy başa düşdü ki, bu gün də Abbası sındıra bilməyəcəkdir. Lakin Sultan bəy ümidini hələ itirməmişdi.

Sabahı Abbas yenə də həmin yerdə, həmin ağaca sarınmışdı. Qarşısında yenə həmin yaramazlar durmuşdu.

– Bu gün axırıncı gündür. Başa düş, Abbas, canını qurtarmaq öz əlindədir. Mən inad eləmirəm ki, sən bolşevikləri camaatın içərisində ifşa edəsən. Onların adını de ki, mən özümü qoruya bilim. Nə mən, nə də mənim adamlarım bu barədə heç kəsə bir söz deməz.

– Sizin murdar sözlərinizi eşitməkdən mən iyrənirəm, Sultan bəy!

Atəş açıldı. Abbas yenə sağ qaldı.

– Deyəcəksən, yoxsa yox?

Abbas cavab verdi:

– Deyəcəyəm!

Bəy sevindi: "Axır ki, mən bu ağılsızı yola gətirdim!" O, karandaş, kağız götürüb, adlarını yazmağa hazırlaşdı.

– Onlar bütün ətraf kəndlərdədirlər...

– Axı onlar kimlərdir? Nə üçün mən onları tanımıram?

– Sizin istismar etdiyiniz, təhqir etdiyiniz, namuslarına toxunduğunuz bütün adamlar bolşevikdir. Bütün ətraf kəndlərdə minlərlə adam var ki, sizdən əzab çəkiblər. Deməli, bu yerlərdə olan bütün kəndlilər bolşevikdir. Siz bolşeviklərin siyahısını almaq istəyirdiniz! Mən onları sizə dedim. İndi fikirləşin, görün onların hamısının öhdəsindən gələ bilərsinizmi!?

Bəy hirslə karandaşı bir tərəfə tulladı, kağızı parçalayıb atdı, taxta qoburdan tapançasını çıxarıb Abbasa tuşladı.

– Mən özüm səni güllələyəcəyəm, satqın!

– Vur, alçaq!

Abbas başını dik tutdu. Göydə, qərb tərəfdən sürətlə qara buludlar gəlirdi. Qara buludlar dərəyə qalın kölgə saldı. Qarğa və saxsağanlar qırıldaşa-qırıldaşa uçub uzaqlara getdilər. Birdən buludlu səmadan leysan yağışı yağmağa başladı. İldırım alovu ilan kimi göy üzündə çaxdı və ən uca palıd ağacının təpəsinə dəydi. Dərəni gurultu bürüdü. Bəy qorxudan diksindi, mauzer əlindən düşdü.

Abbas başını qaldırıb sarındığı ağacın hündürlüyünü ölçdü. Bu ağac ildırım vurmuş ağacdan azacıq gödək idi.

– Heyif! İldırımdan ölmək, bu alçaqların gülləsindən ölməkdən yaxşıdır!

İkinci ildırım uzağa düşdü. Ələkdən süzülən kimi göydən şiddətli yağış yağırdı. Dağın təpəsindən yarğana sel axırdı. Sel bir anda Sultan bəyi, nökərlərin birini və Abbası başqalarından ayırdı. Bəy yağışdan qorunmaq üçün iri, qollu-budaqlı palıd ağacının altına çəkildi.

Abbas gözləri ilə onu izləyirdi. Ancaq nədənsə Sultan bəy əsirinə baxmağa cürət etmirdi. Abbas başa düşdü, bəy ildırımdan qorxurdu!

Abbas bəyin qorxaqlığından həzz ala-ala, qəhqəhə çəkdi.

– Sizin yerinizə olsaydım, özümü öldürərdim. Amma sizin kişiliyiniz çatmaz. Siz ildırımdan qorxan kimi güllədən də qorxursunuz. Burada təəccüblü heç nə yoxdur! Namussuz adamlar həyatdan həmişə bərk yapışarlar!

Sovet qoşunları yenidən Gorusa girdi. Sabahı gün 28-ci diviziyanın hissələri hücumu genişləndirərək, Üçtəpəni tutdu və Sisyana tərəfə irəlilədi. Gorusu tutmuş hərbi hissələr Qafan tərəfə hərəkət etdi.

Bunu o saat Sultan bəy eşitdi. O öz-özünə fikirləşirdi: "İndi Sovet qoşunları bizim bütün rayonu tutacaqlar. Tez bolşeviklərlə qurtarmaq lazımdır. İlk növbədə Abbasla".

Bəy yaxın adamlarından birini, Seyid Həmidi yanına çağırdı.

– Bizim rayonda bolşeviklərin mərkəzinin harada olduğunu bilirsən?

– Bəy, məgər bunu Abbas sizə demədi?

– Mən səndən soruşuram.

– Bolşeviklərin dayağı Minkənddir.

– Daha hansı?

– Molla Əhmədli, Qarı...

– İndi bütün kəndləri saymağa başlayacaq. Məni rayon hökumətinin yeri maraqlandırır.

– Bilmək olar. Bir qədər vaxt verin. Onlar əvvəllər...

– Əvvəllər, əvvəllər!.. Siz çox bacarıqsız adamsınız! Yoxsa sən də bu ağılsız Abbas kimi əslini danmısan?

– Bəy, rəhm eləyin, mən heç bir bolşeviklə görüşməmişəm və gələcəkdə də onlarla əlaqə saxlamaq fikrim yoxdur.

– Bilirəm, bilirəm, çoxdandır, bir iş görmürsünüz...

– Nə əmr edirsiniz?

– Get Abbasın yanına, çalış onun başına ağıl qoy. Qoy adamlarının adını desin.

Seyid Həmid Sultan bəyə vermək üçün kommunistlərdən məktub almışdı. O, məktubu hələ verməmişdi. İndi isə bəyin qorxusundan bu barədə heç söz açmaq istəmirdi.

Birdən Sultan bəy necə oldusa soruşdu:

– Siz məktub-zad almamışsınız ki?

Seyid Həmid bənizi qaçmış halda cibindən zərfi çıxartdı, Sultan bəyə uzadıb mızıldadı.

– Bəy, bunu səhər həyətdən tapmışam. Sizin adınızadır.

Sultan bəy tez zərfi açıb oxumağa başladı:

"Sultan bəy, əgər üç günə Abbası azad etməsən, onu biz azad edəcəyik. Sizi xəbərdar edirik: əgər Abbasa bir şey olsa, eviniz partladılacaqdır. Abbasın sözünü xatırlayın: "Bolşeviklər bütün ətraf kəndlərdədir".

Bəy məktubu oxuyub mat qaldı. Deməli, Abbasın sözlərini kim isə meşədə eşidib? Bəlkə, beş nökərin biri xaindir!? Sultan bəy başını itirmişdi.

– Siz bu məktubu oxuyubsunuz?

– Xeyr, bəy, zərfi açmağa cürət eləmədim.

– Bəs nə üçün o, başqasının yox, sizin əlinizə keçib? Bəlkə, onu sizin öz əlinizə veriblər?

– Bəy, and içirəm cəddimə...

– Yaxşı, yaxşı... Elə bir o qalmışdı ki, mənim evimi and içib, and qəbul edilən məscidə döndərəsiniz! Gedin, Abbasla danışın...

Seyid zirzəminin qapısını açıb, yorğun-əzgin, sifətini tük basmış Abbasla üz-üzə dayandı...

– Mən Seyid Həmidəm...

– Bilirəm. Yanıma nə üçün gəlibsiniz?

– Taqsırını boynuna al, Abbas! Allahdan, peyğəmbərdən kömək dilə!

– Seyid Həmid! Mən sizin qəlbinizə dəymək istəmirəm. Ona görə sizdən xahiş edirəm, tez buradan çıxıb gedin, öz müstəbidinizə deyin ki, məni heç cür fikrimdən döndərə bilməyəcək. O məni əsir saxlaya bilər, işgəncə verə bilər, lakin öz məqsədinə çata bilməyəcəkdir! O, bir Abbası məhv edər, əvəzində mini meydana çıxar!

Molla Məhəmməd[1] atı qağıda bağlayıb içəri girəndə Zəngəzurun Fövqəladə komissarı Armenak Qaragözov Tatdərə kəndliləri ilə söhbət eləyirdi:

– İşlər pisdir, Armenak!

– Nə var? Abbasa nə olub?

– Hələ də o quldurun əsiridir. Onu iki dəfə güllələməyə aparıblar, amma güllələməyiblər.

[1] Molla Məhəmməd Bayandur kəndindən idi. Laçın rayonunun Hoças kəndində yaşayırdı. O, molla deyildi, savadlı adam idi. Buna görə də ona molla deyirdilər. Məhəmməd 1917-ci ildə Hümmətçilərin arasında Sovet hakimiyyəti uğrunda mübarizə etmişdi. 1920-ci ildə Sultan bəyin əmri ilə Molla Məhəmməd Hoças kəndində tutulmuş, elə o saatda Əbdüləli bəy tərəfindən öldürülmüşdü.

– Bəs Vəliyev, Musayev haradadır?
– Onlar məni Biləvli meşəsində gözləyirlər.
– Bilirsən nə var? Mən elə bu gün Sultan bəydən tələb edəcəyəm ki, Abbası azad eləsin. Ancaq gözləyin, Sultan bəyin adamları Abbası yolda öldürə bilərlər!
Seyid Həmid Abbası dilə tutduğu vaxt, Sultanın yanına bir atlı gəlib, Zəngəzurun Fövqəladə komissarının tələbnaməsini ona verdi.
Qaragözov yazmışdı: "Abbas üçün, indi bizdə olan Xosrov bəy başda olmaqla, bütün qohum-əqrəbanızla cavab verəcəksiniz!"
Komissarın hədəsi bəyi doğrudan da qorxutdu.
Seyid Həmid Abbasla olan danışığından heç bir nəticə çıxmadığını bildirmək üçün gələndə bəy hələ də Qaragözovun məktubunu götür-qoy eləyirdi. Axırı o, belə qərara gəldi ki, məsuliyyəti öz üzərindən atsın, Sultan bəy Seyid Həmidi dinləyib, əmr etdi:
– Səhər açılana kimi Abbası mənim evimdən aparın. Ancaq sizə tapşırıram: o sağ getməməlidir. Meşədə öldürün! Səhəri gün xəbər yayın ki, Sultan bəy onu azad eləmişdi. Ancaq yolda üstümüzə qaçaqlar düşdü, Abbası öldürdülər. Biz isə güclə qaçıb qurtardıq.
...Ulduzlu bir gecə idi. Hava tərtəmiz idi. Biləvli meşəsi sükuta dalmışdı. Atlar saqqız kimi palçıqlı cığırda güclə ayaqlarını çəkərək yavaş-yavaş Abdallar tərəfə gedirdi. Abbas qolları bağlı halda, arıq bir yabıya minmişdi. At elə zəif idi ki, palçıqdan ayağını çəkib çıxara bilmir. Eləcə palçığın içinə yatırdı. Hər dəfə Abbası atdan düşürür, at ayağa qalxandan sonra təzədən mindirirdilər. Bu, Abbası tamam cana gətirmişdi.
Abbas dedi:
– Seyid Həmid! Siz həmişə öz ata-babalarınızın nəcibliyi ilə öyünərdiniz! Bu dəfə nəcibliyinizi göstərin! Məni buraxın...
Seyid Həmid dinməz irəliləyirdi. O, aşkar tələsirdi: səhərlər məşəyə mal-qara gətirirlər, çobanlar da gəlir.
Nəhayət, onlar sağa burulub, meşənin içərilərinə gedən cığıra çıxdılar. Onlar Abbası orada öldürəcəkdilər. Keşikçi ilə dustaq cığıra



elə təzəcə dönmüşdülər ki, ağacın dalından zəhmli bir səs eşidildi.
– Dayan! Hara gedirsiniz?
– Siz kimsiniz?
– Hər kim olsaq da, sizə istədiyinizi etməyə qoymayacağıq. O adamı atdan düşürün!
Qolları bağlı Abbasa bu səs tanış gəldi. O, sevinclə qışqırdı:
– Molla Məhəmməd, sizsiniz?
O birisi cavab verdi:
– Yoldaşlar, biz düz gəlmişik. Bu Abbasdır!
Abbası o dəqiqə azad etdilər. O, sevincdən gözləri parıldaya-parıldaya keşikçilərinə dedi:
– Seyid Həmid! Siz arxayın geri qayıdın, ağanıza deyin ki, onun tapşırığını yerinə yetirdiniz.
Seyid Həmidin gözləri qaraldı. O ətrafa baxanda özünə və yoldaşlarına tuşlanmış tüfənglərin lülələrini gördü. Seyid Həmid bir kəlmə danışmadan atını döndərdi, yoldaşları ilə baş alıb getdi...
Hava işıqlandı. Dərədən sərin sübh mehi gəlirdi. Fərəhindən Abbasın üzü gülürdü. O fit çala-çala yoldaşları ilə Abdallara gedirdi.

İşıqlı kəndindən olan iki əmi oğlu – Aslan və Qulu Əsədovlar Kürdüstan qəzasının mərkəzi Laçında işləyirdilər.
Bir dəfə Aslan Əsədov evdə istirahət edib, Laçına qayıdırdı.. Əmisi oğlu Qulu bir qədər əvvəl getmişdi. Budur, Aslan gəlib Həkəri dəhnəsi deyilən yerə çatdı.
Bura yamacları sıldırım bir dərə idi. Bütün dağlarda olduğu kimi, burada da daşqın vaxtı gur çay axırdı. Ancaq indi dərə quru idi.
Üç nəfər Əliyanlı banditi – Əziz, Abbas və Mikayıl dərədə kolun dalında gizlənmişdilər. Onlar Qulunun dərə ilə keçib getdiyini gördülər, lakin Aslanı qorxudub qaçırmamaq üçün ona toxunmadılar. Budur, əvvəlcə Aslanın papağı, sonra isə atın üstündə özü göründü...
1921-ci ilin mayında Xocahandan Şuşaya bolşevik komitəsinə vacib məlumat aparan şinherli kommunist Arşak Abramyani, Arsen

Ağasiyanı və Parseq Arakelyanı banditlər bu dərədə öldürmüşdülər. Aslan bunu xatırlayırdı. Onlar Şuşaya gedərkən qəsdən silah götürməmişdilər, bilirdilər ki, banditlər tüfəngdən ötrü onları öldürə bilərlər. Erməni kommunistlərin buradan keçəcəyindən xəbər tutmuş banditlər dərəyə çatanda onları saxladılar. Erməni kommunistlər dedilər ki, onların heç bir silahı yoxdur. Onlara cavab verdilər:

– Bizə silah lazım deyil, özümüzünkü kifayətdir. Bizə kommunistlər lazımdır. Azərbaycanlı kommunistlər kimi, siz erməni kommunistlər də bizim düşməınimizsiniz.

Yoldaşlar böyük səhv etdiklərini başa düşdülər. Ancaq daha gec idi. Banditlər kolun dalından çıxıb, üçünü də elə oradaca güllələdilər.

Aslan Əsədov qatilləri tanıyırdı. 1922-ci ildə o burada Dairə İcraiyyə Komitəsinin sədri olmuş və Əliyanlı banditlərinin məhv edilməsi əməliyyatı zamanı hər banditin nələr elədiyi barədə bütün materialları o hazırlamışdı. Ona görə banditlər Aslan Əsədovla haqq-hesab çəkməyi qət eləmişdilər.

Aslan dərəyə yaxınlaşanda atın başını bir az çəkdi, ətrafa baxdı, təhlükəli heç bir şey görmədi. "Qulu keçib gedib... ona heç nə olmayıb" – deyə düşündü və dərəyə enməyə başladı...

Elə bu vaxt atəş açıldı. Aslan aşıb, yəhərdən asılı qaldı. At tez sıçrayıb, dərədən çıxdı, lakin böyründən adam sallandığını hiss edib dayandı. Banditlər yüyürüb atı tutdular və ölmüş Aslanı yerə saldılar.

Mülkədar Səfiyarbəyovların zülmündən kəndliləri qurtarmaq cavan kəndli Oruc Mehdiyevin çoxdankı arzusu idi. Bəylər onun gözünün qabağında dəfələrlə kəndliləri döymüş, onalrı uzun illərdən bəri bərqərar olmuş vaxtdan artıq işləməyə məcbur etmişlər. Elə bir gün ilmazdı ki, kəndlərdən birində bəy şallağının və dəyənəyinin səsi eşidilməsin.

İndiki Zəngilan rayonunun Tiri kəndində Səfiyarbəyovlar özlərini hakimi-mütləq hiss edərək, kəndlilər üçün dözülməz şərait yaratmışdılar. Oruc kədərlə düşünürdü: "Görəsən, biz bu zülmdən nə



vaxt qurtaracağıq?!" Ancaq hələ bir işıq ucu görünmürdü. Tamam azad olmaq barədə isə heç danışmağa dəyməzdi. Arazın o biri sahilində, İranda isə kəndlilərin vəziyyəti daha pis idi.

Fevral inqilabı kəndlilərə heç nə vermədi. Əksinə, Zəngilanın kəndlərində bəylər kəndliləri açıqca öldürürdülər. Misal üçün, onlar Ördəkli kəndindən olan Cəbrayılla bu cür rəftar etmişdilər.

Əhvalat belə olmuşdu. Mincivanlı Mehdiqulu bəy, Rüstəm bəy, xoromalı Əli bəy, Cahangirbəyli Cavad bəy Tiri kəndində yaxın dostları Humay bəy Səfiyarbəyovun evində qonaq idilər. Çoxdan bəri bəylərə tabe olmayan, özü də gələcəkdə ağaların yolunu kəsə biləcək qüvvətli adam olan Cəbrayılı öldürməyi qərara alaraq, bəylər puşk atdılar. Dikbaş Cəbrayılı öldürmək İskəndər bəy Səfiyarbəyovun payına düşdü.

Bir neçə gündən sonra Cəbrayılı Mincivan bəyləri biyara çağırdılar. İsfəndiyar bəy həmin gün Tərəkəmə kəndinin yanında bir təpənin arxasında gizlənib, səbirsizliklə Cəbrayılın Mincivandan qayıtmasını gözləyirdi. Lakin bəylərin fitnələrini yaxşı bilən Cəbrayıl həmin gecə Mincivanda qaldı, evə səhər qayıtmağı qərara aldı. Qayıdanda təhlükəli yerlərdə çox ayıq tərpəndi.

Cəbrayıl, bəyin dalında gizləndiyi təpəyə yaxınlaşdı. İskəndər bəy onu uzaqdan görmüşdü. Bəyin möhkəm gizləndiyi yerə Cəbrayıl çatanda güllə açıldı. Cəbrayıl yıxıldı. Hürkmüş at Cəbrayılı yıxıb bir qədər qaçdı, sonra geri qayıdıb onun üzünü yalamağa başladı. Ağıllı at bir qədər gözlədi, axırda sahibinin öldüyünü başa düşüb Ördəkliyə qaçdı, ara vermədən kişnəyib, kəndi başına götürdü. Ördəklilər qətl yerinə toplaşana kimi at kişnərtisini kəsmədi.

İskəndər bəy qaçıb Mincivana getmişdi.

Səfiyarbəyovlar Sovet hakimiyyəti qurulduqdan sonra da öz murdar sui-qəsdlərini davam etdirdilər.

1922-ci ildə müsadirə edilmiş bəy torpaqlarını torpaqsız və az torpaqlı kəndlilər arasında bölən komissiyanın sədri Oruc Mehdiyevin

30 yaşı var idi. Sovet hakimiyyəti qurulduqdan sonra, əlbəttə, qəzada məşhur olan mülkədar Cəbrayıl bəy Səfiyarbəyovun da bütün torpağı müsadirə olunmuşdu. Oruc Mehdiyev torpaq bölünərkən Cəbrayıl bəyə başqasının əməyindən istifadə etməmək şərti ilə becərmək üçün 40 sot torpaq vermişdi.

– Biz sizin yüz əlli hektar torpağınızı müsadirə edib kəndlilər arasında bölmüşük. Sizə isə kiçik bir sahə ayırmışıq. Onun məhsulu arvadınızla sizə bütün ilə çatar. Sizin başqa ailə üzvünüz yoxdur. Ona görə sizə artıq torpaq lazım deyil. Yadınızda saxlayın, torpağı özünüz yox, muzdurlara becərtsəniz, əlinizdən alacağıq! – Mehdiyev bu sözləri Səfiyarbəyova iclasda kəndlilərin yanında demişdi.

Qəzəblənmiş bəy iclasdan bir neçə gün sonra arvadından soruşdu:

– Nə eləyək, necə yaşayacağıq?

– İrana gedək...

– Yox, arvad, əlimizdən alınmış torpağın intiqamını almaq lazımdır! Mənim torpağımı əlimdən alan adam gərək yaşamasın!

1923-cü ilin payızında, Oruc Mehdiyev gün batandan sonra Suludərə ilə gedirdi. Cəbrayıl bəy onu orada gözləyirdi. Dar və dərin dərənin sol tərəfindəki böyük qayanın dalında onu görmək çətin idi. Dərə qaranlıq idi.

Mehdiyevin gözü hələ uzaqdan bu qayada idi. O, bu dərəyə də, bu qayaya da çox yaxşı bələd idi. Hər dəfə buradan keçəndə qayanın dalında adam gizlənmədiyini bilib arxayın olandan sonra yoluna davam edirdi. Fürsət düşən kimi bəylərin onunla haqq-hesab çəkəcəyi fikri müsadirə olunmuş torpaqları paylayan dairə komissiyasının sədrini tərk etmirdi. Mehdiyev düşünürdü ki: "Bəy üçün torpaq – hər şeydir". Lakin Mehdiyev bu dəfə elə dərin fikrə getmişdi ki, çox təhlükəli yerlə getdiyini unutmuşdu.

O yalnız sola burulanda qayanın arxada qaldığını xatırladı. Elə bu vaxt Cəbrayıl bəyin gülləsi açıldı. Güllənin səsi dərəni götürdü.

Cəbrayıl bəy xəncəri qınından çıxarıb, onun iki biləklərini və dilini kəsəndə Mehdiyev hələ sağ imiş. Sonra o, Orucun sinəsini yarıb



ürəyini çıxartmış və gözlərinin ikisini də tökmüşdü. Bəy cibindən ip çıxarıb kommunistin iki biləyini, dilini, gözlərini, ürəyini sapa düzmüş və meyidi oturdub, bunları onun boynundan asmışdı.

Bu vaxt qatil ucadan deyib:

– "Bu nifrət etdiyim ürək! Bu da həmişə mənə qəzəblə baxan gözlər. Bu isə mənə: "Biz sizin 150 hektar torpağınızı müsadirə edib kəndlilər arasında bölmüşük", deyən dil. Bu isə mənim torpağımı ölçən əllər..."

Bir gün sonra vəhşi cinayət baş vermiş yerin üzərində quzğunlar uçuşurdu. Bu, Tiri kəndinin camaatını kommunistin eybəcər hala salınmış meyidini tapmalarına kömək etdi.

Zəngilanlı qocaman kommunistlər Xanməmməd Məmmədov və İsfəndiyar Sayılov sonralar bu əhvalatı xatırlayıb deyirdilər:

– Biz Orucun xeyirxah, həssas ürəyini və qorxu bilməyən namuslu gözlərini boynundan asılmış gördük. Bu vaxt qəza partiya komitəsinin katibi Məhəmməd Hüseynov dedi:

– Əziz yoldaşımız, sən xalq işi uğrunda həlak oldun! Sən xalqımızın qəlbində həmişə yaşayacaqsan!

Tiridə baş verən bu qanlı hadisədən və Zəngilan rayonunun digər kəndlərində olmuş belə işlərdən sonra Sovet hökumətinin nümayəndələri əleyhinə sui-qəsd edən bəylərə xalq məhkəmələrinin səyyar sessiyası ölüm cəzası kəsdikdə, məhkəmə iclaslarında iştirak edən kəndlilər, – əslində, səs vermə heç lazım deyildi, – bir səslə əl qaldırırdılar.

Əks-inqilabın Zəngəzurda törətdiyi vəhşilikləri müfəssəl təsvir etməyə kitabın həcmi imkan vermədiyindən mən yalnız onların bəzilərini xatırlatmaq istəyirəm.

1920-ci ildə Sovet hökuməti qurularkən bəy-banditləri ifşa etdiyi üçün onlar həmin ilin payızında Qubadlı kəndində gecə Mirzə Muxtar Bayramovu ağır yaralamış, arvadını isə öldürmüşdülər.

Keçmiş Bakı fəhləsi Nikolay Saruxanov 1921-ci ilin qışında Dığ

kəndində kəndlilərə demişdi ki, bütün adamlar bərabərdir. Buna görə onu həbs edib, daşkənd kəndinə gətirmişdilər. Burada daşnaq əks-kəşfiyyatının kapitanı Əmircənov balta ilə onun sağ əlinin dörd barmağını vurub salmış və demişdi:

– Sən belə bərabərlik istəyirdin, hə?

Saruxanovu orada güllələmişdilər.

1921-ci ilin iyununda Qubadlı qəzasında çılpaq, tamam tük basmış, arıqlayıb əldən düşmüş bir adam peyda oldu. Ona baxanda adama elə gəlirdi ki, cəhənnəmdən qaçıb gəlmişdir. Bu adam Şərur-Dərələgöz qəzasının Göl kəndinin kommunist özəyinin katibi Manuk idi. Təəssüf ki, indi onun familiyasını unutmuşam. Onu daşnaqlar Zəngəzura yatab göndərirmiş, Qafanda kütləvi güllələnmə vaxtı, necə olmuşdusa, qaçıb qurtarmışdı.

1924-cü il mart ayında mən AK(b)P MK-nın məsul təlimatçısı kimi Naxçıvanda ezamiyyətdə idim. Yanımda bir milis nəfəri Ordubada gedirdim. Eşitmişdim ki, keçmiş qəza rəisi Məhəmməd bəy Sərməstbəyov bu şəhərdə gizlənir. Mən yolda, elə söz gəlişi, yol yoldaşımdan soruşdum ki, belə bir adamı tanıyırmı? Mənim böyük təəccübümə rəğmən, yoldaşım dedi ki, o özü ordubadlıdır və Məhəmməd bəy Sərməstbəyovu çox yaxşı tanıyır.

Axşam biz Dairə İcraiyyə Komitəsi sədrinin kabinetində oturmuşduq. Qapı açıldı. Sərməstbəyov içəri girdi. Milis nəfəri onu içəri buraxıb, özü çöldə dayandı.

Məni görəndə bəyin dili tutuldu. O lap qapının ağzında dayanıb, bərəlmiş gözlərini mənə zilləmişdi, yəqin, özünü inandırmağa çalışırdı ki, yuxu görür. Lakin bunun yuxu deyil, həqiqət olduğuna şübhə yox idi. Sərməstbəyovun əmri ilə beş il bundan qabaq, 1919-cu ilin iyun ayında Dondarlı kəndində mülkədar Fərid bəyin ikimərtəbəli evinin qabağında kəndlilərin gözünün qarşısında şallaqla döyülən həmin Nəzər Heydərov onun qabağında oturmuşdu. O zaman qəza rəisi Sərməstbəyov özü də onu şallaqlamışdı...



Bu beş il ərzində qəza rəisi üzdən dəyişilməmişdi. Ancaq indi onun əynində bahalı məmur mundiri yox idi (nədənsə həmin mundir bütün bürokrat müsavat məmurlarının xoşuna gəlirdi!). Yoxsul əyalət qulluqçuları kimi, sadə kostyum geymişdi.

Biz bir-birimizin üzünə baxdıq. Sərməstbəyov pərt halda başını aşağı saldı, çox yazıq görkəm aldı. İndi mənim qarşımdakı şəxs 1919-cu ildə bolşevizmin kökünü kəsmək üçün adamları mühakimə edib, cəza verən həmin yırtıcı adam deyildi. Sərməstbəyov rəngi qaçmış, beli bükülmüş halda qarşımda dayanmışdı.

Mən nəzakətlə təklif etdim:

– Məhəmməd bəy, əyləşin!

– Yox, sağ ol! Eybi yoxdur, ayaq üstə dayanaram.

– Sizə deyirlər, oturun. Bizdə, sovet hökumətində qayda sizdə olan kimi deyil. Bizim fikrimizcə, yaşlı adam oturan adamların qarşısında ayaq üstə dayanmamalıdır.

Bəy divarın dibində qoyulmuş kətilin üstə birtəhər oturdu.

– Bəlkə, xatırlayıb, beş il bundan qabaq sizinlə hansı şəraitdə tanış olduğumuzu burada oturanlara danışasınız?

İcraiyyə komitəsi sədrinin kabinetində oturanların hamısı məəttəl qalmışdı. Onlar hələ də bu görüşdən baş aça bilmirdilər.

– Mənə məlumdur ki, – deyə Sərməstbəyov sözə başladı, onun danışığında tənə vardı, – sizin işinizlə əlaqədar adamların heç biri sovet orqanları tərəfindən məsuliyyətə cəlb edilməyibdir. Siz nə üçün ancaq mənim barəmdə belə hərəkət edirsiniz? Bu ədalətsizlikdir!

Əlbəttə, Sərməstbəyov məni məzəmmət eləməkdə tələsmişdi. Mənim onu təqib eləmək fikrim yox idi. Biz belə adamlara dəymirdik. Əksinə, mahal və hətta qəza idarələrində onlara texniki iş də verirdik. Əvvəllər onlar kim olmuşdularsa da, axı insan idilər... Ona görə onları namuslu yola çəkmək lazım idi. Həm də onlar savadlı idilər, onların biliyindən istifadə etmək lazım idi. O vaxtlar bizdə savadlı adamlara böyük ehtiyac var idi.

Çolaq İsmayıl bəy Rüstəmbəyovu xatırlayıram. O, qəzadan qaça

bilməyib, doğma kəndləri Muradxanlıya qayıtmışdı, orada yaşayırdı. Mən bunu bilirdim, ancaq yoldaşlardan xahiş eləmişdim ki, mənim işimdən ötrü onu məsuliyyətə cəlb eləməsinlər. Sonra elə düşünərlər ki, bolşeviklər şəxsi düşmənləri ilə haqq-hesab çəkirlər. Qəza icraiyyə komitəsi sədri vəzifəsində işlədiyim günlərdə yenicə gəlmiş dairə partiya komitəsinin katibi Hüseyn Abdullayev kabinetə girib mənə xəbər verdi ki, İsmayıl bəy gəlib, onu qəbul eləməyimi xahiş eləyir. Bəy əynində çirkli köhnə kostyum, ayağında cırıq çarıq içəri girdi. O, indi qarşımda dayanmış Sərməstbəyovdan da pis kökdə idi. Arıqlayıb, üzülmüş, dilənçi kökünə düşmüş, ağzında bir dişi qalmamış İsmayıl bəy çox əsəbi halda mızıldadı: "Mən aclıq çəkirəm. Nə istəyirsiniz, mənə eləyin. Daha belə yaşaya bilmirəm. Mən ədalətli Sovet hökumətinin müvəkkilinin yanına gəlmişəm". Biz o zaman Rüstəmbəyovu icraiyyə komitəsində kargüzar vəzifəsinə götürdük.

İndi mənim qarşımda əyləşmiş Sərməstbəyov da yəqin, onun günündə idi.

Mən onun tənəsinə cavab olaraq dedim:

– Mən sizə hələ heç bir söz deməmişəm. Haradan bilirsiniz ki, mən sizinlə ədalətsiz olacağam? Sizdən xahiş edirəm, vəziyyəti aydınlaşdırmaq üçün beş il bundan əvvəl aramızda baş vermiş əhvalatı danışın.

– Mən heç nə danışmayacağam. Yaxşısı budur, mauzeri çıxardın, məni güllələyin! Sizin buna haqqınız var!

– Bizdə məhkəməsiz cəzalandırma qadağandır, Sərməstbəyov. Mən sizinlə haqq-hesab çəkmək fikrində deyiləm. Madam ki siz danışmaq istəmirsiniz, onda mən beş il bundan əvvəl, 1919-cu ildə Zəngəzurda baş vermiş əhvalatı yoldaşlara danışaram.

Mən söhbətimi qurtardıqdan sonra bəydən soruşdum ki, əhvalatı doğru nəql elədimmi? O cavab verdi:

– Bəli! Dediklərinin hamısı doğrudur...

...Biz küçəyə çıxdıq. Mən kluba tərəf yollandım, orada məruzə etməli idim. Sərməstbəyov bir qədər mənimlə getdi, sonra vidalaşaraq ayrıldı, öz evinə tərəf burulub gecənin qaranlığında görünməz oldu.



İnqilaba qədər biz zəngəzurlular tez-tez belə sözlər eşidərdik: "Zəngəzurlular Zəngəzurun təbiəti kimi vəhşidirlər". Yəqin, bu sözlər sadə adamlara deyil, yuxarı təbəqənin adamlarına – mülkədarlara, ruhanilərə, tacirlərə aid idi. Ancaq onlar Zəngəzurdan uzaqda olanda öz talelərindən acı-acı şikayətlənib deyirdilər: "Eh, heç danışmayın! Təsəvvür edə bilməzsiniz ki, bu vəhşilərin içərisində nə müsibət çəkirik".

Həyat, sinfi mübarizənin gedişi göstərdi ki, biz "vəhşi" zəngəzurlular, "amansız" bolşeviklər bəzən düşmənlərimizlə çox rəhmdil rəftar eləyirik. Amma onlar – təhsilli bəylər, "müqəddəs atalar", müsavat və daşnaq zabitləri nəinki tək bolşeviklərlə, hətta günahsız kəndlilərlə, qadınlarla, uşaqlarla da vəhşi kimi rəftar edirdilər. Onlar – tarixin məhkum etdiyi sinfin nümayəndələri canlarını qurtarmaq üçün ölüm ayağında görünməmiş qəddarlıq eləyir, nahaq qan tökür, sui-qəsdlər edirdilər.

## MÜNDƏRİCAT


Birinci fəsil. İnqilabdan əvvəlki Zəngəzur haqqında bir neçə söz . . . 11
İkinci fəsil. Kömək şimaldan gələcək . . . . . . . . . . . . . . . . . . . . . . . . 48
Üçüncü fəsil. Zəngəzurda Sovet hakimiyyətinin qurulması . . . . . . . 108
Dördüncü fəsil. Sovetlərə ilk seçkilər . . . . . . . . . . . . . . . . . . . . . . . 130
Beşinci fəsil. Banditizmlə mübarizə . . . . . . . . . . . . . . . . . . . . . . . . 143
Altıncı fəsil. Çəyirtkə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 165
Yeddinci fəsil. Bəhlul Əfəndi Behcətin fitnəsi . . . . . . . . . . . . . . . . . 174
Səkkizinci fəsil. Zəngəzurda əks-inqilabın azğınlığı . . . . . . . . . . . . . 197





Redaktor: *Dmitriy Minkeviç*
Rəssam: *Fuad Kərimov*
Bədii redaktor: *Zuliya Heydərova*
Texniki dizayner: *Samir Bayramov*
Korrektorlar: *Zümrüd Qasımova, Leyla Quliyeva*

ISBN 978-9952-509-52-6
Yığılmağa verilmiş 2/V-2016-cı il. Çapa imzalanmış 13/V-2016-cı il.
Kağız formatı 84X1081/32. Sifariş № 69. 150 nüsxə
*İkinci nəşr*

"Şərq-Qərb" mətbəəsi
AZ 1129, Azərbaycan, Bakı
Aşıq Ələsgər küçəsi 17